Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi (Qurumu)

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana

"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi"

Elektron kitab N 26 (07 - 2018)

Tofiq Xəzər

"Bərdədən görünən dünya..."

II HİSSƏ

Roman-epopeya

On altı cilddə. XI cild

2018

YYSİB (Q) – Bakı - 2018

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi"

Elektron kitab N 26 (07 - 2018)

Bu elektron nəşr Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2018-ci ildə I maliyyə yardımı müsabiqəsinin qalibi olmuş, Şura tərəfindən bir hissəsi maliyyələşdirilən, "Yeni Yazarlar və Sənətçilər" İctimai Birliyinin (Qurumu) - http://www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxananın **"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi"** kreativ-innovativ layihə çərçivəsində nəşrə hazırlanıb və yayımlanır.

Kulturoloji layihənin bu hissəsini

maliyyələşdirən qurumlar:

Azərbaycan Respublikası Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası:
http://cssn.gov.az/

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi (Qurumu) -
http://www.yysq.kitabxana.net

Feysbukda "Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi" kulturoloji-bədii layihəsi çərçivəsində rəsmi səhifə:

https://www.facebook.com/kreativlayihe/

"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi" bölümündəki e-kitablar: http://kitabxana.net/?oper=e_kitabxana&cat=182

Tofiq Xəzər

"Bərdədən görünən dünya..."

II HİSSƏ

Roman-epopeya

On altı cilddə. XI cild

Müəllif redaktəsində
Kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb

YYSİB - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov), yazıçı-kulturoloq

Tofiq Xəzər. "Bərdədən görünən dünya". Roman-epopeya. On altı cilddə. II hissə. XI cild. Bakı, 2011. "Gənclik" nəşriyyatı. 311 səhifə.

Tofiq Xəzər. "Bərdədən görünən dünya". Roman-epopeya. On altı cilddə. İkinci hissə. XI cild. Azərbaycan və çağdaş dünya ədəbiyyatında bir ilk olaraq 16 cilddə qələmə alınmış bu roman-epopeyanı XX və XXI əsr Azərbaycan tarixinin - mənəviyyatının ədəbi ensiklopediyası da saymaq olar...

DİQQƏT

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.

Kreativ-innovativ layihə haqqında:

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2018-ci ilin 1-ci qrant müsabiqəsinə "Yeni Yazarlar və Sənətçilər" İctimai Birliyi tərəfindən təqdim olunan kreativ layihə: "Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi"...

Son illər elektron kitab, e-kitabxana, İnternetüstü e-nəşr və virtual satış kimi yeni kreativ-innovativ təşəbbüslər kreativ biznesin - mədəniyyət sahələrini əhatə edən yaradıcılıq sənayesi dünyanın hər yerində sürətlə inkişaf edərək incəsənətlə, bədii yaradıcılıqla məşğul olan şəxslərin maddi rifahını yüksəltməyə xidmət etsə də, Azərbaycan ədəbiyyatın müxtəlif istiqamətlərində istedadlarını ortaya qoyan yazıçılarımız, şairlərimiz, dramaturqlarımız, tərcüməçilərimiz, naşirlərimiz, kitab yayımçılarımız, tənqidçilərimiz və esseistlərimiz bu yeni gəlirli sahələrdən kənarda qalıblar. Kreativ innovasiya formasında milli yazıçılarımızın, naşirlərimizin elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüsləri dəstəkləyir. Layihə çərçivəsində elektron kitab istehsalını, yayımını, təbliğini, bu sahədə problemlərin araşdıraraq cəmiyyətin müzakirəsinə çıxarması nəzərdə tutulub.

Tofiq Xəzər
Bərdədən
görünən
dünya...


TOFİQ XƏZƏR
Bərdədən
görünən
dünya...

Tofiq Əli oğlu Babayev 1951-ci ildə Bərdə şəhərində anadan olmuşdur. 1967-ci ildə Bərdə 1 saylı orta məktəbi bitirmişdir.

1974-cü ildə Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunu və 1984-cü ildə Moskva Ümumittifaq Yeyinti Sənaye İnstitutunu bitirmişdir.

Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

"Qızıl qələm" və 2011-ci il üzrə "İlin Nəsr kitabı" mükafatlarına layiq görülmüşdür.

Ailəlidir, 3 övladı var.

Luna Park əhvalatı

Hospital

Odessa, 8, 9, 10, 11 və 12 avqust 1972-ci il,

II, III, IV, V və şənbə günləri...

Üçüncü mərtəbənin yanları açıq eyvanın-da oturub, kitab oxuya-oxuya, elə hey gözlərim o çex qızlarını axtarırdı.

Hava açılmışdı...

Avqust ayı olsa da, bir neçə gündü soyuq-lar düşmüşdü. Yağışlar ara vermir, küçələrlə sel gedir, yol kənarları köpüklü nohurlarla dolmuşdu.

Bir də gördüm Yitkayla Dano evdən çıxdı.

Geyinmişdilər... Əllərində üstü rəngli, şəkilli çanta, xuraman-xuraman harasa gedirdilər.

Elə eyvandan qışqırıb harayladım.

Dərhal səsimdən tanıyıb baxdılar və əl-qol-la göstərib işarə elədilər ki, mağazaya gedirlər.

Birtəhər başa saldım ki, gözləsinlər mən də gəlirəm. Tez beton pilləkənlərlə üzüaşağı götü-rüldüm. Kitabı kazarmada dolabçama tolazlayıb, asta qaçana göy imam qənim, tərpəndim.

Yolun kənarında cüt bacı dayanıb, aşkar məni gözləyirdilər... Deyəsən, internasional sev-gilim mənə əməlli-başlı isinişib. Mən də eləcə... Artıq onlarsız darıxıram, sanki nəsə çatmır...

Üstümdə yenə andıra qalmış pul yoxuydu.

Yenicə görüşmüşdük ki, talğasız mərdima-zar böyürdən çıxdı. Gizlənmək heç kişilikdən ol-masa da, cəld qızların arxasında gizləndim.

Yitkanı başa salmışdım ki, hansı hərbçinin paqonlarında ulduz görsən, bil ki, məni tuta bilər.

Beləliəri zabit olur.

Yitka dərhal Qreşnoyun paqonlarına baxdı. Qoşa ulduzları görən kimi, iki bacı bir-birinə sıx qısılıb, əsl beynəlmiləlçilər kimi məni arxalarında gizlətdilər.

Bu artıq beynəlxalq oyun idi.

Leytenant kor olmuş gözləriylə ötüb keçən kimi, biz dərhal səmtimizi dəyişib başqa yolla tə-ləsik aradan çıxdıq.

Roman yazırdıq.

Çex Yitkayla yeni, xarici bir roman!

Bu mənzərəni doqquzuncu mərtəbədən bi-zim azərbaycanlı uşaqlar və əksər rus əsgərlər də açıq-aşkar görürmüş. Əlini lüğablı ağzına sa-lıb fit çalan, pilotka yelləyən, uzunboğaz əsgər çəkmələrini yerə döyüb qışqırışanlar yenə bir-bi-rinə qarışmışdı.

Bu əsl kino filmi idi!

Yaxınlıqdakı beşmərtəbəli binanın birinci mərtəbəsindəki Галантерия-nın radiosundan o saqqallı gürcü təkraredilməz səsiylə, yenə Çitto-Marqaritta oxuyurdu.

İçəri seyrəklik idi.

Qızlar mağazada xeyli hərlənib daraq, saç üçün cürbəcür sancaqlar və üç dəst də zümrüd rəngli muncuq boyunbağı aldılar.

Görünür ölkələrinə qayıdanda yaxınlarına hədiyyə edəcəklər.

Pulu özləri ödədi.

Düzü, yaman pis oldum.

Bərdədən görünən dünyada belə hərəkət ayıb, hətta deyərdim qəbahət sayılardı... Zira ki, kişi yanında qadın pul xərcləməz. Amma, əsgər həyatı yaşadığımı və cibimdə də siçanlar oynaş-dığını nəzərə alsaq, ötüşmək olardı.

Boş, iri ciblərimi dartıb çölə çıxararaq, arıq barmaqlarımı bir-birinə sürtməklə onları birtəhər başa

saldım ki pul götürməmişəm, pul var eyy, - pul itinə tökdü... просто tələsik çıxdığımdan ka-zarmada qalıb, ona görə üzürlü hesab eləsinlər.

Hər ikisi başa düşən kimi, narahat olmama-ğı, hər şeyin qaydada olduğunu bildirdilər... Və dərhal da başa saldılar ki, kim nə alırsa pulunu özü də ödəməlidir. Praqada qayda elə belədir.

Evə qayıdanda vədələşdik ki, nahardan az sonra görüşək və birlikdə çimərliyə gedək. Açıq dənizdə üzmək istəyirdilər. Günəş də bəxtimiz-dən bu gün bərq vururdu.

Dəniz suyu isti olacaq...

Saat 14:00-da, əsgər formasında ərazimiz-dən şeşə-şeşə çıxdım.

Qönçədodaq madonnalarla təmkinlə görü-şüb, turbaza tərəfə getdik.

Sarı çiçəkli boymadərən cövhəri içmiş gənc ərənlər kimi, yaman sevinirdim...

Hərbi tikintidə nüfuz məmurlarından yaxşı ki, yolboyu məni görən olmadı.

Sanatoriyanın bağında əsgər formamı so-yunmağa başladım.

Qızlar təəccüblə baxırdı...

Əvvəl ədəb-ərkanla torpaqda basdırdığım armaturu çıxardım. Sonra da betondan tökülmüş, iri qara pıspısalı çirkarx quyusunun ağır çuqun qapağını armaturla zorla qaldırıb kənara aşırdım. Əsgər formamı səliqəylə içərisində gizlədib qa-pağı birtəhər yerinə qoydum.

İlahi! Onlar necə maraq və heyrətlə baxırdı!

Çılpaq, qırmızı плавки-də, onlara qoşulub gedəndə, Yitka bacısına öz dillərində nəsə deyib, ürəkdən güldü və necə oldusa, kiçik əl çantasın-dan şokolad çıxarıb, kağızını tələsik soydu və zərif ağ barmaqlarının ucunda ağzıma dürtərək, gülə-gülə:

- Я твоя жена! - dedi.

Onlar məni ilk dəfəydi lüt görürdü.

Qarnım belimə yapışır, arıq qabırğalarım sananırdı. Çiyinlərim enli, qol və qılçalarım əzə-ləliydi.

Deyəsən hələ əməlli-başlı formalaşmamış-dım. Bədənim tüksüz idi.

Qoltuğumun altından çıxan tüklər o qədər narın idi ki, təmizləmirdim də...

Yarğandan enib, lap ucqara getdik.

Qəflətən maraqlı bir səhnəylə qarşılaşdım.

İsti qumun üstündə iki qız uzanıb ʒarap elə-yirdi. Diqqətlə baxanda birdən gördüm, Svetayla Ritadır. Onlar da eyni vaxtda məni gördü.

Yanımda dayanan xarici qızları görüb çaş-dılar. Və Sveta mənə salam verməyi də unudub uzandığı yerdə başını qolları arasında gizlətdi. Sanki quma girib özünü gizlətmək istəyirdi.

Qızıl zəncirə taxılmış medalyonunun qızıl açarı, ağ boynunda günəşin şüalarını əks etdirib, bərq vururdu...

Rita da qızları görüb təəccüblə Svetaya sa- rı baxdı və onu dümsüklədi. Usandırıcı idi.

Hər ikisi pərt olmuşdu.

Məni yanlarına belə çağırmadılar, hətta öz-lərini görməməzliyə vurdular.

Vəziyyətin gərginliyini sezib, mən də özümü lap koruşluğa qoydum. Svetayla ötəri eşq macə-ramızın ulduzu onsuz da sönmüşdü. Amma so-yub-soyub quyruğunda bıçağı sındırmaq, heç də yaxşı olmadı.

Orası da vardı ki, artıq Yitkanın yolunda bu-ğum-buğum doğransam da uf deməzdim.

Çex civıldız Yitka həyatımın yeni erasıydı!

Qum çılpaq ayaqlarımı yandıra-yandıra irə-liləyirdim. Yitkayla Dano da arxamca gəlirdi.

Onlar bu səhnənin reallığından xəbərsiz idi. Svetagildən yenicə aralanmışdıq, Yitka dirəndi ki, elə bura yaxşıdır və yalın ayağıyla qumun üzərini hamarlayıb yer hazırladı.

Soyunmağa başladılar.

Qızlar soyunanda küçəmizin verdiyi əbədi həyadan, mexaniki olaraq üzümü yana çevirdim.

İlk dəfəydi onları çılpaq görürdüm. Çox gö-zəl, rəngli, yeni model купальник-dəydilər.

İlk dəfə hiss elədim ki, Yitkanın da döşləri varmış! Utandım nədənsə...

Onu tanıdığım gündən, həya elədiyimdən döşlərinə toxunmamışdım. İndi isə купальник-də dimdik, taram dayanan zirehdələn döşləri gözlə-rimi tökdü!

Suya girdik.

Dano bir qədər üzüb dayandı, Yitka isə baş alıb getdi. Kişilənib onun arxasınca düşdüm. Bir zaman çönüb arxaya baxdım ki, bütün qadağan olunan səddləri keçib getmişəm və çimərlikdə uzanıb istirahət edən, çimən insanlar lap xırdaca görünür.

Bir iki dəfə qışqırıb Yitkanın qayıtmasını tə-ləb etdim. O isə çox sakit halda, suyu sıçratma-dan balıq kimi üzür, səsimə əhəmiyyət vermirdi.

Qəflətən qarşımıza ağ meduza sürüsü çıxdı.

Xudavəndi aləm! Onlar necə iyrənc idi!

Üzdükcə əlim, qarnım, ayağım onlara toxu-nur, ətim ürpəşir, çimçişir, necə iyrənirdim!

Yitka meduza sürüsünün tən ortasıyla üzüb getdi. O çiyrənmədən, qorxmadan, ürpənmədən meduzaları necə yarıb keçirdi!

Mən artıq qorxudan dönüb geriyə üzməyə başlamışdım. Meduzalar çox iyrənc olduğundan qışqırdım ki, o da qayıtsın. Qulaq asmadı. Doğ-rusu heç məni vecinə də almadı. Və mən də onu acıqla meduza sürüsüylə baş-başa buraxıb sa-hilə doğru üzməyə başladım. Həm də fikirləşdim, tək qalsa qorxub qayıdar.

Bir az keçmiş sahil mühafizə xidmətinin tək-mühərrikli qayığı sürətlə üstümüzə tərəf gəlməyə başladı. Çılpaq, əzələli bir oğlan iri ağzına yekə səsgücləndirici dirəyib əmr edirdi:“Dərhal geri qa-yıdın!”

Sahilə qədər birnəfəsə üzdüm.

Yitka artıq futbol topu boyda görünürdü...

Saat 15:06 idi.

16:00-da isə, rotada serjantlar üçün совеш-шания olmalıydı. Odur ki, tələsməyə başladım...

Suya girməzdən əvvəl Yitkadan üzməyi ba-carıb-bacarmadığını soruşmuşdum.

- Yox,- demişdi.

O əsl üzgüçüymüş!

Beton bəndlərin yaxınlığından keçəndə o amfibiya adam kimi necə iti və sakit üzürdü!

Qayıdanda dayanıb beton bəndlərin üstünə çıxdı. Sanki üzgüçülük üzrə olimpiya çempionu idi. Necə iti, sakit, suyu sıçratmadan, ayaqlarını şappıldatmadan üzürdü! Başını suyun altında düz tutur, hərdən üzünü yana çıxarıb nəfəs alırdı.

Əhsən sənə Yitka Zahalkova!

Üzmək işində bizim küçə qız-gəlinlərinin əli yoxuydu. Onları öldürsən də, çimərlikdə kişi ya-nında soyunub, купальник-də çimməzdilər!

Bakı çimərliklərində isə abırlı qadınların ço-xu çitdən yay sarafan donu, ya xalat geyinər, bo-ğazlarına kimi suya girib dayanar, bir-biriylə sa-atlarla qeybətləşər, sahildə isə qumda oturar, ta uzanmazdılar!

Biz avropalılarla belə məsələlərdə tamam ayrılırdıq...Yitka istəsə, lap купальник-siz, çılın-çılpaq da üzə bilərdi!

Şərq küçəsində arvadlıq eləyə bilərdi bu avropalı qız? Ya idiotcasına ortada qalardı?

Ehh...

Dano yenidən suya girib üzməyə başladı. O Yitkanın dayandığı beton bəndlərə sarı səmt al-dı. Mən də məcbur qalıb, ixtiyarsız onun arxasın-ca suya atıldım.

İki-üç dəfə cəhd eləsəm də, meduzaların qorxusundan bəndə yaxınlaşa bilmədim. Sonra başqa səmtdən üzüb bəndin ayaq hissəsindən çıxdım və uzun beton bəndlərin üstüylə qaça-qaça, suyum süzələnə-süzələnə onlara çatdım.

Üçümüz də bəndin üstündə yanaşı oturub, ayaqlarımızı suya sallamışdıq.

Bir qədər söhbət eləyəndən sonra başa sal-dım ki, saat dörddə hərbi hissədə iclasımız var. Yitka məni anlayıb, iki bədəndə bir ürək kimi, iki ayağını bir başmağa dirədi ki, gecikəcəksən, çıx get, narahat olma, biz özümüz qayıda bilərik.

Axşam saat 20:00-a görüş təyin elədik.

Yitka sulu dodaqlarıyla məni öpüb:

- Обязательно, обязательно... пожалюс-та... не беспокойся, - dedi.

Danonun çılpaq canı dümağ idi. Bütün rus-lu, ukraynalı, - çimərlikdə olanların hamısından - həm gümüşü saçları, həm də ağappaq canı ilə seçilirdi. Sanki, canını günəş görməmişdi!

Mən onsuz da qara idim. Dənizdə çimmək-dən əvvəl qızarıb, sonra bir az da qaralmışdım.

Yitka şişman, ağappaq bacısına və sonra da qara, arıq canıma baxıb, gülümsəyərək:

- Sənin rəngində olmaq, daha yaxşıdır,- de-di və əli ilə də başa saldı.

O ki var, güldük...

Xülasə, onlardan ayrılıb sahilə üzdüm.

Oradan da üstünə qoyub, sanatoriyanın hə-yətindəki formamı gizlətdiyim çirkarx quyusuna doğru tərpəndim. Əsgər formamı geyinib hərbi hissəmizə doğru güllə kimi qaçmağa başladım.

Kazarmaya çatanda xəbər verdilər ki, səni gözləyirlər, совешшания başlayır.

Özümü yaxşı yetirmişdim!

Axşamtərəfi yenidən narın yağış çisəngilə-məyə başladı...

Bu bürkülü avqust günləri, Azərbaycanın aran rayonları adətən yağış üzünə həsrət qalardı. Odessa isə yağıntıya görə Kislovodskini, Dəlida-ğı, Londonu da keçmişdi. Son günlər demək olar, hər gün yağır və gecələr də hava Şuşadakı kimi soyuq olurdu...

Saat düz 20:00-ı göstərəndə Yitka qapını açıb çıxdı və yanıma gəlib başa saldı ki, Luna parka gedəcəyik...

Qayıdıb yenidən mülki paltarlarımı geyin-məli idim. Həm yağış yağır, həm də Luna parkda əsgər xebələrində

gəzə bilməzdim. Patrullar gö-rüb dərhal tuta bilərdi. Elə bu vaxt, Dano da çölə çıxdı və bizə yaxınlaşıb başa saldı ki, Anya xala da gedəcək, qorxma, sənin də bizimlə olacağını ona demişik.

O da razıdır.

Arvaddan utansam da, məni zorla razı sal-dılar. Yitka başımı mehribanlıqla sığalladı da...

- Onda gedib граждански geyinim, o günü открытка aldığımız poçtun qabağında sizi gözlə-yərəm, -dedim,

Razılaşıb ayrıldıq.

Onlar arvadın arxasınca getdi.

Mən də Laçın dağlarında düdükçalan təpər-siz Mürşüdü özümlə götürdüm. Tomagildə mülki paltar geyinib çıxdıq. Hər ehtimala qarşı özümlə pencək də götürdüm.

Vədələşdiyimiz yerdə qərar tuta bilməyib, onların gələcəyi yola çıxdıq. Qəflətən gördüm mayor Deqtyar gəlir. Cəld qaçıb gizləndik. O yax-şı ki, bizi görmədi. Qayıdıb yenə vədələşdiyimiz yerdə gözləməyə başladıq.

Nədənsə gecikirdilər...

Birdən beynimə gəldi: “Bəlkə yolu səhv sa-lıblar, arvadı düz başa sala bilməyiblər?”

O biri yola tərəf götürüldük. Sən demə elə doğrudan da beləymiş. Şütülləmə gedəndə yolun kənarında onları gördüm. Dayanıb məni gözləyir-dilər. Geyinib-kecinmişdilər.

Eşşəkturpu Mürşüd qızları görəndə arxada qaldı. Sevincək özümü yetirdim.

Yitka öz dilində qışqıra-qışqıra qabaqdan- gəlmişliklə başa saldı ki:

"Harda qalmısan? Səhərdən səni gözləyi-rik. Qızları gözlətməzlər!"

Sevincimin həddi-hüdudu yoxuydu.

Sən demə Anya xala da 5 nömrəli trolley-busun остановка-sında gözləyirmiş.

Qanacaqsız, ağzıyava Mürşüd xəlvətcə, ar-xadan bizi izləyirdi.

Üçümüz də yan-yana, deyə-gülə getdiyimiz yerdə birdən möcüzəli bir hadisə baş verdi:

"Yolu keçirdik. Yitkanın qolundan tutmuş-dum. Tez-tez gələn maşınlar sürətlə ötüb keçirdi. Yitka işıqfor olmadığını bəhanə edib dartınaraq əlimdən çıxmaq istədi. Mən isə ondan bərk-bərk yapışıb buraxmadım.

Yenicə yolu dartışa-dartışa keçmişdik ki, birdən gördüm, qarşıdakı mağazanın qabağın-dan Sveta ilə Rita gülə-gülə bizə baxır.

Tutuldum.

Bir anlıq özümü itirib nə edəcəyimi bilmə-dim və onlar acıqla, nümayişkaranə, lap boriton səslə dərhal mənə salam verdilər.

Salamlarını başımla alıb, öz dilimizdə:

- Qarazzar!- qışqırdım.

Qeyri-ixtiyari ayaqlarımı sürütləyib saxladım.

Sveta zarafata salıb, amma rişxəndlə:

- Tofik hara gedirsən? - nazlanıb soruşdu.

Yitka da bərəlmiş gözləriylə ağzını açıb baş vermiş mənzərəni heyrətlə süzürdü.

Qıpqırmızı pörtdüm.

Onların bu məqamda sataşaraq verdikləri salam və soruşduqları söz mənə güllə kimi dəydi. Mıxlanıb yerimdə qalmışdım.

Dano və Yitka Svetayla Ritaya sonra da çö-nüb mənə baxaraq güldülər və yanımdan səssiz-cə aralanıb beş nömrəli trolleybusun dayanaca-ğında gözləyən Anya xalaya yaxınlaşdılar.

Çaşıb qaldım.

Heç gözləmədiyim hadisə baş vermişdi.

Bərdədən görünən dünyada isə artıq faciə, dəhşət baş vermişdi.

İçim tələtümlə silkələnirdi!

Və yuxudan diksinib ayılan adamlar kimi birdən özümə gəlib, kəkələyə-kəkələyə:

- Sveta, bağışla... Məni gözləyirlər... Sonra sizə hər şeyi aydınlaşdıraram, - usancaqlıqla de-dim...

Onlar zinhara gəldiyimi görüb, sanki yazıq-ları gəldi və gülə-gülə, süsləyərək:

- Get... get, məbada, axırıncı olsun,- dedilər.

Olan olmuş, xəyanətin üstü açılmışdı. Nə-dənsə bu hadisə mənə olduqca ağır gəldi.

Sanki suç üstündə Komsomol, ya Xuraman, ya da Adilə məni yaxalamışdı. Hələ ağ mirvari sırğalı Məhbubə xala, ya Sarıkirpikli, ya da bə-növşəgözlü Katerina...

Ümidsiz halda Yitkagilin arxasınca getdim. Onlar Anya xalayla tapışıb, heç nə olmamış kimi məni çox mehriban qarşıladılar.

Sanki, bu biabırçılıq baş verməyib!

Xəcalətdən ölə-ölə, üzümü Anya xalaya tu-tub, günahkarcasına:

- Axşamınız xeyir,- zirdəst adamlar kimi de-dim.

Arxaya çevrilə bilmirdim.

Yəqin, Svetagil arxadan baxırdı.

Axx...

Nə pis hadisə baş verdi. Xəcalətdən yer ay-rılsa içinə girərdim.

Anya xala çox təbii, mehriban, səmimi və gülərüzlə salamımı aldı.

Yitka heç soruşmadı da:

“O qızlar kim idi?”

Onun yerində Komsomol olsaydı, indi nə qi-yamat qopardı! Hətta ömürlük tüpürər, mənə ərə gəlməzdi...

Yəqin üzə vurmasa da, Sveta mənə kişi fa-hişəsi kimi baxdı. Heç yaxşı olmadı.

Söz yox ki, hələ Yitka da hesabını götürdü. Bu həngamə mənə baha başa gələcək! Hamısı-nın yanında etibarsızlığım üzə çıxdı...

Beş nömrəli trolleybus göründü.

Hazırlaşıb, maşın dayanan kimi mindik.

Birdən nə görsəm yaxşıdı? Svetayla Rita da trolleybusda zümrüd quşu kimi zühur etdi.

Yenidən zibilə düşdümmü? Bu artıq zülmat idi.

Çıxılmaz vəziyyətdə idim. Bilmirdim harada durum. Anya xala lap qabaqda əyləşdi. Yitkayla Dano keçib arxa cərgədə oturdu. Svetayla Rita isə ortalıqda ayaqüstə

dayanıb, əllə tutmaq üçün qoyulmuş nikelli nazik, uzun borudan yapışdılar.

Bir anlıq çaşqınlıqdan sonra sürücünün ya-xınlığında quraşdırılmış kassadan altı bilet gö-türmək üçün cibimdən pul çıxarıb gedəndə, Anya xala məni saxlayıb dörd bilet göstərdi, yəni bilet-lərimizi artıq götürüb.

Bu zülam idi!

İkinci dəfə özümü itirdim.

Svetayla Ritaya iki bilet götürsəydim Anya xala başa düşəcəkdi. Odur ki, pulu cibimə qoyub, ayaq üstə elə Anya xalanın yanındaca dayandım.

Sveta məni utandırmaq üçün gəlib özlərinə iki bilet götürdü. Onun üzünə belə baxa bilmirdim.

Bilet məsələsi ikinci ağır zərbə oldu. Qəsd-dən Anya xalanın yanında dayanmağım isə mə-sələni yüngülləşdirmək məqsədi güdürdü.

Sveta başa düşməlidir ki, təkcə qızlarla bir-likdə deyiləm, bu ailəvi, ciddi məsələdir!

Bəli, gələcək bəhanə üçün fürsəti qaçırma-mışdım! Zircaməm tərləmişdi...

Svetagilə bilet almamağım isə,Yitkanın qar-şısında alibim olacaqdı! Bir gülləylə iki dovşan vurmaq, bax buna deyərlər.

Gizlincə, gözümün ucuyla hərdən baxır, gö-rürdüm ki, arxadan Yitka mənə baxıb, bic-bic gü-lümsünür. Dano da heyranlıqla məni izləyirdi.

Mən isə yalnız Anya xalaya baxır, hərdən də ondan mənasız sözlər soruşurdum...

Birdən, növbəti bir çıxılmaz vəziyyət yaran-dı. Cavan, zümrüdgözlü bir oğlan qızlara söz atdı.

Çönüb təəccüblə Svetaya baxdım. O baxış-larım altında sıxıldı və dərhal da Ritayla mənə tərəf gəldilər. Bu vaxt zorba oğlan da, çibin kimi onlardan əl çəkmədi.

Yitkaya baxdım.

Pərvərdigarə! O mənə necə heyrətlə baxır-dı! Dillənə bilmirdim. Anya xala da başa düşə bi-lərdi... Bir əldə iki qarpız tutmağın cəzasıydı!

Axırda Rita vəziyyətin gərginliyini anlayıb, məni danışdırmalı oldu:

- Nazim hanı? - soruşdu.

Elə bu vaxt...Yitka da arxadan barmaqlarını havada yelləyib göstərə-göstərə, gözlərini ağar- daraq yarı rus, yarı çex dilində qışqırdı:

- Ей... солдат-сержант Тофик Бабаев, из Баку! Сколько остановка осталась?

- İlahi!

Məni necə tər basdı! Qulaqlarım qəfil necə isindi! İslanmış cücəyə döndüm.

Kimə cavab verəydim? Hər ikisi cavab göz-ləyirdi. Sanki siçan-pişik oynayırdıq. Küfran elə-məyin axırı, elə belə də olmalıydı!

Qəflətən trolleybus ləngər verib dayandı.

Ritayla Sveta az qala üstümə yıxılacaqdı.

Uşaq vaxtı oynadığımız "Hoppan-hoppan" oyunu, hardansa beynimə düşdü... Özümü əməl-li-başlı itirmişdim. Neyləməliydim?

Bir anda Yitkayla arama xeyli sərnişin doldu.

Və gözlənilmədən, Svetagil sağollaşıb tələ-sik qabaq qapıdan düşdülər. Düşhadüşdə Sveta böyrümə dürtmə də vurdu.

Bəxtim yenə gətirdi.

İnsan itirdiyinin mahiyyətini, itirəndən sonra dərk edir. Yitkanı itirə bilməzdim...

Heyvərə, ağzıyava Mürşüd özünü yetirib, zorbazorluq eləyən içkili rus oğlanın qabağını kəsmişdi. Zira ki, oğlan düşməməliydi!

Zorba rus ləngidi və gecikib düşə bilmədi. Svetagil sakitcə düşüb getdi.

Спектакл qurtarmışdı!

Heç nə deməsələr də özümə gələ bilmirdim, sanki binamusluq eləmiş, suç üstündə bica yerə yaxalanmışdım...

Yolda növbəti maraqlı hadisə baş verdi:

Yeraltı keçid yox idi. Geniş magistral pros-pektdən keçməliydik. Sürətlə o yan-bu yana çox-lu avtomobil şütüyürdü. Hamımız dayandıq.

İşıqfor və asfaltın üzərində ağ rənglənmiş piyada keçidi də yoxuydu.

Birdən Yitka əlini əlimdən çıxarıb, yola çıxdı.

Anya xala yüyürüb onu saxlamaq istədi.

Əsəbi görkəmiylə, o öz dillərində nəsə qış-qırıb yoluna davam elədi. Elə bu vaxt, şütüyən avtomobillərin bir neçəsi, sonra da yerdə qalanı dalbadal əyləci basıb səs-küylə, qıjıltıyla dayandı. Təkərlər sürüşərək asfalt döşəməyə qara izlər buraxır, toz qaldırıb tüstüləyirdi.

Yitka keçə-keçə bizə yolun kənarındakı işıq dirəyini göstərdi. Dirəkdəki dövlət yol nişanı üzə-rində, ox işarəsi qoyulub yazılmışdı:

“Идите”

O bizi lağa qoyub, kütbeyinlik etdiyimizi an-ladaraq, hirsli-hirsli:

“ Читать не умеете? Написали идите...” - barmağıyla beynini qurdalayaraq, -dedi.

Hamımızın əhvalı düzəlmişdi. Gərginliyimiz götürülmüş,Danoyla Anna xala gülməkdən uğun-muşdu. O cür üzən qız, elə belə də olmalıydı.

Yitka 16 yaşında çox gözüaçıq,dəcəl və ər-kəsöyün, xarici bir vətəndaş idi!

Maşınlar dayanmışkən biz də keçdik...

Taksidən Luna parkda düşdük.

Anya xalayla Dano qol-qola girib qabaqda, Yitkayla mən onların ardınca gedirdik.

Problematik Mürşüd isə prokripsiya siyası-na adı salınmış adamlar kimi, lap geridə qalıb, arxadan bizi izləyirdi.

Yitkayla xısın-xısın danışırdıq.

Luna parkda xeyli hərləndik. Və sonra Anya xala bizi əsl cənnətə gətirdi.

Burada ancaq cavanlar toplanmışdı.

Güclü işıqlandırıcı cihazlar, istənilən tərəf-lərə paralel işıq şüaları səpələyir, yaxınlıqdakı göldə müxtəlif rəngli işıqlar ulduzlar kimi cilvələ-nib sayrışırdı.

Rəngbərəng işıqlar yanıb-sönən parkda, nə qədər yeniyetmə qız-oğlan vardı!

İşıqların fonunda yaşıl, qırmızı, sarı rəngə boyanmış insanlar, ağaclar, gül-çiçək necə möh-təşəm görünürdü!

Parkda bir qələbəlik vardı!

Professional projektorçu dayanmırdı və or-kestr də haray-həşirlə özlərini öldürür, elə bil, bi-lirdilər Yitka gələcək!

Monte-Karloda tutarlı priz udmuş adamlar, ya da dayısından şirniquş almış uşaqlar kimi, ya-manca sevinirdim.

Müxtəlif oyunlar, yarışlar keçirilirdi.

Yumru çarxa oxşayan, çox hündür karusel-də fırlananlar... elektrik cərəyanı ilə işləyən trol-leybuslar kimi, cərəyanla işləyən mini-maşınları sürənlər... caz musiqisinə rəqs edənlər, səs-küy qoparanlar...

Sanki yuxu görürdüm.

Növbəyə dayanıb üç bilet və dondurma al-dım.Anya xala dondurma istəmədi və həddən ar-tıq hündür karuseldə fırlanmaqdan da qorxdu.

Birdən məni kənara çəkib, çox mərhəmanə şəkildə qulağıma pıçıldadı:

- Qızları Bara aparıb, punş alarsan.

Sonra da cibimə xəlvəti pul basdı. Ürəyim atlandı. Düzü yaman duyğulandım. Əslinə qalsa mən sovet əsgəriydim və əsgərdə pul-para adə-tən olmazdı...

Amma pulu zorla qaytardım. Qürurumа sı-ğışdırmırdım. Pulum olanda, pul düşkünü kəlbə-cərli Sahib Əkbərov, ya şamxorlu pulpərəst Va-hid kimi püfləyə-püfləyə əzizləyənlərdən də deyil-dim. Anya xaladan pünhani soruşdum:

- Punş nədir?

- Şərabla müxtəlif meyvə şirəsi qarışığına, qənd, limon, su da əlavə edirlər, olur punş, so-yuq da içirlər, isti də...- dedi.

Ürəyimdə cəld hesabladım ki, elə də baha olmaz, pul çatacaq...

Təpərsiz Mürşüd kənarda dayanıb, papiros püfkürür, rahat-rahat da bizi güdürdü...

Yitka və Danoyla karuseldə fırlanmağa baş-ladıq, Fırlana-fırlana da karuselin hündür zirvə-sindən Odessanı seyr edirdik.

Yitka göydə yüz oyundan çıxdı.

O necə dəcəl, necə təbii, necə ərköyün, ne-cə bişkin, iddialı, yetkin idi!

Qəşəng geyindiyinin, növrəstə və qənirsiz gözəl, püxtə olduğunun da fərqindəydi!

Həm də onlar həddən artıq mədəniydilər!

Praqalı qızlar burada da hamının nəzərin-dəydi... Özümü çox xoşbəxt hiss edir, qürrələnir, xatircəmliklə ədəbazlıqdan dimdik gəzirdim.

Əlimdə kəhraba təsbeh, damağımda tüstü-lənən Kазбек, başımda aerodrom kepka, belim-də qalın kəmərli trapez şalvar, ayağımda ucu miz formalı sifarişlə tikilmiş tufli olsaydı, əsl Bakı ce-yillərinə, qədeşlərə oxşayardım!

Karuseli işlədən pasiban, yaşlı kişi çex imiş.

İki bacının danışığından həmyerlilərini tanı-yıb: - Ohoo! - qışqıraraq, sevincək onlarla təmiz çex dilində nəsə danışdı. Ölkədaşlarını tapan pa-zaq adam aldığımız biletin pulunu da öz cibindən ödəyib, qaytarmaq istəyirdi.

Qızlar nırçıldadı... Götürmədilər.

Kişi papirosalışdıranla bir Kазбек yandırıb, qızlara nəsə öz dillərində dedi və tələsik harasa getdi. Bir az keçmiş 4 qutu rahətülhülqumla qa-yıtdı. Öz payımı gizlincə aparıb, təpərsizə ötür-düm... Patavalı pürməlal rahətülhülqumu diri-diri udub, qurşağının altını pərgarladı.

Rahiyəli Yitka məni başa saldı ki, bu nıtıq kişi cavanlığında Praqada taksi sürücüsü işləyib...

Ürəyimdə fikirləşdim ki, görünür Sovet ca-susu, bəlkə də radist olub...

Taksi sürücüsü onların ev ünvanını da ta-nıdı: - Nuçitska, Nuçitska... sonra da nəsə,-dedi.

Casus kişi, pulu geri götürmədiyimizə görə, zorla bizi razı salıb, ikinci dəfə karuselə pulsuz mindirdi və təmiz rus dilində məni başa saldı ki, rəqsdən çıxanda Danoya bir qutu Столичное si-qareti al. O əsəblərini sakitləşdirmək üçün bunu çəkir... Bu oğraş özü niyə almırdı ki?

Kişinin təkidiylə göydə xeyli fırlandıq...

Növbəti uzun fırlanmadan sonra rəngimiz avazımış, üçümüzün də ürəyi qalxırdı. Hətta, Da-no karuseldən düşəndə, öyüyüb qusdu da...

Özümüzü nəqahət adamlar kimi hiss edir-dik. Yaman püstəqarın idim. Qusmağa da canım-da bir şey yox idi.

Ən maraqlı maşın sürməyimiz oldu.

Mini maşınlar elektriklə işləyirdi.

Sanki tramvay, ya trolleybus sürürdük. Elə maraqlıydı! Yitkayla ötüşür, bir-birimizi vurur, əy-lənir, sonsuz həzz alıb subaylığın ləzzətini çıxa-rırdıq! Mini-elektrik maşınların təkərləri, rulu da vardı. Bütün meydança boyu uşaqlar, yeniyetmə-lər, cavanlar elə hey toqquşur, hamı çığırıb-ba-ğırışırdı. Hoha Mürşüd necə heyrətlə bizə tama-şa edirdi! Yazıq şəhərlə dağ-dərənin fərqini il-ğımla yaşayırdı. Eşşək hara, elektrik cərəyanıyla işləyən tramvay trolleybus hara! Lokomotiv nə bilsin nə olan şeydir?

Teplovoz, parovoz ya elek-trovozun teploxodla fərqini hardan ayırd eləsin?

Dağlarda ucqar kənd məktəb müəllimləri özləri bunu ayırd edə bilməzdi. İşıqsız, kif iyi ve-rən qaranlıq siniflərdə iki cüt, bir tək şagird olardı. Zəngi olmayan məktəbdə oturmuşdu ara-sıra... Oturmuşdu, ona görə yazıram ki, o kitab üzü aç-mamışdı. Amma boz eşşəyi, qulağını ya quyru-ğunu tərpədəndə bilirdi, yağış nə vaxt tökəcək.

Mətləbdən çox uzaqlaşdıq deyəsən...

Yaxşı ki, bu maşını icad edənlər, hər tərəfi-ni qalın, enli rezindən hazırlayıblar. Nə qədər vu-ruşsan da maşınlar əzilmir, heç kəs də xəsarət almırdı. Əntiqə idi!

Maşın sürmək əyləncəsi karuseldən də ma-raqlı oldu. Dünyanın ləzzətini çıxartdıq!

Rəqs meydançası özünü cırıb dağıtsa da, rəqsdən vaz keçdik. Pürvüqar dayanıb:

- Gedəyin punş içməyə,- dedim.

Alaqaranlıq barda həzin musiqi səslənirdi...

Buzlu, tünd punş ilk dəfəydi içirdim.

Bir az keçmiş, punş hamımızı qanadlandır-dı. Onlara qoşulub, bir siqaret də özüm çəkdim. Siqaretin hər iki qutusunu qızlara hədiyyə aldı-ğımdan, kəkəş-kəkəş, ürəklə püfləyirdim.

Əsgər olduğumu tamam unutmuşdum!

Gecə yarını keçəndən sonra, geri qayıtdıq.

Luna Park, - yaşadığımız, yazdığımız sevgi romanımızın şirin xatirələrindən biri, kiçik gecə kəpənəyi kimi ömrümüzdə izini qoyub getdi...

Yitka tükənməz enerjili, qibtəediləcək üzgü-çü, ərköyün, qənirsiz gözəl olsa da, dərin məlu-matlı, savadlı deyildi və həm də siqaret çəkirdi.

Bax bunlar onun hələlik ən böyük qəbahə-tiydi. Düzdü, ola bilsin xarici dövlətdə ilk dəfə ol-duğuna və valideyin nəzarəti olmadığından, fors-lanıb bunu edirdi. Üzünə ilk dəfə laybalay açılan azadlığın, püxtəliyin cövhərini çıxarırdı. O hələ dəruni yataq da yaşamamışdı...

Səfər məhək daşıdır!

Qayıdanda Anya xalayla xeyli məlhəm söh-bətlər eləyib, lap dostlaşdıq. Daha heç kimdən utanıb-çəkinməyəcək, Anya xalanı da görəndə qaçıb gizlənməyəcəyəm...

Gecənin sonuncu maraqlı hadisəsi də tram-vaya minəndə baş verdi.

Tramvayda cəmisi bir boş yer var idi.

Yitka bunu görən kimi tələsik keçib orada əyləşdi. Onu başa saldım ki qalxsın, o yerdə nə-zakət, əxlaq

qaydalarına görə Anya xala otur-malıdır. O nümayişkaranə surətdə mənim ağzımı əyib, gözlərini bərəldərək:

- Но... Но... Моя голова кружит, но!

Biz hamımız onun mimikasına baxıb gülüş-dük. O, həm də çox sadəlövh idi!

Növbəti dayanacaqda düşüb, tramvayı də-yişdik. Bu dəfə boş yer çox idi. Hamı otura bildi. Dəvəni xəlbir ilə suvaran Mürşüd isə, boş yer ol-sa da, arxada ayaqüstə dayandı.

Tramvayda oturanların çoxu yeniyetməydi, amma hamı gözlərinin ətrafını, qollarını tük bas-mış Mürşüdə tamaşa eləyirdi.

Anya xala Dano ilə, mən isə pəriçöhrə Yit-kayla yanaşı oturmuşduq.

Karuseldə çox fırlandığından, siqaretin və buzlu tünd punşun məstliyindən, həm də səs-küydən bərk yorulduğundan onu yuxu basır, tez-tez çönüb, yorğun-yorğun mənə baxırdı.

Həqiqətən o qənirzsiz gözəl idi!

16 yaş qızlar üçün əlçatmaz... sonralar, lap min illər ötüb keçsə də, yaşanılması mümkün ol-mayan bir dövrdür. Söz yox, elə bu oğlanlar üçün də belədir...

Ərən və ərgənlər!

Növrəstə və növcavanlar!

Mən özüm də bu dövrü yaşayırdım. Heyf, çox heyf ki, vətən qorumaq, pulemyot gəzdirmək əvəzinə, hərbi tikintidə çiləgən hərləyir, şüyül, şu-ğul tuturdum. Zira ki, xristian deyildim...

Onun bu gecə yaşanan belə yorğun, mə-sum sifəti, məlul-məlul, gah da cilvəli baxışları bir də nə vaxtsa yaşanacaqmı?

Yitka həyatıma öz möhürünü vurmuş bir qız kimi qəlbimdə ömrüm boyu, qüssəli bir simfoniya olub yaşayacaq! Artıq, bu simfoniya gecəli-gün-düzlü bəstələnirdi...

Turbazanın yanında ayrıldıq.

Onlar gedən kimi Mürşüd özünü yetirdi:

- Sən xoşbəxtsən qardaş!- dedi.

Tomagildə mülki paltarları soyunub, əsgər formalarımızı geyindik. Püstəyi gözlü Toma göz-lənilmədən neybət Mürşüdə dedi:

- Sən get, Tofikə sözüm var.

Mürşüd vələmbələrini döyə-döyə, döyükə-döyükə üzümə baxdı. Öz dilimizdə başa saldım ki: “Həyətdə gözlə, gələcəyəm...”

O çıxan kimi Toma mənə sarıldı...

...Kazarmaya girəndə səs-küy eşitdim. Kli-menko ilə Vahid söyüşürdü. Araya girib, birtəhər onları araladım.

Gecə yarı idi...

Yitkalı növbəti bir günü yaşayıb başa vur-muşdum. Yerimə girib uzananda düşünürdüm:

“Nə yaxşı ki, Sovet ordusu var. Nə yaxşı biz ССРИ vətəndaşlarıyıq! Əsgərlikdən pul verib ya-yınanlar nə qədər səhv edirlər...”

...Sübh tezdən, tülküdurmazdan ayılıb də-niz idmanına gedə bilmədim.

Dünənki günü Yitkayla keçirsəm də, donuz-məməli Toma məni yamanca yormuşdu...

Səhər yeməyindən sonra, hərbi hissənin həyətində Kaşşeyev mənə yanaşdı:

- Gecə həyəcan yoxlamasını sənə görə sa- at 23:00-a qədər uzatdım. Yoxlamada sənin adı-nı da çəkmədim ki, başa düşən olmasın. Tağım komandiri Podqornu hərbi qaydada əmr verir:

“Рота смирнаа!”

Sənin civzəli Vahidin özbaşına:

“Вольна!”- qışqırır...

Kaşşeyevdən üzr istədim və müzürr, onsi-nifli məktəb qurtaran Vahidi yanıma çağırtdırdım. Rəngi qaçmış, dili dodağı təpimiş gəldi.

- Sən görürsən Mürşüdlə mən yoxam, bax bu nə oyundu çıxarırsan? Bilmirsən, haqqı ye-mək olar, amma həzm eləmək olmaz? Klimenko gərək səni o ki var, döyəydi, nahaq araladım!

O başını aşağı salıb, susdu...

İşləri böləndən sonra, üçüncü mərtəbədə stul qoyub oturmuşdum. Arada durub kazarma-ya, dünənki qəzet-jurnalları gətirməyə getdim.

Səki oxumaq istəyirdim.

Bu vaxt Yitkagil evdən çıxıb dənizə gedər.

Bərk-bərk tapşırsam da, pasaqlı, onqəpiklik başı olmayan Mürşüd bunu görməz.

Gözəl gün çıxmışdı...

Gündəlik qəzetləri elə yenicə oxuyub qur-tarmışdım, təsadüfən gördüm, Yitkayla Dano çi-mərlikdən qayıdır.

Saat 12:43 idi.

Yaman pis oldum. Necə olub, gözümdən yayınıblar? Sonra da özümü sakitləşdirdim ki:

“Qismət beləymiş, özünü niyə didirsən?”

Nahardan sonra Anya xalagilin qaldıqları həyətə keçdim. Yitka uzun köynək geyinmişdi. Əynində şalvarı olmadığından sapsarı alt tumuşu hərdən görünürdü. Narındiş bacısıyla həyətdə, qapılarının ağzında oturub tum çırtlayırdılar.

Yitka məni görən kimi qışqırıb, gülə-gülə yanlarına çağırdı. O heç nədən çəkinmir, utanıb eləmirdi də... Görünür Anya xala işdəydi.

Nücəba Dano evə keçib stul gətirdi.

Yitka nümayişkaranə bir şəkildə stulumu öz stuluna birləşdirdi və:

-Ты мой муж!- dedi.

Gülüşdük...

Mən tum çırtlamağı xoşlamırdım.

O tez-tez mənə sataşır,- saçımdan, qula-ğımdan dartır, dümsük vurur, çimdikləyir, kürəyi-mə, dizlərimə yumruq, dürtmə ilişdirirdi.

Sonra gedib evdən Чехско-русско словарь kitabını gətirdi. Əvvəl əlifbalarını mənə əzbərlətdi, sonra da başladıq bir-birimizə suallar yazmağa. Mən ona yazdım:

“Йитка у тебя сколько лет?”

O çox böyük hərflərlə yazdı:

“16!”

Sonra yazdım:

“Вечером, 20:00 часов придёш?”

O yazdı:

“Нет!!!”

Sonra yazdım:

“Где твоя брюки?”

O yazdı:

“Довпредели!”

Belə-belə yazışır, cimdikləşir, saçyolduya çıxır, deyib-gülür, şənlənir, əylənirdik.

Nə xoşbəxt anlar idi!

Qəflətən Yitka gözlərini bərəldib, barmağını bizim taxta hasara tuşlayaraq qışqırdı:

-Тофик майор тебе смотрит!

Cəld çönüb həyəcanla arxaya baxdım. Sən demə, aldadırmış! Düzü bərk qorxdum...

Yitka nə fikirləşdisə evə girib, bir az keçmiş əynində şalvar çıxıb gəldi.

İlahi! O nə qədər sadə, nə qədər təbii, nə qədər səmimi, nə qədər əziz idi!

Saat 16:21-də bərk yağış yağmağa başladı. Nə qədər təkid elədimsə:

- Axşam gəlməyəcəm, - dedi...

Saat 21:00-da Svetagil də gəlib çıxmadı. Yəqin elədiyim əclaflıq onlara pis təsir edib. Elə mən özüm də onların yerində olsaydım məhz be-lə edərdim...

Ümid qaldı sabaha. Sabah saat 13:00 - da Arkadiya restoranının qarşısında Svetagillə görü-şüb onları aeroportdan yola salmalıydım. Görək necə olacaq?

Mayor Deqtyar nədənsə bu gün görünmür-dü. Yağış da bərkiyən kimi, saat 16:23- də bütün uşaqlar işlərini saxlayıb, kazarmaya yığışmışdı.

Sanki istirahət günüydü...

Gecə Yitkagilin həyətində tək-tənha hərlə-nirdim. Bəxtimdən qəflətən Yitka gecə köynəyin-də həyətə çıxdı. O, ayaqyoluna gedirdi. Zirabdan çıxıb, şarhaşarla axan krantda əllərini yuyanda, başının üstünü aldım.

Zira, onu öpmək istəyirdim.

Qarnıma yumruq vura-vura, ocığaz, gülə-gülə qışqırıb bacısını köməyə çağırdı. Biz düz-gün həyat romanı yazırdıq! Gecə yarıya qədər beləcə, zarafatlaşıb, sulaşıb oynaşdıq...

Amma öpə bilmədim.

Kazarmaya qayıtdım. Adətən, ən tez yatan vaxtım gecə birdən sonra olardı. Amma nədənsə son vaxtlar çox zəifləmişəm. İştaham olmadığın-dan, son vaxtlar yaxşı yemək də yeyə bilmirəm. Bu zəifliyin, iştahasızlığın səbəbi keçirdiyim əsə-biyyət halından, həyəcandan, tələşdən, çəkdiyim iztirabdan olduğunu yaxşı anlayırdım.

Deyəsən çex Yitkaya bənd olmuşam...

Yitkayla birlikdə olanda özümü çox xoşbəxt və rahat hiss edirəm. Yitkanı görəndə nədənsə Bərdəni də, Şərq küçəsini də, hətta Komsomolu da sanki unuduram. Bu nə idi? Nə baş verirdi? Təfəkkürümdə qaynayan bu təbəddüllat hardan qaynaqlanırdı? Körpə, kiçik uşaqlar kimi onunla elə bəxtəvərcəsinə oynayırdıq!

Yitka yanımda olanda özümü sonsuz dərə-cədə xoşbəxt sanır, hərdən onu Praqada yaşa-yan cavan, subay, heç vaxt üzlərini belə görmə-diyim oğlanlara elə qısqanırdım!

Bəlkə onu doğrudan sevirəm? Ocaq yan-masa tüstüsü çıxmaz.

Yox!- bircə bu ola bilməzdi!

Komsomol qəlbini mənə vermiş, mənə eti-bar etmiş, düz iyirmi birinci ay idi ki, yolumu şə- rəflə gözləyirdi. Yəni mən bu qədər dönük olmu-şam? Ocığazın ocağını söndürmək, kor qoymaq istəyirəm?

Axı olmazın zülmünü vermiş od qonşum Xuramandan fərqli bu məhzun, təmkinli qızcığaz taleyini mənə bağlamışdı. Bu labüd idi! Axı onun yolunda od ayaqlamışam. Adı səslənəndə od tu-tub yanmışam. İndi də... olan oldu, keçən keçdi,- deyə bilərəm?

Bərdəmizin toz-torpağından tutmuş, gül-çi-çəyinə, pambıq tarlasındakı pişpişəsinə, pıtrağı-na, quzapayına, quşlarına, toyuq-cücəsinə, mal-heyvanlarına, qız-gəlinlərinə kimi...vurğunu oldu-ğum el-obamın adət-ənənəsinə asimi çıxırdım?

Oxuduğum bu qədər kitab, mənə bunumu vermişdi? Romanlardan, povest və hekayələrdən, pyes və pritçalardan, şer və poemalardan qazan-dığım məgər bu idi?

Acı göz yaşları axıda-axıda, ağlaya-ağlaya baxdığım hind filmləri mənə bunu bəxş eləmişdi?

Qürurumun ucbatından ayrıldığım Xuraman eşidib-bilsə mənə nə qiymət verərdi? Ömrüm bo-yu dönük damğasını gəzdirməliydim?

Yəni, bəşəri sevgi məfhumu buydu?

Yox!

Bu qədər də dönüklük... Bərdədən görünən dünyada ola bilməzdi!

Məni seçdiyinə görə, mənə bəslədiyi saf məhəbbətinə görə, heç kəsə gözünün ucuyla da olsa baxmayan

Komsomolun mükafatı beləmi ol-malıydı? Xəzan yarpaqları oynaşmalıydı 16 illik ömründə?

Yox! Yox! Yox!

Belə dönük də, ola bilməzdim mən...

Günahı Odessanın, ya Yitkanın praqalı ol-mağının üstünə də atmaq olmazdı. Bəlkə elə nə vaxtsa... Nefertiti kimi bir ərəbə, ya incə bir fran-sıza, ya da ki, bir iri dodaqlı seksual zənci qızına rast gəlsəm, onda əhdimi-ilqarımı pozmalıyam?

Yoox! Mənən bu dərəcədə pozğunlaşa bil-məzdim!

Buna haqqım yoxdur.

Məni ürəkdən sevən, yolumu gözləyən, iri maralgözlü, on üç yaşında qəlbimi alan, məsum, həyasından söz deyəndə çiyələk kimi qızaran sevdiyim qız Komsomolum var!

...Bu səhər də, obaşdan qalxıb açıq dəniz idmanına gedə bilmədim.

Səhər yeməyindən sonra da işləri bölüb, bu günün qəzet-jurnallarını oxumağa başladım.

Saat 09:12- də Yitka bacısı ilə evdən çıxdı. Geyimlərindən hiss elədim ki, dənizə gedirlər.

Bahoo! Həyəcan məni bürüdü...

Tez, kəndlərində obabaşı olmaq eşqiylə alı-şıb-yanan cindar Mürşüdü çağırıb, onların arxa-sıyla yolladım. Özüm də nə qədər elədimsə, fik-rimi cəmləyib oxuya bilmədim.

Sonda qəzet-jurnalları kazarmada dolabça-ma yığıb, oğrunca aradan çıxdım.

Bu gün dördüncü gün idi.

Tomagildə mülki geyinərək, Чайка-3-ü də özümlə götürüb, çimərliyə üz tutdum...

Meşə ayısına bənzər, tük basmış heybət Mürşüdü, çimərlikdəki incə insanlar arasından çox tez tapdım. Alnında iri tər damcıları puçur-lamışdı. Baxışlarını yayındırıb:

- Zaxoda getmişdim, qayıtdım ki yoxdular, - tələşlə dedi.

O, qızları itirmişdi!

Bir qədər onu danlayıb, üzünə lopayla tü-pürəndən sonra, birlikdə axtarmağa başladıq.

Əvvəlcə... ötən dəfə çimərlikdə onlarla çim-diyim yerin sahilindən başladıq.

Günəş özünü açmışdı!

Elə bərq vururdu, sanki neçə vaxtdı yağan yağışlardan qisasını alır, acığını çıxırdı.

Xırda balıqqulaqlarıyla dolu qum par-par parıldayır, yalın ayaqlarımızı od kimi yandırırdı.

Saat 11:13- ə kimi onları addım-addım ara-yır, dincələn insanların arasından gözdən qaçır-mamağa çalışırdıq.

Çox əsəbi idim.

Başım qəflətən ağrımağa başladı.

Sanki stressdən sarsıntı keçirirdim.

Bütün çimərliyi bir-birinə vursaq da, onları tapa bilmədik. Belə hikkəli, kədərli, dalğın halda məni Svetayla Rita da görər.

Başımın ağrısı şiddətlənir, az qalırdı alnım çatlaya! Günəş getdikcə daha çox yandırır, əsəb-dən, gərginlikdən ürəyim sıxılır, ağrıya artıq dözə bilmirdim. Saat 12:00-a qədər açıq başıma, gün o ki var, döydü.

Onları tapa bilmədik.

Hirsimi-hikkəmi hiddətlə Mürşüdün üstünə töksəm də, sakitləşə bilmirdim. Ağrıdan lap tən-gə gəlmişdim. Əllərimlə başımı sıxır, gözlərim ar-tıq tor görürdü. Tərslikdən Mürşüdü hıçqırıq tutdu. Tez-tez qorxusundan hıqqınaraq hıçqırır, hərdən də könlümü almaq üçün şit-şit irişirdi.

Çifayda!

Qayıdası olduq.

Yolda bu ağrının təsirindən necə oldusa, qəfil dayanıb fotoaparatı Mürşüdə verdim ki, gəl bu vəziyyətdə şəklimi çək, dünyanın işini bilmək olmaz, birdən ölüb eləyərəm.

Həzarpeşə bir az məni sakitləşdirib, düz üç dəfə şəklimi çəkdi.

Kazarmaya qayıtdıq.

Başım dağılırdı!

Elə bildim beynim indi çatlayacaq...

Elə bu vaxt ağcabədli civzəli Nazı hövlnak özünü yetirdi və tələsik kəkildədi:

- Oğlan gəlmisən ya qız? Duyy gedək, geci-kiyik. İvan уже-y gedib.

- Hara? - soruşdum.

- Aeyepoyta dənə əə!

Anladım ki, Sveta, Nina və Ritagil bu gün təyyarəylə uçur... Sonra da Köln suyu içən İvanı bulanıq şəkildə xatırladım.

Başımı əllərimlə bərk-bərk sıxaraq kövrəl-miş halda, huşumu itirmək dərəcəsində:

- Ölürəm deyəsən! - dedim.

Nazim səsimin titrədiyindən qorxdu və çar-payının kənarında oturub, zarafatından da qal-madı, ərkyana, qaytan dodağını yalayıb:

- Noolubb əəə... səhəydən huyi-mələk Yit-kagilin götünə düşmüsən heç ölmüysən, indi də, elə mən deyən kimi ölüysən?!

Nəfəsim kəsilirdi, güclə özümü sakitləşdirib, amma küçük kimi zingildəyərək dedim:

- Sən Mürşüdlə get onları yola sal, yaxşı deyil, vəziyyətimi də başa sal... Onlarla aramızda olan hörməti yerə vurmaq yaxşı olmaz...

Elə bu vaxt nəfəsim təngidi...

Sanki hidrotəyyarədə çalxalanırdım. Çarpa-yının üstündəki yastığı möhkəm sıxıb:

- Gərək öləm, sonra inanasınız? Ölsəm... Bi..lin... Allah yoxdu... Neyləmişdim ki? Yolumu... göz..ləyən vardı...

Nazimlə Mürşüd üzümə diqqətlə baxıb, tə-başir kimi ağardılar.

Qəflətən Mürşüd götürülüb qaçdı.

Ağrıdan saçlarımı yolmağa başladım, bədə-nim birdən ləmsləşdi, özümü duymaz oldum və sonra da özümdən gedib, tirtap yıxılmışam...

Nazim elə bilər öldüm.

Qıyya çəkib həyətə qaçar. Çığıra-çığıra:

- Babayev, hübab kimi biydən, xıypadan getdi,- deyərək, xırıldayıb aşar.

Səs-küyə, çığırtıya tikintidən bütün rota tö-külüşüb gələr...

Mürşüd leytenant Qreşnoyun kabinetinə ça-tıb, özünü döyməyə başlayar.

Mayor Deqtyar Mürşüdün bu hərəkətlərin-dən heç nə anlamayıb çölə qaçar və görər ki, ha-mı kazarmaya tərəf axışır...

Təcili yardıma zəng vurarlar.

Korzik hamıdan əvvəl özünü yetirib baxar və xırlı-pırlı yoxlayıb nəbzimin vurduğunu təyin eləyəndən sonra, huş-guşla:

"Günvurmadan miningit olub!" diaqnozu qo-yar və təcili hospitala çatdırılmalıdır, -deyər.

Nəsibovla Turabxan taksi dalınca qaçar.

Mayor Deqtyar cəld hərbi hissənin Газ-51 markalı yük maşınını çağırtdırar və zaranqaza-ranq müxtəlif yerlərə zəng vurar.

Maşının taxta banına odeyal sərib, üstün-dən döşək ataraq, məni maşına çıxararlar.

Elə bu vaxt, Nazim yenidən yıxılar...

Mürşüd, Kəngərli, Kaşşeyev və Korzik ya-nımda oturar və sürücü əsgər İlyuxin maşını yer-indən toz qaldıraraq, güllə kimi tərpədər.

Rotanın yüz on nəfərdən çox əsgərlərindən başqa, həm də qonşuluqda yaşayan oğru-əyri, mülki adamlar da hay-haraya tökülüşüb gələr. Bu həngamədən təkcə çex qızlarının xəbəri olmaz.

Hamı elə bilər artıq keçinmişəm...

Naqişüləqi Mamed, zəyəmli Vahid, lümpen-proletariat Əhliman özlərinin baş-gözünə çırpar-lar. Yerdə qalan bizim əsgərlər də sinəsinə, baş-gözünə döyüb, üz-gözlərini cırıqlayırmışlar...

Rota bir-birinə dəyər.

Leytenant Qreşnoy otağına girib Pervomoy-skiyə, - hərbi hissənin komandiri, huşyar podpol-kovnik Dyakivə zəng vurub, həyəcanla məlumat verər:

- Serjant Babayev ölüb!

Generala qədər məruzə edilər...

Odessanın mərkəzi hərbi hospitalında hə-yəcan siqnalı verilər. Ölüm qeydə alınsa, Kremlə hökmən məruzə

edilməliydi.Sosializmin ağır hər-bi qanunları belə məqamlarda var gücüylə işlə-yirdi. Başlı-başın saxlasın idi.

Vəzifəlilərin kürsüsünə bit-birə daraşardı.

Müxtəsəri, hərbi dairə üzrə bütün başbilən hərbi həkimlər başıma toplaşar.

Nəfəsim kəsilmədiyindən, dərhal konsilium keçirib, zəruri nə lazımsa, təcili eləyərlər. Amma heç biri dəqiq diaqnoz qoya bilməz.

Konsiliumdan sonra dərhal məni qaranlıq otağa salıb, tam sakitlik yaradaraq müxtəlif təxi-rəsalınmaz tədbirlər görərlər.

Həkimlərə vacib lazımmış ki, öyrənsinlər, bu hal nədən sonra və necə olub baş verib?

Heyvərə Mürşüd də, necə baş verdiyini qor-xusundan danışmayıb ki, samovolkada olmağı-mız bilinməsin.

Sonda, Faiq rus dilində tərcüməçilik eləyib, həkimlərə başa salar: "Onuncu mərtəbənin çar-dağında işləyirmiş. Günvurma olub, əvvəl başı bərk ağrıyıb, sonra da bu kökə düşüb..."

Qəflətən bədənimdə qıcolma başlayar... Əl-lərim necə qırraşıb yığılıbsa, həkimlər əllərimi, qollarımı açа bilmirmiş...

İlahi!

Doğrudanmı insan belə tez və qəflətən ölə bilər? Özü də günahsız yerə... 20 yaşında...

Gözlərimi açanda qızdırmanın içində yanır-dım. Beynim çatlayırdı.

Həm də ürəyim sıyrılırdı, elə ac idim ki...

Qızdırmayla aclıq məni haldan salsa da, yeyə bilməzdim. Qıcolma yenə baş verə bilərdi...

Növbəti dəfə gözlərimi açanda, bir hərbi qa-dın həkim yanıma gəldi. O məni diqqətlə yoxla-dı... Sonra da nə qədər danışdırıb, dinməmiş və bu vaxt yenidən yuxuya keçmişəm...

Durub gedəndə,hümayun ağından xalat ge-yinmiş tibb bacılarına tapşırar ki, ayılanda xəbər eləyərsiniz.

Əlqərəz, məni изоляционный отдел-ə kö-çürərlər.Yeməyinə bihuşdarı qatılmış adamlar ki-mi dərin yuxuda olmuşam...

Bizim əsgərlər hərbi hissəyə qayıdar və son məlumatları da:

“Yaşayacaq!”- olar.

Deyəsən Əzraillə çilingağac oynamışdım...

İki dəfə bayğınlıq keçirmiş Nazim sevindi-yindən indi də, ağlayırmış.

Elə doğrudan, insanın burnun tutsan canı çıxarmış, buna deyiblər. Durduğum yerdə başı-ma gələn həngaməyə bir bax! Nə qədər arzula-rım vardı pərvərdigar...Komsomol, ağ mirvari sır-ğalı Məhbubə xala, bənövşəgözlü Katerina, çex, praqalı Yitka eşitsəydilər ölmüşəm...

Hələ valideyinlərim... Qonum-qonşu, tələbə dostlarım... Tahir Ağayev...

Hələ Xuraman! Görəsən eşitsə ki, ölmüşəm, neyləyər? Üzünü cırmasa da, göz yaşi axıdar?

Eh...Yəni, həyat doğrudanmı belə bihudə-dir? Bikammı köçürdüm? Necə bihünər olmuş-dum! Bu nə haqsızlıq idi?

Gecəyarı Nazimlə Mürşüd mülki paltar ge-yinib, hospitala gələr. Əvvəl zemelya Şükürü ta-parlar. Şükür də hospitalda yatırmış. Nə qədər yalvarıb-yaxarar, rüşvət pul təklif edərlərsə, yenə onları mənim yanıma buraxmazlar.

Rotanın əsgərləri bütün gün ərzində, zaran-qazaranq zəng vurub, məni soruşarlar...

Gecənin bir əyyamında bihuşluqdan ayıla-ram. Sən demə, sayaqlayıb tez-tez:

“Çörək verin, acam,” - deyirəmmiş.

Azərbaycanlı tərcüməçi dəvət eləyiblər ki, görsünlər nə danışıram...

Duru yemək gətirdilər.

Duru yeməyi içən kimi, özümə gəldim.

Başımın ağrısı tamam kəsmiş, həm də artıq huşum üstümdəydi. Sanki, heç nə olmamışdı.

Hümayun ağından xalat geyinən qızlar nə içirtdilərsə, yenidən yuxuya keçmişəm.

Gündüz saat on ikidən, gecə saat on birə kimi, heç özümdə olmamışam.

Gözlərimi açıb tam ayılanda, yanımda olan polkovnik rütbəli həkim üzümə baxıb:

- Oğul, bura hərbi hospitaldır, bilirsənmi?- xoş, qayğılı təbəssümlə soruşdu.

Hülqumum qurumuşdu...

Getsin bu gün, bir də gəlməsin!

Nəyisə... Ayıldım!

Bütün olanlar mənə yuxu kimi gəlirdi. Zira indi elə sakit idim, sanki heç nə olmamışdı...

Hərbi həkimlər gələndə hətta inadla, demək caizsə, hümmət etməklə:

- Tam sağlamam, inanın heç yanım ağrımır, buraxın gedim,- acizanə dedim.

“Olmaz!”- qətiyyətlə dedilər.

Danışıqlarından belə başa düşdüm ki, doğ-rudan bad-fənaya gedirəmmiş...

Dübarə duru yeməkdən yeyib özümə gələn kimi, Yitka yadıma düşdü. Onun üçün darıxmağa başladım. Onu görmək həvəsi məni öldürürdü...

Hətta gecə yarını keçsə də qalxıb, kağız-qələm tapmaq istəyirdim ki, ona məktub yazam.

Qoy praqalı bacıcığazlar, hospitala yanıma gəlsinlər. Demirdi arvadınam?

Qulağıma Azərbaycan dilində meyxana sə-si gəldi. Haradasa, yaxınlıqdakı palatalarda oxu-yurdular. Ayağa durub, hospital paltarında səs gələn səmtə getdim.

Hospitalda yatan yeddi nəfər azərbaycanlı uşaqlarıymış.Zemelya Şükür, Ramiz Babayev və ilk dəfə gördüyüm, iki bərdəli oğlan da içlərində vardı. Hətta İsa adlı oğlan bildirdi ki, Bərdənin lap özündəndir.

Gecə saat üçə kimi onlarla söhbət elədik.

Gecəni daş kimi yatmışam.

Sübhün badi-səbasında ayılanda... heç elə bil, o ağrıdan çatlayan baş mənim deyilmiş!

Özümü çox yaxşı hiss edirdim. Səhər ye-məyini hümayun ağından xalat geyinmiş, nazlı bir tibb bacısı gətirdi.

Qalxıb yuyundum.

Sap-sağlam idim!

Heç yanım ağrımırdı. İştahla yeməyimi ye-yib, zemelya Şükürün palatasına getdim.

Dəhlizdə ağcabədili Nazıyla qarşılaşdıq. O, mülki paltarda idi. Məni ayaq üstə görəndə sevin-sə də, çivzəli sifətindən qayğılı olduğu aşkar gö-rünürdü. Gülə-gülə:

- Nədi, uşaq kimi babay görmüsən? Rəngin niyə qaçıb?-soruşdum.

İllərdir görüşməyən bağrıbadaş cici-bacılar tək, necə qucaqlaşıb öpüşdük! Onun gözləri dol-du... Nazim kövrək oğlan imiş...

Bahəm, bəzi incə məqamları qara balaban-da qandırmaq lazım gələn, zemelya Şükürün ya-nına getdik. Yolda Nazı danışdı ki, gecəni gözü-nə yuxu getməyib. Hərbi həkimlər mayor Deqtya-ra əminliklə deyiblərmiş:

"Ayılacaq... Amma dəli olma ehtimalı hələ də qalır! Yaxşı ki, bədəncə çox sağlamdır..."

Bütün rota hazırlaşır, yanıma gəlsin.

Doğrudan beləymiş... ölüyə də yiyə lazımdı, diriyə də. Hospitala yaxşı ki, vaxtında çatdırdılar.

Toma və Dusya Nazimdən bu bəd xəbəri eşidib, Valyayla birlikdə yanıma gələcəklər.

Nazı Arkadiya mehmanxanasının poçtuna gedib, Katerinanın anasına da xəbər verib!

Deyilənləri eşidib lap kövrəldim...

Nazı danışırdı: "Ölmədiyini eşidən kimi, sevindiyimdən taksi tutub aeyopoyta təypəndim.

İvanı qızlayla biylikdə tapdım. Sevindiklə-yindən Yitaya qoşulub Svetayla Nina da məni qucaqlayıb öpdüləy. Sveta elə bildi ki, suypyiz etmək üçün sən yəqin gizlənmisən..."

Nazı onlara başa salıb ki, həmişə gözlədi-yimiz dəmir darvazada, sizi çox gözlədik.

Görüş yerini Arkadiya restoranının qarşısı-na dəyişdiyimizdən, vaskının xəbəri yox idi.

Qızlar əllərində çamadan bizi xeyli gözləyib, hətta Klimenkonu təsadüfən görüb ona da deyib-lərmiş. Üçsimli balalayka çalan Klimenkonun isə o vaxt düşdüyüm vəziyyətdən xəbəri yoxuydu.

Nazı dəmir darvazada xeyli gözləyəndən sonra kazarmaya qayıdar və Klimenko ona, o da Klimenkoya vəziyyəti başa salar. Vəziyyəti öyrə-nən kimi, Nazı taksi tutub aeroporta tərpənər...

Sveta, -əsasən kabab və qazayağı, cincilim sıyığıyla böyüyən Mürşüdlə, məni gündüzdən çi-mərlikdə gördüyündən elə bilər ki... Nazı onunla zarafat eləyir. Bir

qədər də ötəndən sonra, ya-vaş-yavaş mənim hospital məsələmə inanmağa başlayar və Nazim deyəndə ki: "Elə bildik ölüb..." hönkürüb ağlayıb da!

Təyyarəyə minik başlayanda isə boynun-dan asdığı qızıl zəncirli kiçik qızıl açarı açıb, Na-zıya verib ki, əbədi hədiyyə kimi mənim adımdan Tofikə bağışlayarsan!

Tərsliyə baxın: Onlar məni saat on bir, on iki arası çimərlikdə Mürşüdlə görüb və hadisə də cəmisi yarım, ya bir saat sonra baş verib...

Həqiqətən ölüm qaş ilə göz arasındaymış...

İvan özü də bu qiyamatdan xəbərsiz olub...

Xülasə, Rita Nazıya aeroportdan bir ağ ayı oyuncağı alıb bağışlayıb. Nazı da qara qıllı Mür-şüddən borc aldığı mənim pulumdan, ona bir "Tüfəng qələm" alıb hədiyyə edib.

Beşi birlikdə şəkil də çəkdirib. Sveta Nazıya öz ev ünvanını verib və bərk-bərk də tapşırıb ki, Tofikin vəziyyətiylə bağlı mənə teleqram vur!

Mirzəalıbəyli Şükürün yatdığı palatada Yit-kaya çex hərfləriylə, amma rus dilində, səliqəli bir məktub yazdım:

"Axşam, saat 20:00-da sizi hərbi hospitalın giriş qapısında gözləyəcəm!"

Və Nazıya da dönə-dönə tapşırdım ki, qa-yıdan kimi məktubu ona çatdır və başa sal ki, beş nömrəli tramvayla

gəlsinlər, dayanacaq belə adlanır: “Пироговская переулок!”

Nazı bildirdi: “Tyamvayın nömyəsini və dayanacağın adını unudajam, yaddaş hündüylüklə deyil ki, onu da kağıza yaz vey. ”

Elə də elədim.

Hamilə, baldırlı bənövşəgözlümü də tamam unutmuşam...Yitka ağlımı başımdan əməlli-başlı-ca alıb. Katerinaya qarşı bu soyuqluq, artıq mə-nəviyyatımda qoyulan ilk etibarsızlıq bünövrəsi deyildimi? Budu Şərq küçəsinin yetirdiyi ərən oğ-lan? Onun ağappaq canının şəhd balını çıxardı-ğımı nə tez unutmuşam? Sədaqətim budu? Axı onun bətnindəki körpənin qanı mənim qanımdır. O körpəni onsuz da heç vaxt görməyəcəm. Heç olmasa bu üç ayı, anasını əzizləməli deyiləm? Bəlkə elə bu qəbahətin cəzasıydı çəkdiyim?

Ehh...

Nazını yola salıb, dalğın halda Baş həkimin otağına gəldim və içəri keçib, kövrəlmiş:

- Xəstə deyiləm daha, sağalmışam, xahiş edirəm məni buradan çıxarasınız, - dedim.

Amma kim idi çıxaran?

Müsəlman əsgərin hərbi hissədə ölmə xəbəri Kremlə, marşal Qreçkoya kimi gedib çıxar, hətta kapitalist ölkələri

bunu şişirdib, mətbuatda, radio və televiziyada bar-bar bağırardılar...

Zavallı Telman Hacıyev də hospitalda yatır-mış. Onu axtarıb birtəhər tapdım. Görüşüb xeyli dərdləşdik. Başıma gələn həngamədən, elədiyim vəsiyyətdən heç xəbəri yoxuymuş. Dəryada balıq sövdası olmadığına əmin olub, hikmətanə:

- Ölünün vəsiyyəti özüylə gedər, amma sə-ninki hamımıza dərs oldu, - dedi.

Axşamüstü, saat 16:00-da hospitaldan qaç-mağı qərara aldıq.

Dördə qalmış Telman zəhləmi aparıb, çox tələsdirirdi, zarafata salıb:

- Örüşündə otla ədə, baldöyəni, baldırğanı, balgülü, baləngi, nə tez yadırğadın bala?- dedim.

Axırı hardansa tapıb gətirdiyi, nimdaş mülki paltarı, iyrənsəm də əynimə geyindim.

Yenicə dəhlizə çıxmışdıq, xəstə yatan bir podpolkovnik bizim əsgər olduğumuzu bilib, tut-maq istəyəndə götürüldük və əclaf bizi hədələyib hospitalın baş həkiminə xəbər verməyə getdi...

Telman əl çəkmədi.

Axırı hospitalın kubikdən hörülüb, əhəngli - qumlu palçıqla suvanaraq, əhənglə ağardılmış hasarından quş kimi tullanıb qaçdıq.

İlk əvvəl püstəyigözlü Tomagilə gəldim.

O qapını açıb məni görəndə, sevindiyindən gözləri bərəldi və... ya Rəbb!

Məni necə qucaqladı! Duz kimi yalayıb:

- Bu axşam Dusya və Valyayla yanına gə-ləcəkdik! Bax! Gül-çiçəkdən, meyvələrdən ban-daqlar da düzəltmişdik! - deyib, rayihəli hədiyyə-lərini gətirdi.

Bu an... o necə doğmaydı!

Sap-sağlam olduğuma əmin olanda:

- Ömür bir iynədir, sapı çox qısa, - dedi və yazığın gözləri də doldu.

Nə etibarlı qadınmış bu!

Hərbi hissədən Nazıyla Mürşüdü və dəvə Hümbəti çağırtdırdım. Kəfəni cırıb xortdamış ölü görürmüşlər kimi mənə sarıldılar.

Nazı dərhal xəbər verdi:

- Özüm kənayda gözlədim balba Müyşüd məktubu Yitkaya veydi.

Yitka açıqca oxuyub, dərhal da deyib:

“Axşam gedəcəyəm!”

Bu sözüylə məni necə balü pər eylədi! Dü-zü, bu xəbəri eşidəndə gözlərim də yaşardı.

Dnepropetrovskidən yenicə ezam olunmuş dəvə Hümbəti kazarmaya göndərib, gündəliyi və Чайка-3 fotoaparatını gətizdirdim.

Telman Hacıyevlə geri qayıtdıq.

Mülki paltarı dəyişib, alatoranda hasardan hospitala keçməliydik. Telman bu dəfə də məni tələsdirməyə başladı.

Artıq bizdən əvvəl hasarın üstünə dırman-mış Laçının Minkənd kəndindən olan İsmayıl Hə-sənova gündəliyimlə Чайка-3 fotoaparatını ver-dim ki, saxlasın.

Gecə imkan tapan kimi hasardan tullanıb hospitala düşəndə öyrəndim ki, sən demə o əfəli də hasarın hospital hissəsində patrullar tutub. Və tutulan kimi də məni satıb:

“Bunların sahibi çölə qaçdı,” - deyər.

Elə yenicə soyunmuşdum, patrullar özlərini yetirdi. Yaxşı ki, şalvarımı çıxarmağa macal tap-mayıb, elə yarılüt halda qaça bildim.

Mən qaçandan sonra üç əsgəri patrullar tuta bildilər və Telman məni çox tələsdirdiyi üçün onunla ağızlaşdım:

- Uçuruma aparırsan məni, - dedim.

O acıq eləyib, təkbaşına geri qayıtdı.

İndi hospitalın Baş həkimi, polkovnik rütbəli həkim tapşırıb ki, nə vaxt samovolkadan qayıtsa, özü gəlib əşyalarını götürər. Tərs kimi sonuncu on iki manat pulum da gündəliyimin arasındaydı.

Ancaq pula, fotoaparata görə yox. gündəli-yimə görə çox narahat idim. Qara xəbər məni dil-xor eləmişdi. Öz palatama girəndə isə, baxıb gördüm, başmaqlarımı da oğurlayıblar. Yenicə soyunub palata xalatını geyinmişdim, baxdım ki, idman formamın finkasını da aparıblar.

İşim lap tərsə düşmüşdü!

Ayaqyalın qalmışdım.

Bir xəstə əsgərin şapşaplarını xahiş edib aldım. O, ayaqyalın qaldığından, məcbur qalıb çarpayısına uzandı. Tibb bacısı bu əməliyyatı da seyr edib, gizlincə xəbər verər. Və başqa bir hə-kim podpolkovnik özünü yetirib, oğlanın başının üstünü aldı:

- Hanı çəkələklərin?

Dərhal da xəstə əsgər, barmağını mənə sa- rı tuşladı...

Zabit üzümə dirəndi:

- Bəs sənin kilər hanı?

İlişdim ki!

Yalandan dedim:

- Öz palatamdadır.

- Hansı palatada yatırsan?-podpolkovnik qı- mışıb bicəngəliklə soruşdu.

Qolumu uzadıb, çox əminlikə palatamın də- qiq nömrəsini söylədim:

- On üçüncü!

Necə arxayınlıqla göstərib dedimsə, həkim zabit inanmasa da, məndən əl çəkdi...

Saat 19:44 idi.

16 dəqiqədən sonra Yitkagil məni giriş qa-pısının ağzında gözləməliydi.

Gündəliyi, 12 rubl pulu, Чайка-3 fotoapara-tını, çəkələk və idman formamın finkasını, bir sözlə bütün var-yoxumu oğurlatmışam...

Hər şey itib...

Sən demə, hospitalın düz dörd böyük giriş qapısı varmış.

Buda növbəti hoqqa!

Yitkanı görmək üçün bərdəli İsanın çəkə-ləklərini alıb, əsas olduğunu hesab elədiyim giriş qapısına sarı getdim.

Bir saata yaxın bica yerə gözləsəm belə, beynəlmiləlçi sevgilim bidad etməyi sevməsə də, gəlmədi... Kəlbəcərli vaynösə Sahibin oğursağı sağanda ağladığını danışanda olduğu kimi mən də kövrəlmişdim. Bihal idim.

Giriş qapısının çox olduğu yadıma düşdük-cə möhkəm əsəbiləşirdim, zira ki, vaxt ötdükcə ümidim üzülür, onun gəlişi hübab kimi partlayıb, bir-bir yoxa çıxırdı... Huş-cuşla hey axtardım...

Eyy, Şərq küçəsinin sadiq ərgən qızları! Av- ropalılar sevgidə sizə həsəd apara bilərlər! Siz sevməyi bacarırsınız! Siz sevdiyinizi özünüzə qibləgah bilirsiniz! Ən azından istəməzsiniz, sev-diyiniz islanmış cücənin kökünə düşə...

Ehh...

Ümidim tam üzüləndən sonra, ayaqlarımı zorla sürüyə-sürüyə, hey çönüb arxaya baxa-ba-xa, demək caizsə, nəqahət halda birtəhər cismi-mi çəkib apardım. Gərək belə olmayaydı!

Mirzəalıbəyli Şükürün palatasına getdim.

Nəsə... Şəban ayının bu günü uğursuzluqla sona yetirdi, zira bütün işlərim tərs gətirirdi.

Bibəhrə Şükürlə də xeyli mübahisə elədik. Köhnə bolşeviklər kimi, mənə iradlar tutur, sanki proletar inqilabı hərəkatı haqqında nəzəriyyə və taktikadan danışırdı:

- Nazimlə sən Kaşşeyevi çox müdafiə edir-siniz. Bizim uşaqlar sənə görə keçə bilmir. Sakit dayanmaqları səninlə bağlıdır. Kaşşeyev sənin bu havadarlığından çox qudurub. Bizim призыв-a olmazın zülmünü verir...

Qudurasan qurbağa! Kənddə bədən tərbiyə dərsi keçmək bax buna deyərəm eyy! Molodoylar starikləri bombardman eləmək istəyir!

... Bu gün, şəban ayının şənbə günü, hospi-talda yatdığımın üçüncü günüydü.

Bərdəli dəvə Hümbət yanıma gəlmişdi.

Kəndlərində bir durnagözlünü əğyar umu-duna qoyub gəlibmiş. Bikam yaman yanğılı danı-şırdı. Ağzının iri, uzun belinin donqar olması və burnunda danışdığına görə kənddə dəvə ləqəbi alıbmış. Dəvə kimi kinli, bedahat da arvadbaz idi. Pələng kimi iri əlləri vardı. Danışanda fıs-fıs fısıl-dayırdı. Mənimlə lovğa-lovğa, amma pişim-pişim-lə danışırdı...

Şatırlı kəndindən olan bu hündürboylu, qısa vurulmuş cod, dalğalı saçlı bomboz dəvə Hüm-bətin fərasətinə bələd olmaq üçün göndərdim ki, polkovnikdən əşyalarımı alıb gətirsin. İpucu da verdim:"Yenidən əsəb sarsıntısı keçirə bilər."

Şatırlı balası çuxura düşmüş gözlü Baş hə-kimə ilan dili çıxarıb yalvar-yaxararaq, ayın-oyun-larımı alıb gətirdi! Xariqüladə zəka sahibi bunu bacarmazdı! Gözlərimdə dəvə Hümbət böyrəkli adama oxşadı. Pervomayskidəki bərdəli

axıska türkü Şükür və Sabirdən sonra üçücü ürəkli, fərasətli tapmışdım deyəsən... Mirzəalıbəyli Sükü-rə, Manya xalanın sözü olmasın bir qoz!

Gündəliyi görüb özümə gəldim.

Ayaqyalın qalmışdım. Hansı əclaf böyələk götürmüşdü axı? Qalxıb qonşu palataları gəzmə-yə başladıq. Boş palatanın birində bir cüt yiyəsiz tapuşka vardı. Dərhal dəvə Hümbət götürüb aya-ğıma taxdı... Və ürəyimdə:

"İndi hesab 1:1 oldu!"- dedim.

Şatırlı dəvənin oğurluqda da, əli yaxşıymış!

Çox mehriban ayrıldıq...

Məndən hamilə qalmış Katerina yox, nə-dənsə Yitka üçün bərk darıxırdım. Ömrün bərə-kəti yaxşı əməl ilə ölçülər. Bəs mənim əməlim niyə beləydi? Bu gün qəti surətdə Yitkanı görmək qərarına gəldim. Axı bir aylıq gəlsə də, o, hər an qayıdıb gedə bilərdi...

İndi də geyinməyə idman finkası tapmırdım. Yaxşı ki, Zamyatini görüb ondan istədim. Yazıq dərhal özününkünü gətirib verdi.

Ramiz Babayevlə razılaşdıq ki, nahar elə-yib aradan çıxaq. Həm də şəhərə təzə hind filmi gətirmişdilər: Преданность.

Filmə də baxmaq istəyirdik...

Palataya yemək gətirən qısaboylu, armud-burun tibb bacısını görüb tapşırdım ki, daha gə-tirmə, yeməkxanada özüm yeyə bilərəm.

Hər kəslə yola gedən Şükürə də tapşırdım, əşyalarımı qorusun, əsgərlər arasında oğruçuluq, talançılıq baş alıb gedirdi...

Xəstə pijamasında gəzən əsgərlər inanın mənə, kirpikdən tük çəkirdilər!

Gözünü qırpdınsa qurtardı. Əl versən dörd barmağın qalardı. Etiqad, prinsip, əqidə, məslək, əməl, amal, yeri deyildi hospital sənə...

Bicənək əsgərlər üçün oğurluq, bir cam su içmək kimi bir şey idi. Qızarıb-bozarmazdılar da!

Hospital hüdudsuz oğurluğun, çapqınçılığın şərəf, zəfər çaldığı nəhr yeriydi! Baş vur suya bil-diyini elə. Müzürrlərin yığışdığı hövzəydi...

Nahar eləyən kimi oğrunca hasardan aşıb götürüldük. Parka kimi birnəfəsə qaçdıq.

Tomagilə getdik.

Turbazada hüd-hüd uçurdu. Dünya öz gər-dişində, təbiət də öz dəmindəydi.

Elə hesab eləyirdim, gedəcəm ki, mənsiz oralar qan ağlayır və necə deyərlər lələ də köçüb yurdu boş... Deyəsən elə düz deyirlər:

“Toy da olsa toyuğun vayıdır, yas da olsa toyuğun vayıdır.”

Nazını pişvazıma çağırtdırdım.

Dübarə öpüşüb-görüşdük. Ağcabədili Nazı dərhal soruşdu:

- Xayici qızlay yanına gəlmədi?

Vəziyyəti və dörd giriş qapısının olduğunu ona aydınlaşdırdım. Elə bu vaxt Mürşüd də özü-nü yetirdi. Onunla da qucaqlaşıb öpüşdük.

Nazının verdiyi sualı o da mənə verdi. Eyni cavabı ona da başa saldım.

Mürşüd əlində iki zərf də gətirmişdi.

Hər ikisi son vaxtlar yavan cümləylə danı-şan, qasırğa Tahir Ağayevdən idi, Tbilisidən yaz-mışdı. Görəsən bir şey eşitməyib?

Turbazanın həyətindəki “Dusyanın hamam-xanasında” yaxşıca çimdim. Dusya maçalka-sa-bunla bədənimi o ki var, sürtüb çirkimi tökdü.

Sirri sirr açar, kiri kir...

Tomagildə mülki geyinib, özümü tam səli-qəyə salandan sonra,şəstlə Anya xalagilə getdim.

- Yitka, bacısıyla çimərliyə gedib,- dedi.

Ramizlə dənizə doğru üz tutdum. Nə qədər axtardıq, beynəlxalq sevgilimi tapa bilmədik.

Qəflətən göy üzünü qara bulud alıb, möh-kəm sel tökməyə başladı.

Qayıdıb Tomagilə gəldim.

Eşidib-bilən uşaqların hamısı iki-bir, üç-bir tökülüşüb gəlir, hamısıyla öpüşüb görüşürdük.

Toma buxurdanda buxur yandırdı. Evi ətir qoxulu tüstü bürüdü...

Mişa, Çingiz və göz bulağını tez-tez silən Əhliman xəbər verdilər ki, xarici qızları yaraşıqlı bir rus oğlanla çimərlikdə öz gözləriylə görüblər.

Hətta oğlan onları gətirib döngələrindən yo-la da salıb... Nələt sənə min şeytan!

Bu da praqalı qızların vəfası, sədaqəti.

Bu da internasional məhəbbət romansı!

Elə yaxşı oldu sənə Don Juan, indi bilərsən bulamacla doğramac yeyən Fatmanisələrin, Gül-çöhrələrin, Asiyabəyimlərin dözümlüyünü, etiba-rını, sadiqliyini, dəyanətini, qədrini...

Qızlardan buket düzəldən oğlan!

İçdən kövrəldim. Qarnıma buru düşdü...

Hardasan eyy, Şərq küçəsinin ərgən qızla-rı! Siz məhəbbət mələklərisiniz! Sizə arxalanıb lap on il də qürbətdə qalmaq olar. Siz xəyanət et-məzsiniz! Ana adı daşımaq sizin boyunuza biçi-lib! Biz yeniyetmələr, içi burmabığlı kişilər qarışıq, hamımız sizə səcdə eləməliyik.

Birçəkləmək, burcutmaq, burnuyellilik kimi... məstanəlik, xumarlıq, cilvəlik, mübhəmlik, munis-lik, işvə-nazlıq da sizə çox yaraşır.

Və birdən ağlıma gəldi ki, Yitka belə iş tut-maz, görünür Dano Nazını bəyənmədiyindən bu addımı atıb. Bir az özümü toxtatdım, uşaqların yanında heç nəyi biruzə vermədim... Yəni bu qədər səmimiyyətdən sonra, onlar buqələmunluq eləyərdi?

Axşam saat 18:07- də hərbi hissəmizə tərəf getdim.

Anya xalanın qonşuluğunda yaşayan kiçik uşaqlardan öyrəndim ki, qızlar evdədir. Hətta ba-laca bir qız mənə məlum olmayan tərəfdən on-ların pəncərələrini də göstərdi. Pəncərə çox mü-nasib yerdəydi. Bu pəncərənin qarşısında dayan-sam, yoldan ötən zabitlər də məni görə bilməzdi.

Arvadbaz Ramizə, turbazanın birəbitdənli və birəotu, birgöz kolluqlu sıx ağacları arasında gözləməyi tapşırıb, taleli, bəxtəvər pəncərənin qarşısına gəldim.

İçəri birhovur boylanıb baxan kimi birəhm Yitkanı gördüm. Necə həyəcanlandım!

O üstünə naxışlı, ala-bəzək böyük bir mə-ləfə salaraq, büzüşüb yatmışdı.

Hospitalda yatdığım günlərdə də... o açıq dənizdə, qızmar qumun üstündə çox olduğundan qıpqırmızı qızarmışdı. Sakitcə necə muşhamuşla yatmışdısa, elə bil heç nəfəs almırdı.

Birdən otağın qapısı açıldı və Dano içəri girdi. Girən kimi də pəncərədən məni gördü.

Gülümsəyərək başını tərpətməklə salamla-şıb, cəld Yitkanı dümsükləyib oyatdı.

Yitka yuxulu olduğundan ilk anlarda, məni gördüyünə heç sevinmədi də... Sonra gülümsün-dü... Və eləcə alt paltarında, utanmadan dikəlib:

- Tofik! Biz gəldik, səni orada tapa bilmədik, - gülümsəyərək məni başa saldı.

Bizaval necə səmimiyyətlə dedisə, inanma-maq, artıq nadanlıq olardı.

Xeyli söhbət elədik. Başa saldım ki:

- Gedib, gəzəyinmi şəhərdə?

Barmağını gickahına tutub:

“Dəlisən? Görmürsən göydən sel tökülür? И ещё голово болит...”

İlahi!

O necə gözəl idi!

Hiss elədim ki, onun yolunda özümü fəda edə bilərəm... Elə bu vaxt əyri, bizdimdik cüllüt lap alçaqdan pırıltıyla uçub yanımdan keçdi.

Yaman duyğuluydum...

Bozarantı düşənə qədər açıq, barmaqliqlı tarixi pəncərədə söhbət elədik. Şirin-şirin:

- Завтра приходи пляж, там скучно без тебя... - dedi.

Çimərlikdə onu necə axtarmağımı, əsəbdən, stressdən,sarsıntıdan, günvurmadan başıma gə-lənləri əl-qolla ona danışdım. Çoxunu da heç ba-şa düşmədi...

-Yaxşı, çimərliyin harasına gəlim?- bizara-fat soruşdum.

- Biz sənlə olduğumuz yerdən на лево, на лево, много на лево, еще на лево... - dedi.

O nə qədər qaş-gözlə, əl-qolla işarə elədisə də, dəqiq yeri başa sala bilmədi...

Hirslənib kiçik, yaşıl üzlü lüğət kitabçasını gətirdi. Və çox diqqətlə vərəqləyəndən sonra ki-tabın bir səhifəsini mənə göstərib прокатный пункт sözünün üstünə barmağını qoyub:

- Читай! - dedi.

Heyranlıqla oxudum.

- Ето где находит? Знаеш? - soruşdu.

Sevinclə qışqırdım:

- Да...Да...

- Потом, мало на лево...

Yenə dəqiq yerini anlaya bilmədim. Sonda belə qərara gəldik: "Sabah saat 09:00-da gəlirəm bu bizəban pəncərənin qarşısına, o yatmış olsa da qışqırıb..."

Lüğətdən hansısa söz tapıb, sevincək:

- Разбудишь,- dedi.

Və mən başa düşəndən sonra, o sakitləşib öz dilində Allaha yalvardı və lüğət kitabını mənə uzadıb:

- На, тебе подарок! - dedi.

Çox maraqlı alındı. Son üç günün qiyamatı-nı elə tez unutdum!

Sonra sapsarı iri, təbii dəri çamadanını açıb, xeyli fotoşəkil gətirdi.

- Посмотри! - deyib, sadəlövhcəsinə bir-bir göstərməyə başladı.

Özünün, Danonun, ata-anasının, evlərinin, maşınlarının, çex rəfiqələrinin şəkilləri çox ma-raqlı idi. Onun qısa geyimli çex bir rəfiqəsinin şəklinə çox diqqətlə baxdığımı görüb, əlimin üs-tünü necə gəmirdisə, ətimdə bütün dişlərinin yeri qaldı... Bivəhm Yitkayla xeyli didişdik.

Bu axşam da... tarixi bir gün kimi, Yitka adlı əbədi ömür romanıma yazıldı.

Artıq gec idi. Filmə baxmaq üçün gecikə bi-lərdik, odur ki, hospitalı bəhanə eləyərək görü-şüb onlardan ayrıldım.

Cancığaz Ramizi turbazada Çitto-Marqarit-ta mahnısını oxuyan yerdə yaxaladim və taksiyə oturub Украина kino-teatrına getdik.

Bilet götürəndən sonra, film başlayana kimi vaxtımız qaldığından копчённый kolbasa və çö-rək alıb yedik. Преданность filminin birinci seri-yasına baxıb, ikinciyə baxa bilmədik. Çox gec idi.

Hospitala qayıtmalı, dava-dərman atmalı və iynə vurdurmalıydıq...

Tramvaya minib geri qayıtdıq.

Əlvida, Yitka Zahalkova

Odessa, 13 avqust 1972- ci il.

Bazar günü...

Özümdən asılı olmayaraq bozarantı vaxtı, saat 06:00-da oyandım. Xeyli yatmaq imkanım vardı, amma yerimdə hey qurcalanır, yenidən yuxuya keçə bilmirdim.

Bu gün inşaatçılar günüydü...

Hərbi bayramımız!

Qalxıb geyindim və gedib Ramizi də oyat-dım. Könülsüz yuyunduq. İynələri vurdurub, həb-ləri atandan sonra, səhər yeməyini də yemədən, məqam tapan kimi, saat 07:34 -də hündür daş hasardan oğrunca tullanıb qaçdıq.

Tramvay xəttini keçən kimi parka girdik.

Parkdakı sıx ağaclıqdan baxıb, sakitçilik ol-duğuna tam əmin olandan sonra tramvaya minib turbazaya getdik.

Qəbahət içərisində boğulan Valyanın sözü olmasın: Tolyanı,Toliki və Tofiki bulaq başına su-suz aparıb, susuz gətirən Toma hələ yatmışdı.

Oyanıb alt gecə köynəyində qapını açdı. Deyəsən tək idi. İçəri girən kimi arxadan qapının sürgüsünü saldı.

Bu gün bənövşəgözlü Katerina da, naharda məni gözləməliydi...

Xəstə olduğumu, ölümdən döndüyümü və hospitalda dava-dərman qəbul edib, iynə vurdur-duğumu ona başa salsam da:

- Elə şey yoxdur, soyun! -dedi.

- Dostum Ramiz də qapıda gözləyir...

Kimə deyirsən?

Lütləyib məni yatağa saldı.

Cəmisi yarım saat vaxtım qalmışdı, Yitka pəncərədə gözləyəcəkdi...

Tomanın çarpayısının cırıltısı məni ehtiras-landırır, özümdən çıxarır, tez-tez də qulağıma isti nəfəsi və şəhvətli səsiylə pıçıldayırdı:

“Toliki də, Tolyanı da sənə görə qovdum...”

Ehtirasımızı söndürən kimi qalxıb mülki pal-tar geyindim. Ramiz üçün də, göy mil-mil şalvar və neylon köynək götürdüm.

Saat 09:09 -da pəncərənin qarşısında idim. Onlar yuxudan oyansa da, tənbəllikdən yerlərin-dən durmamışdılar. Amma pəncərə açıq idi.

Günəş açıq səmada göz qamaşdırırdı!

Yitka gözlərini qıyıb mənə diqqətlə baxdı və:

- Tofik Babaev, sən get üzünü qırxdır, tur-bazanın həyətində gözlə. Biz də завтрак eləyib gələk, - birtəhər başa saldı.

Razılaşdıq...

Arkadiya mehmanxanasında bərbərxanaya girməzdən əvvəl, elə üzü tüklü Katerinanın ana-sıyla görüşmək yerinə düşəcəkdi. Odur, poçta girib zəif xəstə səslə ciyildədim:

- Hospitaldan qaçıb gəlmişəm. Xəstə yatı-ram. Tapa bilmədiyim tabletka dərmanı almaq üçün bu gün Katerinanın aptekdə işləyən rəfiqə-sinin yanına getməliydik.

O naharda məni gözləyəcək.

Xahiş edirəm çatdırın ki, gələ bilməyəcəm. Təcili hospitala qayıtmalıyam.

Anası üzümə diqqətlə baxanda, sümükləri açıqca bilinən almacıqlarımı, tüklü üzümü, arıq ovurdlarımı, damarları çıxmış arıq əllərimi görüb, xəstə yatdığıma inandı və dərhal da şnuru bu-rum-burumlu dəstəyi qaldırıb Katyanı yığdı.

Cəld sağollaşıb, aradan çıxdım!

Sanki üstümdən dağ götürülmüşdü...

Qoy məni hamamda ehtirasla gözləməsin.

Yazıqdı!

Üzümü təraş elətdirib, turbazanın həyətində Yitkanı gözləməyə gedəndə, yolda Гастроном-a girib сгушенное молоко, булка, конфет aldım.

Hər ikimiz ac idik. Turbazanın bağında tax-ta oturacaqda oturub, səhər yeməyi yedik.

Yeyib qurtarandan sonra, hövsələsizlikdən Anya xalagilin həyətindəki tualetə sarı xeyli irə-lilədik. Əynimizdə mülki paltar olduğundan çox ehtiyatla hərəkət edirdik.

Təpərsiz Mürşüdgil naryadda imiş. Bir də gördüm Turabxanla Əhliman gəlir. Taxta hasarın arxasından Əhlimanı iki dəfə adıyla çağırdım.

İkincidə eşidib, o üz-bu üzə döyükdü və sə-sim gələn səmtə doğru gəldi.

Görüşdük.

Lap yerinə düşdü. Плавки-m yox idi. Dedim tez qaç, dolabçamdan gətir. Qayışbaldır Turab-xanla da qucaqlaşıb görüşdük.

İndi çimərliyə getməyə tam hazır idim...

Qızlar gəldi.

Чайка-3-ü də götürmüşdüm. İçərisinə kiçik yumru kasetdə təmiz ağ lenta alıb salmışdım.

Yolboyu, xiyabandan keçəndə sanatoriya-nın bağında zorla da olsa, çimdikləşə-dürtmələşə onun bir neçə şəklini çəkdim. Çimərlikdə həmişə bizim rota düşən yerdən məskən saldıq. Налево, налево, много на лево, ешё налево...

Yitka buranı deyirmiş!

Ramizi göndərdim, bir kənardan təkbaşına uzansın və zarafatla dedim:

“Sənin örüşün deyil bura...”

Qızlar başqa adamla gəlməyimi istəmirdi...

Soyunub dənizə girməzdən əvvəl artıq isin-miş qumda yanaşı uzandıq.

Dilxun Ramiz aralaşan kimi dilxoşluqdan cırmaqlaşmağa başladıq.

Əvvəl o başladı.

Dizlərimi, budlarımı və qarnımı uzun sağ-lam bərk dırnaqlarıyla sürtüb cıza-cıza, cıriqladı. Mən də canalıcı, füsunkar çex qızının saçların-dan yapışıb çəkir, hətta yolmağa başlamışdım.

O daha da acıqlanıb, çərxi-dövranı lənətlə-yərək məni dırnaqlarıyla şırımlayırdı. Bütün bə-dənimə kotan kimi iz salmışdı.

Sonra da başladı qolumu dişləməyə. Necə gəmirirdisə az qalırdı ətimi qoparıb canımı alsın.

İsti dodaqlarının ləzzətinə görə zorla dözür, amma qışqırmır, ağrısa da özümü sındırmırdım.

Başının üstünə rəngli günlük tutmuş bacısı onun nə etdiyini görür, üstünə tez-tez qışqırır və öz dillərində nəsə söyürdü. Dano həmişə məni müdafiə edir tərəfimi saxlayırdı.

Mən də onun yançaqlarından, baldırların-dan çimdikləyir, saçını yolur, ayaqlarının altını qaşıyıb, gah güldürür, gah da cinləndirirdim.

Hər ikimiz subaylığın sultanlığını yaşayır, gəncliyin beçə balını, şəhdini çıxarır, qayğısız anlarını şərab əvəzinə içirdik!

Чайка-3-ü çıxarıb, zorla onun lap yaxından şəklini bir neçə dəfə çəkdim. Çəkəndə gah göz-lərini bərəldir, qəsddən

gah ağzını əyib dilini çı-xarır, gah da çəpgöz adamlar kimi baxırdı.

Gülməkdən, boğuşmaqdan doymurduq...

Birdən necə oldusa, Dano məndən fotoapa-ratı istədi. Ayağa qalxıb öz dilərində Yitkaya da nə dedisə, Yitka yanıma uzanıb adam balası kimi qolunu boynuma saldı və qəflətən mənə sarılıb bacısına qışqırdı:

- Çək!

Özümə gəlməyə macal tapmamış, təkrar:

- Çək!- gülə-gülə çığırıb, üzümdən dönə-dönə öpməyə başladı.

Sonra da çox təmkinli halda:

- Tofa! Bax bu şəkli çıxarıb, evlənəndə ar-vadına göstərərsən,- dedi.

Tez, uşaq kimi qışqırdım:

- Bu şəkli böyüdüb toyunda ərinə hədiyyə verəcəyəm, - dedim.

Biz dalaşdıqca, saçlaşdıqca, Dano elə hey, durmadan çaqqaçaq çəkirdi...

Amma, öz dillərində xeyli danışıb, bir-birinə çəmkirib, çəkişəndən sonra Yitka gəlib düz ya-nımdaca oturdu.

Qoşa şəkil çəkdirdik!

Bu vaxt necə mehriban idi!

Sonra fotoaparatı alıb, mən də onları bir neçə pozada çəkdim.

Durub limonad içməyə getdik. Cütbacı yol-boyu getdikləri yerdə, arxadan bir neçə şəkllərini də çəkdim.

Su içib qayıtdıq.

Xoş, ilahi günlərdən birini yaşayırdım.

Dəqiqələr uçurdu.

Buna əsgərlik həyatı demək olardı? Bu gün əsl həyat yaşayırdım.

İsti qumun üstündə xeyli beşdaş oynadıq...

Necə bəxtəvərdik!

Dənizə girib, bu dəfə də suda boğuşmağa başladıq. O, suda məndən çəkinirdi. Sonra dəni-zin dibinə baş vurub balıqqulağı çıxarmağa baş-ladıq. Kim nə çıxarırdısa Dano yığıb sahilə daşı-yır, yaxşılarını göstərib:

- Praqada rəfiqələrimizə Qara dənizdən hə-diyyə eləyəcəyik,- deyirdi.

Hər dəfə də Yitka çığırırdı: ”Балбес! Qara dənizdən və Tofadan!”

Yitkayla dənizin dibindən balıqqulaqlarını çıxardıqca, çimdikləşir, burnumuzu sıxır, qulaq-larımızı burur, qışqırıb zarafatlaşır və bəxtəvər-cəinə deyib gülürdük...

Artıq Dano balıqqulaqlarını seçir, ovucuna yığıb saf-çürük eləyirdi. O qədər yığıb topladıq ki, axırda sahildə isti qumun üstündə oturub, çox həvəslə daha gözəl və irilərini ayırmağa başladıq.

Günortaya qədər beləcə oynayıb əyləndik.

Günəş lap yandırıb-yaxan vaxt, Yitka Pra-qadan gətirdiyi çimərlik kremindən canına çəkdi. Sonra məni də qılıqlayıb, zor-xoş yerə uzatdı.

Üzümü, boğazımı, qollarımı və sinəmi öz dillərində deyinə-deyinə kremlədi.

Ömür tariximizə düşəcək yeni, unudulmaz bir gün yaşayırdıq.

Saat 14:00-da nahara getməyə yığışdıq.

Onları restorana dəvət elədim. Yitka başını bulayıb:

- Нельзя,- dedi, ты солдат!

Artıq görünür, Sovet əsgərinin pul sarıdan əziyyət çəkdiyini bilirdi.

Heç üç manat da aylıq əmək haqqı olar? Yitka Danoyla məndən kiçik olsa da söz sahibiy-di və baxışlarımızı o istiqamətləndirirdi.

Evə qayıtmağı qərara aldıq.

Yol boyu hey didişdik.

Onun çıxardığı hər bir oyun, başa saldığı hər söz düşüncələrimə rəng qatırdı.

Növbəti dəfə qolumdan bərk dişləyəndə, özümdən asılı olmadan, çılpaq qoluna bir sillə çəkdim. Sillə tərs kimi sərt alındı. Mənə elə gəldi ki, artıq ona yaxınlaşmaq vəhşi heyvanın qəfəsi-nə girmək kimi bir şeydi. Üçümüz də mıxlanıb yerimizdə qaldıq.

Qəflətən heyrətlə üzümə baxdı və heç nə demədən küsdü.

Axı o da məni bərkdən dişləyirdi...

Küsüb, irəlidə təkcə getməyə başladı.

Qaçıb ona çatır, nə qədər eləyirdimsə kön-lünü ala bilmirdim.

Birdən-birə yaman peşman oldum!

Dərk elədim ki, nə qədər olmasa o həm uşaq, həm qonaq, həm qərib, həm də zərif məx-luqdur...

Həm də Komsomol kimi doqquzuncu sinif şagirdiydi!

Hardansa bir atalar sözü yadıma düşdü:

“Oğul arxa, qız yaraşıqdı.”

Turbazanın qarşısına çatanda, dedim:

- Arkadiya mehmanxanasının arxası tərəf-dən gedəyin, bu tərəfdən getsək hərbi hissədən görə bilərlər.

Yitka qulaq asmadı və məni danışdırmadan başını aşağı dikib getdi.

Hirsimdən mıxlanıb yerimdəcə qaldım.

Dano üç dəfə çönüb məni səsləsə də, hik-kəmdən getmədim.

Axırda tərsə düşüb, dayanmadılar. Tərslik-dən fotoaparatım da onlarda qaldı. Yitka döngəni burulana qədər, qayıdacağına ümid edirdim.

Amma acıq verərək, çönüb:

- Axşam da gözləmə! - dedi

Hirsli-hikkəli turbazadakı restoranının qarşı-sından keçəndə, gördüm divara rəssamın çəkdiyi gözəl bir tablo söykəyiblər. Diqqətimi çəkdiyin-dən dayanıb tabloya tamaşa eləməyə başladım. Elə bu vaxt restoranın qapısı açıldı və mayor Deqtyar qapıda göründü. Nəzərlərimiz bir anda qarşılaşdı və dərhal da əclaf məni tanıdı.

O, cibindən siqaret çıxarıb yandıra-yandıra və heyrətlə üzümə bax-baxa, tamam sərxoş adamlar tək sayıqlayırmış kimi, öz-özünə:

- Ba..ba..ev? - pıçıldadı.

Hospitalda yata-yata, mülki paltarda ələ keçmişdim!

Elə bil məni ildırım vurdu.

Cəld üzümü əks istiqamətə çevirib, asta ad-dımlarla turbazanın əsas korpusuna sarı get-məyə başladım. Arxadan mayor Deqtyarın ümid-siz səsini eşitim:

- Бабаев, Бабаев!

Arxaya çevrilmədən, yerişimi dəyişmədən çox sakit və sərbəst yoluma davam elədim. Guya çağrılan mən deyiləm və Babayev familyası da mənə aid deyil.

Özümü itirmədən, sərbəst, eyni aram ad-dımlarla aralaşırdım.

Qulağım səsdə idi.

O arxamca qaçsaydı, mən də qaçasıydım! Amma belə olmadı. O bir neçə dəfə də:

- Babaev, Babaev, - qışqırıb susdu.

Döngəni burulan kimi götürüldüm...

Xiyabana girib gizləndim.

İlahi! Bu nə zibiliydi düşdüm? İndi başıma haranın daşını salaydım?

Yitkayla çəkdiyim kefin dadını çıxarmamış, iztirabını yaşayası oldum. Bu artıq dəhşət idi. Bəli, deyəsən hər şeyə son qoyuldu.

O məni dəqiq tanıdığı üçün arxamca qaç-madı. Çox güman ki, daha Odessada məni sax-lamaz! Hospitaldan çıxan kimi də Pervomayskiyə yollayacaq...

Əyləncəm burnumdan gəlirdi. Odessayla, Yitkayla vidalaşmalı olacağam. Elə pis olmuş-dum ki, yeni sarsıntı keçirməsəm yaxşıdı...

Hələ hamilə Katerina!

Həzin bir musiqi çalınsa ürəkdən, vallah lap ürəkdən hönkürüb ağlayardım. Doyunca, ürəyim sakitləşənə kimi...

Deməli Yitkayla romanımızın sonuymuş bu gün?! Şər qüvvə başımın üstünü nə pis yerdə, nə yaman almışdı? Beynəlxalq məhəbbətimin ömür işartısı özəliyirdi?

Hardansa, nədənsə, şüuraltında Xurama-nın xatirələri oyanırdı... İlahi son vaxtlar sevilmə-yə-sevilməyə onu necə sevirdim! Qəribəydi, indi də bu əbədi sevgim, orta məktəm nağılım unu-dulub yaddan çıxmağa, qocalıb yaddaşımdan si-linməyə, sanki vaxt tapmırdı. 1 May günləri Xu-ramanla yanaşı nümayişə çıxardıq! Görəsən xa-tırlayır? Gecələr tək-tənha qol-budaqlı xan çina-rın altında oturub düşünər, öz-özümə onunla söhbətlər edərdim. Ulduzlar da yarpaqların çox-luğundan görünməzdi... Gündüzlər bu ağacın üs-tündə qarğalar qarr-qarr elədikcə, kövrələrdim...

Sonra da hardansa qurbağagöz Ələsgərin fürərəoxşar neybət, dombagöz atası, hesabdar Qanboy yadıma düşdü.

Hamərd, həyətlərindəki hər budağı mey-vəylə dolu ağacdan arvadın, uşaqların qoymazdı yeyə. Tamarzı qalardı evdəkilər! Ələsgər özü də, təmiz, ütülü, nişastalı süfrədə qarın dolusu ye-mək yeyə bilməzdi, qağasının qorxusundan... Sentyabr ayında qoz tökəndə, ağacın altına nişa-nə qoyardı əclaf! Ayaq izlərini yoxlayardı...

Sərələyhlənə-sərələyhlənə getdiyim yerdə təsadüfən şəhvətli dişi, püstəyigözlü Toma qarşıma çıxdı. Dərhal gözləri oyur-oyur oynadı.

Birdən gördü, qəm dəryasında batmışam...

Başıma gələni danışdım. O məni qucaqla-yıb, ürək yanğısıyla:

- Qurban olum sənə, heç nədən qorxma. Gəl gedək bizə...Kaşşeyevin saxladığı arvad mə-nim rəfiqəmdi. Onlar indi bizə qonaq gələcəklər. Yeyib-içərsən. Hər şeyi unut. Çalış bir hadisə baş verməsin, ta olandan sonra, bu fani dünyada dərd çəkməyinə dəyməz...

Toma öz fəlsəfəsini xırdalayıb, zorla məni razı saldı və evlərinə apardı...

Ağlıma gəldi ki, doğrudan da olan-olub, da-ha özümü öldürməli deyiləm ki?

Canım qumlu idi.

Kaşşeyevgil gələnə kimi camadar Dusyanın hamamında çimməyə qərar verdim.Toma da mə- nim təklifimlə razılaşdı.

Dusya məni yaxşıca çimizdirdi.

Özümü tam səliqəyə salıb, Tomagilə gələn-də gördüm, Kaşşeyev də saxladığı arvadla gəlib.

Öyrəndim ki, mayor Deqtyar hərbi hissədə yoxdur. Görünür evlərinə gedib. Bu, bir az yaxşı xəbər oldu...

Toma ütülü süfrə açmışdı.

Nimçələrə qızardılmış kolbasa çəkdi. Araq, çaxır butulkaları açıldı. Bir-iki qədəh araqdan vurmuşdum ki, kefim duruldu. Mayor Deqtyar gö-zümdə qarışqaya döndü:

"Cəhənnəmə göndərsin Pervomayskiyə!" - ürəyimdə dedim.

İki-üç aya onsuz da əsgər həyatım bitir.

Yitka üçün lap Praqaya gedərəm. Praqa da kapitalist ölkəsi deyil ki, buraxmayalar!

Bu günkü inşaatçılar günü münasibətiylə Kaşşeyev məni təbrik elədi:

- Sənə Pervomayskidən hərbi hissə koman-diri Dyakivin adından Гpaмota göndərilib. Yəqin ki, hospitaldan çıxan kimi mayor Deqtyar təqdim edəcək...

Görünür zaftalı mayorun mülki paltarda mə-ni tutmasını Kaşşeyev hələ bilmirdi.

Bəlkə mayor yanıldığını zənn edib? Məni kiməsə oxşatdığına əmin olub? Qafqazlıların bir-birinə oxşaması mümkün idi... Nə bilim axı, Allah özü kömək olsun!

Daha dərd çəkməyin heç bir faydası yoxdur.

İki qədəh araq içəndən sonra pivə içməyə başladım. Kaşşeyevlə xanımı bir butulka Сто-личная водка arağı içib qurtardı. Toma da işvəli təbəssümlə məni süzür, pivə içirdi...

Kefim ala dağdaydı.

Necə oldusa, limondöş Toma alovlu baxı-şıyla gözlərini üzümə zillədi, titrəyən barmaqla-rıyla saçımı tumarladı və gizlincə əlini dizimdən yuxarıya gəzdirdi... Arıq əlindən tutub:

- Səndən ikisi olsaydı, birini dərhal güllələ-yərdim!- dedim.

Bihuşanə, qırış düşmüş kədərli əlini heç nə düşünmədən boynuma doladı...

Süfrənin xərcini Kaşşeyev çəkmişdi. Onlar ikinci Столичная водка butulkasını açanda, mən ayağa qalxdım. Başa saldım ki, hospitala qayıt-malıyam, çox içmək, gecikmək olmaz!

Bir ümidim vardı: Allah zəhmətkeş admları sevər, olan olub... Bayırda çox sıçraq bir cücünü əlimin üstündə gördüm, üfürməyimlə yoxa çıx-mağı bir oldu.

Yitkagilin pəncərəsi qarşısına bayğınlıq də-rəcəsində gəldim. Axı, o məndən küsmüşdü!

İki bacı, hərəsi öz çarpayısında uzanmışdı...

Günorta günəş o cür hərarətlə yandırsa da, artıq qara bulud səmada özünü göstərib, vaxtın-dan qabaq toran salmışdı. Hər an yağış başlaya bilərdi. Təşviş və üzüntüylə lap irəli durdum.

Alacaqaranlıqda məni görən kimi gülümsə-dilər. Sanki heç küsməmişdik!

Başıma gələnləri qüssəylə danışdım. Yitka diqqətlə qulaq asıb, - o içəridə günəşli ayna kimi görünürdü - ciddi şəkildə qaşlarını düyünlədi:

- İndi necə olacaq? - həyəcanla soruşdu.

O mənim halıma acıyırdı. Dano da pis ol-muşdu, hətta dodağına zavallı bir təbəssüm də qondu. Heyfsilənərək başlarını buladılar.

- Ola bilsin məni Odessadan çıxarıb Pervo-mayskiə göndərsinlər. Ola da bilər ki, hauptvaxta salsınlar. Onlara Pervomayski və hauptvaxtın nə olduğunu başa salana kimi, mənimki mənə dəydi və min-bir hərəkət göstərəsi oldum.

İçkinin real təsirindən məsələni bir az da qabardıb, qəlizləşdirib... hospitaldan qaçdığıma görə lap dizbata da göndərə bilərlər, - dedim.

Tovuzquşular dizbatın nə olduğunu başa düşəndə, lap heyrətlə, xalq qəhrəmanı kimi mə-nə baxıb, məsələnin ciddiliyini dərk elədilər: Fa-ciə baş vermişdi!

İçdiyimi də bu hadisəylə sığortaladım.

Sonra da lap dərinə gedib, dizbatın Sibir sürgünü kimi bir şey olduğunu, Hüseyn Cavid kimi orada çürüyəcəyimi, qəbirləri belə olmayan Müşfiq, Əhməd Cavad kimi sorğu-sualsız güllələ-nə biləcəyimi də təsvir elədim...

Yitka yataqdan qalxmadan, əlini başının arxasında çarpazlamışdı. Uzandığı yerdən lüt olsa da, sıçrayıb dik qalxdı:

- No... No... Neyləmisən ki? Sən yaxşı sol-datsan! - sadəlövhcəsinə qışqırdı.

- Axı ordu sıralarında əsgərlik çəkən vaxt mülki paltarda gəzmək cinayətfason bir şey sa-yılır! - birtəhər mimikaqarışıq başa saldim.

Onlar məsələnin ciddiliyinə tam əmin ol-duqdan sonra, mənə çox rəhmlə baxsalar da, qatı terroristlərə bəslənən gizli bir maraq hissini də yaşadılar...

- Bu bizim son görüşümüz də ola bilər, de-yəndə isə Yitka ayağa qalxıb, pəncərənin dəmir barmaqları arasından dodaqlarını mənə uzadıb:

- Поцелуй, пожалюста!- dedi.

Nə qədər qorxunc, kədərli bir əhvalatdan danışsaq da, Danoyla gülməyə başladıq, amma kiçik bacısını öpmək fürsətini də qaçırmadım!

Və sonda bir sürgün ömrünün bütün gü-nahını Yitkanın üstünə qoydum:

- Mən o tərəfdən getməyək! - demişdim axı.

Yitka beqafil, bic-bic:

- Səni həbsxanaya salsalar передача-ları özüm daşıyacağam, burnunu dik tut! - dedi.

Yitkanın bu sözünə yenə gülüşdük. Və o mənim qolumdan ehmalca tutub içəriyə, özünə doğru çəkdi və yanağımdan necə dişlədisə, göz-lərimdən yaş gəldi.

Biz artıq ürəkdən barışmışdıq!

Qəflətən soruşdum:

- Sizin məktəbdə Pioner baş dəstə rəhbəri sentimental adamdı? Əgər eşşək anqırırsa iş is-təyir, minin də məni,- deyir, bilirdin?

Nə qədər əl-qol ölçsəm də, bu məsələni ba-şa sala bilmədim ki, bilmədim.

Əgər mayor məni tanımayıbsa, heç nə ol-mayacaq, burası da var, - dedim.

- Хорошо, хорошо... - dedilər.

Məsələnin düzələn tərəfi məni heç qane et-mədiyindən, dərdə əlvida deyə bilmədim:

- Mən həbsxanada yatsam, sən Praqada xoşbəxtcəsinə yaşayacaq, bəlkə də məni ömür-lük unudacaqsan. Amma bil ki, qurbanlıq istəsən yolunda, həmişə hazıram. Bir sözlə: Tüstülənsin bacanız!

Mən isə eh...

Nə anladıqlarını anlaya bilməsəm də, Dano nədənsə lap kövrəldi...

Halıma acıdığından, saçları kəsik Yitkaya öz ana dillərində nəsə başa saldı və hər ikisi çox heyfsiləndi...

Dodaqları boyasız, moruq kimi qıpqırmızı Yitka konkret və qətiyyətlə:

- Sən bir də bura gəlməyəcəksən ki? - təəc-cüb və hüznlə soruşdu.
- Artıq başıma nə gələcəyini, heç özüm də bilmirəm, gün keçə sabah ola... - dedim.
Yitka gözlərimə diqqətlə baxa-baxa, birdən:

- Son dəfə şəhərdə gəzəkmi? - soruşdu.

Mənim axtardığım da elə bu deyildimi?

Sınayıcı məqsədlə, bic-bic gülümsünüb:

- Bir də eşqimi söndürmə, sonra çətin yanar, indi gedib gəzərik, Dano da bizimlə getsinmi? - tərcümə kitabçasıyla başa salıb, soruşdu.

Mən susdum.

Dano özü də, vəziyyətin ciddiliyini... Mənim susduğumu, bacısının da bizimlə onun getməsini ürəksiz dediyini dərk etdiyindən, qəti şəkildə eti-raz elədi.

Və israrla bizi tənha buraxacağının vacib olduğunu bacısına başa saldı və sonda Yitkanın təslim olmaqdan başqa çarəsi qalmadı.

- Ладно... хорошо...- dedi və şərt də qoy-du ki, onda hazırlaşım saat 18:00-da çıxaq. Üç saat sənin əm! Danışdıq?

Sevincimin sərhəddi yox, cəld çılğınlıqla:

- Söz verirəm!- qışqırdım.

İlk dəfə olaraq Yitkayla birlikdə şəhərdə gə-zəcəydik! Bu mənim üçün tarixi şans və bəxtə-vərlik idi... "Üç saat sənin əm",- bu sözü sevdiklə-rimdən nə Xuraman, nə də Komsomol heç vaxt deməmişdi. Bu ilk idi!

Dano da onu ruhlandırırdı.

Razılaşdıq.

O, hazırlaşmağa başlamaq istəyəndə xahiş elədim ki, limon rəngli, qısa sarı donunu geyinsin.

O pəncələrinin üstündə duraraq, gülə-gülə əlini başının üstünə qoyub:

- Ты уже мой солдат муж...- deyib, incə bir qəhqəhə fırlatdı.

Onun bu hərəkətinə biz də gülüşdük...

Sinəsinin üstünə və kəmərinə qırmızı na-xışlarla ad və familyasının baş hərfləri toxunmuş kip donunu geyinib, əlində bahalı bir fransız du-xusuyla yanıma yaxınlaşaraq, açıq pəncərənin dəmir barmaqlıqları arasından, saçımdan darta-darta baş-gözümə, boyun-boğazıma və sinəmə qədər ətirlədi. Sonra gözlərim qarşısında özünü də coşğunluqla ətirlədi. Onun bu parfümü məni sehrli bir nağılda olduğu kimi qanadlandırır, uc-suz-bucaqsız kainatın ənginliklərinə qaldırırdı.

Biz odlu-alovlu vüsala yetişəcəkdik!

O, son görüşümüzün eyforiyasını mənə ya-şadacaqdı! Nədənsə belə düşünürdüm. Həm də onun uşaq olmasını, həddən artıq ərköyün böyü-məsini, dəcəlliyini, tərsliyini, inadkarlığını yadıma salanda isə... bu gecənin bəxtəvərliyinə, düzü bir az da inanmırdım... Ancaq bir həqiqət çılın-çılpaq ortalıqdaydı: Qarşılıqlı məhəbbətimiz çilləsindən çıxırdı! Qəlbimə nigarançılığın verdiyi yük, artıq vüsal baharının gəlişiylə əriyəcəkdi...

Saatın əqrəbləri 18:00-ın üstündə dayanan-da, ruh halımın dəyişkənliyini sevən o qız... ilahi vücuduyla yanımda idi!

Ərklə qoluma girib, sol qolundakı yumru, kiçik qızıl saatın doqquz rəqəmini göstərərək:

- Üç saat vaxtın var, - ədəblə başa saldı.

Əbədiyyətə gedən yolun üç saatlıq dar baş-lanğıcı idi. Xatirələrinin məşəqqəti isə, bütöv bir ömür uzunu yaşanacaqdı...

Onun bircə baxışı bütün dərdlərimi, tüstü-süz, odsuz-alovsuz yandırıb yox eləyirdi.

O yaşıla çalan sarımtıl, limon rəngli qısa, kip donunda gözlərimdə ilahəyə bənzəyirdi.

Əsrarəngiz dünya gözəliydi o!

Bu günə kimi sevdiyim, gördüyüm, tanıdı-ğım bütün qız-gəlinlərin ən gözəliydi!

Canlı əfsanəydi o!

Bu danılmaz bir gerçəklik idi. Hətta o, Xura-mandan və mənim Komsomolumdan da, qat-qat gözəl idi...

O Praqalıydı!

Bizim doğulduğumuz rayonla onun dünya-ya göz açdığı şəhər... yarpaqqarışıq qozalı, qu-zapayılı, pişpişili,

pıtraqlı göz işlədikcə uzanan pambıq tarlasıyla Пражский Град kimi fərqliydi.

Fəqət! Bir gerçəklik də vardı ortalıqda...

Komsomol gözəllikdə ondan geri qalsa da, yerdə qalan bütün fəzilətlərinə görə onu arxada qoyurdu... Yitka ərə getməyəcəyinə baxmayaraq mənimlə öpüşürdü! Siqaret çəkirdi! Bu yaşda içki də içirdi. Bunu nə Xuraman, nə Adilə, nə də ki, Komsomol eləyərdi!

Gözəlliyindən başqa, bütün parametrlərdə Komsomol bu xarici qızı geridə qoyurdu. İsmət, həya, namus, etibar, sədaqət, vəfa... bir sözlə bütün fəzilətlər onda cəmləşmişdi.

Komsomol heç vaxt xəyanət etməzdi!

Lap cavan yaşda başıma bir hadisə gəlib həyatdan köçsəm də, o uşaqlarımızı sədaqətlə böyüdər, başqasına ərə getməzdi!

Bu danılmaz həqiqət idi.

Bənövşəgözlü Katerina da, lap sarıkirpikli özü də... Yitkadan sədaqətli, etibarlıydı! Düzdü Yitka onlara baxan yerdə başmağını sürütləyən uşaq idi, amma, Komsomolla yaşıd idi axı...

Və seçimimə son dərəcə inamım vardı.

Yalnız, yalnız və yalnız Komsomolumla ailə qura bilərdim! Vəssalam!

Yitkayla qol-qola girərək baş götürüb getdik. Elə Lenin parkına girmək istəyəndə, o qolumdan dartdı. Təəccüblə:

- Yitka, hara? - soruşdum.

O gözlərini bərəldib, qaşlarını qaldıraraq:

- Довпределu!- dedi.

Və dönə-dönə də bu sözü təkrarladı.

Özümüz də bilmədən elə hey gedirdik. Kü-çələri park və xiyabanları arxada qoyur, zarafat-laşır, didişir, çimdikləşir, dumbuzlaşır, bax beləcə bəxtəvərliklə, hürriyyətlə əylənirdik...

Özüm də hiss eləmədən, qolumu gəmirən-də yenidən onun kürəyinə bərkdən bir şapalaq ilişdirdim. O dəcəl, uşaq görkəmiylə dayanıb qə-zəblə üzümə baxdı. Elə bu vaxt yüksək rütbəli bir zabit yaxınlığımızdan ötürdü. Qəflətən şəhadət barmağıyla məni göstərib:

- Сол-дат То-фик,- qışqırdı.

Yaxşı ki, zabit fikirli olduğundan onun nə dediyinə əhəmiyyət vermədi.

Dərhal əlimlə dodaqlarını qapasam da, ağ-zını zorla qaçıraraq zabitin arxasınca harayladı:

- Сол-дат... Сол-дат То-фик...

Onu yalvar-yaxar başa saldım ki, hospital-da xəstə yatdığım və əsgər olduğum halda mülki paltarda gəzirəm, məni tutdurmaq istəyirsən?

O səhvini başa düşüb, ciddi görkəmlə, bu dəfə lap soprano səslə qışqırdı:

- Товариш офицер, он не сол-дат!

Zabit yolu keçmişdi və maşınların səs-kü-yündən onsuz da eşidə bilməzdi...

Yolda, başqa bir hərbi-hissənin qarşısından keçəndə, istirahət vaxtı olduğundan bir yerə top-laşmış əsgərlər bizi görüb bəlli zarafatla qışqırış-mağa başladılar:

- Eyy... cavan oğlan, o qızı bizə tulla!

Deyilənləri başa salan kimi, Yitka gülümsə-yərək, incə bir yumor qarışıq, barmağıyla məni göstərib, lap bərkdən qışqırdı:

- Он тоже солдат!

Əsgərlər də, elə mən özüm də onun bu ha-zırcavablığına heyrət edib, gülüşməyə başladıq!

Əsgərlər elə bildi yalan deyir, odur ki, çox maraqlı alındı, əslində onlar bizə biz də onlara gülürdük...

Yitka elə hey довпредели deyə-deyə, yenə Odessanı ayaq-baş eləyib, axırda Lenin parkına gəlib çıxdıq.

Qaranlıq düşürdü.

Nə qədər elədim, Yitka restorana getmədi:

- Artıq vaxtdır, - dedi, özün söz vermisən...

Onu öpmək istəyirdim. Bu bizim sonuncu görüşümüz ola bilərdi. O tələsir, mən isə onu parka çəkirdim. Xeyli çəkişdik. Axırı israr etdiyimi görüb, əl çəkməyəcəyimə əmin olandan sonra naəlac qalıb razılaşdı.

Parka girdik.

Bozarantı vaxtıydı. Qaranlıq çöksə də, park həmişəki kimi qaynayır, millət istirahət edir, gəzi-nir, deyib-gülürdü. Hər ikimiz qayğılıydıq...

Bəlkə, Yitkayla son xoşbəxt anlarımı yaşa-yıram? Kürəyimin tən ortasından bir-neçə soyuq tər damcıları axdı. Bəlkə ona doğrudan vurulmu-şam? O yanımda olanda özümü çox rahat hiss edir, dərdimi unuduram. Hətta ürəkdən qəhqəhə də çəkib gülə bilərəm. Deyəsən hər məhəbbətin öz fəlsəfəsi var. İlahi! Görəsən bu an, onun ürə-yindən nələr keçir?

Eh... nə bilmək olar?

Həyat o qədər keşməkeşli, o qədər dolan-bacdır ki, məsələləri həll eləmək, bəlkə də bu çə-tinliklərdən qaynaqlandığından hər adam bu labi-rinti həll edə bilmir...

Əsəblərim tarıma çəkilmişdi.

Öpüşmək istəmirdi!

Qışqırmaq dərəcəsinə çatmışdım. Hiss elə-dim ki, o məndən çəkinir...Tez-tez tələşla mənə:

- Ни крич, голова болит, - deyirdi.

Və hətta birdən dərk elədim ki, o məndən çəkinir yox, düzü lap qorxur...

Dərhal, xalqlararası məsuliyyət, fərqli dil və din məsələsi məni çuğladı... Düzü müsəlmanlığı, xristianlığı anlasam da, yevrey və slavyan mü-əmmasını heç cürə dərk edə bilmirdim.

Onu mənimlə çıxmağına peşman eləmə-mək üçün, müsəlman etibarımı xristiana sübut eləmək xatirinə... məcburi olsa da, öpüşmək eh-tirasımı öldürməli olduğumu anladım.

O, həm də qorxduğundan inciyib küsə bilər, həyəcan, sarsıntı keçirə bilərdi. Qəflətən qolun-dan dartıb:

- Di, gəl gedək! - hirslə-hikkəylə bildirdim.

Doğrusu o bakirəliyini qorumaq istəyirdi!

Bir xeyli yanaşı, sakitcə addımladıq.

Qəflətən bir hərbi zabit göründü... Və Yitka səssizcə zabiti göstərib, qaranlıq olsa da, məni xiyabana doğru çəkdi.

Xiyabanın zülmət bir yerinə çatanda, onu saxlayıb öpməyə başladım.

Bu dəfə dəlicəsinə öpüşdük...

“Mən tezliklə hərbi xidməti bitirəcəyəm... Ri- salə yazarsan... Sən gözəlsən... Biz görüşəcə-yik!” - o heç nə anlamasa da, hey pıçıldayırdım...

Onu döngələrindən ötürəndə dayandıq və sonuncu dəfə qucaqlaşdıq...

İncə zövqlərin ən incəsiydi o!

Ehtirasla... yarım saata kimi səssizcə, lal-dinməz öpüşdük... canı istiydi...

O evlərinə, mən isə gözləri dolmuş halda Tomagilə gəlib, hərbi formamı geyinərək, hospi-tala yollandım...

Heyim qalmamışdı...

Mürşüd ələ keçdi,

özü **yıxılan ağlamaz!**

Briqadanın iflası

Odessa, 14, 15, 16, 17 və 18 avqust 1972-ci il,

ı - v günlər…

Çox yorğun, nigaran, pəjmürdə yatdığım-dan səhər oyana bilmir, yerimin içində hey qur-dalanır, filosoflar kimi yeni nəzəriyyə irəli sürür-düm: Bütün yarananlar sonda ölür və torpağın ağuşuna qovuşur... Olursan bir neçə ovuc tor-paq... Əbədi ana torpaq! Deməli nə alındı? Ölü-mün qadın cinsli olması!? Belə getsə xristian-larda ərim var deyənə təəccüblə baxacaqlar de-yəsən... Kimə ağıllı sual verirsənsə, ağrılı cavab alırsan. İnsanlar yalan və xəyanətdən boğulur...

Mayor Deqtyarın məni mülki paltarda gö-rəndə, tanıyıb-tanımadığını da götür-qoy edir, bir nəticə çıxara bilmirdim.

Yaman pərişan idim.

Qapım döyülmədən açıldı.

Bakılı oğlan idi… Palataya girən kimi, hövl-nak, tenor səslə:

- Arxanca bir старшина gəlib, səni hospital-dan çıxarıb aparmaq istəyir,- qışqırdı.

Dik atılıb ayağa qalxdım.

Ç. İldırım adına Azərbaycan Politexnik İns-titutunun gündüz şöbəsinə qəbul olmaq üçün dördüncü imtahandan iki alıb, "kəsiləndə" keçir-diyim duyğuları yaşadım və ürəyim o vaxtkı kimi bir cür, bulanan kimi oldu...

Deməli sondur? Hər şey bitdi? Pervomay-skiyə aparırlar? Xudaya!

Qəflətən həyəcanım qeybə çəkildi.Yitka na-ğılımın bitdiyini dərk eləsəm də həyatla, taleylə barışmaq reallığı da vardı axı...

Kaşşeyev idi!

Qucaqlaşaraq öpüşdük.

- Səni aparmaq üçün mayor Deqtyar gön-dərib, - dedi.

Əclaf məni tanıyıb!

- Bu sözlər, ürəyimdən güllə kimi keçdi və rəngim qaçsa da, heç nə büruzə vermədim. Heç nə də ondan soruşmadım. Amma ki içimdən bu sözlər keçdi:

"Özü yıxılan ağlamaz!"

Kaşşeyevlə birlikdə də podpolkovnik rütbəli hərbi həkimimin otağına getdik. Kaşşeyev hərbi qaydada məruzə eləyib gəlişinin səbəbini açıqla-dı və mayor Deqtyarın salamını çatdırdı.

Podpolkovnik üzünü mənə tutub:

- Haran ağrıyır? Şikayətin varmı?- soruşdu.

Sonra da eynəyini taxıb,qarşısındakı qovlu-ğun içərisindən mənim anketimi çıxararaq, göz-lərini qıyıb, diqqətlə baxmağa başladı.

- Heç yanım ağrımır!- acıqla, küskünlüyümü gizlədərək,- bildirdim.

O ayağa qalxıb, mənə soyunmağı tapşırdı. Müayinə elədi, Фонедоскоп-la baxdı, çox suallar verib yoxladı və sonda, kürəyimə goppa vurub:

- Get palatana, bu gün səni hospitaldan çı-xaracağıq, sapsağlamsan maşallah, - dedi.

Kaşşeyevi otaqda saxladı.

Palataya gəlib yır-yığışa başladım. Kürkü-mə birə düşmüşdü. Amma Kaşşeyev bir şey bil-sə, hökmən mənə deyərdi.Yenə köç nisgili məni bürüdü... Bakılı Rafiz gəldi. Hazırlaşdığımı görüb, yalvar-yaxar elədi ki, idman paltarını ver, qızla görüşüm var. Naəlac qalıb verdim:

- Onda sabah Mürşüdü göndərəcəm, verər-sən ona, gətirər,- dedim.

Palatamda səliqə-sahman yaratdım.

Gündəliyimi yazıb son günə çatdıra bilmə-mişdim. On bir gün geri qalırdım, hələ yaxşı ki, kiçik vərəqlərdə qeydlər tutmuşam...

Hazırlaşıb gedəcəyim anı gözləməyə baş-ladım. Ayrılıqdan da pis şey yoxdu.

Axşamkı pəjmürdəlik, səhərki pərişanlıqdan sonra yaman kövrəlmişdim, ağlamaq istəyirdim. Yitkaya yaman bağlanmışam. Bu artıq nədənsə xəbər verir. Tez-tez

işlətdiyi: “Почему нет? Так хотела!”- sözlərini xatırladıqca, əriyirdim...

Beləcə dərdimi əridib, könlümə sıxırdım ki, Kaşşeyev gəlib çıxdı.

- Ну что? Sənət ayrı, vərdiş ayrı,- deyib, təbir caizsə, xotux kimi ayağındakı zabit çəkmə-ləriylə çarpayının üstünə sərələndi. Əllərini ba-şının arxasında çarpazlayıb: Söhbət darı torbası kimi bir şeydir, deşildisə - dağılacaq,- dedi.

Onun hər bir sözündən şübhələnir, sətiraltı nəsə axtarırdım.

Kaşşeyev xəbər verdi ki, iki gün əvvəl Na-zimlə Mürşüd mayor Deqtyarın yanına gedib, da-nışıblar: Bütün azərbaycanlı uşaqlar sənin yanı-na gəlmək istəyirmiş. Mayor da razılıq verib.

Səhəri gün necə olubsa, Deqtyar fikrindən tamam daşınıb:

“Getməyiniz, lazım deyil, sabah özü çıxıb gələcək!” - deyib.

Kaşşeyevin bu xəbərindən əmin oldum ki, əclaf məni tanıyıb. Ümidsiz günlərin gecələrində görünən ay, artıq kədərlə boylandı... Kölgəsi də bürkülü oğraş!

İndi, Yitka dünyanın keçmişinəmi çevrildi?

Sanki affet halı yaşadım!

Kaşşeyev yenicə getmişdi ki, zemelya Şü-kür yanıma gəldi və verdiyi bir xəbərlə bu işin son nöqtəsini qoydu:

"Mayor Deqtyar bu gün azərbaycanlı uşaq-lara açıb deyib ki, Babayevi mülki paltarda, sa-movolkada özüm tutmuşam. Leytenant Qreşnoy-la onu Pervomayskiyə yollayacağam! Gözləyi-rəm hospitaldan çıxsın."

Bu da son...

Elə pisikib kövrəlmişdim!

Düzü son vaxtlar hərbi xidmətdə olduğumu unutmuş, lap azğınlaşmışdım.

Heç belə də olmazdı!

Öz-özümü hörmətdən salır, az qala Kom-somolu belə unutmuşam...

Onun ürəyimin üstündə gəzdirdiyim şəklinə baxmağa belə vaxt tapmırdım. Sanki birdən-birə havam çatmadı. Özümü alçalmış hiss elədim. Komsomolun şəklini çıxarıb, qəm-qüssəylə xeyli tamaşa elədim.

Bir təsəllim qalmışdı.

Bütün bu cəncəllərin arxasında, cəmisi iki-üç aylıq hərbi xidmət dövrü dururdu.

Qarşıda iki il yoxuydu ki?..

Komsomolumla xeyli dərdləşəndən sonra dəftər-qələm çıxarıb, qasırğa Tahirə ürəyimi bo-şaltmaq qərarına gəldim:

"Qardaş mən yaman pozulmuşam, yaman... Pis adam olmuşam, yaman unutqan, etibarsız, dönük bir gəncə çevrilmişəm. Özümü azərbay-canlı əsgərlərimiz yanında, öz günahım ucbatın-dan yaman hörmətdən salmışam.

Yitka adlı beynəlmiləl fantaziyamı tapandan, ona uyuyandan az qala halal sevgimə belə biga-nəyəm. Belə də iş olar?

Təfəkkürümdə bu nə təbəddülatdır?

Özüm də anlamıram. Yəni insan bu qədər dəyişə bilər? Komsomolumla nəfəs aldığım hal-da niyə bu qədər adiləşdi, ögeyləşdi hər şey?

Zəlalət çəkirəm...

Yitka halal sevgimin südünü çürütdürdümü mənə? Hövl içində vurnuxuram... 1188 dan üzü açmış, odlu məhəbbətim Xuraman eşidib bilsə, seçimində yanılmadığına əminliklə sevinməzmi? Komsomolla Yitka arasında iki qütbə ayrılmışam. Təhtəlaltı şüurumda dərk edirəm ki, bu qızlar ötərgidir...Yitkayla əbədi dostluqdan savayı o ya-nası yoxdu. O nə qədər gözəl olsa belə...

Hospitalda qüssədən ölürəm qardaş, kaş yanımda olasan. Musiqiyə qulaq asa-asa ürək-dən hönkürüb ağlayam, göz yaşlarımla səhvləri-mi yuyam... Təqdirəlayiq

bir şey qalıbsa, o da bu ola bilərdi. Axı mən təbiətən cəsur idim? Tər qo-xuyan sinfimizin uşaqlarının yolunda ölümə belə gedərdim. Özü də gözlərimi qırpmadan! Bəs niyə indi gözlərim görə-görə nüfuzumu itirirdim? Mə-gər ilk sevgimin çürüyən südü Xuraman kimi, Komsomol sevgilim də dönük çıxmışdı? Yoxsa hamısı ilk sevgimin ana südünü içmədən böyü-düyümdən baş verdi? Artıq hər şey arxada qalıb, quruyan döşdən nə süd əməcəyəm? Həqarətlə yaşayacağam? Bəs Komsomol səcdəgahım idi?"

Kaşşeyevin qəflətən palatama girib xoş bir xəbər verməsi... məni kerçək duyğularımdan ya- man yerdə ayırdı... Yaman duyğulanmışdım...

Maşın olmadığı üçün leytenant Qreşnoyla bu gün məni Pervomayskiyə göndərə bilməyə-cəklər. Süzəndə xalanin sözü olmasın:"Ala qoşa-nı!" Mayor Deqtyar gözlərimdə fələyə dönmüşdü.

Nə xoş təsadüf! Bir gün də qənimətdir. Yax-şı deyiblər: "O qana qurban olum, üstündən bir saat keçə!" Kim bilir sabah nə olacaq?

Qırılan qoşundandır...

Mirzəalıbəyli Şükür təkrar qayıdıb, abrına qısıla-qısıla bir manat borc pul istədi. Bir an da düşünmədən çıxarıb verdim. Arxasına belə bax-madan yeyin addımlarla sevincək getdi.

Qaranlıq düşənə kimi qorxu səksəkə içində yaşadım. Pervomayskiyə qayıtmağı heç istəmir-dim... Katerinaya

yaman yazığım gəlirdi. Yitkayla onsuz da ordu sıralarından tərxis olunandan son-ra, görüşə biləcəkdim. Amma bənövşəgözlünün körpəsinə görə onunla görüşə bilməzdim...

O körpəni görsəm, dəli olardım!

Dan söküləndə... yuxudan ayılan kimi, hos-pitalın palatasında olduğumu anlayıb, dünənki çalpaşıqları xatırlayanda... yenidən qəm-qüssə, kədər məni çulğadı.

Kaş bu gün də aparmasınlar, - düşündüm. O üz-bu üzə çevrilir, qorxudan, ayrılıq və təşviş-dən ürəyim bir cür idi...

Yaxşı ki, növbə həkimi gəldi.

Yazıq arvad heç nə demədi, heç nə də so-ruşmadı. Yaman mərhəmətli qadın idi.

Özüm açıb hər şeyi danışdım... Və möcüzə baş verdi:

- Qorxma, buraxmaram hələ! Sənin həkimin mənəm, mayor Deqtyar tikintidə rəhbərindir.

Yitka Odessadan Praqaya gedəndən sonra, Pervomayskiyə getmək elə də çətin məsələ ol-mayacaqdı. Burada məni saxlayan bənövşəgöz-lü Katerina və limon rəngli qısa, kip don geyinən praqalı Yitka Zahalkova idi!

Sevincimdən az qaldı ki, hümayun ağından xalat geyinmiş, hərbi həkim olan zabit qadını qu-caqlayıb öpəm!

Tanrının xoşbəxt bəndəsiyəm vallah, yara-danım məni darda qoymaz, - fikirləşdim.

Axı günahım nəydi görəsən?

Ədalət zəfər çalırdı!

Hətta düşündüm ki, romantik, öz dünyasıy-la yaşayan, günahsız bir yeniyetmə... əqidəsi və məsləki olanın birisiyəm. Sakit-sakit civildəşib, özünə çör-çöplə yuva quran quşlar kimi ziyansız-am... Bəxtəvər, taleli, bir əsgər, həm də ali mək-təb tələbəsiyəm... Komsomol kimi də bir yolumu gözləyənim var...

Sirr dağarcığı Katerina və Yitka nağılı bir də heç vaxt yaşanmayacaqsa nə ləzzəti? Nədən ya-rımçıq sussun axı bu mahnı?

Öz-özümü sakitləşdirib suçsuz olduğuma özümü inandırdım. Hamı belədir!

Komsomolla ailə quracağam!

Ana həyatda uşağa bir dəfə can verir, ikinci canı insana verən sevgidir...

Subaylıqda yaşadıqlarım ona qarşı xəyanət adlana bilməz! Mən onu sevirəm! Fikirlərimi dağ-daşa niyə salıram axı? Başqa şey düşün daha. Az özünü üz... Şərq döngəmizi xatırladım: Xo-suyla dağdağa fırladardıq. Kiçik taxta parçala-rından düzəltdiyimiz bu uşaq oyuncağı sürətlə uğuldayıb kəskin səs çıxaranda, necə nəşələnər-dik! Bahar

arvadın oğlu, damarsız Vaqif kənar-dan bizə xain-xain, həm də həsrətlə baxardı...

Atası xırsız Bəylər, Rusiya həbsxanalarında uzun illər məhbəs həyatı yaşadığından, yatdığı kamerada tək qolla sallaşıb, özünü çəkməyi mü-kəmməl öyrənmişdi. İndi də oğlanlarına turnikdə, bu fəndlə dartınmağı məşq elətdirirdi...

Türmədən çıxan kimi də oğluna Siyasət adı vermişdi... Südlə gələn sümüklə çıxar!

Biz dafdağa fırladıb, çərpələng uçurardıq...

Büləndpərvaz quşlara köynək yelləyərdik...

Bakılı mərdüməzar Rafiz palatama girdi və düşüncələrimdən yenə yarımçıq ayrıldım...

Axşam ağcabədili Nazimlə telefonda danış-dıq, səsi böyük və qoca bir ağacın gövdəsindəki oyuqdan çıxırdı elə bil:

- Yotada sakitlikdiy, - dedi.

- Gizir oğlu Mustafa bəy! Demək başqa heç bir söz-söhbət getməyib?Başına daş yalansa ha!

Zamyatini bu gün hospitaldan çıxartdılar.

Nazimə bir namə yazıb onunla göndərdim. Yazdım ki, bu axşam yanıma gəlsin...

Laçınlı İsmayıl samovolkoya getmişdi. Atası ayaqüstə, köhnə, iri taxta çamadanla onu bütün günü hospitalın həyətində gözlədi. Acığından kişi palataya da girmədi.

“Belə uşaq olar?”- tez-tez deyirdi.

İsmayıl gəlib çıxmadı.

Hamımız elə pis olmuşduq ki... Axırda ya-zıq kişi qayıdıb azərbaycana getdi və gedəndə də bərk- bərk tapşırdı: Urus-murus qızla kəndə gəlməsin! Amma, deyəsən xırsız Bəylərin sözü olmasın: “Попутн gəlmişdi...” Gecə öyrəndik ki, kişinin mal oğrusu olan böyük qardaşı, Donbas-sda həbsdə yatır...

Bütün günü palatada oturub gündəlik yaz-dım. Daha samavolkoya getməyə, rotaya yaxın-laşmağa, Yitkayla görüşməyə ehtiyat eləyirdim.

Canımda bir Pervomayski xofu var...

Yitkanı görmək üçün ürəyim keçir. Kaş heç onunla qarşılaşmayaydım!

Komsomolum, Katerinam və ağ mirvari sır-ğalı Məhbubə xala kimi o da məni daim düşün-dürür, narahat edirdi...

Görəsən mən də onu düşündürə bilirəm? Heç yadına düşürəm? O da mənim üçün darıxır?

Bu gün məndən analiz götürdülər və başımı rentgenə saldılar.

Gecə Nazı yanıma gəldi.

Ümumi azərbaycanlı əsgərlərlə müqayisə-də açığı Nazı hamını üstələyirdi.

Qucaqlaşıb öpüşdük. Hal-əhval tutan kimi ilk xəbəri yenə belə oldu:

- Yotada sakitlikdiyy!

Xeyli söhbət elədik. O bisavad olsa da yax-şı dostdur. Kaşşeyevdən eşitdiyi və əhəmiyyətini bəlkə də, dərindən dərk eləmədiyi mühüm bir xə-bər verdi mənə:

- Özünü buyada biy neçə gün də ləngidə bilsən, mayoy Deqtyayy məzuniyyətə, leytenant Qyeşnoy da Peyvomayskiyə gedəcək. Yeyinə də Boyko gələcək. Boykoyla bütün işləyi qaydaya salmaq mümkündüyy...

Bu xəbər mənə göydəndüşmə oldu!

Qanıma yerihləyən mayor getsə, Qreşnoyu da Boyko əvəz eləsə, daha nə dərdim?

Nazim gedən kimi, Maariflə Bakir gəldi.

Onlarla da qucaqlaşıb görüşdük.

Adıma gəlmiş əlli manat haqda bildiriş və iki məktub da gətirmişdilər.

Evimizdən idi.

Pullu ögey dayım, qara Sabir göndərmişdi. Lap yerinə düşdü. Arifin borcunu qaytarmalıyam, birdən məni Pervomayskiyə qaytararlar, üstümdə borc qalar.

Hərbi biletimi Bakirə verib xahiş elədim ki, poçtda Katerinaya bildirişlə birgə göstərib, pulu alsın və hamısını da qancıq Arifə versin.

Onları yola salan kimi zərfi açıb, həyəcanla oxumağa başladım, bircə maraqlı xəbər vardı:

"Qardaşım Vaqif artıq institutda iki imtahanı müvəffəqiyyətlə verib."

Bu xəbərdən az qala ürəyim atlandı. Necə sevindim! O da qəbul olunsa, bir evdə üç tələbə qardaş olacaqdı...

Azərbaycanlı uşaqlar iki-bir, üç-bir, yanıma gəlib-gedirlər. Sonuncu gələn kuybışevli Hüseyni, qayışbaldır Turabxanı, göydodaq Ədaləti və tez-tez, söz məndə, pul ingilisdə deyən, vaynösə Sa-hib Əkbərovu da yola salandan sonra, gecə saat 23:00-da qayıdıb, üzərinə Изоляторная sözləri yazılmış palatama gəldim.

Sahib Əkbərovun gətirdiyi qəzetləri oxuyub, bir xeyli də gündəlik yazandan sonra yerimə gir-dim. Yuxu məni aparar...

Tibb bacısı məni dərin və şirin yuxudan oyadıb iynəmi vurdu. Sonra da gətirdiyi həbləri, beş dəqiqəlik

fasilələrlə gözünün qarşısında ca-nıyananlıqla qəbul elətdirib getdi.

Əməllicə tərləmişdim...

Səhər yeməyini yeyib qurtaran kimi, gündə-liyi yazmağa başladım. Bu günkü tarix yenə onu, uşaq vaxtı dediyimiz kimi: ”Obadamı” mənə xatır-latdı... 16 avqust tarixi dərhal ruhumu duyğulan-dırdı. Sinfimizdən uşaqların tər qoxusu gələrdi!

Bu günkü gün...Altı il, üç ay əvvəl...Ona vu-rulduğum ilahi gün idi...

16 may 1966 -16 avqust 1972.

Düz üç il əvvəl... bu günkü gün,- 1969- cu il, avqust ayının on altısında... ürəyimdə son qərarı verib, obadama əbədi əlvida demişdim.

Onunla, xatirəsi əbədi qalacaq ilk sevgini üç il, üç ay yaşaya bilmişdim. Kövrək uşaq sev-gisiylə 1188 gün onun odunda yanmışdım! Orta məktəbdə... hər şey necə qayğısız, necə möhtə-şəm idi! O xəstələnib dərsə gəlməyən gün...

İlahi!

Bütün günü necə gözlərim qapıda, qulağım səsdə qalardı.

Necə darıxardım!

Sevgidə hüdud yoxmuş... Heyf o müqəddəs hisslərimizə. Çox heyf!

Görəsən, onu indi sevən var? Ya o özü, ki-misə sevir? Məni heç düşünür?

Yəqin ki, indi Bərdədədir, imtahanları verib qurtarmış olar... Bərdədə indi boğanaq havaların sındığı vaxtlardı... Nədənsə, bürkülü yayı onlar həmişə Bərdədə keçirərdi...

Ona əbədi əlvida desəm də, nədənsə, ya-şadığım o əziz, şirin hissləri, duyğuları bu gün də canımda hiss edirdim...

Bir Novruz bayramı gecəsi, küçəmizdə to-ran düşəndən sonra gizlənpaç oynamışdıq! O gecə necə bəxtəvərdik! O gecə hardan biləydim ki, bir ömür dərd əkirəm... əbədiyyətə kimi də bi-çəcəyəm... Qəm biçəcəyəm...

O ömrümün ilk sevgisiydi!

Onu görəndə dodaqlarım quruyar, titim-titim titrəyərdi... Ondan qələm, ya kitab alanda... bar-maqlarım uçunardı... Zoologiya dərsindən sonra, ona deyəndə ki: "Bu Darvin də, insanları lap hey-van dərəcəsinə gətirir,"- gülümsəyər, uşaqcasına mənə göz vurub, Ələkbərov Oktayı göstərərdi...

Biz orta məktəbdə oxuyanda, o ilk sevgimin halalca süd anasıydı...

İnstitutda oxuyanda isə, bu sevgimin südü-nü çürütdü... Qurudu bu sevginin döşləri... Ehh... Sevgim ana südünü içmədən böyüdü. Quruyan döşdən nə süd əməcəydi? Analı yetim kimi böyü-dü sevgim... Şərq döngəmizə ilk sevgi qəbahəti yazıldı... Bu qəbahətin bədəlini o çəkəcək! Orta məktəbdə oxuyanda ələ salıb nifrət elədiyi ta-mahkarlığın əsirinə çevrilmişdi, o təkəbbürlü qız! Novruz bayramı, 8 mart, yeni il gecələrini maraq-sız eləmişdi mənə... Azərbaycan Tibb İnstitutu-nun 74 nömrəli qrup tələbələri...

Qapının döyülmədən, hikkəylə qəfil açılma-sı məni diksindirdi. Necə şirin röyadaydım İlahi!

Tibb bacısı hökmlə qışqırdı:

- Niyə getməmisən rentgenə?!

Tamam unutmuşdum...

Cəld ayağa qalxıb, hospital xalatını geyinə-rək, hümayun ağından xalat geyinən qızın qaba-ğına düşdüm.

Amma gecikmişdim!

- Sabah tezdən gələrsən, tibb bacısı rent-gendə işləyən həkimlə danışıb adımı yazdırdı.

Palataya yenicə girmişdim, həkimim gəldi. Qurşağa kimi soyundurub oramı-buramı yoxladı.

- Yaman çox öskürürəm, - dedim.

O boynundan asdığı фонедоскоп-la ağ ci-yərlərimə qulaq asdı və yeni bir neçə həb yazdı...

Səhər yeməyindən sonra darıxdığımdan və bekarçılıq olduğundan, həm də ürəyim bərk istə-diyindən Yitkayla görüşmək qərarına gəldim.

Hospitalda tanış olduğum,- başqa hərbi his-sədə qulluq edən ağdamlı Tahir adlı bir əsgərlə idman forması geyinib, saat 12:04 - də hasardan aşaraq, qaçıb qarşıdakı parka girdik. Oradan da gəzə-gəzə dənizə qədər gedib, çimərliyə çıxdıq. Bu çimərlik Arkadiya çimərliyindən xeyli aralıydı.

Bərk isti idi.

Nədənsə ürəyimdə çox əmin idim ki, onları tapacağam. Ancaq iki saata qədər də, piyada yol getməliydik. Tramvaya, Trolleybusa minə bilmir-dik, çünki Tahirə idman forması tapsaq da, ket tapa bilməmişdik. O yalın ayaqla gəzirdi...

Çimərliyin isti qumuyla qaçırdıq.

Amma bu Tahir tez-tez sancılanır, dayanıb dincini alır, tövşüyürdü... Şiddətli qarın ağrısı tut-muşdu, ağdamlı oğlan.

Lap zəhləmi apardı!

Biz Arkadiya çimərliyinə çatanda artıq saat 14:11-i göstərirdi.

Həmişə Yitkagillə çimdiyim yerə tələsdim.

İlahi, onlar yox idi!

Sanki çəkisizliyə düşdüm, necə pis oldum... Yenə çoxməchullu vəziyyət yarandı...

Nə əziyyətlə gəlmişdik! Tərləmiş, tamam əl-dən düşmüşdüm. Cilovdar kimi qabaqda gedir, yolboyu başımı ağac budaqlarıyla da tuturdum ki, bir də günvurma baş verməsin.

Yenə cin atına minib, cilov gəmirirdim.

Heyf, heyf...

Soyunub çar-naçar bir qədər üzdüm. Tərim çıxsın, heç olmasa bir qədər sərinləyim...

Çimərlikdən çıxıb Tomagilə gəldik. Ağdamlı Tahir bağda gözlədi, ona bir cüt ayaqqabı lazım idi. Geriyə piyada qayıtsaq gecikə bilərdik.

Toma bəxtimdən evdəydi.

Onlara qoyduğum çamadanı çıxarıb səliqə-sahmana saldım və bacım Yeganəylə Bərdədə çəkdirdiyim bir fotoşəkli götürdüm.

Bu şəkli bir vaxtlar Komsomola vermişdim, ancaq sonralar anası etiraz etdiyi üçün qaytar-mışdı. Qərara aldım ki, bu şəkli götürüb Yitkaya göstərəm. Belə də etdim. Şəkli albomdan çıxarıb götürdüm.

Ağdamlı Tahir üçün ayaqqabı, Чайка-3 və Yitkagilin şəklini çəkdiyim iki ədəd lenti də özüm-lə götürdüm. Çoxgünlü ayrılıqdan sonra, Yitkagi-lin arxa pəncərəsinin qarşısına getdim...

Tahir turbazanın bağında veyillənməli oldu.

Pəncərə bağlı oldu.

Əllərimlə üzümün yan hissələrindən tutub, diqqətlə dəmir barmaqlıqlardan içəriyə baxdım.

Otaq boş idi. Heç biri yoxuydu...

Əlimlə pəncərənin laxlayan, gülmıxlı, dingil-dəyən şüşəsindən itələdim və pəncərə açıldı.

Yataqları səliqəylə yığılmışdı. Bir qədər kə-dərlə baxdım. Xeyli də üzüntülü onları gözlədim.

Gəlib çıxmadılar.

Fotoşəkli pəncərədən içəri atdım. Barı bil-sinlər, gəlmişdim. Şəkil uçub üzüstə, döşəməyə salınmış köhnə, yuyulmaqdan rəngi solmuş xalı-nın üstünə düşdü... Üzüörtülü düşsə də görərlər.

Yaxşı oldu. Onlar nə vaxt evə gəlsə, şəkli görən kimi başa düşəcəklər ki, gəlmişəm. Necə deyərlər Mixaylo şəhərdədir!

İlahi, onunla görüşmək nə qədər şirin, əziz idi. Nə qədər əlçatmaz görünürdü!

Bir-birimizi tanıdığımızın bir ayı belə tamam olmayan ömrümüzdə, ilk ayrılıq yaşayıb, yenidən görüşməliydik.

Hələlik alınmadı...

Şəhərə getdik.

Lentləri Фотоаппе-yə verdim ki, çıxartsın-lar. Yeni lent və gündəlik yazmaq üçün ümumi dəftər də aldım. Köhnə gündəlik artıq dolmaqda idi. Axırıncı səhifə ancaq ki, beşi avqustu tutar, yerdə qalan on bir gün üçünsə, yeni dəftər lazı-mıydı... Bərk acmışdıq.

Ucuz bir kafeyə girib ağdamlı Tahirlə yün-gül qəlyanaltı elədik. Oradan da trolleybusa mi-nib birbaşa çimərliyə qayıtdıq.

Yitkagil yenə olmadı!

Yenə bir qədər dalğadöyəndə üzüb, özümü sərinlədərək, qayıdıb onların pəncərəsinə gəldim.

Evdə də yox idilər...

Xalının üstündə üzüqoylu düşən, bacımla çəkdirdiyim fotoşəkil isə yoxuydu! Deməli evdə olublar... Musiqi çalınsa, artıq cuşardım.

Gecə düşür, Yitkagil görünmürdü. Getdikcə üzünük düşürdüm. Ürəyim xoflanırdı...

Tahir Гастроном-dan kolbasa, çaxır, çörək alıb gətirdi. Tomagildə Tomayla birlikdə yeyib-iç-dik... Toma yenə ding-ding dingildəyir, gözləriylə məni yeyir, içimi tərpədirdi. Amma dalab vaxtı deyildi. Yaxşı ki, ağdamlı oğlan da yanımdaydı...

Tahiri göndərib Nazimi çağırtdırdım.

O da bildirdi ki, bu gün qızları görməyib və dilinin şirin yerinə salıb:

- Fayaat duymuysan dəə?- dedi.

Gecə saat 22:00-a kimi həyəcanla, dalğın və pərişan halda onları gözlədim.

Fəqət gəlmədilər...

Anya xala da yoxuydu. Bircə təsəllim hələ-lik bax buydu. Nədənsə Anya xalaya inanırdım.

Tərslikdən yağış yağmağa başladı.

Sanki buluda qarışıb üstümə yağırdı onlar...

Daldalanmağa yer olsa da, geri qayıtdıq.

Biz hospitala hasardan keçib, palataya gi-rəndə gecə saat 23:57 idi. Öyrəndim ki, məni ax-taran olmasa da, biz hospitaldan qaçandan ağ-damlı Tahiri axtarıblar. Onun yerinə çox narahat olsam da, heç özünün vecinə də deyildi.

Başmaqlarımla palata xalatımı yenə kimsə oğurlayıb aparmışdı.

Tahirin alt paltarları qarışıq pastelini də, yı-ğışdırıb həkimi apartdırmışdı.

Cəncələ düşdükmü?

Dəhlizdə bir qədər veyillənib, marıtlayıb boş palata görən kimi, girib hansısa xəstə əsgərin xa-latıyla başmaqlarını götürüb aradan çıxdım...

Tahir idman formayla, ayaqqabımı soyunub verdi. Yazığın alt tursusu da yox idi. Zircaməsin yuyub, palatasındakı ipdən assa da, xırsız əsgər-lər çarpmışdı.

Плавки-mi verdim ki, geyinsin.

Yoxsa yazıq anadan doğulduğu kimi qala-caqdı! Lütüryan...

Palatama ehtiyatda olan bir qoca zabit ver-dilər... Soyuducudan buzlu su içib mənim kökü-mə düşübmüş...

Bir az ötmüş məni çıxışa çağırdılar. Getdim ki, bizim tibb qardaşı Korziklə, tanımadığım azər-baycanlı, kiçik serjant rütbəli bir əsgərdir.

Korzik bidirdi ki,bizim yeni köməkçi tibb qardaşıdır.Tanış olduq...

Onları yola salan kimi, dalısınca mənə qul-luq edən tibb bacısıyla rentgenə tərpəndim.

Başımı lazer şüasıyla təyin edən rentgen aparatına saldılar. Bir qədər gözləyəndən sonra cavab mənfi çıxdı. Və tibb bacısı, muştuluqlaya-raq sevinclə aydınlaşdırdı:

- Слава бога!

Demək hər şey qaydasındadır.

Başa düşdüm ki, sağlamam. Onsuz da, söz yox özüm bilirdim sağlamam. O da bir iş idi. Hə-yəcandan, əsəbdən, istidən və hirs-hikkədən baş vermişdi... Əriyib çöpə dönmüşdüm...

Hümayun ağından xalat geyinmiş tibb ba-cısı, vəziyyəti ixtiyar qoca, podpolkovnik rütbəli hərbi-həkimə məruzə edən kimi, zabit əmr elədi:

- Hazırlaş, bu andan etibarən hospitaldan çıxa bilərsən!

Düzü məni bir qorxu, müdhiş həyəcan hissi bürüdü: Görəsən çatan kimi məni Pervomayski-yə göndərməzlər?

Tibb bacısı кладовка-ya tapşırdı və tezcə də xebe formamı gətirdilər.

Beləcə naümid qaldığım bir vaxtda zemelya Şükür gəldi. Birlikdə son şəkil çəkdirdik, axı məni deportasiya edə bilərdilər!

Yır-yığış elədim.

Köç hissi yenə məni bürüdü. Qara və qır-mızı плавки-lərimi üst-üstə geyindim. Ağdamlı Tahirin gecə analüt qalması indi də yadıma dü-şəndə məni gülmək tuturdu. Xəbər vermişdilər ki, dünən hospitalda tapılmadığı üçün Tahiri bu gün hauptvaxta aparacaqlar.

Təzə xebe formamın boynuna enli ağ pam-bıq parçadan воротничок tikdim. Şələ-şüləmi yı-ğışdırıb hazırlaşandan sonra,nahar yeməyimi pa-lataya gətizdirib, hospitalda son yeməyimi yedim.

Yeməkdən sonra... bütün azərbaycanlı əs-gərlərlə görüşdüm. Yaxşı ki, Bakir hərbi biletimi göndərmişdi. Sənədlərimə möhür vurdurub hos-pitaldan çıxdım.

Sənədlərimi təqdim edən polkovnik rütbəli hərbi həkim-zabit, axşam saat 16:00-a kimi uvol-nitelni də yazıb verdi.

Telman Hacıyev də arxamca çıxdı. O, növ-bəti samavolkaya gedirdi. Mirzəalıbəyli Şükür ar-xamca su da atdı...

Hələ saat 15:13 idi.

Bir qorxu məni çulğamışdı: “Mayor Deqtyar-la görüş səhnəsi...” Allaha pənah!

Telman Hacıyevlə turbazaya gəldik.

Telman məndən borc aldığı iki manat pula iki ədəd çaxır alıb, saxladığı arvadın evinə getdi.

Tomayla görüşüb, ayın-oyunlarımı yerbəyer eləyəndən sonra, camadar Dusyanın yanına, ha-mamxanaya getdim. Dusya məni görüb sevincin-dən tərli, sulu atılıb boynuma sarıldı.

- Valya və Tomayla hospitala gələcəydik, sən özün tələsib gəlmişdin...- dedi.

Birdən oxucu soruşar: "Bəs Katerina niyə gəlmədi?" Onun xəyanət edən əri, rəfiqəsi vardı və özümüz razılaşmışdıq ki, bu dəruni yaxınlıq tam məxfi olsun... Bircə anası bilirdi...

Dusya məni yaxşıca sabunlayıb çimizdirdi. Nə qədər elədim bu dəfə, pul da götürmədi.

- Bu sağalıb, sağ-salamat qayıtmağın şərə-finədir! - dedi, yancaqlarıma şappıldatdı da!

Dusya çox etibarlı qadın, kasıb, kimsəsiz olsa da, arxa çevirməliydi...

Vaxtı özüm uzadırdım.

İstəyirdim mayor cəhənnəm olub obyektdən getsin, bir gün də belə qazanım. Uvolnitelnimin vaxtı keçsə də, mayor Deqtyar hərbi-hissəni tərk eləsə, Kaşşeyevlə anlaşmaq elə də çətin deyildi.

Turbazanın bağında təsadüfən starşina Ki-rilyukla qarşılaşdıq. O yazıq da məzuniyyətdən qayıdıb gəlirdi.

Vəziyyəti başa salıb, uvolnitelnimi də gös-tərəndən sonra, starşina Kirilyuka qoşulub rotaya qayıdası oldum.

Yolda tez-bazar çönüb, Yitkagilin görünən pəncərəsindən içəriyə baxdım.

Onlar hələ də yoxuydu.

Xəbər vermişdilər ki, kapitan rütbəli zabitin birisini bizə yeni komandir rota göndəriblər. Tərs kimi hərbi hissənin həyətinə girən kimi, ilk qarşı-mıza çıxan da o oldu. Dərhal, hər ikimiz farağat durub, hərbi-qaydada Kirilnok məruzə elədi...

Kirilyuka həm də Kirilnok deyirdik.

Qeyri-adi heç nə baş vermədi.

Bəlkə də bu yeni gələn zabitin heç nədən xəbəri yoxuydu. O bizi dinləyib, azad elədi.

Mayor Deqtyardan gizlənirdim.

Rota əsgərləri bütün tərkiblə gəlib, mənimlə qucaqlaşıb görüşdü. Talğasız Qreşnoyun yerinə Boyko gəlmişdi.

Gecə düşəndə şam yeməyinə də hamıdan gec getdim ki, Boyko və mayorla qarşılaşmayım.

Əclaf Qreşnoy özü hələ rotayla birlikdəydi. Sabah Pervomayskiyə çıxmalıdır...

Anya xalagilin evində yenicə məskən salan Voroşilovqradlı cavan oğlandan öyrəndim ki, Yit-ka, Dano və Anya xala üç gündür дача-ya gedib-lər! Bu xəbər məni tam sakitləşdirdi.

İndi ölsəm də, dərdim olmazdı!

Gecə yeni komandir rota совешшания ke-çirdi. Qırımından hövkəli adama oxşayırdı.

Özbaşına hərbi-hissənin telefonundan hos-pitala, mirzəalıbəyli Şükürə, zırınqazırınq... zəng vurduğuna görə, vaskı Nazimə düz üç sutka ha-uptvaxt elan elədi. Telefonla danışan çıxıb...

Ağcabədili Nazı susub-susub, qəflətən öz dilimizdə ciyildədi:

- Cıy əə buydan, cıydıy! Özü də papiyosun yana-yana... Təfyiqə salan, qaynı götündən yekə köpəyoğlu. Anlayışın olsun əə...

Azərbaycanlı uşaqlar gülməkdən uğundu.

Komandir nə qədər elədi, onun nə dediyini heç kəsdən öyrənə bilmədi. Yazıq pisikdi...

Gecə sakitçiliklə keçdi.

Bacardığım qədər bədxahların gözünə gör-sənmədim.

Gecə anama, atama, qardaşlarım, - Rafiqlə Vaqifə, dayım qara Sabirə məktublar yazdım.

Yerimə çox gec girib, yatdım...

Gecə yarı leytenant Qreşnoy Pervamayski-yə gedib, siyasi işlər üzrə rota komandirinin müa-vini Boyko isə iki gün əvvəldən gəlib çıxmışdı.

Gələn kimi də ilk göstərişini belə veribmiş:

"Komandir otdeleniyalar səhər saat 05:30-da durmalıdır. Hərbi əmrdir."

Süzəndə xalanın sözü olmasın, bu da təzə komandiri görüb, qozdanır.

Hospitaldan çıxdığımı eşidib, məni də dur-quzmağı tapşırıbmış.

Планёрка gedəndə üzünü mənə tutub:

- Danış, samavolkada necə olmusan?

Dillənmədim.

Nə fikirləşdisə:

- Yaxşı, sonra danışarsan.

Artıq, beşulduzlu bir butulka konyak hazır olmalıydı. Buna heç şübhə ola bilməzdi!

Amma belə götürəndə, Boyko yaxşı hərbçi, iş görməli zabit idi.

Развод-da lap yaxşı oldu: Nədənsə, mayor Deqtyar məni görsə də... özünü görməməzliyə vurdu. Çox maraqlıydı... Görəsən niyə susdu?

Üçüncü mərtəbənin yanları açıq eyvanında kirovabadlı Faiq Kəngərli və təpərsiz Mürşüdlə oturmuşdum. Mürşüd xəstələndiyim günü ardıcıl-lıqla Faiqə nağıl eləyirdi.

Çox əsəbi olmuşam...

Столичная siqareti aldırıb, bir ikisini çək-dim ki, bəlkə əsəblərim sakitləşə.

Öz-özümə söz verdim ki, düz bir ay çəkə-cəyəm. Görüm necə təsir edəcək? Bir neçəsini çəkib qurtaranda nəsə mənə xoş gəldi. İdmanla düz bir ay məşğul olan deyiləm.

Bir az da olsa, kökəlmək istəyirəm. Çox arı-ğam. Yitkayla Danonun yanında çılpaq dayanan-da utanıram, qabırğalarım sananır...

Faiqlə Mürşüd iş yerlərinə getdi.

Mən də mərtəbələrdə hey veyillənir və hər vəchlə, hərbi tikintidə nüfuz məmuru olan mayor Deqtyarın gözündən yayınıb, onunla üz-üzə gəl-məkdən utanır və çəkinirdim.

Kaş beləcə sakitlik olaydı, məni Pervomay-skiyə göndərməyəydilər...

Saat 11:03- də Yitkayla Danonu, Anya xala və tanımadığım iki başqa qızla дача-dan gələn gördüm!

O limon rəngli, qıpqırmızı naxışlı işləmələri olan qısa, kip donunda idi. Mənə elə gəldi ki, o həyətə girəndə günəş doğdu! Ağacların saralmış yarpaqlarının üzü güldü və yamyaşıl oldu. Bağça elə bil cənnətə döndü.

Yitkanı görən kimi ürəyim atlanıb, bir cür... bulanan kimi oldu. Heyrətlə onu izləyirdim.

Müxtəlif mərtəbələrdən nadinc əsgər hay-küyü yenə bir-birinə qarışdı.

Yaman acığım tutdu. İlahi, mən onu artıq əməlli-başlı qısqanırdım da!

Ey gərdişi müəmmalı, sirli dünya!

Bir qədər keçmiş, o iki tanımadığım qız, An-ya xala, oğlu, yad bir kişi və Yitkayla Dano evdən çıxdılar. İlahi, onları görəndə necə rahat oluram...

Hamısı da bəzənmiş-düzənmiş haldaydı.

Bizim Bərdədə, yalnız toya gedəndə belə bəzənərdi qadınlar...

Onların arxasınca çox həsəd və həsrətlə baxırdım. İstədim arxalarıyca götürüləm, amma heç yeri deyildi. Abrıma qısıldım.

Ağ olardı.

Rota baxır, mayor Deqtyara, Boykoya çat-dıra bilərdilər. Hər şeyin bir həddi var.

Pervomayski xofu da başımın üstündə fır-fıra kimi hərlənir...

Yitka görünməz olunca onu arxadan həsəd, nisgil dolu baxışlarımla izlədim.

O görünməz oldu...

"Yəqin şəhərə gəzməyə çıxdılar,"- fikirləş-dim. Başqa nə ola bilərdi ki?

Ürəyim darıxır, onlar qayıtmaq bilmirdi...

Tez-tez saata baxırdım:

15:00... 16:00... 17:00...

Heç biri gözə görünmürdü...

Ağlıma bir fikir gəldi, sanki bu fikir həqiqətə çevrilib sinəmdən tutdu və dəhşətlə silkələdi.

Az qala ürəyim qopmuşdu: Bəlkə o adamlar Yitkayla Danonu Praqaya yola salırdı?

Yəni doğurdanmı biz Yitkayla vidalaşmamış ayrıldıq? Demək bir də Yitka adlı qız həyatımda olmayacaq? İçimdən buz kimi bir duyğu keçdi və arıq onurğamla soyuq tər damcıladı...

Qorxmağa başladım.

Mayor Deqtyar və Pervomayski xofu bir an-daca beynimdə əhəmiyyətsiz bir şeyə çevrildi...

Bu gün, 18 avqust 1972-ci il, ömür tariximə qara rəngləmi düşdü? Bu günü hafizəmdə bir neçə dəfə çözdüm: Beşinci gün... 18 avqust...

Bu gün, "Yitkalı günlərimin" çəkildiyi, o iki ədəd fotolentləri də götürməliydim.

Əbədiyyətə qədər qalacaq bu ağ-qara foto-şəkillər, indi mənim üçün yeganə ümid işığı təsiri bağışlayırdı.

Əbədi xatirə!

Heç vaxt nə bu yaş, nə də ki, bu günlər ya-şana bilməzdi! Lap sentimental olmuşam... Necə kövrəlmişdim. Nə edəcəyimi kəsdirə bilmirdim.

Həyatın sonuydumu?..

Nahardan sonra təpərsiz Mürşüdü yanıma çağırtdırdım. Fotolentlərın qəbzini ona verib, Фо-тоателе-nin yerini başa saldım. Tapşırdım da ki, Tomagildə mülki paltarları geyinib, samovolkaya getsin və fotolentləri alıb ələstü gətirsin.

Təpərsiz Mürşüd nədənsə, bərk həyəcan keçirir, tək getməyə nəsə ürək eləmir, qorxurdu. Süzəndə xalanın sözü olmasın, deyəsən spa dı-zıdırdı... Amma üzə düşüb, yox da deyə bilmirdi.

Mayor Deqtyarla samovolkada üz-üzə gəlib tutulmağım da, bizim uşaqları bir az ürəksiz elə-mişdi. Onun tərəddüd elədiyini görüb, qışqırdım:

- Nədən qorxursan? Kişi deyilsən əə? Allah sənə 19 milyard neyron verib, ağlın var istifadə elə tutulma, qoyun deyilsən ki? Süd dişin indi çı-xıb? Nə çadır toyu ola, sındıra-sındıra oynaya-san hə? Palatka toyunun da öz fəlsəfəsi var haa!

O daha çevirmədi. Sıyıldı...

Oturmaqdan qıçlarım keyidi. İri bir ağcaqa-nad qolumun üstünə qonmuşdu, hikkəmdən ne-cə vurdumsa, küləyi onu uçurtdu. Qolum göynə-di. Baxdım ki, dızıldaya-dızıldaya vertolyot kimi uçub divara qondu. Bu dəfə incə fəndə salıb ne-cə vurdumsa, məndən sorduğu qanla divara ya-pışdı. Divar qıpqırmızı qan oldu. Çıxacağı olma-sa yaxşıdır...

Mürşüd yazıq başını aşağı salıb gedən kimi, yenidən məni ayrılıq hissi, köç nisgili çulğadı.

Artıq Yitkagilin həyətindəki, o, gecə-gündüz şarhaşarla su axan krantından, su içməyə belə cəsarət eləmirdim.

Hər şey onu xatırladır, məni qorxudurdu.

Həm də hər an Yitkayla qarşılaşa bilərdim.

Elə bu qarşılaşma məqamının özü, nədən-sə məni qorxudurdu.

Onların həyətindən su içən əsgərlərə, qon-şularına belə həsrətlə baxırdım. Bu beynəlxalq sevgini vəsf etmək idi və bəlkə də, ömrümdə ilk və sonuncu olacaqdı. Onu ilk gördüyüm andan ta üzübəri, bu günə kimi olanları bir-bir vərəqlədim...

Birdən elə bir hadisə baş verdi ki...

Sanki növbəti bomba atıldı!

Elə bil, qulaqbatıran gurultu qopdu, dünya silkələndi. Toz duman ərşə dirəndi.

Tozdan və uğultudan boğulurdum.

Düşüncələrimin suyu kükrəyib dalğalandı...

İkinci dünya müharibəsinin sonunda Naqa-saki və Xurosimaya atılan atom bombası idi bu!

Həlledici bomba atılmış, hər bir şey göylərə sovrulub məhv olmuşdu...

Mürşüdü Deribasovskayada mayor Deqtyar şəxsən özü tutub! İlahi! Bu necə ola bilərdi axı?

Bu Odessa fenomeninin sonu deməkdi!

Artıq heç kim bizi burada saxlada bilməzdi.

Bəli, son idi! Son... Məşum son!

Gedəndə dönə-dönə təpərsizə tapşırmış-dım ki, mənim paltarımı geyinməsin, ikinci ehtiyat dəsti geyinsin. Cındırlıq eləyib, mənim paltarımı geyinibmiş. Hansı ki, mayor Deqtyar özü elə bu mülki paltarda məni tutmuşdu.

Deribasovkayada, o qədər izdihamın içində beldən sıxılmış pencəkdə, parusin tuflidə piyada gedən laçınlı Mürşüd Mamedovu mayor Deqtyar atüstü görüb tanıyır,- gözübağlı, təpərsiz küt gə-də, Mürşüd isə zabit geyimində, xaki rəngli hərbi villisdə mayor Deqtyarı görməyib!

Bu artıq qar əriməz zirvələri olan Laçının və briqadamızın genosidi, süqutuydu!

Bəs bu qədər də diqqətsizlik, maymaqlıq la-qeyidlik, kütbaşlıq, olar?

Od qoydu dılqır mənə!

İsterika içərisində olan Mürşüd siqareti-si-qaretə calayaraq başına gələni olduğu kimi, ko-bud səsiylə, titrək danışdıqca, allaha and olsun elə bil yuxu görürdüm...

Metro tikiləndə çıxan səslər kimi qulağımda hərdən, elə səslər guppuldayırdı.

Birdən necə oldusa, bu röyadan diksinib ayıldım və içdən gələn bir fəryadla:

- Aldınmı barı fotolentləri? - qışqırdım.

Sifətinin aldığı mimikadan və meyid rəngin-dən, gözlərimdə o dəliyə oxşadı...

Alnımdan tər axdı. Beynimdə boğanaq idi.

Qulaqlarıma inanmırdım...

Bu necə ola bilərdi axı? Dördayaqlı eşşək arabası olsaydı, o böyüklükdə geniş prospektdə rus mayor Deqtyar onu minlərlə, dalğa-dalğa ge-dən mülki paltarlı insan izdihamının içərisindən yenə seçə bilərdi...

Axı bu özü də mülki paltarda olub...

Özü də israrla tapşırmağıma baxmayaraq mayor Deqtyarın məni tutduğu mülki geyimdə!

Bu artıq faciədir!

Gözlərimdə üfüqdə tək gedən bir gəmi can-landı... Amma yaman yerdə tələyə düşmüşdüm.

Belə çıxırdı ki, bizim müsəlman əsgərlərimi-zin hamısını elə mən özüm samovolkaya bura-xıram. Zibilin birindən qurtarmamış...

- Bəs səni harda tutdu? - soruşdum.

- Düz Фотоателе-nin qabağında, neyləyim ay Babayev, it deyil ki, uzaqdan görəndə hər eh-timala qarşı, ora-bura baxıb, yerdən bir daş götü-rüb alasan əlinə, - dedi və arvad kimi qarğşdan töküb, mayorun nəslini söyməyə başladı.

Mayor Deqtyar o qədər izdihamın içində, öz xaki rəngli villisindən bunu görüb tanıyıb, dərhal da maşını

saxlatdırıb, rus əsgər sürücüsünü bu-nun arxasınca göndərib, yanına gətizdirərək:

“Qayıt, kazarmaya, gəlirəm,” - deyib.

Təpərsiz də cəld taksi tutub, geri qayıdıb... Zavallı bir gülüş qondu dodağıma:

- Deməli, indi mayor özünü yetirəcək?

O təbaşir kimi ağarıb susurdu...Nə pis ol-du? Briqadamın süqutu bu günəymiş...

- Aldınmı fotolentləri? - təkrar soruşdum. Meyid kimi ağarıb, fınxıra-fınxıra:

- Yox... -deyib, ümidsiz fısıldadı.

Lap dəli oldum. Gözlərimin kənarları qırışdı:

- Səni taksiyə mayor özü mindirdi?

- Yox, gicd.....mayor elə hey söyüşdən sö-yürdü, onlar sürüb getdi, özüm taksi saxlatdım.

Xroniki ardıcıllıqla olanları dinləyib:

- Təpəgöz kimi bir uduma bir çörək yeyir-sən, bəs görmürsən dizə qədər zibilin içində yik? Briqadamızı məhv edəcəksən sən. Mayor onsuz da səni tutub, daha bundan o yanası yoxdu, heç olmasa qəbzi verib, fotolentləri ala bilərdin dəə...

O duruxdu, bir az qurcuxub:

- Yaman qorxdum, özümü necə itirdimsə...

Gözlərini çıppıldadıb səhv elədiyini anlatdı. Birdən ağlıma gəldi ki, boş-boş, gic-gic danış-maqdansa, məsləhət verməkdənsə pul ver geri qayıtsın, onsuz da bu işin aqibəti məlumdur. Tez:

- Dərhal, şimşək kimi qayıt geri! Özü də hərbi formada. Di mürəxxəs ol.

Heç ağzını açmamış, quşu-quşla tutarlar, iki rubl da pul verib:

- Fotolentləri al gəl,- dedim.

Necə inam, qətiyyət və hökmlə qışqırdımsa, Mürşüd geri çevrilib götürüldü.

- Tutulmusan cəhənnəmə! Heç olmasa get-diyin işi başa çatdır dəə...

Arxasınca da xeyli deyindim... Hər bir sirrin açarı səbrdir. Günahın çoxu özümdədir... Mənim kimi rotada tapılmayan komandir, əsgərlərindən getdikcə aralanır...

Nazim heyrətlə mənə baxırdı:

- Onu dizbata göndəyəcəkləy sən niyə belə elədin? Yazıqdıy...

- Dizbata-zada salan deyillər... Oğurluq üs-tündə yaxalanmayıb, ordu sıralarını aylarla tərk eləməyib, xarici kəşfiyyata işləməyib, qətl törət-məyib ki? Mənim

briqadamın evini yıxdı bu əfəl... Bizi Pervomayskiyə qaytaracaqlar! Bəlkə də bu sonuncu günümüz oldu... Bunlar öyrənib: Ver ye-yim, ört yatım, gözlə canım çıxmasın...

Hər şey bitdi.

Sanki hərbi xidmətin özü gözlərimdə iflasa uğrayıb dağılmış, yenə köç nisgili qəlbimi qamar-lamışdı... Gərək təpərsizi göndərməyəydim.

Səbirsizlikə, həyəcan, təşviş və intizarla xa- ki villisində mayor Deqtyarın hərbi hissəyə daxil olmasını gözləyir, düşünürdüm: Bəzi şeylərə göz yumardılar, amma belə şeyə əsla!

Nazim susurdu...

Onu götürüb doqquzuncu mərtəbənin açıq eyvanına çıxdım. Hər yandan görünürdük...

Üzücü kədərlə təpərsız Mürşüdün, beynəl-miləl sevgim Yitkanın və tikintidə nüfuz məmuru, söz sahibi olan, bağırdələn mayor Deqtyarın yo-lunu idiotcasına gözləyirdim.

Qəflətən turbaza tərəfdən Yitkagilin qayıtdı-ğını gördüm. Hava çox isti və bürkü olduğundan cidaya düşmüş internasional sevgilim, ayaqqabı-larını çıxarıb əlinə almışdı. Yalın ayaq və yorğun görkəmdə gəlirdi.

O necə bəxtəvər görünürdü!

Dərdim özümdən böyük olsa da, məni se-vinc hissi bürüdü. Evlərinə girənə kimi heyranlıq-la, bayğınlıqla ona baxdım. Və qəflətən... özüm-dən asılı olmadan Nazını, böyük dərdimi unudub, bihuşanə aşağı cumdum.

Həyətə çatmağımla mayor Deqtyarın villisi-nin toz qaldıra-qaldıra hərbi hissəyə girməsi bir oldu. Elə bil it iliydi...

Planyorka vaxtına az qalırdı. Yerimə indi ki-mi göndərəydim? Dünən xəstəyəm sifarişi yolla-yıb, yerimə mütrüb Mürşüdü göndərmişdim.

Bütün serjant və zabit heyəti planyorka ota-ğındaydı. Nazimlə birləşib, zorla lümpen proleta-riat Əhlimanı yerimə göndərə bildim.

Briqadanın əsgərləriylə yığışıb, intizarla fə-tirsifət Əhlimanın yolunu gözləyirdik. Birdən qapı açıldı və Əhliman tək-tənha, rəngi qaçmış yanı-mıza gəldi, dili-dodağı təpimiş:

- Səni mayor çağırır! - dedi.

Baho!

Əlim üzümdə qaldı. Ulduzu batmış briqada-mın əsgərləri bilmədilər ki, nə eləsinlər. Mürşüd də hələ qayıtmamışdı...

Bir qədər tərəddüd edəndən sonra, son qə-rarımı verdim:

- Ölmək ölməkdi, xırıldamaq nə deməkdi? Qayıt mayora de ki, gəlmir! Vəssalam!

Əhliman bir qədər naz-qoz satıb, bir az da özünü çəkəndən sonra qayıtmaq istəyəndə arxa-dan Ələsgərov qışqırdı:

- De ki, utanır...

Əhlimanın getməsiylə qayıtması bir oldu:

- Səni istəyirlər!

Yenə getmədim!

Həqiqətən mayordan utanırdım. Bu Bərdə-dən görünən dünyanın əsl simasıydı. Suçlu idim və onun qarşısında dilim yoxuydu. Nə edəydim? Nə üzlə gedəydim? Yenə tövbə ilə günah ara-sında qalmışdım. Küfran eləmişdim...

Birdən baş leytenant Boyko özü göründü.

Kartlar açılmışdı!

Hərbi qaydada məni yanına çağırdı. Artıq bu əmr idi! İcrası zəruri olduğunu dərk edib, onun qabağına düşdüm.

Otağa girən kimi, mayor Deqtyar gözləmə-diyim bir yumşaqlıqla:

- Utancaq, samovolnik! - yaxına gəl...

Onun lap yanına qədər irəlilədim.

- Bu gün əsgərlərindən kimi uvolneniyaya buraxmısan? - təşəxxüslə soruşdu.

Onun səsində qaliblərə məxsus əda, ərk, özünəinam vardı.

- Heç kimi! - inadla cavab verdim.

O inadımı hiss edib ciddiləşdi, kürən qalın qaşlarını düyünləyib:

- Briqada üzvlərindən iş yerində kim yoxdu?

Açıq yalan danışmağın... düz üstünə cum-muşdum. Hirs qarışıq bir cəsarətlə:

- Nə bilim? Mənim освобождениям var bu günə. İşləməmişəm...

- Nə qədər vaxta öyrənib доложить eləyə bilərsən?

- On dəqiqəyə!

- On çoxdur, beş dəqiqə vaxt verirəm.

- Есть! - deyib, hərbi təzim edərək, yüz sək-sən dərəcə fırlanıb, otaqdan üfürülüb çıxdım.

Uşaqlar hamısı səbirsizlikə məni gözləyidi. Hamı maraq və intizarla üstümə cumdu:

“Nə oldu?”

Məsələni olduğu kimi onlara başa saldım. Beş dəqiqə vaxtım vardı. Mürşüddən isə hələ bir xəbər-ətər yoxuydu. Umıvalnikdən ruslar da qu-laq asırdı. Öz dilimizdə məsləhətləşirdik. Hərə bir təklif, bir söz deyirdi. Beş dəqiqə tamam olan ki-mi geri qayıtdım. İçəri girən kimi:

- Nə oldu? - soruşdular.

Hərbi qaydada təzim edib, məruzə elədim:

- Briqada üzvləri hamısı yerindədir, tək bir nəfərdən başqa...

- Kim yoxdu?- Boyko özünü saxlaya bilmə-yib, hamıdan əvvəl soruşdu.

- Mürşüd Mamedov!

Elə bil ki, qurbağa gölünə daş atdın. Ölü bir sükut çökdü ortalığa. Sanki Qara dəniz istilərdən bezib lal dayanmışdı. Elə lal ki, bir damla da su-yu tərpənmirdi. Sükut adamı qorxudurdu...

Görünür fırtına qopacaqdı!

Hamı da heyrətlə gözlərini bərəldib, mayor Deqtyara zilləmişdi. Artıq məsələ su kimi appay-dın idi. Siçan-pişik oyununun finişiydi.

Ürəyimdə fikirləşirdim:

“Hazırlaşın, briqadanla Pervomayskiyə ge-dirsiniz bu gecə,” - deyəcək.

Sükut uzanırdı.

Necə oldusa ürəyimin döyüntüsü sakitləşdi. Bircə Yitkadan və Katerinadan nigaran idim. O da neyləmək olar, taleyin işidir. Onsuz da elə Yit-kagilin şəkilləri olan fotolentlərin ucbatından iliş-mişdik. Yitka həqiqəti biləndə, mənə qarşı olan beynəlmiləl duyğularında bir az da irəli gedəcək-di! Bu bizim sevgi simfoniyamızın hissələriydi...

Yazıq Katerina!

Bax faciə təkcə onun həyatında olacaqdı.

Hansı prizmadan baxsan, bunun da günah-karı mən idim! Onunla yata-yata... özümə xarici sevgili tapıb, indi də elə o xaricinin zibilinə düş-müşdüm.

Sükut yaman uzun çəkdi.

Bəlkə mənə belə gəlirdi? Bu əclaf bircə dil-lənsəydi! Və elə bu an, doğrudan dilləndi:

- Sabah o mülki paltarı burada görüm! Mur-şut Mamedovla heç bir işim yoxdu. Sənlə də sonra danışacağam, indi çıx get!

Bu da qiyamatın görünməz sonluğu!

Yenə də nigarançılıq mənimlə neçə günsə, ömür sürəcəkdi...İri bir tülkü dəməyi bağlanmışdı. Vay tülkünün halına!

Məsələnin belə sonluğunu isə, düzü güman eləməzdim.Bu yumşaqlığın arxasında məkr, hər-bi hiylə dayanmırsa...

Amma atalarımız yaxşı deyib: Qurban olum o qana ki, üstündən bir saat keçə...

Yaxşı qurtardıq!

Elə bil azadlığa çıxmışdım. Nəfəsim genəldi. Çölə çıxmağımla azərbaycanlı uşaqlar üstümə tökülüşdü. Üzüntü ilə məsələni onlara başa sal-dım, zira ki, təpərsiz hələ də gəlməmişdi...

Kapitanla qırxdamar baş leytenant Boyko mayorun otağından çıxıb yanıma gəldilər.

Rotanın yeni komandiri, dünyanın gərdişin-dən hələ bixəbər kapitan, nəsə təəssüflə:

- Heç səndən belə iş gözləməzdim! - dedi.

- Necə iş?- özümü tülkülüyə qoydum, hərbi qaydaları pozan, cəzasını da çəkəcək...

Hamıya kəf gəlmək hobbisi olan Boyko mə-ni kənara çəkib, üzdəniraq təkliflə:

- Mayor bilməsin, Mürşüd gəlib çıxan kimi mülki paltarı alıb, лично özümə gətirərsən! - dedi.

Aman tanrım, hərbini möhtəkirlik də bürü-yüb, daha nədən qorxuram ki?

- Yaxşı, - dedim.

Artıq deyəsən fəlakət ötüşmüşdü...

Hamam dəsmalını da götürüb, camadar dul Dusyanın hamamxanasına getdim.

Yenicə çimib qayıtmışdım, gördüm Mürşüd gəlib çıxıb. Fotolentləri əlində görəndə sevincim-dən onu qucaqladım. Sonra da lenti açıb işığa tutdum. Yitkanın şəkilləri əla düşmüşdü.

Qaranlıq düşsə də ужин-ə getməmişdik.

Fotolentləri götürüb, qancıq Ariflə Yitkanın tarixi pəncərəsinin qarşısına getdim.

Onlar yanaşı uzanmışdı. Yitka can dəsmalı-na bürünüklü idi. Dano məni birinci gördü və tez də, öz dilində bacısına yavaşca pıçıldayıb bildirdi.

Mən susur və Yitkaya baxırdım.

O dərhal çönüb dikəldi və pəncərəyə baxdı.

Gözlərimiz qarşılaşdı.

Gülümsünüb başımızla salamlaşdıq. O gü-lümsünəndə nə qədər məsum görünürdü!

Başa saldım ki, hospitaldan məni çıxarıblar, amma hələlik haqqımda elə bir tədbir görülməyib. Gözləyirəm.

Sonra da təpərsiz Mürşüd əhvalatını danışdım. Hamımız bu işə kədərləndik.

Tez-tez öskürüdüm.

Yitka bildirdi:

- Pəncərədən tulladığın fotoşəkli Anya xala tapıb mənə verdi.

Əlini uzadıb dolabçanın üstündən şəkli mə-nə göstərdi və:

- Ето твоя сестра!- qətiyyətlə dedi.

Mən də çıxarıb fotolentləri ona göstərdim. O cəld ayağa sıçrayıb, açıq pəncərənin önünə gəldi. Əynində sarı rəngli çimərlik paltarı vardı.

Heç utanmırdı da məndən.

O fotolentləri alıb işığa tutaraq, qaşlarını düyünləyib, gözlərini qıyaraq üzüaşağı bir-bir ka-drlara diqqətlə baxdı... Və qəflətən uzun dırnaq-larıyla fotolentdəki bir şəkli cızıqlamağa başladı. Qışqırdım. Heç vecinə də almadı. Elə məni qış-qırda-qışqırda özünün bir kadrını cızıqlayıb tam-am xarab elədi.

Atılıb düşməyimə, səs-küy salıb qışqırma-ğıma sanki ürəkdən sevinirdi. İşini qurtarıb foto-lentləri mənə uzatdı və gözlərini bərəldib:

- Не бойся, не бойся - dedi.

Xeyli danışıb, beləcə əyləndik.

Dano da sonsuz həvəslə baxır, diqqətlə bizi izləyirdi. O çox həlim, mehriban qız idi.

Dadlı-duzlu Yitka yenə əlimi dişləyir, deyib-gülür, hey zarafatlaşırdıq. Sanki heç hospitalda yatmamışdım, ölümdən dönən mən deyildim və başıma da heç bir qəzavü-qədər gəlməmişdi.

Yitka acığıma gözlərini zilləyib yoldan ke-çənlərə baxır, onlara söz atıb sataşır, məni cırna-dırdı. Gah da qaşlarını düyünləyib, gözlərini bə-rəldərək, bərkdən danışıb gülə-gülə yoldan ötən bəzi göyçək oğlanlara elə içəridən qışqırırdı:

-Тихо, тихо, не крич...

O bunu elə gülməli şəklidə eləyirdi ki!

Danoyla gülməkdən ölürdük.

Arif çömbəlib ayaqlarımın yanında, yerdən oturmuşdu. Yitka bunu başa düşəndə başını də-mir barmaqlıqların arasından keçirib baxmaq is-tədi. Başı keçməyəndə üstümə qışqırdı:

- Кто есть, расскажи!

- Sən tanımırsan onu,- başa saldım.

- Он солдат? - soruşdu.

- Hə!

O nə qədər elədisə, Arifi ona göstərmədim. Naəlac qalıb, açıq pəncərədən sifətini dəmir barmaqlıqlara dirəyib qışqırdı:

- Ейй… Незнакомый солдат! Иди сюда…

Biz Danoyla ona baxıb ləzzətlə gülürdük. Axırda Arifi ayağa durğuzub ona göstərdim. Diq-qətlə baxıb, nəsə ürəyinə yatmadığından, üzünü turşudub:

- Не знаю…- dedi.

Beləcə bir qədər əylənəndən sonra, Yitkaya, ingilis alimi Ç.Darvinin heyvan və bitki orqanizm-lərinin təbii seçim yolu ilə əmələ gəlməsi haq-qında nəzəriyyəsindən xeyli başa salıb, dedim:

- Bura çox qorxuludur. Biz gedirik yeməkxa-naya, şam yeməyindən sonra gələrəm həyətdəki su krantının yanına...

Hərbi hissədən kənarda bir də məni görsə-lər, daha heç nə, abırsızlıq olardı. Qayıdıb sıra meydanındakı проверка-da iştirak elədim.

Arifl ə Mürşüd bu gün naryadda idi.

Özümü tam səliqəyə salıb, axşam Yitkagilin həyətinə keçdim. Onunla iki stul qoyub, ədəb-ər-kanla yanaşı oturduq.

Dano bizi tək buraxıb, evə girdi.

Artıq hava qaralmışdı. Onlar şam yeməyini adətən tez yeyirdilər. Nədənsə bu gün gecikmiş-dilər. Anya xala çölə çıxıb bizi də yeməyə dəvət elədi. Ancaq biz yemək istəmədiyimizi bildirdik.

Ужин-ə getməmişdim, düzü ac idim.

Gecə saat 22:05 idi.

Yitkayla qaranlıqda oturub, həddi aşmadan, lal ehtirasla bəxtəvər anlar yaşayırdıq.

Hava sərin idi.

Dano evdən çıxıb, əlində bir nimçə meyvə gətirdi. Ac olsam da heç nə istəmədim. Yitka bir ədəd armud seçib götürdü və tək də yedi...

Ayaq səsləri gəldi... Ağır sapoq tappıltıları idi. Qaçıb cəld gizləndim.

Patrullar yaxınlıqda göründü. Elə bu vaxt Yutka qaça-qaça yanıma gəldi və başladı məni qorxutmağa:

Сол…дат Too... deyəndə cəld ayağa qal-xıb onun ağzını əlimlə qapadım. Və həyəcanla:

- Sənn neyləyirsənn? Məni görsələr, aparıb hauptvaxta salarlar! Dastan açmaq vaxtıdır?

Əlimdən çıxmaq istəyirdi, xeyli süpürləşdik. Patrunlar ötən kimi onu buraxdım və çömbəlib yerdən oturdum. O başımın üstündə dayandı.

Başımı qaldırıb ona sarı baxdım. Zil qaran-lıq idi. Saç və paltarına vurduğu ətrə bələnmişdi. Yavaşca saçlarından tutub özümə tərəf çəkdim. O başını çıxara bilmədi və yenidən: Солл…датт, qışqırmaq istəyəndə, dodaqlarımla isti dodaqları-nı qapadım. Armud qoxurdu...

Hər ikimiz sanki birdən yumşalıb, boşaldıq. Və beləcə susub bir xeyli öpüşdük. Sonra o məni sakitcə, əliylə və pıçıltıyla başa saldı ki, gizlən, gözlə burada, indi gəlirəm.

Söykəndiyimiz ağacın arxasındakı yeşiklər-dən özümə yer hazırlayıb uzandım.

Patrullar şarhaşarla axan su krantının ya-nında gizlənib gözləyirmişlər ki, hərbi клетка-dan çıxan olsa tutsunlar.

Yitka gedib onların yanını kəsdirdi.

Bu onları lap şübhələndirdi. Patrullardan bi-ri ona söz atıb sataşmaq istəyəndə, geri qayıdıb yanıma gəldi. Yaxşı ki, zülmət qaranlıq idi. Başa saldı ki, onlar su krantının yanında gizlənib kimi-sə güdür, birinin çiynində ulduzları da var.

Su içmək bəhanəsi ilə yenidən Yitka onların yanına tərəf getdi.

Bir xeyli ləngiyib qayıtdı.

- Тихо... Тихо, - deyib, məni qorxurtdu.

Və qəflətən saçlarımdan çəkib:

- Не бойся, не бойся… встань…- deyib, məni yeşiklərin üstündən qaldırdı.

Sən demə patrullar gedibmiş...

Yitka ayağının altına yeşik qoyub, taxta ha-sarın üstündən hərbi hissəmizin həyətinə sarı, bic-bic boylandı.

Patrullar deyəsən həyətdə kimisə axtarırdı...

Yeşiyin üstündən, Yitkanın yançaqlarından qucaqlayıb ehmalca yerə qoydum və onu dəli ki-mi öpməyə başladım.

O məni saxlayıb:

- Gəl gedək bizə, mən acam, yemək yeyək gələk, - dedi.

Nə qədər inad elədi, yalandan:

- Mən ac deyiləm, - dedim.

Düzü mən belə işlərdə çox utancağam.

Anya xala kasıb adamdır, iki xarici qonağı var. Odur ki, özümü artıq hiss edir, kiməsə artıq yük olmaq

istəmirdim. Bərdədən görünən dün-yada bu işlər məhz beləydi...

Yitka ac olduğumu hiss edirdi. Amma ina-dımı görüb, utanacağımı, sıxılacağımı başa dü-şərək, mərhəmanə:

- Onda sən burda gözlə, mən tez qaçım ye-mək yeyib gəlim, - dedi.

Razılaşdıq.

O bu gecə çox mərhəmətli görünürdü...

Qapılarını açanda onu işıqda gördüm. Ağ kətan şalvar və qolsuz yaşıl köynəkdə necə gö-zəl görünürdü. Qapını örtüb görünməz olan kimi, ağzımda aclıq təmi duydum.

Bu qoxu məni ürpəndirdi.

Özümün özümdən acığım gəldi və deyər-dim ki, lap zəhləm getdi.

Bir qədər sonra biz öpüşməliydik. Bu aclıq qoxusu beynimi didməyə başladı. Nə yeyəydim? Gecə yarıya az qalırdı...

Qəflətən ağlıma verdi ki, bağa girib ağacla-rın yarpaqlarından bir neçəsini keçi kimi kövşə-yim, ya da arı kimi çiçək ləçəklərindən sorum...

Ağlıma batdı, kağız bükülüsü düzəldib, kib-ritlə yandırdım və zülmət qaranlıqda bağa girdim. Çiçəyi olan

ağac yox idi. Odur ki, yaxşı iy verən gül kollarından bir neçə gül çiçəyini dərib ağzıma qoydum və dəvə kimi kövşəməyə başladım.

Suyu zəhər kimi acı olsa da qoxusu naminə birtəhər uddum getdi.

Ey gidi dünya! Yenə tarix yazılacaqdı...

On beş dəqiqə keçməmiş Yitka qapını açıb çölə çıxdı. Mənə elə gəldi ki, artıq bunları yuxuda görürəm... Danoyla Anya xala da bayıra çıxdı və öz qapılarının ağzında, həyət tərəfdən stul qoyub oturdular. Onlar həmişəki kimi tum çırtlayacaqdı...

Gecəyarıydı, zülmət qaranlıq, sərin bir gecə yaşayırdıq. Yitka dabansız başmaq geyinmişdi ki, məndən hündür olmasın.

Deməli öpüşmək istəyirdi...

Qaranlıqda, onların evi ilə su krantının ara-sındakı taxta oturacaqda yanaşı əyləşdik. Anya xalayla Dano bizi buradan görmürdü...

O yemək yeyəndən sonra dişlərini təmizlə-miş, ətirlənmişdi və ağ saqqız çeynəyirdi.

Mən onun ətli dodağını öpəndə, diş məcu-nunun iyi ağzından, saqqızın ətri dilindən hələ də gəlir, yediyi yumurtayla bişirilmiş lobya qızartma-sının qoxusunu yumşaldırdı...

Onsuz da, o ləzzətliydi!

Onun nəfəsi...on altıncı yayını yaşadığı öm-rünün, süd qoxulu ilahi ətri təsvirəgəlməz oldu-ğundan, behişti mənə tanıdır, yaşadırdı...

Bu gecə o, çox müti idi.

Sanki qarşısına məqsəd qoymuşdu: Mənə verdiyi bütün əzab-əziyyətlərin mükafatını ver-mək! Sakitcə bir-birimizə sarılıb, sərin havada, zülmət qaranlıqda, arada bir neçə dəfə fasilə ver-məklə, səssizcə, o ki var, öpüşdük...

O sakit dayanıb столичная siqareti çəkirdi.

Mən də ona qoşuldum.

Siqareti çəkib qurtaran kimi təkrar öpüşür-dük. O qədər öpüşdük ki...

O hərdən dilimi, dodağımı dişləyirdi. Arada özümü unudub, lap inandırıcı şəkildə:

- Yitka mən səni sevirəm, sənin-lə ailə qu-racağam, biz xoşbəxt yaşayacağıq kimi sözlər pıçıldayırdım. O da hər dəfə sakitcə və əminliklə:

- Mən hələ çox balacayam...dörd ildən son-ra...- sakitcə başa salırdı.

Düz gecə saat birə kimi öpüşdük. Dodağım şişmişdi. Siqaret çəkməsinə baxmayaraq onun nəfəsindən qəribə xoş

iy gəlirdi. Ehtirasla o iyi ciyərlərimə çəkir, sanki rahatlanır, nəşələnirdim...

Gecə ikinin yarısı olanda Anya xala qapını açıb, Yitkanı xəlvəti, bir neçə dəfə adıyla səslədi.

Güclə aralanıb ayağa qalxdıq...

O Anya xalaya sakitcə hay verib, özünü sə-liqəyə salmağa başladı və son dəfə də ayaq üstə qucaqlaşıb öpüşdük. Artıq heç nə danışmırdıq... Xeyli aralana bilmədik. Və sonda o mənə əl edə-edə gedəsi oldu...

Bu gecə müqəddəs bir gecə kimi ömrümə yazıldı. Yitka adlı tarixi romanımın mayası bu ge-cə əməlli-başlı yoğruldu...

Yaxşı deyiblər:

Ov atanın deyil, yetənindir.

Kazarmaya qayıdanda artıq gecə saat ikini vurdu. Rota növbəti əsgər yuxusunda şirin-şirin yatırdı. Qancıq Ariflə təpərsiz Mürşüd naryadda olduqlarından, oyaq idi. Yuxum qaçmış və canım dincəlmişdi. Necə rahat olmuşdum...

Keçirdiyim bütün təbəddülatların,- iztirab və həyəcanların, stresslərin mükafatını almış, zəfər çalınmış, sonsuz bir sakitlik, əminlik məni bürü-müşdü. Ulduzum doğmuşdu.

Ruhum azad idi!

Daha qorxum da qalmamışdı, lap günü sa-bahdan bizi Pervomayskiyə göndərsinlər.

Arifdən bir Прима siqareti alıb alışdırdım və stulda oturub ayağımı ayağımın üstünə aşırdım. Yitkayla yaşadığım eşq haqqında, indicə keçirdi-yim anlardan ürək dolusu, fərəhlə onlara danış-dım. O möcüzə idi...

Onlar danışığıma diqqətlə qulaq asır, xoş-bəxtliyimə həsəd aparırdılar. Yitkanın necə gözəl qız olduğunu hər ikisi gözləriylə görmüşdü...

Sabah nə baş verəcəkdi? Yerimə uzansam da yata bilmirdim.

Çox xoşbəxt idim bu gecə. Komsomolu, ağ mirvari sırğalı Məhbubə xalanı, Sarıkirpiklini, bə-növşəgözlü Elizabet Tellorumu xeyli düşündüm.

Hər şeydən, hamıdan arxayın olsam da ha-milə Katerinadan çox nigaran idim.

Ayağa qalxıb Arifdən bir siqaret də aldım və ehtirasla, acgözlüklə sümürməyə başladım. Artıq çox yorğun olduğumu hiss edirdim. Başım elə bil adi vaxtlardakından ağır olmuşdu, sanki boynu-ma artıq yük verirdi.

Birdən mayor Deqtyarı xatırladım... bircə o qalıb ki, elə stul qoyub yanımdaca otura. Gözdən qoymur əclaf məni.Yaxşı ki, hələ bu gecələr var...

Yerimə uzanıb, yenə qarışıq fikirlərlə cəngə girərək güləşirdim.

Yitkayla yaxınlarda baş verəcək son vida görüşümü gözlərim qarşısında öz təxəyyülümlə canlandırır, müxtəlif variantlar düşünürdüm...

Ona necə vurulmuşdum, İlahi!

Onlar gedəndən sonra bu praqalı чешка qız üçün necə darıxacağam, bir allah bilir!

İnsanlar bir neçə günün içində necə doğ-malaşa bilərmişlər! Cəmisi bir ay əvvəl yer kürə-sində bu adda bir insan olduğunu heç bilmirdim.

İndi isə, onsuz qalacağımı düşünəndə dəh-şətə gəlirəm. Dünyanın bir halalca keşməkeşi də bax budu. İnanılmaz idi!

Doğrudanmı ona vurulmuşdum? Doğrudan-mı Komsomolu qurban verərəm? Onunla ailə qurub, Bakıda, Bərdədə ya Praqada yaşaya bi-lərdimmi? Xuraman eşitsə, bu izdivaca nə deyər-di? Manya xalayla, Süzəndə xalayla, Sehran və Samaya xalayla o qonşuluq edə biləcəkdimi?

Qonşu qadınlara qoşulub, o da fınış Bahar arvadın sözü olmasın, sajda yuxa, lavaş bişirə biləcəkdimi? Sərxanın arvadı Xanım kimi, üstünə gözmuncuğu taxıb, molla Xeyrullaya və yaxud demokrat Ağaya, pis gözlərdən qorunmaq üçün dua yazdırıb, üç gündən bir də yataq otağında üzərlik yandıracaqdımı?

Ya mən özüm ona qoşulub, Praqada yaşa-sam, Avropa xalqları kimi sivil yaşaya bilərəmmi? Tutalım birinin gözü arvadıma düşdü, onu öldü-rüb məhbəs həyatı sürsəm, puldan basıb, az cə-zayla canımı qurtara biləcəyəmmi? Ya çex arva-dım xəyanətsiz yolumu gözləyərdimi?

Deyəsən evlənmək elə də asan məsələ de-yilmiş... Fikirlərim yavaş-yavaş horralaşırdı...

Yitkaya hədiyyə

Odessa, 19 və 20 avqust 1972-ci il,

şənbə və bazar günləri.

Gecəni çox saf-çürük eləyib, qatmaqarışıq fikirlərlə nə vaxt yuxuya keçdiyimi bilməmişəm.

Təpərsiz, darürəkli Mürşüd məni oyadanda artıq saat 08:00 idi. Çox gec yatmağıma baxma-yaraq oyananda gümrah idim.

Развод-dan dərhal sonra turbazaya getdim.

Tomagildən mülki paltarı götürüb, kələkbaz Boykoya verməliydim. Bir az keçsin, nazik dama-rını tutub geri alaram.

Limondöş Toma evdəydi. Yaxşı ki, çiyni ağ qətfəli camadar Dusya da onlardaydı. Dusyaya üzümü tutub zarafatla:

- Dusyuşa, bizdə kişilər hamama gedəndə, özləri ilə qanavat boxçasında, fitə, qətfə, kisə, maçalka aparırlar. Sizdə necə?

Onu tam başa sala bilmədim.

Başıma gələn, qorilla Mürşüd əhvalatını on-lara nağıl edə-edə, əvvəl çamadanı töküb səliqə-yə saldım. Qırmızı puloverlə, iyirmi manata aldı-ğım göy mil-mil şalvarı və parad formamın ayaq-qabısını büküb götürdüm.

Boyko turbazanını bağında, bir kişi ilə taxta oturacaqda oturmuşdu. Yaxınlaşanda gördüm ki, hamamın ocaqçısıdır. Kişi məni də tanıyırdı.

Bükülü gətirdiyim mülki paltarları Boykoya verib hərbi hissəyə döndüm.Yolüstü Yitkanın tari-xi pəncərəsinə də dəydim.

O elə şirin yatmışdı!

Saata baxdım: 10:04 idi. Oyatmağa qıyma-dım. Dano isə yerində yox idi. İçəriyə turbazadan qırdığım bir gül atdım. Yerin, göyün, divarın da qulağı var, üstəgəl də ortalıqda narıncı gül məsə-ləsi, gəldiyimi biləcək...

Kazarmaya qayıtdım.

Poçt yenicə gəlmişdi, gördüm uşaqlar quş-ürək Nazının başına yığışıb. Mən yaxınlaşanda Əsədov tez uşaqlara göstərdiyi əlindəki fotoşəkli gizlətdi. Nə qədər elədim xeyri olmadı. Ora-bura qaçdı. qulaqlara qurğuşun, bu niyə belə eləyirdi? Əndişələndim düzü... Və birdən üstümə yüyürüb, şəkli az qala gözlərimə quyladı.

Diqqətlə baxanda, quruyub qaldım: Atam, anam, qardaşlarım, - Rafiq, Vidadi və bacım Ye-ganə təptəzə, süd rəngli, bir Газ-21 markalı Вол-га maşının yanında dayanıb, sanki hamısı mənə baxırdı.

Maşının nömrə nişanı apaydın görünürdü: 74-44 AZX.

Fotoşəklin aşağısından yazılmışdı:

“Naftalan - 1972”.

Sevincimdən bilmirdim nə edəm. Nazıdan şəkli alıb doyunca baxdım. Bacım Yeganənin sa-çını lap dibindən qırxdırsalar da, elə də pis gö-rünmürdü. Hamısı əla düşmüşdü. Şəklə uşaqlar həsədlə baxırdı.

Məktub lap yerində gəlmişdi: Yitkaya göstə-rərəm, onun da bizim ailə haqqında təsəvvürü, təəssüratı olar. Dönə-dönə şəklə baxır, fərəhdən qanadlanırdım. Hamısı son dəblə geyinmiş, süd rəngli maşının da təptəzə olduğu şəkildən ay-dınca hiss olunurdu.

Onlarla qürur duydum.

Şəkil göndərilən zərfin üzərindəki ünvana baxdım: Qardaşım Rafiq Bakıdan göndərmişdi...

Günortadan sonra həyətdə su içəndə Yitka-nı gördüm. Əl-qolla başa saldım ki: "Axşam sənə bir fotoşəkil göstərəcəyəm."

O da qaş-gözünü oynadıb gülümsəyərək, əl-qoluyla başa saldı: "Gözləyəcəyəm."

Yeni gələn kapitan, gerçəkli Nazimi haupt-vaxta aparırdı. Uşaqlarımız tökülüşüb deyə-gülə vaskıyla xudahafizləşdi...

Axşamtərəfi bir də gördük, əlləri ətəklərin-dən uzun qayıdıb gəlirlər. Sən demə bu gün ha-uptvaxta qəbul və buraxılış yox imiş. Qalıb birinci günə. Ona qədər də, ya xan ölər ya eşşək!

Axşamtərəfi, şam yeməyini yeyəndən sonra otururub, qaranlıq düşməsini gözləyirdim.

Bir xeyli gündəlik qəzetləri oxudum, gündə-liyimi və bir neçə də məktub yazdım.

Dolabçamı qaydaya saldım, dolabçadan iki fotoşəkil də əlavə götürüb Laçın quzğunu Mür-şüdlə qaranlıqda Yitkagilin şanslı pəncərəsi önü-nə gəldim. Bu dəfə lap ümidliydim.

Gecəni çox öpüşdüyümüzdən, artıq özümə tam arxayındım və elə hesab edirdim ki, o yalnız mənə məxsusdur, hətta şəxsi mülkiyyətimdir...

Onlar yatıb durmuş, ikibacı yanaşı uzanıb söhbət edirdi. Yitka nəsə öz dillərində üyüdüb tö-kür, quymaq bacısının qulağını doldururdu...

Salamlaşdıq.

Yitka fotoşəkilləri görən kimi, cəld sıçrayıb ayağa qalxdı və əlimdən aldı. Açıq pəncərənin yumru dəmir barmaqlıqları arasında qulaq-qula-ğa dayandıq. Rahiyəsi məni dərhal bürüdü.

Hərbi xebe geyimində oturub, dizimin üstə məktub yazdığım şəkillə Rafiqin göndərdiyi şəkli bəyəndilər. Vaxtilə Bakıda fotoqrafa çəkdirdiyim başı kepkalı şəklimi isə bəyənmədilər. Boлıra-mı-zı çox təriflədilər... Dizimin üstə məktub yazdığım şəkli Yitka götürüb, başa saldı ki, yadigar olaraq, əbədi xatirə kimi özündə saxlamaq istəyir...

O şəkli ona bağışladım.

Əlimdəki fotoşəkli Mürşüdə verdim ki, sax-lasın. Sonra nə qədər elədim, Yitka bildirdi ki, ge-cə çıxmayacaq:

- No...No...No!

Dünənki gecənin nəşəsi isə, damağımdaca qalmışdı... Dano da mənim tərəfimi saxladı. Yal-var-yaxar da bəhrə vermədi. Quşqun təklifi də eləyib, məni başından eləmədi...

...Gecə həyətdəki tualetə gedib qayıdanda, elə dünənki yerdə onu yaxaladım.

Çırpınıb əlimdən çıxmaq istəyirdi, qarnıma yumruq vurur, gözlərini ağardıb:

- Пуст… Пуст…- deyirdi.

Sonda toxdadı.

Sanki yaxınlığımızdan Titanik gəmisi ötüb keçmiş, gəmimiz ləngərləyib, sakitləşmişdi...

Xeyli söhbət elədik...

Anya xala həyətə çıxıb yarı rus, yarı da çex dilində Yitkanı çağırdı və öz-özünə danışdı:

“Gəl yat, dünən gecə də yatmamısan. Sə-hər tez durmaq lazımdır, altıda dənizə gedəcə-yik. Qapını bağlayıram... Tələs...”

Öpüşüb ayrıldıq. Və ayrılanda o ayaq sax-layıb bildirdi ki, bilet alıblar artıq, avqustun 25-də qatarla Praqaya çıxacaqlar!

Sanki təyyarəmiz səmanın ənginliklərində maqnit burulğanına düşdü. Və yaxşı ki, pilot təy-yarənin idarəetməsini əlinə ala bildi.

Onsuz da gec-tez bu baş verməliydi.

O mənim nə kökə düşdüyümü hiss edib, bərk-bərk qucaqladı. Bir-birimizə sarıldıq...

Планёрка-dan sonra itoynadan Boykonu yaxalayıb dedim:

- Səndən bir xahişim var, sözümü gərək ye-rə salmayasan...

- Hyy... - dedi.

- Daha samovolkaya-zada gedən deyiləm. Hər şey bitdi. Amma avqustun iyirmi beşində mə-nə уволнения ver...

Qulağının ardını görərsən demədi və razı-laşdıq. Amma əllərini bir-birinə sürtdü...

Pul istəyirdi!

Saat 05:50 - də növbətçi məni oyatdı.

Bu gün istirahət günüydü. Saat14:00-da bə-növşəgözlü Katerina məni gözləyəcəkdi. Bayırda tufan qopmuşdu. Dəniz məsələsinin artıq təxirə salınacağını təxmin edib, yenidən yatdım.

Səkkiz tamamda növbətçi məni təkrar dur-ğuzdu.Yeməyə getməliydim, çox əzgin-əzgin du-rub geyindim. Əl-üz sabunu, diş pastası, məhrə-ba götürüb, qulağı kirli Mürşüdlə Yitkagilin həyə-tindəki su krantında yuyunmağa getdim.

Elə yenicə yuyunurdum ki, Yitka çölə çıxdı. Onun sifəti şişmişdi. Yuxudan yenicə durduğu, hələ yuyunmadığı açıqca hiss edilirdi.

Ona necə heyranlıqla, həsrətlə baxdım.

O necə gözəl idi, İlahi!

Çağıran kimi də gəldi. Görüşdük... Mürşüd aralandı. Dano da evlərindən çıxıb yanımıza gəl-di. Təxminim düz çıxmış, küləyə görə dənizi təxi-rə salmışdılar. Xeyli söhbət elədik. Yitka dedi:

- Biz şəhərə çıxacağıq. Anya xala da yanı-mızda olacaq, ona görə sən getmə...

- Bəlkə Anya xalayla getməyəsiniz, elə özü-müz birlikdə gəzəyin?

Dano razılaşmadı:

- Yox, artıq o hazırlaşır...

Yitka gözlərini zilləyib xebe formamın şal-varına baxırdı və necə oldusa barmağıyla aya-ğımı göstərib Danoya öz dillərində nəsə dedi.

Dano gülümsədi, şalvarımın dizini barma-ğıyla göstərib, sonra da Yitkanın diziylə tutuşdu-rub məni başa saldı ki, tikilişləri və quruluşu eyni formadadır.

Bir az deyib güldük.

Görüşü nahar yeməyindən sonraya plan-laşdırdıq. Elə yerinə düşdü. Katerina ilə görüşüb sonra da şəhərdə onlarla rahatca gəzə bilərdim...

Bərk külək əssə də, rotanı cərgəylə düzüb, qova-qova dənizə apardılar.

Чайка-3 fotoaparatını da götürüb, mən də rotayla getdim.

Dalğalar şahə qalxıb bir-birini qovurdu.

Bizim uşaqlara bir him lazımdı. Dəli kimi so-yunub özlərini dənizə atdılar. Dalğa çimərliyin kənarında da adamı vurub yıxırdı. Dənizə doğru üzmək qeyri mümkün idi. Dalğaların altında hamı görünməz olurdu...

Baş leytenant Boyko nəsə baş verəcəyin-dən ehtiyat eləyib, arada bir istədi rotanı kazar-maya qaytara. Ancaq necə şən-şən, deyib-gülə, çığırıb-bağıra, hoppanıb düşməyə başlamışdıqsa o fikrindən vaz keçəsi oldu.

Dalğalarla süpürləşirdik. O qədər çılğınlıqla atılıb dalğalarla qucaqlaşıb boğuşduq ki, axırda yorulub əldən düşərək çul kimi quma sərildik.

Başım fırlanırdı. Bir xeyli qumda uzandım. Külək qumu sovursa da qum isti idi, adama ləz-zət eləyirdi. Öskürməyə başlamışdım.

Bir qədər dincəlib, şəkil çəkməyə başladıq. Yarğan tərəfdəki qayaların üstündə, dalğaların arasında, qumda...

Sonra gedib kruşkalarda açıq pivə və balıq konservi aldıq. Ləzzətlə yeyib-içdik.

Briqadamın iyirmiyə yaxın əsgərinə tapşır-dım ki, dənizdən balıqqulağı toplayaq.

Yitkagilə hədiyyə edəcəydim. Uşaqlara bir-iki gözəl balıqqulağı tapıb göstərdim. Və hamısı dənizə baş vurub sonsuz həvəslə işə girişdilər.

Bir saata qədər də... çılğınlıqla balıqqulağı toplamaqla əyləndik.

Kazarmaya qayıdıb, nahara gedəndə möh-kəm acımışdım. Ancaq uşaqlar yeməkxanaya gi-rəndə aradan çıxdım. Artıq ikinci həftəydi bənöv-şəgözlü, ikicanlı Katerinamı görə bilmirdim...

Taksidən düşüb bloka yaxınlaşanda başımı qaldırıb onun pəncərəsinə baxdım.

İlahi, mənə elə gəldi ki, pəncərə kövrəlib!

Pərdənin qırışları sanki məni görüb titrədi...

Pilləkənlərlə dayanmadan, qaça-qaça, bir-nəfəsə qalxdım. Qapı həmişəki kimi açıq idi...

O məni görəndə, sanki solğun çöhrəsinə zərif bir təbəssüm qondu. Qeyri ixtiyari qarnına baxdım. Mənə elə gəldi, o bir az şişib. Tərtəmiz yuyulmuş saçları dağınıq idi. Gözlərindən də yor-ğunluq, yuxusuzluq yağırdı. İncə bir fəndlə:

- Katya yuxusuzluq özü də, alkoqol kimi in-sanı qocaldırsa, hərəkətsizlik də kökəldir...

- Qara ciyər serrozu deyiləm ki cavan oğlan, qarnıma su yığılmır ha, mən hamiləyəm, hələ ba-şa düşməmisən? Qulağının dibindəyəm.

- Güzgüdə özünə yaxşı bax... Şişmanlığını başa düşdük. Solğun çöhrən, dağılmış saçların, qəlbindəki kədər dolu inamsızlıq, səsindəki ümid-sizliyin heç məni açmır...

Birdən yenə ağlıma gəldi ki, boş-boş, gic-gic məsləhətdənsə ona ürək-dirək, ümid vermək, öpüb əzizləmək daha vacibdir.

Televizor kanallarında cim-ciməli, tor göstə-rilən ağ-qara filmlər bizi bezdirdiyi və filmlərin öz-lərini də maraqdan saldığı kimi, məsləhət vermək də onun üçün artıq dözülməz, maraqsız idi.

- Qəlbim illər keçsə də ərimi əfv etməyəcək! O mənim ailə təsəvvürümü elə darmadağın elədi, sanki

ürəyim viran qalıb, mən onu, - mənəvi ruhi dilənçini iliyiməcən sevirdim! - dedi.

Kövrəldiyini, yenə göz yaşı axıdacağını du-yub, onu bağrıma basdım.

Və mənə elə gəldi ki, artıq ondan ana ol-maq iyi gəlir... İsti dodaqları lap koppuşlaşmışdı...

Sakitləşib yanaşı uzanmışdıq...

Tam sakitlik idi. Hərdən qaranquşların səsi-ni, bir də arabir əsən xəfif küləkdən oynayan yar-paqların xışıltısını eşidirdim. İçəridə hava bürkülü olduğundan, eyvana açılan qapını açıq qoymuş, pərdələri də sıyırıb açmışdım. İçəri bürkü olsa da bayırda hava tutqun idi.

Katerina yanımda olmasaydı, lap darıxdırıcı olardı. Onun yanında qulaq dincliyi tapırdım.

Eyvana çıxıb, bir qədər də ətrafı nəzərdən keçirdim. Ağacdakı yarpaqlar rənglərini tədricən dəyişir, sanki xəlvəti, hiss edilmədən payız artıq gəlib... Vaxtsız saralıb tökülmüş yarpaqlar, uşaq olanda düzəltdiyimiz kağız quşlar kimi küləyin qabağında o tərəf bu tərəfə uçuşurdu.

Yalnız qocalar, bir də uzaq Sibirdən istira-hətə gələnlər bu tutqun havada çimərlikdə istira-hət edərdi. Sibirdən gələnlər günəş olmasa da özlərini qaraldır, guya günəş vannası qəbul edir-lər. Yerli və ətraf kəndlərdə yaşayanlar isə, belə vaxtlarda balıq tutmaq üçün çay, ya göl kənarına gedərdilər.

Katya tənbəl-tənbəl, ehmalca hərdənbir ya-nı üstə çevrilir, gözləri hey yol çəkir, elə hey də kədərlə, qısıntı içində nigaran-nigaran düşünür-dü... Doğuş vaxtı yaxınlaşır, mənim ordu sırala-rından tərxis olunmaq günümə də azalırdı...

- Evdə qırmızı sap var?- soruşdum.

O sakitcə qalxıb, mətbəxə keçdi. Xeyli yu-banıb qayıtdı. Tapmamışdı deyəsən:

- Alıb iş yerinə gətirərəm, gəlib apararsan. Neynirdin? - soruşdu.

Onu məlhəm qucaqlayıb, pürfəndcəsinə:

- Bizlm Şərq küçəsində yaşlı qadınlar, gözü yol çəkənlərin gözünə qırmızı sap qoyurlar...

Elə bil, bu sözümə bənd imiş. Dağınıq saç-larını sinəmə söykəyib için-için ağladı... Zavallı Katerina dərdləriylə baş-başaydı və artıq bunun fərqindəydi. İkicə həftə yanına gəlməməyim onu yaman oyatmışdı. O məni ürəkdən sevir və dərk edirdi ki, onun üçün əbədiyyətəm... Onu yenidən yatağa saldım... Ovundurmaqdan başqa nə edə bilərdim ki?

Sakitləşəndə... xam otluqda bərk yeyib doy-muş bir qulan kimi başımı dik tutub, pəncərədən uzaqlara baxır, artıq ürəyimdə çex qızı Yitkanı düşünürdüm. Eyy, gidi dünya!

...Kazarmaya girən kimi, uşaqların dənizin dibindən yığıb-topladıqları iri, gözəl, sarı balıqqu-laqlarını qəzetə büküb Yitkagilin həyətindəki su krantının yanına getdim.

Yerə tökdüyüm sarı balıqqulaqlarını bir-bir, şarhaşarla axan krantda yuyub, kənarda, quru yerə sərdiyim qəzetin üstünə yığırdım.

Dano evdən həyətə çıxanda məni gördü və başmaqlarını geyinib yanıma gəldi. Nə iş gördü-yümü öyrənən kimi geri qayıtdı və tez də əlində bərbəzəkli bir çit torba, Yitkayla gəldi.

Sən demə şəhərə getməyib, bütün günü evdə oturublar. Necə bilməmişəm ey, dənizə get-məkdənsə nahara kimi, onlarla əylənərdim...

Yitkayla balıqqulaqlarını tərtəmiz yuyub Da-nonun əlində tutduğu çit torbasına yığırdıq. Bil-dirdilər ki, bir azdan Anya xala qəti fikrini bildirə-cək: Şəhərə yoxsa çimərliyə?

Elə bu vaxt rus əsgər Kolya gəldi ki, səni mülki paltarlı bir oğlan soruşur.

Ayağa qalxıb Yitkanı başa saldım ki, məni axtarırlar gedim, bir azdan sənin o göyçək pən-cərənin qarşısına gələrəm...

Gəldim ki, hospitalda mənimlə yatan bakılı İltimasla Ramiz Babayevdir. Onlara mülki paltar lazım idi.Turbazaya getdik. Bağdan keçəndə yer-dən qəttəzə bir cüt corab, saç

daramaq üçün şot-ka, iki müxtəlif adda tabletka dərman və bir də, cavan rus qızının fotoşəklini tapdım.

Limondöş Tomagildə Ramizlə İltiması nim-daş paltarlarla geyindirib yola salanda, utanmaz-utanmaz üç manat da pul istədilər. Pul da verdim. İltimasın əlində əla bir зажигалка vardı. Alışqana baxıb mat qaldım və axşama kimi məndə qal-masını ondan xahiş elədim. O da etiraz eləmədi.

Yitkaya göstərmək fikrim vardı.

İltimasla Ramizi yola salan kimi, Yitkagilin pəncərəsinin qabağına getdim. Onları görən kimi əlimdəki alışqanı göstərdim. Yitka uzandığı çar-payısından cəld qalxıb, pəncərənin önünə gəldi və dəmir barmaqlığın arasından kiçik alışqanı əli-nə alan kimi, ovucunda sinəsinə basıb, sevinclə başa saldı ki: "Bunu mənə bağışla"

Deyəsən çox xoşuna gəlmişdi, amma alış-qan mənim deyildi axı... Zira:

- Yox olmaz! - dedim.

Əcnəbi sevgilim özünü персона нонграт hiss edib uşaq kimi ağzını büzdü. Kədər ona heç yaraşmırdı! Sövq-təbii, kiçik alışqanı dim-dik da-yanan məmələrinin arasına sıxıb incik halda:

- Не подарешь?

Ürəyində bilirdi ki, onu necə sevirəm və bi-lirdidə ki, ona dünyanı bağışlayaram. Anlayırdı-da ki, bu şirin, isti, romantik bir əbədi sevgi oyu-nudur... Həm də məlum idi ki, biz ailə qurmasaq da, nə vaxtsa görüşəcəyik...

- Axşam su krantının yanına gələcəksən?- şərt kimi soruşdum.

- Noo, noo,- deyib, xoş ovqatla qışqırdı.

Və birdən gözmuncuğunu daha çox xatırla-dan bu əsmər qız nə fikirləşdisə:

- Хорошо, хорошо...- dedi.

- Deməli gələcəksən?

Başını bic-bic yırğalayıb, alışqanı sinəsinə bərk-bərk sıxa-sıxa:

- Да, да, даааа!!!

- Onda alışqanı sənə bağışladım!

- Bu bağışlamaq olmadı! - sürtük qızlar kimi quyruqbulayanlıq edərək Dano dilləndi.

Yitka təkrar elədi:

- Нет, ето не шутка!

Birdən Dano nə fikirləşdisə, kiçik əl çantası-na nazik qızıl zəncirlə bağladığı öz qızılı alışqa-nını açıb mənə gətirdi və daha hiyləgər, daha in-cə şəkildə başa saldı:

- Mən də bunu sənə bağışlayıram!

- Но не хотим что ты курил! - bunu da Yit-ka müdrikcəsinə qaşlarını endirib, alnını düyünlə-yərək,- canıyananlıqla dedi.

Doğrudan da bizim oyunda qayda yoxuydu!

Rota dənizə getmiş, külək də bir qədər sən-gimişdi. Anya xala onları yeməyə çağırana kimi, ordan-burdan mənasız söhbətlər elədik.

Qəflətən, ciddi şəkildə Yitka mənə yanaşıb qulağıma pıçıltıyla:

- Далеко не иди… Жди, покушаем… или море или город поедем...

Cəld kazarmaya götürüldüm və qaranəfəs yefreytor İlyası tapdım. Onu pusquda qoydum ki, qızlar çıxanda mənə xəbər eləsin.

Dolabçamdan pomidor, çörək və duz çıxa-rıb tələsik yedim. Bərk ac idim.

Son vaxtlar nə düzəməlli yata bilirəm, nə də əməlii-başlı, qarın dolusu yemək yeyirəm.

Yitka məni məhvərimdən tərpədib.

Səhəri onunla açır, gecəni onunla salıram. Hər şeyi unutmuşam. Sanki dünyada bir odu, bir də mən... Komsomolun, Katerinamın, ağ mirvari sırğalı Məhbubə

xalanın üzərinə... sanki bu şıltaq, nadinc, əsmər çex qızın kölgəsi düşmüşdü.

Bu qız rifah içində böyümüş, çox zövqlə və son dəblə geyinirdi...

Doğma yurdundan çox-çox, lap həddindən çox uzaqlarda hərbi xidmət çəkən əsgərə,- sov-qat göndərilən faner, ya da karton qutu bağlama necə şirin gəlirsə, necə əziz olursa, Yitka da mə-nim üçün eləydi. Onunla qürur duyurdum...

Yarım saatdan çox keçmişdi, amma hələ ki, xəbər-ətər yox idi. Darıxırdım...

Qalxıb, yefreytor İlyasın arxasınca getdim.

- Gözüm ordadır, narahat olma, çıxmayıblar hələ,- çox soyuqqanlılıqla dedi.

Mənə elə gəldi ki, İlyasın gözləri saxsağan gözləri kimi bıldır-bıldır oynadı.

Atbaşa çox da etibar eləyib bel bağlaya bil-mədiyimdən, yenidən pəncərənin qarşısına get-dim və gördüm... otaq boşdur!

Nəsə, soyuq bir hiss bütün vücudumu bü-rüdü. İçim titrədi. Elə bildim dilim quruyur. Bəs bu daim hində eşələnən pinti kənd toyuğuna oxşar, saçı hörümçək toruna yapışan qurumsaq gədə, necə olub görməyib o boyda qadınları, özü də üç nəfəri birdən. Qıra su qatan köpəyoğlu!

Hirsimdən qollarımı, boynumu, boğazımı və kürəyimi qaşıdım: “Kənddən xəfiyyə çıxa bilməz!” - fikri məni bütünlüklə çulğadı...

Quyruğum qapı arasında qalmışdı.

Ağlıma gələn ilk fikir isə beləcə oldu: “Onlar dənizə gediblər!” Daha beynimə heç nə girmədi və çimərliyə götürüldüm!

Turbazanın bağından keçib, qaça-qaça sa-natoriyanın həyətindəki sıx ağacların arasından çıxdım. Yarğanın üstündən it, at, maral, keçi-kü-çü keçə bilməyən yerdən özümü uçurladım. Sü-rüşə-sürüşə çimərliyin üst hissəsindəki kol-kosa ilişib qalana kimi, toz qoparıb yuvarlandım.

Dincələn, üzən, qaynaşan minlərlə adamla-rın arasından dəlicəsinə Yitkanı axtarmağa baş-ladım. Vaxt ötür tapa bilmirdim. Axtara-axtara ro-tamız çimən yerə gəlib çıxdım. Cəld soyunub ro-taya qoşuldum. Boyko məni görəndə elə bildi, elə əvvəldən rotayla birlikdə cərgəylə gəlmişəm.

Mürşüdü də götürüb, yenidən çimərlik boyu onları axtarmağa başladıq. Çox həyacanlı idim.

Axı o mənə tapşırmışdı ki, göz-qulaq olum, çıxacaqlar evdən...

Çox axtardıq... Tapa bilmirdik. Nəfəsim tın-cıxır, yaman darıxırdım. Başım yenidən zəif olsa da, ağrımağa

başladı. Artıq mənə günəş altında çox dayanmaq, gəzmək, iş görmək, əsəbləşmək olmazdı...

Amma nədənsə ürəyimin dərinliyində bir inam vardı ki, bütün şəhəri ələk-vələk eləsəm də, harda olsalar, onları tapacağam. Ümidimi üzmə-mişdim. Depressiv bir halda olsam da, başımın ağrısından qorxsam da inadla onu axtarmalı idim.

Möcüzə baş verdi.

Ovçuya bir göz də kifayətdir. Axır ki, qızları tapa bildim!

Onları təpədən gələn gördüm. Sevincdən necə qışqırdım! Mürşüd yazıq səksəndi. Əvvəl elə bildi, başımın ağrısına görə qışqırdım, sonra onları barmağımla göstərəndə, sevincdən yaşar-mış gözlərimi görüb o da rahatlşadı...

Yitka, Dano, Anya xala, xəstə oğlu və qon-şularındakı arvad, turistlərin ekskursiya vaxtı hər yana diqqət yetirə-yetirə baxıb gəzdikləri kimi, əl-lərində tutduqları çimərlik ayn-oyunlarıyla dolu çantalarıyla, meşədən çıxıb aram addımlarla tə-pədən enirdilər.

Onlar məni görmürdü.

Bizim rota çimən yerin yaxınlığında yer tu-tub soyunmağa başladılar. Yitkanı kənardan mü-şahidə eləyirdim. O hələ soyunmamışdı.

Mənə elə gəldi, gözləri məni axtarlr...

Cəld soyunub paltarlarımı Mürşüdə verdim.

Özümü adamların sıx yerində nə qədər giz-lətsəm də, o ətrafa diqqətlə boylana-boylana so-yunanda qəflətən məni gördü.

Və sevinclə, bəxtəvərcəsinə gülüb, tez bar-mağını tuşlayaraq məni Danoya göstərdi.

Hər ikisi, məni tapdıqlarından aşkarca sevi-nirdi. Mən özüm də çox məmnun idim.

Amma düzü utandığımdan Anya xalagilin məni görməsini heç istəmirdim.

Qızlar купальник-lərini geyinib aralandı və üzüyuxarıya doğru getdilər. Mən də плавки-dəy- dim. Özümü tələsik onlara yetirəndə,Yitka çex di-lində Danoya nəsə acıqlanır, lap az qala üstünə qışqırırdı. O məni yanında görən kimi yarı ciddi, yarı da saymazyana itələdi. Az qaldı lap yıxılam. Gözlərini bərəldərək yeri göstərib:

- Dur burda, tualetə gedirik! - dedi.

- Ovcumun içini iyləməmişəm ki? - dilimi çı-xartdım.

Bir qədər keçmiş qayıtdılar.

Artıq Boykoqarışıq bütün rota bizi görürdü. Onlar rota olan yerdən aralıda çimmək istəyirdi. Xətrimə

dəyməmək üçün, burada meduza çox-dur deyə-deyə, gözəlçəm məni başa salıb, özləri çimən yerə dartıb apardı.

Güclü dalğa başladı.

Yenicə yerimizi rahatlamışdıq ki... uzaqdan Boykonun gur səsini eşitdim:

“Ротаа…строиться!!!”

Elə bil məni ildırım vurdu. Özü də əclaf kefli idi... Mürşüdlə nə qədər yalvarıb yaxardıq, qızla-rın acığına bizə dənizdə qalmağa icazə vermədi.

Ondan ayrılıb kənara çəkilən kimi, təpərsiz Mürşüdə dedim:

- Sən paltarları aradan çıxart, onsuz da o keflidir, cəhənnəm olsun, lap bilsə də ağzına pul atarıq. Siçan-pişik oynayırıq də... Bir də uşaqlar- dan nikel kimi parıldayan gümüşü voleybol topu-nu götür...

Qumdan yaxalanmaq bəhanəsiylə suya gi-rib, hündür dalğaların arasında gözdən itdim və üzə-üzə Yitkagilin məskən saldıqları tərəfə səmt götürdüm.

Dano ləpədöyəndə, sahilin lap kənarındaca dayanıb çimərliyə sarı baxırdı. Səs-küylə, köpük-lənə-köpüklənə qəfil gələn hündür dalğa onu vu-rub aşırdı və yıxılan kimi də o qorxmayıb üzmə-yə başladı. Yitka isə məni cırnadır, suya girmək istəmirdi. Elə bu vaxt Anya xala suya girib çox arxayın, sərbəst halda bizə tərəf üzməyə başladı.

Rota artıq cərgəyə düzülürdü.

Boykonun səs-küyü küləyin səsində, dalğa- ların köpüyündə əriyirdi.

Anya xalaya görə kişilənib, lap dənizin içəri-lərinə doğru üzməyə başladım.

Dalğalarla o qədər mücadilə elədim ki, ta-mam əldən düşüb kənara çıxanda qumun üstünə özümü ölü kimi yıxdım...

Mürşüd rota gedəndə aradan çıxa bilmişdi. Əlində gümüşü top, gəlib irişə-irişə bizə qoşuldu. Sağ qılçam qıc olmuşdu, təpərsiz xeyli ovaladı...

Qıl basmış Mürşüdlə Yitkaya baxanda mə-nə elə gəldi ki: "Bu bir mifdir və nə vaxtsa bu gün yaşanıb, indi isə hər şey yenidən təkrarlanır... Və bir də dərk elədim ki, mal-qara arasında böyüyən qız-gəlin gözəl ola bilməz!"

Bu mənim öz fəlsəfəm idi.

Yitkanın duruşu da, baxışı da, uzanmağı da, yatmağı da, yalanı da mədəni idi...

Toyuq-cücə, hin, pəyə, mal-qara sürüsünün arasında gəzən qız, ya kənd-kəsəyin toz-torpaqlı yol kənarındakı,- böyürtkən kollarından, qarğıdan, ya qamışdan olan çəpərləri aralayıb... şəhərliyə heyranlıqla baxan, saçı hörümçək toruna yapış-mış, işləməkdən əl-qolu kobudlaşmış qız gözəl ola bilməz! Sübh yuxusu görməyən kənd qızları! Künc-

bucaqda, pəyədə, əl damında, alaq vuran-da, ya kartof-soğan, badımcan, lobya, qarğıdalı dolu cırıq meşox tayalarının dalında... intim əla-qələrini tezbazar, ayaqüstü, necə gəldi başa vu-ran kənd qızları...

Bu müqayisədə şəhər qızlarının üstünlüyü danılmazdı. Onda qala Avropalı olasan...

Alfons kişilərinə görə isə, şəhər kəndi bas-dalayırdı. Bu da həqiqət idi.

Kənddə də bəzi kolxoz sədri, ya briqadir, mexanizator, manqa başçısı kimi pambıq yığan arvadların hesabına yaşayan kişilər vardı. Amma belə alfons kişilər barmaqla sananacaq sayda idi.

Şəhər isə alfons kişilərlə doluydu!

Çarın yaxın-uzaq qohumlarından qalma ye-ni nəsil, ya ata-babaları antimarksist opportunist partiyanın üzvləri olmuş kişilərin oğullarından və ya digər zümrələrdən olsa da, belələri çoxuydu. Bığsız, qırmızı qalstuklu, saçları yağlanıb səli-qəylə daranmış bu kişilər də, özlərini kişi sayırlar!

Kəndin qeybətcil, avara, sümsük arvadları da onlardan qeyrətli olur...

Xəyaldan ayrılıb ayağa qalxdım.

Bir qədər Yitka və Danoyla voleybol oyna-dıq. Yitkanı başa saldım ki, rota getdi, mən qal-dım. Bilsələr

çox pis olacaq, hələ ulduzlu leyte-nantımız da tərs kimi çimərlikdədi.

Onu belə məqsədli şəkildə qorxudub parkın meşəsinə aparmaq istəyirdim.Yazıq Dano da Yit-kaya qoşulub əl-qolla başa salıb dirəndilər ki:

- Qayıt get rotaya, gecə həyətdə görüşərik.

Nə qədər təkid eləsələr də öz sözləriylə:

- No! - deyib durdum.

Axırda onu təngə gətirdim, arvadlar sahildə qaldı, biz təpəyə qalxıb meşəliyə girdik.

Tüklü meymunabənzər Mürşüd də paltar-palazlarımızı götürüb, arxamızca gəldi. Necə de-yərlər: İnadımla məqsuduma çatdım.

Kolluqların arasından keçib sakit yer axta-rırdıq. Sınıq-salxaq bir taxta yeşik tapdıq. Xebe-ləri onun içərisinə doldurub, üzüüstə sıx kolluqda gizlətdik. Xırsız Mürşüd oğurluq işlərində pərgar idi. Seyrək ağacların arsında iki-ikiyə bölünüb vo-leybol oynamağa başladıq. Mən Yitkanın üstünə tərəf top atanda əlimlə bərk basır, o ala bilmir və hirslənirb cırnayırdı...

Biz hər tutaşıb dalaşmağa başlayanda, qıllı Mürşüd Danoyla təkbətək qalıb voleybol oynadı.

Zalımın oğlu düzəməlli oynaya da bilmirdi. Dano onun əfəlliyinə ağ saqqız çeynəyə-çeynəyə hey gülürdü. Kəlmə də danışmırdılar...

Yitkayla o qədər kəllələrimizi bir-birinə çırp-dıq ki, axırda başım ağrıdı. Sonra da başladı be-limə dumbuz, goppa, boks vurmağa. Mən də onu vurur... ancaq yumruğumu bərk gətirib, yumşaq vurudum. Birdən məni elə dişləyirdi ki, az qalırdı ətimi qopartsın. Dözməyib, vəhşi kimi bağıranda, vəziyyətin ciddiliyinə inanıb buraxırdı...

Beləcə bəxtəvərliklə əylənirdik.

Onun bütün şıltaqlıqları mənə xoş gəlirdi.

Belə oyunları nə Komsomol, nə Adilə, nə də Xuraman bacarmazdı...

Ona qarşı qəlbimdə sonsuz bir məhəbbət, istək, nəvaziş vardı. Onların tarixi pəncərəsi ağ-zında dayananda da, həyətlərindəki şarhaşarla axan su krantının başına gəlib söhbət eləyəndə də qürur duyur, əcnəbi sevgilimlə fəxr edirdim.

Bənövşəgözlü Katerina kimi, Yitka da mənə, bir qram belə olsun, işvə-naz satmırdı. Yitka Za-halkova Komsomolum kimi qürur mənbəyim idi.

Birdən necə oldusa, xatırladım ki, Katerina hərdən ağlamaq istəyəndə, ya da hönkürüb özü-nü boşaltmaq istəyəndə ağzı necə dartılır və ne-cə dodaqları titrəyirdi...

İlahi, onda onu elə sevirdim!

Yitkada isə ağlamaq, hönkürmək instikti de-yəsən hələ formalaşmamışdı. Taleyin amansız, xəzanlı payızını, sərt qışını hələ o yaşamamışdı...

O elə məsumcasına topu uzağa vurur, istə-yirdi qaçıb gətirəm və bundan necə ləzzət alırdı!

Dano onun üstünə acıqlanırdı ki, qəsddən topu uzağa vurmasın. O isə incə çiyinlərini çəkir, dilini çıxarır, gözlərini bərəldirdi. Bu əsl həyat idi!

Biz yaşayırdıq!

Mən də onun acığına topu uzağa vuran ki-mi qışqırıb, Mürşüdü top dalınca göndərirdim...

Onunla birlikdə olanda bütün dünyanı, hərbi xidmət çəkdiyimi belə unudur, qayğısız məktəbli uşaqlar kimi özümü bəxtəvər hiss edirdim.

Doyana qədər oynadıq...

Məsləhətləşdik ki:

“Sözsüz bizi indi axtarırlar, yaxşısı budu biz kazarmaya, onlar da Anya xalagilin yanına qayıt-sınlar. Axşam saat 20:00-da həyətdəki su krantı-nın qarşısında görüşək.”

Onlar gümüşü topu da özləriylə götürüb, yorğun-arğın, könülsüz çimərliyə tərəf üz tutdular.

Mürşüdlə tələm-tələsik taxta yeşikdəki xe-beləri çıxarıb geyinməyə başlayanda, elə bu vaxt uzaqdan narad formasında Elmanın biz tərəfə gəldiyini gördük. Əlində açıq palıdı rəngli çama-dan vardı.

Yitka arxaya çevrilib bizə baxanda... uzaq-dan əli çamadanlı Elmanı zabitə oxşadıb, bizə yaxınlaşdığını çatdırmaq üçün topu Danoya verib qışqıra-qışqıra özünü yetirdi.

Gülə-gülə bildirdim ki, özmüzünküdür və:

"Ağdam bir gözümdür, Bərdə bir gözüm"- misrasını da öz dilimizdə ucadan ifa elədim.

O mənim qorxub çəkinmədiyimi, əvəzində cır, xırıltılı uğursuz bir səslə oxuduğumu görəndə, qolumdan necə gəmirdisə, gözümdən yaş gəldi. Qolumu əsgər xebesindən çıxarıb bir az əvvəl dişlədiyi yerləri ona göstərəndə, o da öz çılpaq qolunu burnumun qabağına tutdu.

Hər ikimizin ağzındakı otuz iki dişin hamısı-nın yeri qollarımızdaydı...

Gülə-gülə də ayrıldıq.

Elmanla yolüstü fit və havada əl yelləməklə hal-əhval tutub, hərbi hissəmizə sarı qaçdıq. Ara-da bir dəfə, elə qaça-qaça çevrilib geri baxanda, Yitka da geri baxdı və hər ikimiz gülə-gülə ha-vada əllərimizi yellədik...

Rotada tam sakitlik idi. Öyrəndik ki, Boyko dəmdir, özünü harasa verib.

Bilsəydim heç qayıtmazdım.

Ужин qurtaranda saat 19:07 idi.

Üçüncü mərtəbənin yanları açıq eyvanın-dan baxanda təsadüfən gördüm, həyətdən Yitka ilə Dano çıxdı.

Toran çalırdı. Bozarantı vaxtıydı.

İlahi, Yitka elə gözəl geyinmişdi!

Limon rəngli, qırmızı naxışlı qısa donu, ağ kip şalvarı və ilk dəfə bu gün əyninə geyindiyi na-rıncı jaketi ona necə yaraşırdı!

Dano da əla geyinmişdi.

Pilləkənləri nəfəs almadan endim və onların qarşısına çıxanda, o heyrət, təəccüb və heyran-lıq dolu baxışlarla məni süzüb:

- Sən bizimlə getmə! - əl-qolla başa saldı.

- Axı söz vermisən, bu gecə görüşməli de-yilik? - soruşdum.

O gördü ki, cırnayır və həm də kövrəlirəm. Mənə bir az da məlhəm yaxınlaşıb, həddən artıq istiqanlı, sirli bir şəkildə, məlul-məlul baxaraq:

-Тофа…прошу…-dedi.

İlahi ölsəm də, bu anı unutmaram!

Artıq röya idi!

Yitka da Xuraman və Adiləyə qoşulub ömür taleyimdə, əbədiyyətə qədər kainatın əsrarəngiz, müəmmalı, sonsuz və məcnun ənginliklərində qəmli vücuduyla tək-tənha, kədərlə addımlaya-caq... Həm də inanırdım ki, biz nə vaxtsa görüşə-cəyik. Praqada da, Bakıda da, lap elə toz-torpaq-lı Şərq döngəmizdə də!

Sən nə qədər sirli, nə qədər müəmmalı, nə qədər əziz, şirin, məsum, günahsız fərd idin bu an ey müqəddəs çex qızı!

16 yaşlı Yitkam mənim.

Tanrım! Ölsəm də unutmaram bu anı...

- Sən getmə! - O bunu elə məsum, elə sövq təbii, acizanə, elə sirli, elə qəribə, muğamatanə bir şəkildə başa saldı ki...

“Прошу... Тоҩа...”

Onun bu ankı ilahi duruşundan, ilahi yalvar-ışından, ilahi kövrəlişindən... titrəyən dodaqların-dan... Kim keçə bilərdi?

Heyrətlə ona dikilən vəhşi, çılğın baxışları-mı görüb:

- Başqa nəsə fikrinə, ağlına, başına gətir-mə! - başa saldı.

İlahi, artıq bu anı təsvir eləməyə o məh-şurlar, - Van Qonq, Leonardo da Vinçi, Rafael... ya Tahir Salahov kimi rəssamlar, ya da Çaykov-ski, Qara Qarayev, Üzeyir bəy kimi bəstəkarlar lazımıydı...

- Sən... elə demə... yalvarma əzizim, sənə yalvarmaq hələ tezdir,- deyib, birtəhər onu başa saldım.

O məni qucaqladı...

Gözlərimi yumub ardını özümdən fikirləşir, xəyalımda canlandırırdım ki, o deyir:

"Bizim ailə qurmağımız Avropayla Asiyanın birləşmsi kimi xülyəvi bir istəkdir. Amma nədənsə səni elə sevirəm ki, elə bil səni Allah mənə, gü-nahlarımdan vaz keçmək üçün mələk əvəzinə in-san simasında göndərib.

Sən yaxşı oğlansan!

Sən praqalı çexlərdən, bratislavalı slovak-lardan qeyrətli, etibarlı, cəsur, fədakar və fədai ilahi bir varlıqsan. Bilirəm ki, yolumda nağıllarda təsvir edilən divlərə belə yalın əllə hücum edər-sən! Sənin qeyrətin kimi bütöv Çexoslovakiyada qeyrətli kimsə yoxdu. Məni çox kövrəltmə..."

Pərvərdigarə, sanki o ruhdu!

Onun geyimi, onun 16 yaşı, onun vücudu, onun duruşu və yalvarışı belə... sözə ifadəyə gəl-məz ilahi bir

nağıl idi! Sindbadların, Məlikməm-mədlərin, min bir gecələrin nağılından da şirin...

Onun səsi, danışığı da artıq əfsunlaşmışdı.

Mən onu dinləyib, yenə uçuna-uçuna gözlə-rimi yumaraq, öz-özümdən uydururdum:

"Sənə inanıram, mənə xəyanət eləməzsən.

O sona qədər dözə bilmədi. Məni qucaqla-yıb: Sənə xəyanət eləmək günahdır! Mənim on altı yaşım var. Qız uşağıyam. İstəmərəm ki, kim-sə, arxamca nə vaxtsa qarğasın... O məni dəlicə-sinə, vəhşi bir ehtirasla sinəsinə sıxdı."

Elə bu vaxt Dano bizə yaxınlaşdı:

- Bu gün bayram günüdür Anya xalagillə Lenin parkına gedirik. Çoxlu fişəng atacaqlar...

Danodan ətrafa yayılan ecazkar ətir iyindən əndişələnib, necə oldusa, cibimdən sarı bir rubl-luq sovet əskinası çıxarıb çantasına basdım:

-Галантерея-dan mənə bir ətir alarsan, sə-nin zövqün yaxşıdır,- dedim.

O nə qədər elədi pulu geri götürmədim...

Yitkaya sarı çevrilib:

- Yaxşı gedin siz...- dedim, qayıdanda hə-yətdə görüşərik.

Razılaşıb ayrıldıq...

Onlar gözdən itəndən düz yarım saat keç-miş, təpərsiz Mürşüdü haraylayıb Lenin parkına tərpəndik...

Pərvazlanıb uçurdum.

Trolleybusun ikinci dayanacağında qəflətən Yitkagili, eyni anda da o məni gördü.

Yenə gözünü bərəldib, Dano və Anya xala-dan aralanaraq, öz-özünə, öz dilində hirslə, hik-kəylə dodaqaltı nəsə danışıb yanıma gəldi. Başa saldım ki, biz onları izləmirik, sadəcə təsadüf ol-du. Bağışlasın.

O heç istəmirdi mən gedəm!

Maraq məni daha çox çulğadı və artıq məni heç kim yolumdan azdıra bilməzdi.

- Biz parka gedəsi olmadıq, - dedi.

Ya Rəbbim! Necə pörtmüşdü!

Mənim də yanaqlarım od tutub yanırdı. Qu-duz it kimi, addımbaaddım onu izləməkdən sava-yı gecənin bu qaramatında başqa yol tapa bilmir, dalana dirənmişdim.

İçərişəhərdəki kimi gecəyarı, əndərabi gör-kəmiylə adamı qorxudan ensiz, uzun dəhliz kimi amma sonu

görünməyən sanki dolanbac dar cı-ğırlı labirintə düşmüşdüm.

Bu vaxt növbəti trolleybus gəldi. Onlar qa-baq, biz də tərəddüd etmədən arxa qapıdan min-dik. Anya xala kassanın yanına keçdi. Danoyla Yitka ortada olan boş yerdə oturdu.

Mürşüd arxada durdu.

Mən də keçib onların yanında, ayaq üstə dayandım. Köynəyim tərdən islanıb kürəyimə ya-pışmış, qaçmaqdan isə yanaqlarım pörtüb qızar-mışdı.O qədər qaçmışdım saçlarım da su idi. Yit-ka mənə heyranlıqla baxırdı. Birdən Dano ona öz dillərində nə dedisə, gülüşdülər.

Maraqla, dirəndim ki, nəyə güldünüz? De-mək istəmədilər. Sonra iki dəfə Yitka cəhd elədi ki desin, ancaq Dano əliylə onun ağzını yumdu. Üçüncüdə Yitka mənə gözlərini bərəldib, ona ya-xınlaşmağımı bildirdi. Ona sarı əyiləndə, ətir, si-qaret, saqqız qoxulu isti nəfəsi məni vurdu və şirin gülümsəyib qulağıma pıçıldadı:

- Dostun idman formasını tərsinə geyinib,-birtəhər, əl-qolla da kömək edib başa saldı.

Çönüb cəld Mürşüdə baxdım.

Üçümüz də birdən qaqqanaq çəkib güldük. Mürşüd yazıq tələsdiyindən doğrudan da formanı tərsinə geyinmişdi, zamoklu sinəsi içəridə idi.

Lenin parkında laçınlı növcavan Mürşüdlə himləşib, düşdük. Onların ətrinə bələnmiş rəngli trolleybus getdi.

Dönə-dönə demişdim: "Bax səni gecə, ne-çədə qayıtsan həyətdə gözləyəcəm."

Razılaşdığımız üçün sakitləşmişdim...

Lenin parkında vurhavur fişəng atırdılar. O qədər adam var idi ki... Yer-göy bayram edirdi.

Özümü yüngül, elə bəxtəvər hiss edirdim!

Hava da əla idi. Parkda əsl qələbəlik vardı. Mürşüdün geyiminə baxıb gülməkdən uğunsam da səbəbini ona bildirmirdim.

Adama bir qutu Столичная siqareti götürüb Danonun qızıl zəncirli qızılı alışqanıyla yandırdıq.

Kefimiz ala buluddaydı.

Ulduzlar elə gözəl sayrışırdı... Sifəti, sinəsi qıllı Mürşüdə bu romantik məqamda duyğusal hisslərlə dedim:

- Doğurdanmı indi biz əsgər həyatı çəkirik? Hərbi xidmət belə olsa, bütün Azərbaycanda şil - şikəst xəstələr qarışıq, çoxuşaqlılara kimi, vətəni qorumaqdan heç kim rüşvət verib, yayınmazdı...

Pervomayskidə zor günlər yaşamışdım!

Getsin o günlər, bir də gəlməsin...

Sarıkirpikli, Qırmızı kostyumlu Anna Krasik və Nina filmindəki o möcüzədən başqa heç nəylə yadda qalmayan Pervomaysk...

Odessa isə, Yitka gedən kimi... gözlərimdə, sentimental ruhlu əqidəmdə, qəlbimdə və canım-da kövrək bir şəhər olaraq əbədiyyətə kimi ya-şayacaqdı. Qəhrəman Odessa şəhəri, bənövşə-gözlü Katerina, çex qızı Yitka və ordu sıraları.

Bu dörd ad ömür salnaməmə yazılacaqdı...

Təsadüfən iki azərbaycanlı qızla qarşılaş-dıq. İlahi, onlar doğma dilimizdə necə şirin danı-şırdı! Dərhal qarşılarına çıxıb, salam verdim.

Heyrətlə üzümə baxıb, bəxtiyarlıqla salamı-mı aldılar. Tanış olduq, Naxçıvandan gəlmişdilər. Mürşüd bizə yaxınlaşanda... qızlar onun tərsinə geyindiyi formasına baxıb, qəflətən gülüşdülər...

Qızlardan bəstəboy olanı gülməkdən uğuna - uğuna, ən yaxın adamına deyirmiş kimi:

- Ələ... qoqqili işqol uşağı kimi formanı niyə tərsinə geyinmisən? Yoxsa camların yaxşı gör-mür?- soruşdu.

Mürşüd qəşş elədiyimizi görüb, karıxdı və əvvəl duyuxa-duyuxa nə baş verdiyini doğru-düz-gün anlaya bilmədi. Qız bir də təkrar eləyəndə, təpərsiz yanırmış kimi, bir andaca idman forma-sının köynəyini əynindən dartıb çıxartdı, cəld də çevirib geyindi... İri sancaqla alt köynəyinə

san- cılmış üçbucaq formasındakı duanı görəndə isə yenidən qarnımı tutub güləndə isə, qızlar nəsə gülmədilər. Sən demə naxçıvanlı qızlar da təpər-sizin anası kimi dinə bərk inanırmış. Xeyli söhbət elədik. Məni başa saldılar ki, Naxçıvanda Əshabi kəf var, üzü qibləyə açılır və hətta Quranda adı çəkilir. Nuh peyğəmbər də Naxçıvanda olub. Xı-zıda qayalı dağın başında daşdan beşbaqmaq var... Düzü bunlardan heç xəbərim yox idi...

Kazarmaya qayıtdıq.

Onsuz da, yerbəyer axşam yoxlaması çox-dan qurtarmışdı. Çox gözlədik. Turbaza tərəfdən onların gələcəyi yolu səbirsizlikə, ərinmədən, da-rıxmadan hey izlədik.

Gecə yarı oldu.

Saat 00:00, 00:30, 01:00... bir xəbər çıxma-dı. Ümidim üzülmürdü...

Gecə biri keçən kimi artıq həyəcanlanmağa başladım və ağlıma hardan gəldisə, Mürşüdü də götürüb, Yitkanın ümid pəncərəsi qarşısına get-dim. Pəncərə açıq idi. İçəri qaranlıq olsa da, hə-yətdən düşən işıqda Yitkanı yatan gördüm.

Gözlərimə inanmadım. Bədənim buzladı və yerimdəcə donub qaldım.

İlahi onlar nə vaxt qayıdıb?

Yanıb yaxıldım. Elə bu vaxt qonşudan yaşlı bir kişi gəldi:

- Мужики... Nə axtarırsınız burada?

Onunla əməlli başlı ağızlaşıb, bütün hirsimi- hikkəmi üstünə tökdüm. Və elə bu vaxt əsl möcü-zə baş verdi: Yitka səsimə oyandı!

Bir də gördüm içəridən məni yuxulu səsiylə çağırır. O məni necə səsləyirdi!

Kişini unudub pəncərəyə sarı cumdum:

- Nə vaxt gəlmisiniz?

Nə qədər elədim çölə çıxmadı, yazığı gəldi-yi üçün az qala yalvarıb:

- Arvad biləcək...- dedi.

Deyəsən, arvaddan həqiqətən ehtiyatlanır, qorxurdu. Səsimizə Dano da ayıldı. Qalxıb siqa-ret götürdülər və birini də mənə verdilər.

Üçümüz də siqaret yandırdıq...

Birdən səsə Anya xala oyanıb gəldi və ya-zıq arvad yüngül gecə paltarında, saçları pırtla-şıq halda içəri girəndə vəziyyəti görüb, sakitcə söhbət eləsək də açıqlandı:

- Ayıbdır, qonşular da hər şeyi bilir. Gecə yarını keçib...

Pəncərədən ayrılmalı olanda, yavaşca əyi-lib pıçıltıyla onu başa saldım:

- Gedirəm, su krantının yanında səni gözlə-yəcəm... Qorxma, gəl...

O, tez-tələsik:

No... No... No... Не жди... - dedi.

Düz gecə saat üçə kimi, söz verməsə də, Süzəndə xalanın sözü olmasın: Bəreyi ehtiyyat, onu gözlədim. Onu gözləməyin özü də... onunla öpüşmək qədər ləzzətli və ehtiraslı idi!

Təmizürəkli, kal Mürşüd...yazıq, taxta hasa-ra söykənib, elə yerdəncə yatmışdı.

Xoruldayırdı...

Yuxum tamam qaçmışdı. Yitkanı qucaqla-yıb o ki var, öpmək istəyirdim.

Əfsus... gəlmədi!

Tarixi gün:

Turbaza, 2-ci korpus,

18-ci otaq...

Odessa, 21 avqust 1972-ci il,

birinci gün.

Səhər, подйом-da Boyko özü gəldi.

Gecə dörddə, səhərağzı yatsam da, dünya hələ ağarmamış durası oldum. Cəmi iki saat yat-mışdım. Gözlərimə sanki nəsə dolmuşdu, geyi-şirdi. Elə yuxusuz idim...

Kaş imkan olaydı, bu saat elə yatardım!

Dəsmal götürüb elə gözüyumulu, ölə-öləcə yuyunmağa getdim.

Развод-da az qalırdı torpağın üstündə yıxı-lıb yatam. Çoxdandı, yenə rahat yatmağım olma-yıb. Süzəndə xalanın sözü olmasın: Yuxu məni lap çolputmuşdu...

Briqadamın uşaqlarıyla binanın çardağına çıxdım. İşləri yerbəyer eləyib, həyətə endim. Üst-də стяшка eləmək üçün həyətə tökülmüş beş maşın dəniz qumu yük kranıyla yuxarı verilmə-liydi. Qum topasının içərisi balıqqulaqlarıyla do-luydu. Briqadamın üç əsgərinə tapşırdım ki, iri və gözəgəlimlilərindən toplasınlar.

Yrəyim dözmədi, özüm də onlara qoşuldum. Dizlərimizi qum topasına qoyub, eşələməyə baş-ladıq. İki saata qədər bu işlə məşğul olub, əl-üz dəsmalının içini balıqqulaqlarıyla doldurduq...

Saat 10:11-də Dano qapını açıb həyətə çıx-dı. Tənbəl Yitka görünür hələ də yatır.

Onların həyətinə keçib dəsmala bükülü ba-lıqqulaqları ona göstərəndə sevindi və qaçıb içə-ridən böyük, üstü şəkilli bir salafan torba gətirdi. Şəkildəki, qədimi memarlıq üslubunda tikilmiş o böyük binanın altından "Prajski qrad" sözləri ya-zılmışdı.Diqqətlə şəklə baxdığımı görəndə, Dano başa saldı ki, sizin Kremliniz olan kimi, bu da bi-zimkidir: Prajski qrad.

- Aydın oldu, demək Yitka oturacaq bina!

Gülüşdük...

Mən su krantının yanında dəsmalı açıb, balıqqulaqları yuyur, o da torbaya yığırdı...

Əlinə iri, gözəl bir balıqqulağı alıb sevinclə mənə göstərdi və heyranlıqla:

- Bax bunlardan tapsan çox gətirərsən, ne-cə gözəldir, əziyyətinə qızırqalanma,- yarı rus, yarı çex, yarı da əl-qolla başa saldı.

Başa düşmədiyimi də, özümə sərf edən ki-mi qəbul edirdim, təki söhbət olsun...

Bir qədər keçmiş necə oldusa, o çox təəc-cüblə, əsl kriminalistlər kimi soruşdu:

- Dənizə nə vaxt, kiminlə gedib bunları top-lamısan? Yitka bilir?

- Ohooo! - qışqırdım.

Yenə qəhqəhəylə gülüşdük.

Balıqqulağı əməliyyatını olduğu kimi başa saldım. Onlara bir manat vermişdim ki, mənə ətir alsınlar.Dano xatırlatdı ki, hələ almayıblar, yaxşı-sını tapan kimi alacaqlar. Və sonda da lap dəqiq-ləşdirdi ki, bu gün taparlar.

Beləcə, çox səmimi ayrıldıq...

Hərbi hissəmizin ərazisinə adlayan kimi,be- qafıl Boyko məni yanına çağırıb, ciddi şəkildə:

- Orada nə gəzirdin? - soruşdu.

Çiynimdəki dəsmalın bir ucunu lap yuxarıya qaldırdım və hələ də yaş, su süzülən sir-sifətimi göstərib barmağımla işarə edərək:

- Görmürsən? Yuyunurdum!

- Bir də səni oralarda görməyim.

Göydodaq Ədalət kənardan onun bu iradını eşidib, irişə-irişə pul dəlisi Boykoya dedi:

- Чесни deyirsən?

Boyko onun dediklərinə əhəmiyyət vermədi.

Ədalət xəbər verdi ki, səni kazarmanın qar-şısında İltimas adlı bir oğlan gözləyir. Rəngim o saat ağardı: Yəqin alışqanı üçün gəlib. Bilmədim nə edəm. Əmanətə etibarsızlıq nə pis iş imiş!

Onunla əl tutub görüşən kimi,həyəcanla dü-zünü açıb söylədim:

- Alışqanı Yitkaya bağışlamışam, əvəzində nə istəyirsən istə, verim,- dedim.

Əclaf elə bil hazır imiş, qırmızı-qırmızı:

- Onda qırmızı плавки-ni ver də əvəzinə, onsuz da sezonu qurtarır,- dedi.

Cındıra üç manat verib heç istəməmişdim...

Birlikdə kazarmaya getdik. Çarpayının altın-dan çamadanımı çıxarıb ən çox sevdiyim qan qırmızı плавки-mi ona verdim. Arsız-arsız götü-rüb, üç manatın heç adını da tutmadı. Utandı-ğımdan mən də üstünü vurmadım.

Çığırtı qopdu!

Hər ikimiz bayıra, səs gələn səmtə qaçdıq. Xeyli əsgər toplanmışdı. Hardansa bizim rotaya yeni ezam edilmiş Nuruş adlı bir naxçıvanlı oğla-nın ağız-burnu eləcə qan içindəydi.

Piruyevlə qabaq-qabaqa təkbətək vuruşub-lar. Nuruşun qanlı ağzına baxanda ətim ürpəndi.

Tağım komandiri Kaşşeyev özünü yetirən kimi, qışqırdı ki, su gətirin üzünü yusun.

Kaşşeyevin üstünə bozardım:

- Niyə üzünü yusun? Apar mayor görsün!

Kaşşeyevin tərəddüd etdiyini görüb, oğlana tapşırdım ki, üzünü yuyub eləmə, bu saat mayor Deqtyarın yanına get, günahsız yerə adamı heç belə, vəhşicəsinə döyərlər?Qorxma, onun da pa-yını biz verərik.

Vaynösə xəbər gətirdi ki, Nuruş ilk vurulan kəllədən yerə tirlənib və quduz Piruyev sapoqlu ayağıyla yerdə onun ağzına var gücüylə bir neçə təpik ilişdirib.

Yazıq uşaq qan içindəydi.

Dodaqlarında, sinəsində donub qalmış lax-ta qan canımı ürpətdi.

Kaşşeyevlə möhkəm ağızlaşdım.

Heydərovun briqadasındakı molodoy azər-baycanlı əsgərlərin gözləri qarşısında baş versə də, yazığa qahmar çıxıb dalaşmaqları cəhən-nəm, heç aralaşdırmayıblar da...

Hirsimdən əsirdim.

Qəflətən, плавки-ni mənə uzadıb, İltimas qoç Koroğlu kimi bağırdı:

- Kim vurub əə bunu! Göstərin onu mənə!

İltimasın bu hərəkəti azərbaycanlı uşaqları canlandırıb qeyərətə gətirsə də, yenidən dava salmağın, hərəkətə keçməyin mənə ziyan verə-cəyini dərk edib,- hauptvaxta düşmək məqamı olmadığını, iki-üç günə Yitkanın Odessanı tərk edəcəyini düşünüb, qışqırdım:

- İki-üç gün gözləmək lazımdı, Piruyevi Nu-ruşdan da pis kökə qoyarıq!

Birtəhər İltiması yola salıb, Nuruşun qoluna girərək mayorun vaqon-hücrəsinə gətirdim.

Boyko Nuruşu al qana boyanmış görəndə, heyrətlə üzümə baxdı. Həyacanla qışqırdım:

- Deməki demədin! Ortalığa artıq qan dü-şüb, ölən olacaq! Piruyevə bir şey olsa, yenə de-mə ki, Babayev

günahkardı! Al bu əclafın qar-şısını! Hərbi xidmətə gəlmişik ki, şəcərə davası eləyək? Müsəlmanlar bu dövlətin düşmənləridir?

- Gözlə, mayor gəlsin danışarıq, uşaqlarını-zı da yığ apar institutun həyətinə. Başqa hərəkət olmasın. Прошу тебе...

Boyko Nuruşun sifətinə baxıb çimçəşir, irəli gəlib baxmağa belə ürək eləmirdi.

Çölə çıxdıq.

Müsəlman uşaqlar başımıza toplaşdı. On-ları yığıb institutun həyətinə apardım. Kəlbəcərli vaynösə Sahib Əkbərov Nuruşun ağzını cib dəs-malıyla Yitkagilin həyətindəki şarhaşarla axan su krantında yuyub təmizlədi.

Qəti qərara belə gəldik: Biryolluq bu məsə-ləni həll eləməliyik. Yenə vaxtı çatıb. Günah keçi-si də ki, məlumdur!Ya onlara ya da bizə verən al-lah! Praqalı qızlar gedən kimi bu məsəlini çürüt-məliyik, vəssalam!

Praporşik Kirilyuk gəldi.

Bizi hərbi qaydada sıraya düzüb, adbaad yoxlamadan sonra mayorun adından əmr verdi:

- Dava məsələsinə ayrıca baxılacaq. İnsti-tutun həyətində dayanan yük maşınındakı əşya və avadanlıqları yeməkxanaya daşıyın!

“Nökər nədi, bekar nədi?”-yenə yarızarafat, yarıciddi, danışa-gülə başladıq daşımağa. Bircə Nuruş işləmədi. Onun könlünü almaq üçün yanı-na gəldim.Yazıq bərk döyülmüşdü... Başa saldım ki darıxmasın, Piruyevin payı veriləcək, üçcə gün səbr eləsin... Və birdən Lenin parkındakı naxçı-vanlı qızların sözü yadıma düşdü, tez soruşdum:

- Nuruş, Nuh peyğəmbərlə Naxçıvanın nə kimi əlaqəsi olub?

Heç fikirləşmədən dedi:

- Nuhun gəmisi Naxçıvandakı Haça dağa dəyib dağılıb dəə... Ona ilanlı dağ da deyirlər...

Maraqlıydı, oxumuşdum ki, Nuhun gəmisi Misirdə saxlanılır və hətta ölkəyə gələn bütün tu-ristlərə, piramida ehramlarıyla yanaşı, o gəmini də nümayiş elətdirirlər. Naxçıvan hara, Misir ha-ra? Nuruş burdan o yanasını bilmədi:

- Onu savadlı din adamları bilər,- dedi.

Şərq küçəsinin sözü olmasın: İş tam xoda düşəndə kənara çəkilib, Mürşüdlə plan qurmağa başladıq. Bu gün Yitka və Danoyla harda və ne-cə görüşək?

Arkadiya mehmanxanasının geniş restora-nına aparmaq qərarına üstünlük verdik.

Restorana getməsələr, ehtiyat variant kimi "ev məsələsini" təklif edərik.

Pul verib Toma, ya da Dusyadan boş otaq istəyək. Alınsa, bazarlıq da edib, otaqda yaxşıca yeyib-içərik... Düzdü, kirovabadlı qadınlar gələn-də tutduğum otağa onlar getməmişdi.

Amma, onda ayrı, indi ayrı...

Məsələ belə də qaldı.

İşi qurtarıb geri qayıdanda, yolun kənarına yenicə tökülmüş balıqqulağıyla dolu bir maşın da qum gördük.

Danonun xoşlayıb mənə tapşırdığı fasonda bir ədəd balıqqulağı tapıb, uşaqlara göstərdim.

Dizlərimizi quma basıb, eşələyərək xeyli o balıqqulaqlarından tapıb topladıq.

Uşaqları iş yerinə göndərsəm də... Mürşüd, Hüseyn və yefreytor İlyasla qalıb, pinti toyuqlar kimi bir az da eşələndik.

Yoldan keçən yaraşıqlı, gözəl qamətli, dəb-lə, zövqlə geyinmiş, zərif, kiçik burunlu bir gənc qız ayaq saxlayıb, bizə baxdı və bic-bic gülümsü-nərək, incə fəndlə:

- Qızıl axtarırsınız sözsüz...

Təəccüblə, dördümüz də birdən çönüb,- si-fətində qəribə mimika olan qızın üzünə heyrət və heyranlıqla baxdıq.

Əvvəl hamımız çaşıb susduq...

Uşaqlar dərhal çönüb üzümə baxdılar.

Birdən... dizlərim, əllərim qumun içərisində, qızdan xahiş elədim:

- Kübar qız kömək etsəniz, siz də payınızı götürə bilərsiniz!

Ətrinin qoxusu ətrafa yayılan, bu kiçik bu-runlu, dik məmələri kip donunda sinəsindən çıx-maq istəyən növrəstə qız, gəlib lap yanımdaca əyilərək, əliylə qumu eşələməyə başladı.

Və tanış olmağa başladıq:

- On gündən sonra, sentyabrın birində ins-titutda ikinci kursda oxuyacağam. Yataqxanada qalıram, vaxtın olanda, istəsən yanıma da gələ bilərsən,- dedi.

Onunla razılaşsam da vaxt hardaydı? Yitka iki-üç günə gedir, bənövşəgözlü Elizabet Teylo-rum, hələ azyaşlı, yeməkxanada anasına kömək edən Tanya...

Tanya bu gün, saat 15:00-a məni görüşə çağırıb. Amma, yoxx...

Müsəlman demiş: Yitka olan yerdə, qalanı-na bir qoz! Bunlar hamısı vaxt öldürmək, gün ke-çirmək üçün bir bəhanə idi. Başqa neyləyəsən axı? Bizimki, vətən qorumaq adı altında, istismar edilən gənclik idi. İnstitutda oxuya-oxuya fəhləlik edirdim. Tay-tuşlarım artıq 5-ci kursda oxuyur...

Saçları üzümə toxunurdu.

Qumu eşələyə-eşələyə zarafata keçdim:

- Söz gümüş olsa da, sükut qızıldır,- deyib-lər bizdə.

Çox ciddi görkəm alıb:

- Söz quşdu, buraxarsan uçub gedər, yax-şısı budur qızılımızı axtaraq...

Qızın hazırcavablığı məni heyran etdi. Özü-mün də sıravi, sıradan biri olmadığımı göstərmək üçün yanımdakı Mürşüdlə Hüseyni göstərib fəxr-lə: Bu əsgərlərin komandiriyəm,- dedim. - İki-üç aya hərbi mükəlləfiyyəti başa vururuq. Mən özüm də 3-cü kurs tələbəsiyəm, mühəndis olacağam...

Qız birdən rol aparırmış kimi:

- Axx! Əsgər olmağa o qədər həvəsim var! - qəribə bir intonasiya ilə pıçıldadı.

- Ohoo! Nə danışırsınız canım, sizi mən yalnız generala bənzədərdim! Nə sərəncamınız olsa, can-başla yerinə yetirərdim. Lap əmrinizlə belimə bomba bağlayıb,

düşmən ordusunun üs-tünə tək gedərdim, inanmırsınız hə?- soruşdum.

O çox ciddi şəkildə, artist kimi pafosla:

- Orduda kamikadzelər də varmış ki!

- Kəşfiyyatınız zəif işləyir də!

Hamımız gülüşdük.

O ayağa qalxıb, ağ yumşaq əlini dodaqları-na ehtirasla sıxaraq:

- Görüşmək ümidiylə!- deyib, əlini başından yuxarı qaldırdı və çox aramla yellədi.

Biz üçümüz də ayağa qalxıb, onun kimi əl elədik və birdən arxasınca qışqırdım:

- Nə tapsaq yarıyıq!

Saat 11:00-da rotaya qayıtdıq.

Yitkanı bu gün hələ görməmişdim. Artıq on-un üçün bərk darıxırdım. Yenə xeyli balıqqulağıy-la onun hüzuruna təşrif buyurmalıydım...

Saat 16:47-idi.

Böyük yük maşını təkəri böyüklükdə olan, barabanlı palçıqqarışdıranın yanında dayanmış-dım. Təsadüfən taxta zaborun arasından gördüm, Yitka evdən çıxıb həyətdəki tualetə sarı gedir.

O məni görən kimi sağ əlini havada yelləyib sol əli ilə öpüş göndərdi.

Deyəsən kefi kök idi.

Birdən... "Bəlkə məni ələ salır?"- nədənsə, belə düşündüm və ümidsiz halda olsam da, hər ehtimala qarşı cavab öpüşü göndərdim.

O həyətdəki tualetə girəndə, mən cəld yola tökülmüş qum qalağından yığdığımız balıqqulaq-ları ilə su krantının yanını kəsdirdim.

Tualetdən çıxıb, əllərini sabunlayan kimi, əl uzadıb, elə sulu əllə mənimlə görüşdü.

Qürurla quru sinəmi qabağa verib, yeni balıqqulaqlarını ona göstərdim. Diqqətlə baxıb, çox şirin gülümsündü. O gülümsünəndə, az qalırdı ki, ürəyim keçsin. Birdən mərhəmətlə başımı sığal-layıb, işarəylə bildirdi ki, onu gözləyim.

Bir də gördüm evdəki torbanı gətirdi və yenə balıqqulaqları bir-bir yuyub torbaya yığdıq. Daha torba tutmurdu. Ləbələb dolmuşdu.

"Sərhəddən salamat keçsin, ürəyimdə mı-zıldanıb Allahın adını çəkdim."

Zarafatlaşmağa başladıq. Buna Bərdədəki bizim yerli kürdlər: "Hingirləşmək,"- deyirdi.

- Gecədən sübhətək səni gözlədim, bəs ni-yə gəlmədin?

O gözlərini bərəldib, dilini çıxararaq:

- Sənə gözləmə,- dedim!- Dedim?- Necə çı-xaydım?- Görmədin Anya xalanı?

O bu sözləri əl-qolla, güclə başa salırdı.

- Yaxşı, ötənə güzəşt,- deyiblər, bəs indi nə vaxt görüşürük?

O zərif, çılpaq, ağappaq çiyinlərini atdı, do-daqlarını büzdü...

Qorxumdan bu günə yox:

- Yaxşı sabah görüşə bilərik?- soruşdum.

Gördüm təəccüblə döyüküb üzümə baxır... Başa düşmədiyini zənn edib:

- Завтра можна?- soruşdum.

O gülüb, heyrətamiz şəkildə:

-Почему же завтра? Не завтра! Сегодня!- qışqırdı və başımdan ikiəlli yapışdı.

Qulaqlarıma inanmadım.

Sevindiyimdən qulaqlarım necə tutuldu! Elə bil ürəyim çırpınır, nəbzim damağımda vururdu.

Beynəlmiləl sevişmək gerçəkliyinin ləzzətini bəxtəvərliklə çıxarırdım.

O necə sevindiyimin ləzzətini yaşadı.

Onun baxışları altında əriyirdim.

Bu vaxt Dano göründü. Yitka əlindəki balıq-qulaqları evə apardı.

Əllərimi yaxalayıb, həyətdə, ağacdan mə-harətlə yonulub hazırlanmış oturacaqda oturdum. Danonun əlində kiçik silindr şəklində qəzetə bü-külü tum vardı.

Yanaşı oturub söhbət eləyirdik. Yitka evdən bir az ləng çıxdı və əlində lüğət kitabı, bizə ya-xınlaşıb lüğətlə başa saldı:

- Televizorda dəvə göstərirdilər. Diktor dedi ki, dəvə bir dəfəyə iki yüz əlli litr su içir.

Hər ikimiz heyrətlə içimizi çəkdik.Yitka yanı-mızda oturub, tum çırtlaya-çırtlaya əvvəl Danoya sataşdı. Üzünü mənə tutub:

- Tofa... anam deyir, Dano makdonalds kot-letinə oxşayır, düzdü?

Mən makdonalds kotleti görməmişdim və düzü ilk dəfəydi eşidirdim. Odur ki, zarafatla:

- Bizim Şərq küçəmizdə yaşayanlar mak-donalds kotleti tanımır.Amma, Dano quyruqlu qu-zu tikəsinə, dana, balıq kotletinə daha çox bən-zəyir. O çim yağdır!

Gülüşdük.

Və qəflətən Yitka ciddi şəkildə əlini ağzına tutub, gözlərini bərəldərək:

- Suss...- pıçıldadı, - mayor gəlir!

Özümdən asılı olmadan dərhal dala baxdım və gizlənmək istəyirdim ki, o ürəkdən qaqqanaq çəkib güldü:

- Qorxdun?- soruşdu.

Nədənsə onlarla söhbət eləməyimlə yanaşı həm də oturub tum çırtlamağımla da qürur duyur, fəxr eləyirdim.

Bu qızlar bir qram da olsun işvə-naz satmır ətir-kirşandan istifadə eləmirdilər.

Öz dillərində nəsə danışıb, sözlər axtaran-dan sonra Dano məndən soruşdu:

- Формула -1 yarışları, ya kort meydança-sında Большой теннис oyunları sizdə keçirilir?

Həqiqətən bu barədə məlumatım olmadı-ğından çiyinlərimi çəkib, başımı buladım...

Onlar məni başa saldı ki, bu oyunlar Avro-pada və dünyada çox dəbdədir... Yitka:

- Sən xaricdə olmusan heç? - soruşdu.

- Yox! - dedim.

Və bir qədər pauza verib, başa saldım:

-Moskva, Kiev, Dnepropetrovski, Zaporojye, Pervomaysk, Bakı və Odessadan başqa heç yanda olmamışam. Bir də, məzuniyyətə gedəndə qatardan Rostovu, Don çayını seyr eləmişəm.

Don kazakları, Mixail Şoloxovun Nobel mü-kafatı məsələsini də bir qədər xırdaladım.

Onlar nə don çayını, nə Don kazaklarını, nə də ki, Şoloxovu tanıdı.

Dano soruşdu:

- Джо Досени tanıyırsan?

- Hə! Bir dəfə onu gördüm, televizorda oxu-yurdu. Ağ kostyumda, ağappaq karetanın yanın-da dayanıb, fransızca bir gözəl, duyğusal mahnı oxudu...- sevincək dedim.

Sonra Pavorottini soruşdular.

- Hə! Onu da tanıyıram. Moskvada, Ostan-kinodan çox göstəriblər. İtalyandır, Luçanno Pa-vorotti, estrada... Bığlı, saqqallı kök kişi, 120-150 kq. olar. Smokinq geyinir. Ağ saroçkada... Qaş-larını düyünləyib, saf muncuq, təsbeh kimi düzü-lü dişlərini göstərə-göstərə bizim Rəşid Behbu-

dov, Müslüm Moqamayev kimi gur səslə oxuyur. Geniş alnı sol üzündə fındıq boyda şişi də var. Nazik, uzun qartalburunlu yekəqarın əmidir...

Əmin oldular ki, bu italyanı yaxşı tanıyıram. Sonra Çelantanonu soruşdular.

- Bəstəkar, aktyor, müğənni Andrianonu ha-mı tanıyır,- dedim.

Bir dəfə televizorda çox qəribə bir şəkildə oxuyanda, onu gördüm. İzdihamlı azarkeşlərinin qarşısında qurulmuş səhnəyə paltoyla çıxmışdı.

Açıq şabalıdı alnında, seyrək tükləri vardı. Aradabir kresloda elə paltolu oturur, özünə oxşar biri isə ayaq üstdə rəqs edirdi.

Çelantano da belə getdi.

Sonra nə düşündüsə Yitka alnını qaşıyıb:

- Eranzeni necə, tanıyırsan? - soruşdu.

- Hə!- qışqırdım. Eranzen! Neqr,- qara mu-lat. Nazik qaşlı, qısa saçından çoxlu ağ iri təsbeh daşlarına oxşar şeylər asır...

Həddindən artıq açıq geyindiyindən, rəqs edə-edə oxuduqca, əyiləndə sinəsindən yupyum-ru döşləri görünürdü. Ağ dişləri ona çox yaraşır...

Iki bacı bir-birinə baxıb gülümsədi.

Mən onlara sual verdim:

- İqlesisi, Alla Puqaçovanı, Sofi Loreni, So-fia Rotarunu, Müslüm Moqamayevi, Rəşid Beh-budovu, Ququşu, Zeynəb Xanlarovanı tanıyırsız?

Yitka da mənim kimi ətraflı məlumat verdi:

- İqlesis futbolçu olub, adətən qara kostyum, qara qalstuq, ağ saroçkada çıxır. Saçının arxası çox sıx və uzun, bığsız kişidir. Geniş alnı, nazik qaşları və düz burnu var. Ətrafında dörd səfeh qız da oxuyur...

Bizimkiləri və Ququşu tanımadılar. Məsələ bir qədər ciddiləşdi. Sofi Loreni də tanıyıb, dəqiq təsvir elədilər:

- İri gözlər, uzun kirpiklər, geniş ağız, arıq uzun təbii gözəl...

Yadlarına Müslüm Moqamayevlə Kobzon da düşdü... Amma təəssüf, bizim drijor Niyazini tanımadılar. Sonra hamımız susduq...

Yitkaya dedim:

- Hardaydın internasional sevgim, səni bu gün çox axtardım, tapa bilmədim...

O sıçrayıb ayağa qalxdı.Qışqıra-qışqıra, əl-qolla, gücbəlayla başa saldı:

- Yalan danışma də! Hər yarım saatdan bir üçüncü mərtəbənin eyvanına baxmışam. Sən ki, orada yox idin. То... не ври...

Heyrətə gəldim. Yəni doğrudandamı o məni axtarır? Yəni doğrudanmı o məni sevir?

Yumşalıb, boynuma aldım: İnstitutun həyə-tində işləyirdik...

Təptəzə, qan qırmızı плавки-mi alışqanın əvəzinə İltimasa verməyimi, Nuruşun döyülmə-siylə bağlı olanları, ağzındakı qanın laxtalanma-sını təsvir eləyib, onlara danışdım.

Dano evə girib, bir qədər keçmiş, əlində iki kiçik qutu geri qayıtdı. Qutuları mənə uzadıb:

- Univermaqdan soruşduq ki, kişi üçün yax-şı ətir var, bax bunları verdilər,- dedi.

Açıb baxdım, Шипр və Тройной одекалон idi. Qiymətlərinə baxdım: İkisi birlikdə 1 man 35 qəpik eləyirdi. 35 qəpiyi də görünür özlərindən ödəyiblər... Çox sevindim!

Bir az da, dünyanın bir nömrəli futbolçusu Peledən, bir nömrəli boksçusu Kasius Kleydən söhbət elədik. Bildirdim ki, Kasius Kley müsəl-manlığı qəbul edib, adını da dəyişib Məhəmməd Əli qoyub. Bütün dünya müsəlmanları ona azar-keşlik eləyir... Ötən il, 1971-in martında heyif ki, on beşinci raundda Co Frezerə uduzdu.

Normanla döyüşdə isə ikinci məğlubiyyətini yaşadı. Amma o yenə ağır çəkidə dünyanın bir nömrəli peşəkarıdır. Bütün dünya onu sevir.

Revanş görüşündə nə vaxtsa Co Frezeri elə döyüb nokauta salacaq ki, qara zənci Co yer-də sərili qalanda, hakimin saya-saya göstərdiyi açılmış üç barmağını on beş görəcək!

Yitka birdən üstümə atıldı.

Didişməyə başladıq.

Əsl spektakl idi! O məni elə möhkəm diş-ləyib, çığırdı ki, Dano əvvəl gülsə də, öz dillərin-də nəsə deyib, onun üstünə acıqlandı...

Saat 18:08 idi.

- Gecəni necə keçirək? - soruşdum.

O qırmızı kabluklu ayaqqabılarını göstərə-göstərə çiyinlərini yığıb büzüşdü.

Dano tez hiyləgərliklə gülümsünüb dilləndi:

- Sən necə istəyirsən?

- Mənn?... Qamətimi dikəldib, Arkadiyanın restoranına... ya da... bir yaxın, qadın tanışımın turbazada otağı var... Boş otaqdır, açarı da mən-də olacaq... Otaqda yeyib-içə də bilərik...

Bu “Boş otaq” sözlərini işlədəndə də, düzü: “Qadınlar onsuz da axırda altda qalır...”- fikri, ildı-rım sürətiylə beynimdən keçdi.

“Boş otaq, tanış qadın...”sözlərini eşidən ki-mi, Yitka da, açıq qapı siyasətini dərhal başa dü-şüb, gözlərini mənə ağartdı, cəld:

- Noo, Noo...- dedi.

Və qəflətən çönüb, qolumdan yağlı bir çim-dik qopartdı!

Bir anlıq susduq...

Üçümüzün də fikrimizin mayası... deyəsən xəlvət bir yerdə öpüşmək və həm də, yalnız do-yunca öpüşmək olsa da... amma deyəsən, dəmir yolu arasında bitən çiçəklər kimi... dambadurum-la, üstündən tez-tez keçən qatarların səsindən boy da ata bilmirdi...

“Boş otaq, tanış arvad”- sözlərindən sonra, nədənsə, baxışlarımız da dağıldı.

Yitka gözlərini məndən yayındırırdı.

Bərdədən görünən dünyanın əxlaqı, həya-sıyla...xəyalımda ehtirasın həzz dalğalarının için-də batıb-çıxsam da, aramız açıq olsa da, mən də onun üzünə baxa bilmirdim.

Dano özü də, ehtirasın cilovunda sıxılsa da tab gətirir, yanımda gətirdiyim əsgər dostlarımın içərisindən ürəyinə

yatanı seçə bilmirdi. Bu tüklü, laçınlı ayıya oxşayan Mürşüd isə, sonuncu oldu-ğundan daha seçim yeri də qalmamışdı.

Sonuncu, lap sonuncu gecə olacaqdı!

Sonra necə oldusa, onlar mənimlə razılaş-dı və Dano əminliklə:

-Saat 20:00-da görüşək, necə istəyirsən elə də eləyərik...- dedi.

Yitka da ürək genişliyi ilə, ciddi şəkildə:

-Ya restoran MOPE, ya da turbazadakı boş otaq, eləmi?- təkrar soruşdu.

Bəşəri hisslərlə razılaşdıq...

Təpərsiz Mürşüd, fil qulağında yatan,- pri-baltikalı russkoqovoryaşşi qızların sözü olmasın - типой-un biriydi. Dano onun yerinə подход elə-yəsi deyildi ki?

Anası ölmüş Mürşüdün işini aşırmaq üçün, ümid ancaq özümə qalmışdı. Fürsət düşmüşkən, aradüzəldənlər kimi dəllallıq eləməliydim.

Araqdan içib, açıq ürəklə bərk danışan və kepkasını da yan qoyan kefqomlar kimi, qəflətən Yitka ucadan:

- Şəhərdə gəzəyin! - qışqırdı.

Yitkanın bu sözü, yavan cümlə təsiri bağış-ladı. Dano ona tərs baxışla baxıb:

- Düşük-düşük danışma!- pıçıldadı.

Bu intelligent, doğulandan varlı kökdən olan makdonalds kotleti... indi, zibillik pərvanəsi olub,- eşşəkdə gəzən, keçəli çadırda nimçələri siçan zı-lıyla dolu, nataraz cüssəli, qara cod qıl basmış tüklü ayıyla...öz bioloji tələbatını ödəmək xatirinə, məcburən görüşmək zorundaydı.

- Şəhərdə boş-boşuna qısır arvadlar kimi veyillənməkdənsə, restorana gedəyin, mən istə-yirəm bu gecə fantastik olsun,addimbaaddım ay-rılıq günümüz yaxınlaşır...

Bu"fantastik" sözündən sonra, onlar duyğu- lanıb, ülvi hisslərlə qanadlandılar. Dano:

- Necə istəyirsən...- dedi.

Sanki beynəlxalq sülh sazişi imzalandı.

Kazarmaya gəldim.

İş qurtarmışdı... Cəld Mürşüdü tapdım. Gö-rüş vaxtına az qalırdı. Hardan başlamalı? Ev tap-malı və çimib təmizlənməliydim...

İdman formamızı geyinib, gizlincə aradan çıxdıq. Camadar Dusyanın hamamxanasında ca- nı dildən, yaxşıca hamamlandıq. Üzümüzü təraş eləyib, bir-birimizin boynunun arxasını HEBA lez-vasıyla düzəltdik. Danonun

mənə aldığı ШИПР və ТРОЙНОЙ ОДЕКАЛОН-la ətirləndik.

Dusyanı kənara çəkib, boş otaq məsələsini ona başa salanda, necə yalvarıb-yaxardımsa:

- Sıtqıma əə... saymazyana gözlə deyib, tə-ləsik, tərli alnının suyunu əlinin dalıyla silə-silə arvadlar hamamına getdi.

Yazıq Dusya!

Laçınlı Mürşüd hərdən uçum-uçum uçunur-du. O zavallı, həyatında hələ qız-qadın görmə-mişdi. Nə "eləsini" nə də ki, "beləsini"...

Ortası payalı, döşəməsi palazlı çadırda do-ğulmuşdu. Danışırdı ki, valideyinləri dua yazdı-rıb, nə vaxtsa ölüb murdar olmuş, bir öküz kəlləsi skletinin içinə atıbmışlar. Və pəyələrinin başın-dan gözmuncuğu kimi asıb, acından ölsələr belə, bu tilsimlə daim göz qaytarırmışlar.

Nə vaxt baxsan gərnəşib əsnəyən tüklü qa-bana baxıb, zarafatca dedim:

- Ulan bir mayallaq vur, pis gözləri tilsimlə!

Söz ağzımdan qurtarmamış, dilinin altında, nəsə pıçıldayıb, yumruğunu düyünləyərək ayı ki-mi kəlləmayallaq yumbalandı. Zarafatca:

- Ağnama əə eşşək kimi, donbalaq aş!- de-dim, adam oğlusan.

Elə bu vaxt Dusya arvadlar hamamından çıxıb, onun yerdə diyirləndiyini görəndə:

- Bıyy... elədi və əlini ağzına tutdu.

Arvad hamamxanasından onun arxasınca ağ çit donlu, qara KAPÜŞONDA bir qız başını çı-xarıb bizə baxdı və məni tanıyıb lovğa-lovğa ya-nıma gəldi. Tamillagildə tanış olduğum qadın idi. Onu tezbazar başımdan elədim, zira ki, işim ciddi idi. Vaxt gözləmir...

Mürşüd donbalaq aşanda, mən də şaman-lar kimi, çətin anlarda olduğu tərzdə, üzümü fə-zaya tutub... səmayla məsləhətləşdim: Tanrı özü kömək olsun, otaq məsələsi düzəlsin...

Kənardakı ağac oturacağın üstündə, üstü taxtabitili bir rus avarası kepkasını tərsinə çevirib ayaqlarının arasına qoyaraq, böyründə akkorde-on çalır, mövhumata inanan inanclı turistlərdən yazığı gələnlər və evlərinə salamat qayıtmaqları, ya ailəsinin xəyanətdən hail olmamaları xatirinə üç və beş qəpiklik pullardan kepkaya atırdılar.

Atdıqları ağır dəmir qəpiklər kepkadakılara dəyib ümidverici səs çixarırdı.

Dusyanın evdən çıxanda dodaqlarına ko-budcasına, tələsik çəkdiyi boya hamamın buxa-rında bir az da islanıb yayılmış, gözlərinə çəkdiyi sürmənin qarasını tər damcıları dağıdıb sifətinə yaymışdı. Dusya özündən müştəbeh:

- Ev hazırdır! - deyəndə, az qaldım ki, onu anası ölüb, qucağında ac qalmış körpə kimi sor-tuxlayıb əməm...

Cəld Mürşüdə xırda pul verib, iki butulka Жигулевский pivəsi dalınca göndərdim.

Otaq sahibəsi olan qadın da, gəlib çıxdı.

Qiymətləşdik!

Evi tikilmiş beş rubl istədi.

Yuxarıdan getdiyini özü anlasa da, əlim-yandıda olduğumu bildiyindən,tutar qatıq, tutmaz ayran: Oxudu!

Soxasoxda olduğumdan cin atına minsəm də, dərk elədim ki, şeir-meir, qəzəl-qüzəl yeri de-yil, əsgər, vətən vicdanı hərliyən kimdi?

Parfumu poxa dönmüş Dusya da ona qah-mar çıxıb, mürdəşir yumuş çopur-çopur sifətini ucuz kremlə gizlətsə belə, cılız xəstə quş vidində banga getdi:

- Dörd çarpayılı otaq, bir gecəliyə yaxşıca qiymətdi... Tomadan da soruşa bilərsən...

Mürşüd alnı tərləmiş halda pivələri gətirdi və bizə çatan kimi başlarını ağzına salıb, sağlam sümük dişləriylə qapağını ikiqat əyərək açdı.

Butulkalar köpüklənib daşanda, qadınların hərəsinə birini uzadıb:

- Ənliklə sürmə çox olanda,- qaşa da yaxar-lar, gözə də. Otaq üç manatdır, biz "yandığımız-dan" dörd verərik , day beş yox də...- dedim.

Camadar Dusya dul qalmağa layiq qadına baxıb, boynunu bükərək:

- Tanışımdı mənim, Tomanın da yaxın dos-tudur, dibindən baltalama...- dedi.

- Yaxşı-yaxşı sən də bambılılıq eləyib ya-lanlarınla malalama...

Üçümüz də birdən, köpüklənib süzülən pi-vəyə əlimizi basıb: "Bərəkət haqqı yalan demi-rik,”- dedik.

Qəhbə qəfil sıyıldı və arsız-arsız əlini uza-dıb, valyutanı istədi.

- Pivənizi için, qazını qaçırmayın,- deyib, əlimi cibimə saldım.

Bir üçlük və üstəgəl bir təklik də sayıb, qırı-şığını açа-açа:

- Bissimillah",- deyərək, ovcuna basdım...

Elə bil qızılca çıxaran, ya epidemiyaya tu-tulmuş, yüksək hərarətlə yanan, artıq o biri dün-yasıyla yüzdəyüz əlbəyaxa əlləşən bir xəstəyə, qəfil ПЕНИСИЛЛИН iynəsi vurub rahatlaşdırdılar.

Zırrama, avaragor və belə işlərdə nabələd ayı Mürşüd aradan sivişib çıxdı və aralanıb qoca kişilər kimi fısıldayaraq gərnəşdi. Sonra da ayaq-larını dizdən büküb-sağa,qollarını cütləyib əks is-tiqamətə,- onurğadan sola, kəskin hərəkətlə şaq-qıldadaraq quluncunu sındırdı.

Dusya qaliblərə məxsus arxayınlıqla:

- Ev hazırdı! Nə vaxt istəsən açarı götürə bilərsən, xatircəm ol,- dedi.

Çənə döymək məsələsini, müvəffəqiyyətlə başa çatdırdığımdan çiçəyim çırtlamışdı. Ancaq yadıma düşdü ki, ortada hələ bu zəhrimar MOPE restoranı məsələsi də var.Bahalı restoranların da xərcinin qabağına durmaq olmur axı...

Puff... yenə problem.

Düzdü, pul xərcləmək ləzzətini çıxarmağın özü də başqa məsələdi, amma ki, əsgər idim...

Saxlaması üçün Mürşüdə verdiyim puldan bənövşəyi iyirmibeşlik əskinaz istədim.

O qoynunda, maykasına sancaqladığı yüz ilin əskisini açıb, bir ədəd iyirmibeşliyin qırışığını şıqqıltıyla düzəldib, mənə uzatdı.

Pulu alıb Dusyaya verdim:

- Vaxta az qalıb, gecikə bilərik, sən tez bizə mağazadan ərzaq al və süfrəni aç. Saat 20:00- da onlar gələcək.

Və yadıma düşdü ki, doğulandan varlı olan-lar, kökdən varlı olanlar, bir də sonradan varla-nanlar ucuz şey yemir...Ona görə, Dusyaya bərk-bərk tapşırdım:

- Az al, amma bahalısını al...

Sağ olsun Dusyanı, hamamın açarını bizə verib, özü bazara tələsdi.

Hamama gələn müştərilərin pulunu Mürşüd alıb, içəri buraxmalıydı. Bu çox maraqlı işiydi...

Yumurtalı şampunla yaxşıca yuyunub, ma-çalkalanıb çimdiyimizdən və otaq məsələsinin yüksək peşəkarlıqla həll olunduğundan, özümü çox gözəl, rahat, yüngül və tərtəmiz hiss edirdim.

Xüsusi ilə saçlarım ipək kimi olmuşdu.

Yitkanın ən çox sevdiyi sıx, parlaq saçlarım idi. Əvvəlki vaxtlara nisbətən saçımı normadan iki dəfə artıq uzatmışdım. Hələ ki, söz deyən ol-madığından üstündən aldırmırdım.

Dusya bazardan qayıdana kimi, iki arvad və üç kişidən pul alıb hamama buraxmışdıq.

Dusya aldığı ərzaqları, sevincək sadalama-ğa başlayanda, sifətindəki tər damcıları bir-birini qovurdu: Şampanski, çaxır, tort, şokalad, kolba-sa, pomidor, çörək...

Saat səkkizə az qalırdı.

Dusyaya, ehtiyyat açarla otağı açıb, süfrəni bəzəməyi tapşıraraq, qızları gətirməyə getdik.

Bir saata bu qədər işi görüb: Otaq tapmaq, bazarlıq eləmək, hamamda çimib təmizlənmək...

Bütün bunları bacara bilmişdik.

Sağ olsun Dusyanı!

Dusya otağa, biz də kazarmaya götürüldük. Yazıq hamamı bağlamağı, qara KAPÜŞONLU qıza bərk-bərk tapşırdı.

Rota ужин-də idi. Ukraynalı bir molodoy əs-gər kazarmada barmağıyla geniş qollu, çoxsimli bandur çalırdı. Yaman da kədərli idi. Görünür ar-xada məktub yazmayan, vəfasız gözləyəni var...

Qaranlıq çökürdü.

Yitkagil tərəfə keçdim. Həyətin su krantına çatanda onu qapıda gördüm. Məni görən kimi tez yanıma gəldi. Nəsə dilxor görünürdü. Toran çal-dığından sakitçilik idi.

Ağacdan çox sənətkarlıqla düzəldilmiş otu-racaqda yanaşı əyləşdik...

Özümdən müştəbeh, arxayın və inamla:

- Otaq hazırdır, süfrə açılıb...

O sözümü kəsib, bəşəri vəzifə həll edənlər kimi, ciddi şəkildə:

- Yox, evə getməyəcəyik!

- Dusya otaqda gözləyir...

- No, No, No! Anya xala MOPE restoranında bizi gözləyəcək...

İlahi!

Nə pis oldu, düz 29 rubl pul xərcləmişdim.

Ürəyimdə Xeyrulla kişinin cəddini çağırıb, qaraçı Hətəmin qaraçı zat-kökündən olan, bütün fal açanların adlarını sadalayıb... yenə şamanlar kimi, üzümü, ulduzları sayrışan səmaya tutaraq tanrıdan kömək dilədim.

Restoran MOPE-nin xərcinin qabağına dura-sı halım və pulum yox idi.

Faciə bax bu idi!

Az qaldım ona yalvarıb fikirindən daşındı-ram. Sonra necə oldusa, acizanə şəkildə, ancaq səbrlə vəziyyətimi ona başa saldım. O məni sona qədər dinləyib Danonu harayladı.

Danoyla öz dillərində nə danışdılarsa, Yitka sakit tövrlə:

- Arvad masa sifariş edib, bizə saxladacaq, özü də bizi gözləyəcək...

Mənim düşdüyüm vəziyyəti də nəzərə al-malıydılar. Onlar, iki bacı yenə öz aralarında, öz dillərində çox danışıb-deyindilər. Birdən Yitka ya-rı çex, yarı da rus dilində zorla başa saldı:

- Onda iki saat sənin bəsindi! Saat 20:00 -dan düz 22:00-a kimi sənin ixtiyarındayıq. Sonra biz iki bacı restorana gedəcəyik. Anya xala özü restoranın pulunu ödəyəcək...

Və birdən əliylə saçımı daraqlayaraq, cilvəli gözləriylə gülümsəyib:

- Söz verirsən?- soruşdu.

Kədərlə susduğumu görüb:

- Tofa! - qışqırdı, söz verirsən?

Naəlac qalıb, razılaşdım.

Bu ad -Tofa, əvvəl xoşuma gəlmirdi, indi isə bu adla o məni çağıranda ləzzət eləyirdi. O qə-dər şirin deyirdi, az qalırdı elə deyəm: Hamı məni Tofa çağırsın.

- Onda gedirəm, sizinlə birlikdə çıxa bilmə-yəcəm. Saat 21:00-da Dusyanın turbazadakı ha-mamxanasının qabağında olun.

Razılaşdıq...

Artıq doqquza az qalırdı. Onlar geyinməyə, mən də kazarmaya getdim. Bandur çalan əsgərə qusli çalan bir əsgər də qoşulmuşdu.Üç əsgər də onlara qoşulub, ukrayna dilində oxuyurdu...

Mürşüdü tapıb məlumatlandırdım və:

-Get turbazanın qabağında gözlə, özüm sə-ni axtarıb tapacam,- dedim.

Danonun aldığı ШИПРИ də özümlə götür-düm. İki qutu СТОЛИЧНАЯ siqareti də alıb, yeni tutduğumuz otağa gəldim.

Camadar hər şeyi yerbəyer eləmişdi.

Ehtiyyat açarı Dusyada saxlayıb, bahadırlıq eləyənlər kimi, görüş yerinə tərpəndim.

Görüş dəqiqələri yaxınlaşırdı...

Hamamın qabağında onları ümid və həyə-canla gözlədiyim vaxt, bizim hərbi hissənin "klet-kasından,"- hərbi hissənin taxta hasarına kletka deyirdik - iki rus əsgər çıxdı.

Hamamxananın qarşısında fənər yandığın-dan buralar işıqlı idi. Hamamdan, istifadə edilmiş çirkli suyun axıb töküldüyü, çirkarx yerləşən arxa hissəsinə xəlvətcə keçib, qaranlıqda gizləndim.

Əsgərlər hamamxananın ətrafında yerləşən ağacın birinə yaxınlaşıb əllərindəki bel ilə dibini eşməyə başladılar. Kənardan gizlincə tamaşa eləyirdim.

Yitka ilə Dano göründü...

Yitka mən xoşladığım limon rənginə çalan sarı kətan donunu, Dano isə mavi rəng yeni don geyinmişdi. Bu paltar ona hədsiz dərəcədə yara-şırdı. Təpərsiz ayının bəxtinə bax!

İstədim onları qarşılayam, ancaq o iki əsgə-ri duyuq salmaq istəmədim. Nəsə qurğu quruldu-ğundan şübhələnib ürkmüşdüm.

Bir neçə dəqiqə keçmiş kletkamızın qapısı açıldı və Boyko göründü. O tum çirtlaya-çırtlaya saymazyana qızlara yaxınlaşdı və rus dilində:

- Axşamınız xeyir,- dedi.

Yitka Danonun üzünə baxdı və başları ilə onun salamını aldılar.

- Görüşə gəlmisiniz?

Yitka tez dedi:

- Hə!

- Əsgər gözləyirsiz?

- Hə!

- O bəxtəvər əsgər kimdi belə?

Elə bu vaxt ürkmüş halda bacılar bir-birinə baxdı və Yitka pəncəsi üstə qalxıb Boykonun pa-qonlarındakı üç ulduzu gördü. Onun zabit oldu-ğunu anlayıb:

- Yox,- qışqırdı, biz əsgər gözləmirik!

Boyko əl çəkmədi.

Qəflətən Dano çönüb:

- Biz rus dilini bilmirik,- dedi və onlar cəld aralanıb, ədabazlıq edən Boykonun danışdıqları-na daha məhəl qoymadan, Dusyanın hamamxa-nasının beton pilləkənlərinə doğru getdilər.

Hər ikisi də birdən şıltaq bir hərəkətlə beton pilləkəndə oturdu.

Bu an mənim ürəyim sevincdən titrəyirdi.

Boyko yenidən, sırtıqcasına onlara yanaş-dı. Nə qədər danışdı, nə qədər kompliment söy-ləyib durdusa da, qızlar ona cavab vermədi.

İki bacı yanaşı oturduqları yerdə, bir-birinə tərəf çevrilib, öz dillərində nəsə danışırdılar.

Boykoya arxalarını çevirmişdilər.

Bir neçə dəfə istədim gizləndiyim yerdən çı-xıb, onları gizlincə çağıram... Amma bilirdim ki, Boyko görəcək və özünün "böyük" olduğunu nü-mayiş elətmək üçün, məni kazarmaya qovacaq.

Hirsimdən uçunsam da tərpənmədim.

Yerdən uzanıb güdür...hər şeyi görür və su-surdum. Çıxsam işlər korlanacaqdı. Ağacın dibini eşən iki əsgər də qayıdıb kletkaya girdi.

Gecənin bu qaramatında baş verən bu ta-rixi qara hadisə heç vaxt yaddaşımdan silinmə-yəcək. Bu gecə tarixi gecəydi...

Yitka məni ələ vermədi!

O necə məsum idi. Məni sövq-təbii necə müdafiə edə bildi. Avqustun 5-də restoranda mə-ni heç kəsin ayağına vermədiyi kimi bu dəfə də sona qədər dözdü...

Sağ ol Yitka!

Sən mənim həyatımda, ölən günümə kimi yaşayacaqsan. Düzdür, biz heç vaxt ailə qura bil-mərik... Komsomolu heç vaxt Katrinanın əri kimi ayağa vermərəm, onu darda qoymaram. Ancaq səni də sevirəm! Komsomol mənim üçün müqəd-dəs Kəbədir! O mənim uşaqlarımın anası olacaq! O özünü məhəbbətinə qurban verə biləcək, əsl ərgən azərbaycanlı qız simvolu və namus, əxlaq mücəssəməsidir.

Amma sən... Sən hamıdan gözəlsən Yitka!

Evlənə bilməsək də, bütün ömrümüz boyu bir-birimizə sadiq qalarıq.

Biz hələ çox görüşəcəyik əzizim. Praqada, Bratislavada, Karlovı Varıda, Bakıda, Göy-göldə Şuşada, Bərdədə...

Mən buna əminəm. Qızım olsa adını Yitka qoyaram. Sən də oğluna mənim adımı verərsən. Amma Tofa yox, elə olduğu kimi: Tofiq.

Təəssüf, çox təəssüf ki, biz birgə həyat qu-ra bilmərik...

Vicdanım susa bilməz, Komsomolun ilk mə-həbbətini kor qoya bilmərəm, yox...yox...

Komsomolla ailə qurub evlənməsəm, bütün Bərdə mənə nifrət edər, məni qınayar. Gərək, elə olsa baş götürüb vətəndən çıxam... Gözükölgəli yaşamaq nə deməkdir?

Odur ki... Yitka biz ölənə kimi görüşəcəyik, mən buna əminəm, amma evlənə bilmərik. Gə-rək sən buna razı olasan... Düz deyil?

Birdən ağlıma gəldi:

"Yitka bilsə ki, ortada Komsomol məsələsi də var hələ və onu necə dəlicəsinə sevirəm... on-da görəsən mənə ərə gələr?"

Eh... görəsən dünya niyə belədir? Nə isə...

Boyko gördü xeyri yoxdu, naəlac qalıb tum çırtlaya-çırtlaya da geri qayıtdı.

O sıx ağacların arasında yoxa çıxan kimi, Yitka qırmızı kabluklarını qaldırıb, pəncəsi üstə onun ardınca boylandı və sonra da qolundakı sa-ata baxdı. Başını bulayıb, tərtəmiz, gül kimi pal-tarına heyfi gəlmədən, yenə yerdən oturdu...

Yerimdən çıxıb ona yaxınlaşmağa ehtiyyat elədim. Boyko biclik işlədib, görüntü yaradar və uzaqdan onları izləyə bilər, işimiz pozulardı. Qor-xum bundan idi. Amma qızlar da çox gözləməyib qayıda bilərdi. Odur ki, fikirləşmədən yerə uzanıb dirsəklərimin üstündə sürünə-sürünə... ağacların, kolların, gül-çiçəyin arasıyla onlara sarı yaxınlaş-mağa başladım.Seyrək budaqların arasından üs-tümə işıq düşürdü.

Yitka, o tərəf-bu tərəfə boylanıb baxanda, qəflətən məni yerdə sürünən görüb, dərhal tanıdı və heyrətə gəldi. Cəld elə uzandığım yerdən ona əllə işarə eləyib bildirdim ki, hansı istiqamətə get-sinlər. Bu da müvəffəqiyyətlə başa çatan beynəl-xalq kəşfiyyat əməliyyatımız!

O, başa düşdü və tələsik ayağa qalxıb Da-noya pıçıltıyla öz dillərində nəsə dedi. Dano da aramla çəkdiyi siqareti atıb, ayağa qalxdı və işa-rə elədiyim səmtə sarı getməyə başladılar.

Bəli, deyəsən təhlükə sovuşmuşdu!

Onlara turbazanın korpusları arasındakı ge-niş bağçada yaxınlaşdım.

Yitka üzümə gülümsəsə də, işin ciddiliyinin fərqindəydi. O mənə inansa da, bakirəliyini qoru-maq zoru yaşaya bilərdi, odur ki, təşviş dolu bu düşüncələri gözlərində appaydın oxunurdu.

Tez soruşdum:

- Kim idi sizinlə danışan?

O elə bilirdi ki, danışılanları mən eşitməmi-şəm. Ona görə məni qorxutmaq üçün:

- Tofa! Sizin üç ulduzlu böyüyünüz idi, so-ruşdu: "Kimi gözləyirsiniz?" Mən də dedim: “Ser-jant Tofik Babaevi!”

Dərhal onun saçından yapışdım:

- Bəs niyə məni satmısan? İstəyirsən məni tutsunlar?- yalandan dedim.

Dano tez gülüb:

- Zarafat eləyir, səni satmadıq,- dedi.

Yitka qolumdan iki dişlək aldı...

Yəqin ki, ayı Mürşüd bizi bağın sıx, qaranlıq guşəsində gözləyirdi...

Qapını cibimdən çıxardığım açarla açanda qızlar çox sakit idi. İşığı yandırdım. İçəri səliqəli və isti olduğundan

adamda xoş əhval yaradırdı. Arxamca əvvəl Dano otağa girdi. Yitka keçmək istəyəndə zarafatla:

- Əvvəl qapını döy, sonra qonaq ol,- dedim.

Yitka öz dillərində nəsə düdüldədi.

Gülüşdülər, sonra birləşib məni birtəhər ba-şa saldılar ki, Əzrail gələndə qapı döymür, nə də soruşmur: "Oğul-uşağın sayı neçədir?"

Yenə gülüşdük.

Yitka qırmızı kabluklu ayaqqabısını çıxarıb səliqəylə yığılmış yatağın üstündə oturdu.

- Deməli... Əzrail kimi başımın üstünü almı-san?- soruşdum. - Sənin kimi Əzrailə bir can bor-cum var, onu da nə vaxt istəsən ala bilərsən!

- СЕЙЧАС ХОЧУ!- deyib, saçımdan yapışdı və qolumu yenə ağzına saldı.

O elə gözəl idi!

Stolun üstünü düzəltməyə başladıq. Toma-gildən qab-qacaq, çəngəl-bıçaq, stəkan yığıb gə-tirdim...Nə qədər elədim, Yitka ayağa da qalxma-dı, kömək eləmək istəmirdi və qabaqdangəlmişlik eləyib, Danonun üstünə ərklə qışqırdı ki:"Dur kö-mək elə, mənim başım ağrıyır."

Üzünü yalandan turşudub:

- Моя голова болит Тофа,- yalandan sızıl-dadı və balıncın üstündən əl-üz dəsmalını götü-rüb, başını bərk-bərk sıxıb bağladı.

Masanın üstünü düzəldə-düzəldə:

- Bəs sən utanmırsan, məni, böyük bacını işlədirsən?

O, gülümsünüb cəld dedi:

- Yox!

Danoyla gedib korpusun umuvalnikində po-midorları və qab-qacağı yuduq. Dano çox meh-riban və sakit idi. Korpusun dəhlizində bütün qız-lar və oğlanlar ona tamaşa edir, diqqət yetirir, hə-sədlə baxırdı. Gümüşü saçlı gözələ, həm də xari-ci vətəndaş olduğundan hamı qibtə edir, dəhliz-dən ötənlər qoxusundan məst olurdu.

Otaqda paltarımı dəyişməliydim.

Üzümü Yitkaya tutub:

- Baxma mənə,- dedim.

O gözlərini bərəldib acığıma daha diqqətlə baxmağa başladı. Otağın işığını keçirib:

- Baxma!- deyirəm, paltarımı dəyişirəm...

Uşaq ərköyünlüyü ilə, işığı yandırıb keçir-məyə başladı. Şıltaqlığı canımı alırdl!

İplə sinəsinin düymə yerindən və ətəyinin aşağısından bağlanan güllü ipək köynəyimi və idman formamı geyindim.

Xebe hərbi formamı da yaxına qoydum ki, axtaran olsa, cəld hərbi hissəyə gedə biləm.

Əsgərlərim də yerimi bilirdi.

Qaranlıqda paltar dəyişməyimə görə Yitka mənə gülürdü. Paltarımı dəyişib işığı yandırdım.

O СТОЛИЧНИ yandırdı. Danoyla mən də si-qaret istədik...

Çörək doğrayırdım. İri dilimlərlə doğradığı-mı görəndə Yitka güldü:

- O böyüklükdə çörək doğrayarlar?- əl-qol-la, lağa qoyub soruşdu.

Səhvimi dərhal anladım. Və hardansa, nə-yə görəsə heç dəxli olmayan bir atalar sözü bey-nimi girinc elədi:

"Əzizim kasa dolmaz, mərd əli kasad ol-maz.

Yüz namərdin çörəyin, doğrasan kasa dol-maz..."

Çörəyin qalan hissəsini nazik doğradım.

Dano pomidorları, kolbasanı və tortu ucuz nimçələrə yığırdı.

Qəflətən Yitka qaşlarını düyünləyib:

-Tofa!- Niyə stəkan, qədəh dörd dəstdir? Axı biz üçük?- soruşdu.

Özümü itirib onu aldatmalı oldum:

- Heeççç...

Dano qıllı ayıyla görüşmək istəmir, Mürşüd isə nə vaxt işarə verəcəyimi gözləyirdi...

Yitka nəsə anlayıb, yataqdan qalxdı və ya-xınlaşıb qarnıma yumruqla döyəcləməyə başla-dı. Bərkdən üstümə qışqırdı:

- Düzünü de! Niyə dörddür?

Araya başqa söz saldım:

- Əzrailə ağ saqqız verib, onu aldada bilər-sən? Yoxsa qızışdırıb canıma salarsan?

O mənim qısa mən də onun uzun saçların-dan yapışdım. Xeyli yoluşduq. Sonra boğuşmağa başladıq. Axırda təslim olub:

- Təpərsiz ayı səhv düşüb... əkən biçər, ək-məyən axı nə biçər?

O çəkdiyim atalar məsəlini başa düşmədi:

- "Yaxşı baxarıq,"- dedi.

Süfrəni hazır eləyib qurtaran kimi, yuyun-maq adıyla çölə çıxdım. Mürşüdü tapıb onu başa saldım:

"On beş-iyirmi dəqiqədən sonra gəl, qapını döy gir içəri, guya məlumat gətirmisən, arxası al-lah kərimdi."

Evə qayıtdım.

Yitka yenə başını ağ məhrəbayla bərk-bərk bağlamışdı. Bu ona elə yaraşırdı!

Artıq oturmaq, başlamaq olardı.

Masanı Yitkanın qabağına çəkdim və özüm də onun yanında, çarpayıda oturdum. Çarpayı o qədər də yumşaq deyildi. Dano öz stulunu çön-dərib bizimlə qabaq-qənşər oturdu.

- Başlayaq, əvvəl ənam, sonra da kəlam...- dedim,

Yenicə bissimillah eləmişdik, qapı astadan döyüldü.

Yitka dərhal üzümə baxdı.

Qapını asta və qorxaq döyməsindən bilinir-di ki, gələn təpərsiz Mürşüddü. Özümü o yerdə qoymayıb, ciddi görkəm alaraq Yitkaya işarə elə-dim ki, sən dillən. Yitka bərkdən:

- KTO TAM?- soruşdu.

Səs gəlmədi. Təpərsiz idi!

Ayağa qalxdım. Yitka da mənimlə bərabər durdu. Yazıq Dano həyəcan keçirirdi. Qapıya ya-xınlaşıb:

- KTO TAM?- bu dəfə özüm soruşdum.

Yenə dillənən olmadı. Yitka bərkdən:

- КТО ЭТО?

Təpərsizin azərbaycan dilində:

"Ə, mənəm,"- deməsiylə Yitka qarnıma bir yumruq ilişdirdi. Yalandan ufuldayıb, qarnımı tu-taraq yerə sərildim. O, saçımdan yapışıb məni qaldırmağa çalışdı və güclə durğuzsa da, ufulda-mağı kəsmədim.

Qəflətən, zorbazorluq eləyən Yitka qapıya sarı gedib, qətiyyətlə qapını açdı...

Öyrətdiyim kimi, Mürşüd salam verib, ədəb-ərkanla içəri girdi və dilinin altında, nıtıq adamlar kimi nəsə mızıldadı... Onu görən kimi, yalandan:

- Ohoo! Sənsən? Mayor axtarır?- yalandan rus dilində soruşdum və patavalı Mürşüdə stul gətirib, Danonun lap yanından otuzdurdum.

Başıçalmalı Yitka, utanıb-çəkinmədən yenə saçımdan yapışıb, çəkə-çəkə məni çarpayıda öz yanında oturtdu.

Məsud qız mənə çox qəribə şəkildə baxırdı.

Danoya qarşı kobudluq kimi alınsa da, o susur və susduğuna görə də mənə xəcalət ve-rirdi... Məhliqa Yitka demək caizsə, daha çox şıl-taqlıq eləyir, məhrəm olduğunu göstərirdi...

Onun kip donu qısa olduğundan,- Mürşüdə görə, ayıb olmasın deyə, dəsmal götürüb ayaq-larının açıq hissəsinin üstünə, səliqəylə saldım.

Acığıma dəsmalı götürüb üstümə atdı.

Baldırları görünürdü...

Bir neçə dəfə çılpaq, ağappaq baldırlarının üstünü örtsəm də xeyri olmadı. O, acığıma aya-ğını ayağının üstünə aşırıb, növbəti bir siqaret də yandırdı. Üzgün Mürşüd utandığından nə Dano-ya nə də Yitkaya baxırdı. Sanki əkilmək istəyirdi. Oğru-əyrilik deyil ki, bahadırlıqla bacarsın. Zalı-mın oğlu elə bil qoyunboğan yemişdi.Üzümü ona tutub, öz dilimizdə:

- Öküzün cütə getməyənini, ətlik adına sa-tarlar, eşitmisən də yəqin?- soruşdum.

Qıllı Mürşüdün yanaqları, qara cod tüklərin altından qızarırdı. O utanır, nə edəcəyini kəsdirə bilmirdi. Hardasan ay qozqurt Babayev İlham!

Dano da susurdu.

Tərtəmiz idim, güllü köynək də mənə çox yaraşırdı. Məclisi idarə etmək lazımıydı, ancaq heç ağlıma gəlmir, o haqda fikirləşmirdim.

Yitkanın çarpayının üstündəki əl çantasına gözüm sataşdı və cəld onu götürüb açdım.

Və öz fotoşəklimi onun çantasında görən-də necə çaşdım!

Ürəyimdə necə qürur duyub, necə sevinir-dim! Döngəmizin sözü olmasın: Necə qozlandım!

Onlar dinib-danışmır, mənə tamaşa edirdi-lər. Təşəxxüslə çantanı qurdaladım. Siqaret, alış-qan, ağ saqqız və birdən də pasportlarını gör-düm. Dərhal götürüb açdım.

Necə yaraşıqlı pasportlar idi!

Yitkanın pasportundakı şəklinə baxa-baxa, oxudum: 1956-cı il mart ayının 23-də doğulub...

Dano isə 1954-cü ilin 23 noyabrında.

Hər ikisi də, ayın 23-də! Təsadüfə bax!

Onların pasportunda gözlərinin rəngi, boy-ları... çox şey qeyd edilmişdi. Maraqlıydı, bəs bi-zim pasportlarda belə məlumatlar, görəsən niyə qeyd olunmur?

Onların bütün sənədlərinə baxdım:

“ЧССР, ПРАГА-10, ул. Нучитска 1756/17”

Bu da, Dano və Yitka Zahalkovaların ev ün-vanı! Heyranlıqla məni izləyirdilər. Şıltaq Yitka...

Praqalı bic qız!.

Biletləri də almışdılar... Aman tanrım! Başı-mın tükləri qabardı!

Avqustun 23-də gedirlər.Одесса-Львов qa-tarı, 8-ci vaqon, 18 və 19-cu yerlər.

Yenə 23!

Danonun çantasında dodaq pomadası da vardı. Baxdım: Qırmızı rəngdəydi.

Çıxarıb dodağıma sürtəndə,Yitka baxıb gül-məkdən uğundu. Onun başındakı çalmadan ya-pışıb üzünü özümə sarı çevirdim və bildirdim ki, sakit dayan, səni də pomadalayım.

O nə fikirləşdisə, gözlərini bərəldərək, qəf-lətən sakitcə dayanıb:

- Пожалюста! -dedi.

Onun ətli dodaqlarını çox ustalıq və məha-rətilə boyadım. İsti nəfəsi barmaqlarımı yalayır, içimi titrədir, məni oyadırdı...

Sonra onun əl çantasından ПРАГА markalı ətir tapdım və ərklə duxunun ağzını açıb onun üstünə, sonra da öz üstümə səpdim. Onların mə-nə aldıqları ШИПР-i də götürmüşdüm. Onun da ağzını açıb üstümə caladım. İradəsi ziddinə Yit-kanın da üstünə səpmək istəyəndə qışqırdı:

- НЕЛЬЗЯ, ЭТО МУЖСКОЙ...

Onun ətrinin qoxusu ətrafa yayıldı. Elə gö-zəl, elə xoş ətri vardı!

Xülasə, beləcə xeyli əylənib Dano və Mür-şüdün utancaqlığını aradan qaldırdım. Laçın ba-lası sanki, qoz qabığına girmişdi.

Vaxt ötürdü...

Birdən ağlıma düşdü və cəld masanın üs-tündəki şampanskini götürüb açmağa başladım. Məftilləri burub gümüşü kağızı cırıqlayanda hər üçü gözlərini yumub, qulaqlarını qapadı.

Şampanski partlayıb ağzından köpüklənən-də, cəld piyalə əvəzi, limondöş Tomanın ucuz şüşə stəkanlarını altına tutduq.

Gövşək qoyun ölüsü Mürşüd qollarını çır-malayıb eşməyə başlayanda,Yitka utanıb eləmə-dən üstünə qışqırdı:

- ЕЙЙ... СНАЧАЛА ОТДАЙ ЕМУ,- deyib, barma-ğıyla bacısını göstərdi.

Dano üzümə baxıb güldü.

- Ay eşşək... əvvəl qıza qulluq elə,- qışqır-dım, eşitməmisən: Kişi fəhlədir, arvad bənna?

Kartofu qozqurabdan ayıra bilməyən, tüklü Mürşüd sərt qayalıqlı uca dağlarda, toyuq-çücə, qoyun-quzu, xotux-kəlçə, mal-qara arasında bö-yüdüyündən ilk "qəvliyyətini" də, elə eşşək kimi göstərdi. Quzunu qurda tapşırmaq ərəfəsindəy-dim deyəsən...

Danoyla mən ona əhəmiyyət vermədik.

İlk şampan badələrini hamı içdi, üstündən tort kəsib yedik və şokolad sümürdük.

Bir az keçmiş Yitkanın yanaqları allandı...

İkibacı СТОЛИЧНИ siqareti çıxarıb yandırdı-lar. Mən də istədim, Mürşüd utandı çəkməyə, -o adətən ПРИМА çəkirdi...

Yitka elə gözəlləşmişdi!

İçəri isti idi. Ayaqları, budları açıqdaydı. Elə hey onun dizlərini örtür, o da qəsddən dəsmalı yerə salırdı. Axırda onun dizlərini çimdiklədim. O da qolumu dişləməyə başladı. Dano ona qaş-göz ağartsa da vecinə deyildi. Sanki böyük bacı oy-du! Yitka nə qədər şıltaq olsa da, həm də çox lətafətliydi. Onu öpəcəyimi düşünən kimi, canım lərzəyə gəlirdi...

Beləcə əylənirdik.

Restoran MOPE tamam yaddan çıxmışdı. Səki ora getməliydik. Amma heç birimizdə həvəs qalmamışdı. Kim idi ora gedən? Xeyli uzaqdaydı. Burada isə rahat idik. Həm işıqlı otağımız, həm uzanmağa çarpayı, həm də yeməyimiz vardı.

Əsl Süleyman süfrəsi!

Kefimiz də kök! Kor burada, ya Bağdadda...

Elə bu vaxt... qapı döyüldü.

Sanki köpəyə səlbə dəydi! Kim olardı?

Hamı üzümə baxdı.

Ayağa qalxıb sakitcə qapıya yaxınlaşdım. Bu vaxt qapı ikinci dəfə döyüldü və ardından To-manın rusca səsi gəldi:

- Tofik, səni Sanya axtarır...

Qapını açıb çölə çıxdım. Yitka arxamca gəl-mədi. Görünür hələ nə hoqqa çıxaracağımı səbr-lə gözləyəcəkdi... Mürşüd də tərpənmədi, qızlarla biryerdə olmaqdan, madyan özünü unutmuşdu.

Tomanın bütöv adı Tamilla idi.Qancığın qo-lundan tutmaq istəyəndə, mahiranə qolunu çək-di. Deyəsən küsmüşdü. O məni əməllicə-başlıca qısqanırmış. Könülsüz və küskün yanıma düşdü. Tağım komandiri Podqornu gözləyirdi. Xeyir ola?

Molodoy Podqornu məni görən kimi:

- Səni kapitan axtarır, tez kazarmaya gəl.

Cəld geri qayıtdım, içəri keçən kimi:

- Məni axtarırlar, tez rotaya dəyim, gəlim...

Tələsik də işığı söndürüb xebe formamı ge-yindim. Yitka çox maraq və nigarançılıqla məni yola saldı. Dano siqaret çəkir, Mürşüd yeyirdi...

Podqornuyla birlikdə ləşkərgaha çıxdıq.

O yolda başa saldı ki: “Deyərsən başım ağ-rıyırdı, yatmışdım".

Kapitanın kubrikasına getdik.

Məsələ başqaymış: Əclaf Kaşşeyev Mürşü-dü satıbmış! Özüm yaxşı qurtardım.

Kapitan kefliydi!

Gözləri yanır, işım-işım işıldayırdı:

- Murşut Mamedov samovolkadadır, tap gə-tir! Yarım saat vaxt verirəm...

Kor leyləyin yuvasını allah tikər, yaxşı qur-tardım. Çox yaxşı...

Kubrikadan üfürülüb çıxaraq, turbazaya tər-pəndim. Qaranəfəs özümü otağa salıb, layəmut Mürşüdü kazarmaya yollayanda Yitka halımıza baxıb gülürdü, bütün bunlar onun üçün çox ma-raqlıydı... Sovet əsgərləriydik!

Üçümüz oturub yeməyə davam elədik,- ye-mək deyəndə ki, meyvə, şokolad və şanpanski! Kim idi xörək yeyən?

Adama bir stəkan-qədəh də içdik. Yitka tez-tez, başım ağrıyır,-deyirdi. Ağlıma hardansa düş-dü, nəqşli kip don geyinmiş sevgilimə dedim:

- Buranın havası ağırdır, dur çıxaq həyətə...

O sanki fikrimi anlayıb:

- Yox, hələ tezdir,- başa saldı.

Nədənsə inad elədim, qolundan tutub aya-ğa qalxdım:

- Dur gedək.

Dano da fikrimi başa düşdü və öz dillərində nəsə dedi, sonra da rus dilində güclə sözlər tapıb başa saldı ki, çölün havası daha təmizdir.

Danonun sözlərindən ürəklənib onun qolun-dan nəzakətlə dartmağa başladım və o bir az da naz eləyib, yumşaldı və eləcə, başı çalmalı da, ayağa qalxıb şəstlə qoluma girdi.

Ayaqqabılarımızı geyindik. Mən ağ idman ketlərində, o isə hündür kabluklu qırmızı ayaqqa-bısında yenidən qoluma girəndə, baxdı ki, azca məndən hündür görünür və bunu Dano da gö-rüb ona nə dedisə, Yitka ayaqqabılarını çıxarıb, qapının yanındakı başmaqları geyindi.

İndi boylarımız bərabərləşdi. Hələ lap azca mən hündür görünürdüm.

O bilirdi həyətə nə üçün gedirik...

Nə fikirləşdisə Yitka ayağındakı başmaqları da çıxarıb qapının ağzına atdı. İndi bir az da on-dan hündür göründüm. Qol-qola girib çölə çıxdıq.

Danoya tapşırdım qapını arxadan bağlasın. Başıyla razılığını bildirib, belə də etdi.

Gənclik çırtlayırdı!

O qısa, limon rəngli kip kətan donunda, qo-luma girib ayaqyalın gedir, başının çalmasını da açmırdı. Çox gülməli görünürdü!

Eyy...16 yaşın ilahiliyi! Subaylığın kövrək sultanlığı. Azadlığın əlçatmaz müqəddəsliyi...

Ətirli, yaxası iplə bağlanan güllü köynəkdə idim. Turbazanın bağında boş yer axtara-axtara yay rəqs meydançasının yaxınlığına gəlib çıxdıq.

Ağacların budaqları əyilmiş yarpaqlı hissə-sinin altında, taxta oturacaq tapıb əyləşdik.

Yerimiz qaranlıq idi. Bəxtimizdən yaxınlıqda gözə dəyən adam da yoxuydu...

Yitka siqaret yandırdı, sonra da gülümsü-nüb birini də mənə uzatdı. Hər ikimiz lal-dinməz siqaretləri çəkib qurtardıq.

Söz də, siqaret də qurtarmışdı...

Birdən əlimlə onun üzünü tumarladım. O tərpənmədi və çönüb mənə baxdı. Elə baxdı ki, qucaqlaşdıq...

O doğrudan da qənirsiz gözəl idi!

Danışığı, hər bir hərəkətindəki çalarlar da, qeyri-adi idi. 16 yaşlı praqalı bu qız həyatımda gördüyüm qızların ən gözəliydi!

Onun davranışında, yerişində, ağlında belə, bu yaşın hökmranlığı, əlçatmazlığı, ünyetməzliyi hiss edilirdi.

Hər şey təbii idi!

Dodaqları qıpqırmızı, dişləri canavar sümü-yü kimi bərk idi. Bədəninin cizgilərini sanki qə-ləmlə rəssam işləmişdi. Bütün davranışı, düşün-cəsi, ruhu təbii idi. O düz adamıydı! Məkr, yalan, siyasət, hərislik qanında hələ yoxuydu...

Daş kimi, qəhvəyi giləli ağappaq yupyumru döşləri, bahalı dümağ neylon lifçikdə dimdik da-yanmışdı. Şabalıdı saçları ətir saçırdı.

Onun nəfəsi isti və elə dadlıydı!

Şampanski, şokalad, столични siqareti və 16 yaşın təbii qoxusu! İlahi! Bu dəhşət idi. Mən indi də... bax bu kəlmələri yazanda da, o qoxunu ağzımda hiss edir, o istiliyi duyuram...

Yerimiz tənhalıq, yarımqaranlıq və çox sa-kitlik idi. Heç nə danışmadan, didişmədən bir-bi-rimizə sarılmışdıq. O artıq mənim qoynumda idi.

Özünü bu gecə sülhlə təslim eləmişdi. O qədər öpüşdük ki... Qırmızı, koppuş əncir dodaq-larının beçə balınl, dilinin şəhdini çıxarırdım...

Artıq bu bəxtəvərlik idi!

Aradabir dayanıb siqaret çəkirdik.

O bu gecə elə mehriban, elə məsum, elə məhzun, elə itaətkar idi...

Şuxluqla bir dəstə qız-oğlan gəldi.

Yeyib-içib, indi də şənlənmək üçün gəzmə-yə çıxmışdılar. Tərs kimi, düz bizim oturduğumuz yerə yaxınlaşdılar.

Cəld bir-birimizdən qopduq...

Başının çalmasını ehmalca açdım. Və sər-xoş gənclərin gedəcəyi vaxtı səbirsizliklə gözlə-məyə başladıq.

Yitka taxta oturacaqda yalın ayaqlarını bəx-təvərliklə oynadırdı...

Onlar kefli olduqlarından bizi narahat elə-diklərinə əhəmiyyət vermir və hətta uzaqdan eşi-dilən musiqi səsinə rəqs eləməyə başladılar...

Nə fikirləşdisə, ayaqyalın Yitka əlimdən tu-tub ayağa qalxdı və başını hikkəylə yenidən çalıb məni darta-darta oradan uzaqlaşdırdı.

Qaranlıq yerlərdən keçəndə, uzaqdan dü-şən işıqda bir çəmənlik görüb, onu yerdən oturt-maq istədim. Amma o, tam təslim olsa da, başa saldı ki, çəmənlikdəki otun rəngi onun limon rən-ginə çalan sarı kətan donunu göyərdəcək.

Düz deyirdi, sarı rəng gömgöy otun rəngini tez götürərdi. Axtara-axtara axır ki, boş taxta otu-racaq tapa bildik. Hansı cütlüksə yeni qalxdığın-dan oturacaq hələ istiydi.

Yerimizi çalmayla təmizləyib əyləşdik.

O ayaqyalın mənə görə gəzirdi. Bu gecə ilahi gecələrdən biriydi, 1001 gecə nağılıydı. Yu-xu kimiydi hər şey. Xəyallarımdakı arzularım çi-çək açmışdı bu gecə. Dünyanın insanlara verdiyi dərd, sanki bu gecə qeybə çəkilmişdi.

Yitka yenə qoynumda idi!

Biz bir-birimizin idik!

Onun ətirli, odlu nəfəsi necə dadlıydı!

Mən heç kəsin nəfəsini xoşlamazdım... Ki-minsə, istər kişi, istərsə də qadın olsun, nəfəsini üzümdə hiss edəndə ürpənirdim. Amma Yitka si-qaret çəksə də, şampan içsə də nəfəsi çiçək kimi təravətliydi, ətir saçırdı.

Ağzımı ağzında saxlamışdım.

Biz bir-birimizin nəfəsiylə tənəffüs eləyir, bir havayla yaşayırdıq.

Bir nəfəslə ikimiz çox bəxtiyar idik.

Qəflətən Yitka bal dodaqlarını ağzımdan çı-xarıb dedi:

- Bilirsən Praqada necə öpüşürlər?

Sonra da gözümü döydüyümü görüb, boy-numu qucaqladı və dodaqlarımı sormağa başla-dı. Mən də ona baxıb, onun qalın, köppuş isti do-daqlarını sormağa başladım.

Bu da Praqa öpüşü!

Mən bu öpüşü kitablardan, filmlərdən, qa-tardakı donetskli qızla öpüşəndən, bilirdim.

Ağ mirvari sırğalı Məhbubə xala da çox şey öyrətmişdi. Sonra Sarıkirpikli... Hələ sonra da bə-növşəgözlü Katerina...

Xoşbəxt, misilsiz dəqiqələrimiz ötürdü.

Bu an dünya bizimiydi!

Və bu anlara görə həyatda yaşamağa də-yərdi. Yaşamaq təkcə zülm çəkmək deyil ki?

Onun boynundan necə öpmüşdümsə, başa salırdı ki: "Görünür, sorub qıpqırmızı eləmisən, köpəşiyib, yeri qaşınır." Elə özüm də ondan be-tər gündəydim...

Cib dəsmalımı çıxarıb, onun qaşınan yerini ovxalamağa başladım.

Bu gecə o mənim idi!

Bir saatdan çox da burada öpüşdük...

Elə şirin öpüşürdük, Danonu da, otağımız-dakı yemək-içməyi də unutmuşduq.

O qulağımın altı tərəfdən boynumu o qədər hərarətlə sortuqladı ki, qıdığım tutur, özümü zor-la saxlayır, ətim ürpənir, amma dözür, sonsuz da ləzzət eləyirdi...

Hərdən istəyirdim boynumu ağzından çıxa-ram, amma ehtirasla imkan vermir, o zorla tutub saxlayırdı...

Beləcə əsgərlik çəkirdim!

- Artıq gecdir,- deyib, qəflətən ayağa qalxdı.

Və məni də çəkib durğuzdu.

Özümüzü səliqəyə salıb, geri qayıtdıq.

Turbazanın qaranlıq bağında da, bir neçə dəfə qucaqlaşıb sürəkli öpüşdük... Boyun-boğa-zımı necə sormuşdusa, yeri köpəşiyib şişmişdi. Ayaqüstə öpüşməyin də başqa bir ləzzəti vardı!

Qayıtdıq evə.

Hər ikimizin kefi kök, damağı da çağ qapını döydük. Qapı açıq idi. Səs-səmir gəlmirdi. Ustuf-ca içəri keçəndə, gördük ki, Mürşüd də qayıdıb.

Hər ikisi yanaşı otursa da, küsülü adamlar kimi danışmırdılar. Təpərsiz Mürşüd rus dilini heç bilmir, Dano da çox pis bilirdi...

Bizimlə bərabər sanki evə sevinc doldu.

Dano zorla, əl-qolla başa saldı ki, siz ge-dəndən evdən kədər, miskinliklik yağır. Daş-divar dilə gəldi. Mürşüd də qayıdıb gələndən mal kimi oturub, dinib danışmır da...Yaxşı ki, gəldiniz! Evə həyat verildi. Hər şey qayıdıb yerini aldı.

Ürəyimdə fikirləşdim ki, yaxşı deyiblər:

"Daş-daşa söykənər, divar olar."

Cəld şampanski açıb hamıya süzdüm. Stə-kan-qədəhlər yenə cingildəyib səsləndi. Tort, şo-kolad... Ləbələb dolu bir stəkanı birnəfəsə qurtul-datdım getdi. Daha dərdim qalmadı.

Yitkayla Dano nəsə öz dillərində danışdı. Və keçib yerlərimizi tutduq.

Biz yenə çarpayıda yanaşı oturduq.

Yitka da, mən də qıpqırmızı pörtmüşdük... Mənim boynum qızarıb köpəşimiş, onun da bo-ğazına iki-üç yerdən qıpqırmızı qan yığılmışdı.

Şappıltıyla yeni şampanski açıb, stəkanlara süzdüm. Yrəyim yaman açılmışdı.

Yitka boynuma baxıb gülürdü, sonra nə qə-dər ağzını əlimlə yumsam da, Danoya boynumu göstərib başa saldı ki: "Mən eləmişəm."

Dano da hər ikimizə baxıb gülürdü... Daş atan bəlli, baş atan bəlli!

Onlar, ikibacı bir-birindən heç utanmırdı...

Saat 22:46 idi. Deyib-gülür, əylənirdik. Mür-şüdlə Dano danışmır, yalnız bizə tamaşa eləyir-dilər. Ayı hardan bilsin, xalını xovuna sığallarlar,

Maraqla onların pasportuna yenidən bir qə-dər baxıb, Yitkadan soruşdum:

- Niyə iki bacı, hər ikiniz də ayın 23-də do-ğulmusunuz?

Yitka fikirləşmədən, gülə-gülə, yarı çex, yarı da rusca başa saldı:

- Get, onu anamdan soruş!

Hamımız gülüb şampanskidən qurtumladıq.

Beləcə vaxt ötür, oyun çıxarırdıq.

İçkinin təsirindən Yitka qıpqırmızı olmuşdu. Limon rənginə çalan sarı kətan donu da qırmızı toxunuşlu kəməriylə elə bil içib, olduğundan da gözəl görünürdü!

Qəflətən Yitka ayağa qalxıb:

- Durun bir az gəzəyin, nə qədər oturmaq olar axı? - əl-qolla başa saldı.

Hamı dərhal çönüb, nəyə görəsə mənə sa- rı baxdı. Üzümü Danoya tutub:

- Siz Mürşüdlə həyətdə bir az gəzin, biz də gələcəyik...

Yitka əlimdən yapışıb:

- Yox! Gəl biz çıxaq,- qışqırdı.

O sanki mənimlə evdə tək qalmaqdan eh-tiyyat eləyir, sanki nədənsə qorxurdu.

Dano da bacısının sözünü dedi.

Amma bu dəfə inad elədim:

-Yox! Biz evdə qalacağıq! - sözümün üstün-də kişi kimi, möhkəm durdum.

Vəziyyətimi anlayıb yumşaldılar. Ayı Mürşü-dü də başa saldım ki, çıxsınlar həyətə.

Axırı onlar çıxası oldu.

Yenicə çıxmışdılar Yitka yüyürüb açarı qa-pının üstündən çıxardı və haraylayıb pəncərədən bacısına atdı.

Bunu qəsdən elədi ki, içəridən qapını bağ-laya bilməyim.

Bakirəliyini qorumaq istəyirdi!

Heç mənim də elə fikrim yoxuydu.Xarici və-təndaşla cinsi əlaqədə olmağın sonundan ehtiy-yat eləyir, ordu sıralarında əsgər olduğumdan və dizbata düşə biləcəyimdən də qorxurdum.

Qapıdan çölə çıxıb, Danodan açarı almaq istədim. Amma nə qədər elədim, o vermədi.

Elə də bərkini tutmayıb geri qayıtdım və eş-şək Mürşüdü də başa saldım ki, qızla nəzakətlə davransın, ta xotux kimi yox.

Onlar getdi.

Qapını örtdüm. Yitka çarpayıda oturmaq is-təmədi. Qolundan yapışıb, stuldan qaldırmaq is-tədim. Stula qırraşıb:

- No... No,- deyərək, dirənmişdi.

Xeyli mübahisə elədik. Doğrusu o çəkinirdi. Birdən onu qucağıma alıb, güclə qaldırdım.

Yaman ağır idi.

Qucağımda artıq müqavimət göstərmədi və elə uzanıqlı vəziyyətdə də çarpayıya uzatdım...

O daha heç nə demədi və mən də ürək-lənib yanında uzandım.

Xeyli öpüşdük.

Başının altında üst-üstə iki yastıq vardı. Bu bizə mane olurdu. Ayaqlarını da çarpayıdan aşa-ğı sallamışdı. Guya bir şey olsa, qaçacaqdı...

Öpüşməyə ara verib, ayağa qalxdım və onu da dikəldib yastıqların hər ikisini başının altından götürdüm. Çılpaq ayaqlarını da əllərimlə qaldırıb, çarpayıya uzatdım. Baldır və budları yumşaq idi.

O daha qorxmur, çəkinmir, tabe olur, sanki taleylə, "olacaqla" barışmışdı.

Özü də yerini rahatlayıb, arxası üstdə düm-düz uzandı və qollarını açıb məni ağuşuna səs-lədi... Elə bil bihuşdarı içmişdi...

Tanış olduğumuz gündən üzübəri, ilk dəfə olaraq onun üstünə üzandım.

Amma, hər ikimiz paltarlı idik.

Hər şey son dərəcə maraqlı və gözlənilməz oldu. Artıq inanılmaz dərəcədə başbirlik eləyirdik.

Onu o qədər öpdüm...

Saçlarını hey sığallayır, kirpiksiz qəhvəyi gözlərinə heyranlıqla baxır, doymurdum ondan... Kim deyir sevgi əbədi ola bilməz? Ya xəyal olub uçacaq hər şey? Dəyanətimiz çatsa, onu hələ ağappaq duvaqda da oturda bilərəm. Onun gö-zəlliyindən vəcdə gəlsəm də...

Amma, utandım soyundurmağa.

Zira ki, yenə Şərq küçəsinin əxlaqı!

O hər şeyə hazır idi...

Saçlarını tumarladıqca, bal dodaqlarından öpdükcə, dil-dodağının şəhdini, cövhərini sorub çıxardıqca, o gözlərini yumur, yumşaq sinəsində ürəyinin döyüntüsünü hiss edir, qəlb çırpıntısını eşidirdim... O bənövşəgözlü kimi, inir-inir inləmə-sə də, bayğınlıq halında uyuyur, həyatında bir dəfə baş verə biləcək "hərəkəti," məndən çılğın-casına gözləyirdi!

Onun canı isti idi.

İndi oturub bu olayları, kəlmə-kəlmə yaz-dıqca, o istiliyi canımda hiss edirdim.

Bu gecə ömrümün ən möhtəşəm günlərin-dən birini yaşayırdım. Zamanın özünün belə heç vaxt korlaya bilməyəcəyi yeniyetməlik və gənclik dövrünü yaşayırdıq!

Dəcəl...16 yaşlı praqalı qız, bu gecə özünü mənə tam təslim eləmişdi.

Limon rəngli gödək, kip kətan donu yuxarı dartılmış, ağ neylon alt tumuşu açıq görünürdü. Onun açıq baldırlarını və ağ tumuşunu görüb nə-dənsə utandım.

Tərləmişdik.

Ağ neylon lifçiyi də tərləmiş, qəhvəyi giləli yupyumru ağ döşləri tərin-suyun içindəydi və çox da qəribə qoxusu gəlirdi.

Şəhvət hissi isə məndə bu gecə, nədənsə yox idi. Görünür onun əcnəbi, özümün də əsgər olduğum qarşımı kəsmişdi, vəhşi ehtiras iradəmi qıra bilmirdi...

Sevgi və əsl romantik məhəbbətlə gecənin lal sükutunu odlu öpüşlərlə əridirdik...

Yitkayla keçirdiyim bu gecə, bəlkə də əbə-diyyətə kimi çəkəcək ilk və son gecəydi...

Onun ağuşunda uzanmış olsam da, uzun müddət öpüşsək də, döşlərindən öpməyə utanır, nədənsə cürət eləmir, lap düzü qıymırdım.

Sanki o mifik varlıq idi...

Onu sevirdim!

Onu lüt soyundurmaq... döşlərindən öpmək sanki ayıb idi...

Katerinayla, Sarıkirpikliylə yataqda olanda, bu qədər sadəlövh, utancaq deyildim... Hələ qa-tardakı donetskli qızla...

İndi isə onu yalnız öpmək, onunla birlikdə eyni nəfəsi udmaqdan savayı, heç nə beynimə girmirdi. O hərdən gözlərini yumur, artıq astadan inləyib, hərdən də qıvrılıb-açılırdı. Amma bundan irəli getməyi, bəlkə o da istəmirdi? Bəlkə də, özü təşəbbüs göstərsəydi, bu gecə hər ikimizin bal gecəsi olacaqdı!

Bu gecə dünyanın ən xoşbəxt bəndəsiydik. Onun 16 mənim isə 20 yaşım vardı. Bu dəqiqələ-ri təsvir edib, olduğu kimi canlandırmağa söz də acizdir. Elə söz yoxdur!

Bircə onu yaza bilərəm ki, Yitka tanıdığım qızların içərisində, ən gözəli idi!

Bu gecə... əsgər həyatının ən unudulmaz günü, azadlığın möhtəşəm möhürüydü!

Onun koppuş odlu dodaqları şişmişdi və nə yazıq ki, soyumaq bilmirdi.

Bir neçə ay... mülki vaxtda, onunla birlikdə olsam, bəlkə də biz ailə qura bilərdik!

Amma yadıma düşdü ki, o dodaqlarımı vəh-şi bir ehtirasla sorub: "Praqada qızlar-oğlanlarla belə öpüşür,"-demişdi.

Söz yox ki, o kiminləsə öpüşüb...

Deməli, bizim ailə qurmağımızın əngəli də, Komsomol bir tərəfə, elə bu sözdən başlayacaq-dı. Bərdədə belələri binamus damğası gəzdirir...

Gecə birə işləmişdi.

Qəflətən Yitka saata baxdı və öz dilində yalvarmağa başladı ki, daha bəsdir... İndi Dano da gələcək, bəsdir!

O ilk dəfəydi mənə yalvarırdı!

Dərhal gözlərinə baxıb, dönə-dönə, dəli eh-tirasla, bir neçə dəfə qəhvəyi gözlərindən, qırmı-zı əncir dodaqlarından, bəyaz üzündən və durna kimi uzun boyun-boğazından nisgil dolu sürəkli öpəndən sonra üstündən qalxdım.

Bu da... ilk və son erotik gecəmiz!

O özünü səliqəyə salmağa başladı. Donunu aşağı çəkəndə, qarnına əlimi çəkib, zarafatla:

- Niyə qarnın belə yumşaq və bir qədər də ətlidir?- soruşdum.

O gülümsünüb:

- Səndən uşağım olacaq!- dedi.

Heyrətə gəldim!

Və birdən hər ikimiz güldük...

Yenicə özümüzü qaydaya salmışdıq... Mür-şüdlə Dano içəri girdi.

Öz dilimizdə mən Mürşüddən, Yitka da çex dilində bacısından:

“Öpüşdünüz?!”- soruşduq.

Onlar bir-biriylə söhbət də eləyə bilməmiş, amma, yanaşı gəzib, oturacaqlarda oturan it xılı kimi öpüşənlərə o ki var, tamaşa eləmişdilər.

Tək bir dəfə Dano onun döyənəkli barmaq-larına baxıb nəsə demiş, təpərsiz isə başa düş-məyibmiş... Bir sözlə: İt otu, bağa yarpağı.

Yazıq Dano!

Həmzaddı Mürşüd heyvərə cüssəli olsa da, doğrudan təpərsiz, kal, savadsız, belə işlərdə sə-riştəsiz və fağırın biriydi...

Danodan, Mürşüdə nə dediyini soruşdum. Başa saldı ki, tüklü, döyənəkli əllərinə baxıb:

- Əmək qızıl bilərzikdir,- dedim, dostun ba-şa düşmədi...

- Canın sağ olsun, mən onu başa salaram, sən borcundan ləyaqətlə çıxmısan, binədən ən yaxşı nişanə-dostluqdur, onu da layiqincə yerinə yetirmisən,- dedim.

Dano ağ saqqız çeynəyə-çeynəyə, gülüm-sünüb Yitkaya:

- Anya xala yenə hirslənəcək,- dedi.

Qapıdan çıxanda Yitkayla qucaqlaşıb... bir də, amma bu dəfə, görməmişlər kimi öpüşdük...

Onları yola salıb, həmərsin çayı ölüsü, böy-rək dərdi olan Mürşüdlə geri qayıtdıq.

Masanın üstündə qalan həlləcoşdan, tort-dan yeyib, açıq şampanskidən içərək, masanı və çarpayını təmizləyib, yeri yığıb, tam səliqə-sah-man yaratdıq. Sonra da, pəncərələrin həncəmə-lərini yoxlayıb və otağın qapısını bağlayaraq, ka-zarmaya qayıtdıq.

Gecə üçü vururdu...

Rota uyuyur, дневальный Suslovu isə yu-xu basmış, papağı başından sürüşüb düşmüş-dü... Rota üzrə növbətçi isə gözümə dəymədi.

Demək caizsə, bir gün də, ordu sıralarında, ayıq-sayıqlıqla hərbi xidmət çəkdik...

Yitkanın yadigarı...

Əlvidamı deyək?

Odessa, 22 və 23 avqust 1972-ci il,

ll və lll günlər.

Növbətçi məni oyadanda yenə dünya hələ ağarmamışdı. Nə qədər elədim, gözüm açılmadı. Dəniz idmanına da gedə bilmədim.

Cəmi iki saat yatmışdım. Növbətçinin göz-ləri qarşısında yenidən yuxuya keçmişəm. Uzun gecələri çoxdandı yata bilmirəm. Praqalı Yitkanı tapandan yuxularım ərşə çəkilmişdi.

Daş kimi yatmışdım...

Xasiyyətcə həlim adam olan növbətçi Bere-zovski, bir saat keçməmiş yenidən məni oyatdı:

- Boykonun tapşırığıdır, Arnautla hansısa general gələcək!- dedi.

Gözlərimi zorla aça bildim.

Yerimdə oturub gözüyumulu, xasmağıl ge-yindim və ayağa qalxıb işığı yandıranda, güzgü-də özümə baxdım.

Gözlərimə qan gəlmişdi...

Elə bu vaxt, xapdan sinc vuruldu və rotaya QALXIN!- əmri verildi.

Yenicə rota cərgəyə düzülmüşdü, Arnautla baş leytenant Boyko kazarmaya girdi.

Heç bir ЧП baş verməmişdi.

Xızannarın sayı düz gəldi. Rota yerində idi.

Həyətdə səhər gimnastikası eləyib... yuyu-nandan sonra развод-a düzüldük. Arnaut bu sə-hər məni danlayıb, biabır elədi:

- İş çox ləng görülür, briqadada nizam-inti-zam aşağı, mala işində брак çoxdur,- dedi.

Başı qırtmıqlı, üzü civzəli Nazimi dünən ha-uptvaxta basıblar. Xəbərim yoxuydu.

Belə dostam...

Səhər yeməyindən sonra СОВЕЩАНИЕ ke-çirildi. Arnaut yenə üstümə düşdü: Plan dolmur, binanın suvağı ləngiyir, görülən iş keyfiyyətsiz, nizam-intizam da aşağı səviyyədədir...

Çardaqda suvaq vururduq.

İşi qaydaya qoymuşdum, amma gözlərim yumulurdu... Çıxıb lift yerinin üstündə uzandım.

Bədənim ağırlaşdığından, daş kimi yuxuya gedərəm.

Tarasyuk əclaf məni görər və Sanya yazıq da, yalandan deyər ki, xəstədir.

Özü qəsddən belə deyər ki, məni Arnauta satmasın. Arnaut bu səhər göstəriş vermişdi ki, kim iş vaxtı yatsa, sözsüz, araşdırmasız Pervo-mayskiyə qaytarın...

Nahara yaxın oyandım.

Bir qədər özümə gəlmişdim. Üst-başımı sə- liqəyə salıb, uşaqlara baş çəkəndən sonra, hə-yətə düşdüm. Hasarın o üzünə keçmək istəyir-dim ki, Yitkanı görəm.

Bu heyndə, herti-perti mayor Deqtyar arxa-dan görüb, məni səslədi.

Geri döndüm.

Bu gün işlərim lap tərs gətirmişdi. Mayor da xeyli danladı: "İş zəif gedir, əsgərlər yaxşı işlə-mir, alkoqoldan istifadə halları var..."

Naryad bağlamağa getdim.

Bu dəfə də, Tarasyukla tutaşdıq. Əclaf tam xırdaçılıq eləyir, üzləri затырка olmayan yerləri naryada salmaq istəmirdi.

Bu gün bir qutu СТОЛИЧНАЯ siqareti çək-dim. Hirs-hikkəmi sakitləşdirmək istəyirdim...

Tarasyukun xəbərçiliyindən sonra da mayor Deqtyar hirslənib, bizim briqadanı 3-cü mərtəbə-yə düşürdü. Keyfiyyətsiz, əyri-üyrü vurulmuş su-vaq yerlərini yenidən düzəldəsi olduq ki, bunlar da plana girmirdi.

Üçüncü mərtəbənin yanları açıq eyvanında reykanı duvara söykəyib, əyri küncləri Ədalətə göstərir, tapşırıqlarımı verirdim.

Yitkayla Dano da Anyagilə qonaq gələn nişanlı qız-oğlanla həyətlərindən məni görər. Bir zaman, təsadüfən onlara sarı baxanda gördüm ki, hamısı dayanıb, diqqətlə mənə tamaşa eləyir.

Bir-birimizi görəndə gülüşdük.

Onlar evə girdi, Ədaləti öyrədib tapşırığımı verəndən sonra Fərruxla meydançaya düşdüm və su içmək bəhanəsiylə onların həyətinə keçdik.

Bir qədər keçmiş şux Yitka həyətə çıxdı və məni görüb sakitcə yanıma gəldi.

Görüşdük...

Sözlü adamlar kimi bir qədər duruxub, başa saldı ki, sən burada gözlə, gəlirəm.

O arxayın addımlarla evlərinə getdi və az sonra əlində bir fotoşəkil geri qayıtdı. Fərruxdan utanıb, bir az aralı dayandı və məni əl havasına yanına çağırdı. Yaxınlaşanda, qolunu çox məh-rəmanə boynuma salaraq, əlindəki şəkli mənə uzadıb:

- ОТ МЕНЯ НА ПАМЯТЬ! ХРОНИ ДО КОНЦА ЖИЗНИ!- dedi.

Sevincək şəkli alıb baxdım. Toxunuşu qır-mızı naxışlı, kəməri olan, limon rəngli kip kətan donunda, yanpörtü oturub çəkdirdiyi şəkil idi.

O şəkildə nəsə qayğılı, sözlü kimi görünür-dü. Arxasını çex hərfləriylə yazmışdı.

Sevindiyimdən bilmədim nə edəm. Həkkəh dağarcığı bu an nə qədər mehriban idi!

- СПОСИБО!- dedim və üzündən öpdüm.

O məni güclə başa saldı ki, Anya xala dü-nən bütün günü və gecə yarıya qədər restoranda masa saxladıb, yolumuzu gözləyib. Hətta, bizdən inciyib də... Və sonra da gülümsəyib, şirin bir göz vuraraq, bildirdi ki, restoran əvəzinə ayaqyalın, başısarıqlı kolların arasında keçirdik gecəni...

Nə fikirləşdisə, şəkli göstərib:

- НЕ ПОТЕРЯЙ!- deyib, barmağıyla məni hə-dələdi.

Fotoşəklə baxıb, fərəhdən bilmədim ki, nə edəm və özümdən asılı olmadan, şəkli qoynuma soxdum. Qarşıdakı uzun həsrət qışında, bu şəkil qəlbimi daim ovudacaq, ümidimin qaranlığına qı-sılanda toxtadacaq...

Sevincim asimana qalxmışdı:

- Ən böyük hədiyyə, kitabla fotoşəkildir, hər ikisini də sən mənə bağışladın!- dedim.

Və nədənsə, qəflətən, beynimə hardansa oxuduğum bir atalar sözü düşdü:

“Düz gəlmisən - düz get,

Qız gəlmisən - qız get.”

Ancaq ona heç nə demədim. Əvəzində hə-zin, ürkək bir səslə:

- Axşam görüşək?- soruşdum.

O əvvəl qaşlarını düyünlədi, sonra çöhrəsi-nə işıqlı bir təbəssüm yayıldı və gülümsəyib, əl-qolla, yarı rus, yarı da çex dilində başa saldı:

“Anya xala axşam PECTOPAH MOPE-də vida qonaqlığı verəcək bizə, sən gəlmə! Sabah görü-şərik, bizi dəmiryol vağzalından yola salarsan!”

Razılaşmadım.

Mən artıq onsuz dayana bilmirdim, tərs kimi də sabah gedirlər, yaman da kövrəldim...

- Yox, axşam gələcəyəm, lap restoranın pu-lunu da özüm ödəyərəm,- deyib, inad elədim.

O üzümə diqqətlə baxaraq, çöhrəsi təbəs-sümlü halda, heç nə demədən çıxıb getdi.

Həlləm-qəlləm Fərruxla rotaya qayıtdıq.

Əsl möcüzə ПЛАНЁРКА-da baş verdi.

Rotanın siyasi işlər üzrə müavini, baş ley-tenant Boyko gözlərini qıyıb, alnını turşudaraq, pozduyub getdi:

- Asadovla mülki paltarda, xarici qızlarla Ar- kadiya restoranında olmusunuz!

Əclaflar bizi olduğu kimi satıblar.

Dərhal gözlərimin qarşısına iş icraçıları gəldi. Düz əyrini kəsər! Fərəqət forması alıb:

- ТАК ТОЧНО, ТОВАРИШ КОМАНДИР!- dedim.

O heç gözləmirdi: "Ev təzə, divar təzə, ələ-yim səni hardan asım?"

Daha bir söz demədi...

Axşam doqquz tamamda, təpərsiz Mürşüd-lə mülki geyinib, MOPE restoranına getdik.

Ayı Mürşüd aşağıda gözlədi.

Xarici vətəndaşlar üçün nəzərdə tutulmuş, onların yeyib-içib əyləndiyi, bahalı ikinci mərtəbə-yə qalxdım.

Orkestr dambadurumsuz, hansı bəstəkarın-sa əsərini, həzin çalırdı. Səs-küy demək olar, yox dərəcəsindəydi.

Anya xalanın işlədiyi kuxnanı axtaranda, tə-sadüfən püstəqarın Yitkayla qarşılaşdıq. O məni görəndə heyrətlə içini çəkdi:

- Niyə gəldin? Axı sənə dedim ki, gəlmə!

Susduğumu görüb, nəvazişlə başa saldı: “Arvad razı deyil! Bizi heç yana buraxan deyil, başa düşmürsən? Sabah qayıdırıq. Son gecə-mizdir, məndən asılı deyil...”

Nə qədər dil tökdüm, incidim, küsdüm xeyri olmadı, nə gəzməyə nə də ki, restoranda birgə oturmağımıza razılıq verdi.

Özü də sabah gedirlər...

- ЗАВТРА, ЗАВТРА УВИДИМСЯ... çox da nigarançılıqla deyib,- durdu.

Çar-naçar geri qayıdası oldum. Son görüş, vida görüşümüz sabaha qaldı.

Uğursuz Mürşüdlə Tomagildə mülki paltar-ları soyunub kazarmaya qayıtdıq.

Yazıq Toma!

Çex qızları tapandan, onu tamam unutmuş-dum. O bunu anlayır, Yitkanın 16 yaşı və gözəl-liyi qarşısında təslim olmuşdu.

Neyləsin?

Ürəyim sıxılırdı...

Birdən ağlıma gəldi ki: “Onlar sabah gedir, vida üçün heç olmasa, gül almaq lazımdır”.

Qızılgülün bir dənəsi 50 qəpikdir. Heç ol-masa, iyirmi-iyirmi beş manat lazımdır ki, yönlü bir dəstə gül alam...

Azərbaycanlı uşaqları başıma toplayıb, çox məsləhət-məşvərətdən sonra "son qərar" qəbul elədik.

Gecənin günortasında... tək bir ПЛАВКИ-də Lümpen proletariat Əhliman, kuybışevli Hüseyin və saxsağan Mürşüdlə taxta hasardan aşıb, Le-nin parkına tərpəndik. Parkda olanların çoxu qız-larla qol-boyun gəzən, ya da taxta oturacaqlarda öpüşən yeniyetmələr idi.

Uşaqları dəhliyərək Lenin parkının rəngbə-rəng güllərini, gülləməyə başladıq...

Bəxtimizdən görüb əhəmiyyət verən yoxuy-du. İki böyük gül dəstəsi toplayıb aradan çıxdıq. Bu qanun pozuntusu idi. Əgər milis işçiləri, ya patrullar bizi tutsaydı, məhkəməyə verilə bilərdik. İctimayi parkın gül-çiçəklərini viran qoymuşduq. Ən azından hauptvaxt başımızın üstündəydi.

Yolüstü orta məktəbin və yaşayış binaları-nın həyətindəki, yastı yapalaq kollu, üstü yumru tikanlarla dolu dəmirtikanların arasında, dəmgül-dəmgül bitən gül-çiçəkləri də yolduq. Altı künclü bərk tikanlar barmağımı qanatmışdı.

Kazarmaya qayıtdıq.

Rota yatırdı...

Zirzəmiyə düşüb, düz gecə saat ikiyə kimi gülləri dəstələdik, tikanlarını qoparıb, aşağı his-səsindəki yarpaqları təmizlədik.

İki böyük dəstə gül buketi alınmışdı!

Rəngbərəng güllər idi.

Sonra bir əzik vedrə tapdıq və krantda suy-la doldurub, gül dəstələrini dəsmallara bükərək, vedrənin içində sahmanladıq. Sonra da gül dolu vedrəni gətirib Yitkagilin bağında, xəlvət bir yer-də üstünü budaq və yarpaqlarla örtüb, gizlətdik...

Ərlilərin əri var, dulların da Allahı!

Yitkagil deyəsən yatmışdı. İşıqları yanmırdı. Görünür, biz parkda gül oğurlayıb toplayanda qa-yıdıblar. İlahi, onlar sabah gedəcəkdi! Ancaq nə eləmək olar, hər başlanğıcın bir sonu da olmalı-dır. Həyat belədir də...

Gül dəstələri tam hazır olandan sonra, san-ki yüngülləşdim. Amma kövrəlmişdim...

Gecə yerimə girəndə, artıq saat üçün yarı-sını vururdu...Yata bilmirdim, yuxum ərşə çəkil-mişdi. Sabah Yitkagil gedirdi...

Beynəlmiləl məhəbbətimin payızı başlaya-caq, bu necə olacaqdı? Yitka nağılı da dünyanın keçmişinəmi çevriləcəkdi? Görünür hər şeyi za-man özü qaydasına qoyacaq, sahmanlayacaqdı.

Yitkanın bağışladığı fotoşəkli çıxarıb, xeyli tamaşa elədim. Bu şəkil və yaşıl üzlü çex-rus tər-cümə kitabı ondan mənə əbədi hədiyyə idi.

Nə vaxtsa, gözüm yumulub...

...Dünya hələ ağarmamış, bozarantı vaxtı baş leytenant Boyko kazarmaya girib, növbətçiyə komandirləri oyatmağı tapşırar.

Növbətçi məni silkələyəndə, zorla ayıldım. Göz qapaqlarım necə ağırlaşmışdı!

Yerimi ЗАПРАВКА eləyəndən sonra, Boy-koyla əl tutub salamlaşdım. O, hər şeyin qayda-sında olduğunu görüb, rotaya saat 05:30-da QAL-XIN,- əmri verilməsini bizə tapşırıb, geri qayıtdı...

Yenidən, bu dəfə eləcə paltarlı yerimə gir-dim. Çox halsız idim...

ПОДЪЁМ veriləndə eşitməmişəm. Rota sə-hər yeməyinə gedəndə də oyanmamışam. İki-üç gündür üzümü belə yumağa vaxt tapa bilmirəm.

РАЗВОД-da uşaqlar məni güclə qaldırdı.

Elə yorunuğam... Elə yatar, elə yatardım ki!

РАЗВОД-a getdim.

Artıq bir qədər özümə gəlmişdim. Dəmdə-məki Nazı hələ də hauptvaxtda yatırdı...

РАЗВОД qurtaran kimi Yitkagilin həyətinə keçdim. Bəxtimdən bir az keçmiş o ağ şalvarda çıxdı. Üzünü yumamışdı, saçları dağınıq, gözləri-nin altı şişkin idi.

Hər ikimiz, axşam heç nə olmamış kimi, gülümsəyərək əl verib görüşdük. O, indi çox mehri-ban idi. Məni başa saldı ki, şəhərə gedəcəyik. Nahara kimi gəzib, özümüzə müəyyən ayın-oyun alacağıq... Qəflətən qışqırıb:

- Mən də sizinlə gedirəm,- qəti şəkildə mə-sələni qoydum.

Tumurcuğum dərhal,heç əsəbiləşmədən ra-zılıq verdi və başa saldı ki:

“Anya xala bu gün işdədir və bizimlə get-məyəcək, istəyirsənsə gedə bilərsən... Özün bil... O vağzala iş yerindən gələcək... Evlərində qoca arvad qalacaq...”

Son qərarımı verdim:

- Gedirəm! Lap hərbi hissədən buraxmasa-lar da gedəcəm. Artıq son gündür, bundan o ya-nası daha yoxdur.

Razılaşdıq...

Kazarmaya qayıtdım.

Uşaqların işini bölüb vermişdim. Ürəyimdə sanki təklənmişdim, kimdənsə, nədənsə, elə bil qorxurdum... Onların gedəcəyindən idi yəqin...

Axtarıb Sanyanı tapdım. Çox ciddi görkəm alıb, qolundan tutaraq kənara çəkdim və hərbi sirr açacaq kimi pıçıltıyla dedim:

- Sanya çox xahiş edirəm, get komandir ro-tayla özün danış, mənə bu günə уволнителни lazımdı. Nə yolla olsa həll eləməlisən. Xarici qız-lar gedir, onları yola salmalıyam.

Başqa variantım yoxdu. Buraxmasa, məc-bur qalıb самоволка-ya gedəcəyəm. Kömək elə!

O yazıq məni tam başa düşdü və:

- Sakit ol...- deyib, komandirin vaqon hücrə-sinə sarı getdi.

Həyəcanla gözləyirdim...

Onu uzaqdan qayıdan görəndə, qışqırdım:

- Qızsan, oğlan?

Sanya xoş xəbərlə qayıtdı, onun gözləri se-vincdən işıldayırdı. Doğrudan hər millətin yaxşısı da, pisi də var. O mənim üçün necə sevinirdi!

Qolumdan tutub katda-katda:

- Buraxacaq!- dedi,- amma uşaqlara tapşır, qoy yaxşı işləsinlər.

Onun dediyi kimi də elədim. Hamı ürəkdən işləyəcəkdi,- buna söz ola bilməzdi.

Yitka gedirdi axı!

Onu bütün rota sevirdi! O çox şıltaq, təbii, qənirsiz gözəl və əcnəbi azad bir qız idi! Hamı istəyirdi onları yola salam və güllər də ki, hazır...

Sanya uvolnitelni ardınca tərpəndi.

Yitkanın pəncərəsinə doğru cumdum ki, bu müjdə xəbəri tez çatdıram. Açıq pəncərədən onu görən kimi, sevincək:

- Məni buraxırlar! Hazırlaşın gedək!

Çox sakit idilər. Həyəcansız-filansız bildirdi-lər ki, acdırlar, yemək yeyib, hazırlaşarlar...

Cəld kazarmaya qayıtdım.

Sanyanın lavsan parad formasını almışdım. Heyif ki, şalvarı yox idi. Amma pencəyi əla idi.

ЧАЙКА-3 markalı fotoaparatı da götürdüm.

Tağım komandiri, gənc Podqornu uvolnitel-nini gətirəndə uçmağa qanadım çatmırdı.

- Axşam saat 22:00-a qədər yazdırmışam,- deyəndə, onu qucaqlayıb öpdüm.

Bəli hər şey qaydasında gedirdi. Qalırdı bir-cə Mürşüdün məsələsi. O da getməliydi! Amma təpərsizi heç kim buraxmazdı. Onu başa saldım ki, biz şəhərə çıxırıq,

onlar axşamüstü gedəcək-lər. Qayıdanda xəbər edərəm, samovolkaya qa-çıb gələrsən. Pənah pərdiqırana!

Nə olar olar. Beləcə şərtləşdik...

Tam hazırlaşıb, hərbi hissənin ərazisini qa-nuni sənədlə tərk elədim.

Bəxtimizdən elə gözəl gün çıxmışdı!

Bu gün həm xoşbəxt, həm də bədbəxt idim. O gedirdi və mən də onu, iki böyük gül dəstəsiylə dəmiryol vağzalından yola sala biləcəkdim!

Hardansa, yenə heç yerinə düşməyən bir atalar sözünü xatırladım və beynimdə bu sözlər kirkirə kimi, hey fırlanmağa başladı: "Yağış altın-dan götürür, boran altına qoyur..."

Yitkanın pəncərəsi tərəfdən asfalt yolda da-yanıb, onları gözləyirdim. Gəlib çıxmaq bilmirdi-lər. Səbrim çatmırdı, sevimli pəncərənin qarşısı-na gəldim. Pəncərə açıq olsa da, onlar yox idi. Gözlərimə inanmadım, bu necə ola bilərdi?

Sanki qol-qanadım qırıldı...

Çox da ləngiyə bilmirdim, zira ki, mayor ha-radansa təsadüfən gəlib, parad formasında məni görsə, acıqla geri qaytara bilər, uvolnitelnimi cırıb atardı. O əclafdan nə desən çıxar...

Xəlvət yerə çəkilib, bir xeyli gözlədim. Axı o niyə məni aldatsın? Ürəyim yenə sıxılır, nəfəsim tıncıxırdı. Ancaq əmin idim ki, gələcəklər.

Amma, Yitka görünmürdü ki, görünmürdü...

Axırda dözməyib: "Yağışdan qorxan doluya düşər,"- deyərək çıxıb, yenidən açıq pəncərənin önünə gəldim və bu an gözlərimə inanmadım:

Onlar otaqda idi!

Başa saldılar ki, mətbəxtdə oturub yemək yeyirmişlər. Hətta Yitka yeməyini yeyib qurtaran kimi, həyətə çıxıb və su krantının yanında məni gözləyirmiş. Sən demə, taxta hasardan bizim bi-naya boylanıb, hələ məni axtarıbmış da...

- Hardaydın?- üstümə qışqırdı.

Və başa saldı ki, soldatlar hamısı gördü və tüklü "Murşut" düşüb gəldi. Səni soruşdum:

"Hazırlaşıb çıxıb, indi onu taparam..."- dedi.

Yitka ilk dəfəydi məni parad formasında gö-rürdü. Təəccüblə baxır, serjant liçkalarımı görsə də, təəssüf ki, bunun nə olduğunu anlamırdı.

Elə bu vaxt, gözləri saxsağan gözünə oxşar Mürşüd dabanına tüpürmüş özünü çatdırdı. Məni görən kimi, şapban-şapban:

- Səhərdən Mamedi də göndərmişəm, səni axtarırıq. Qız səni gözləyirdi!- dedi.

Bəli, ilk dəfə Yitka şəxsən məni axtarır, mə-ni gözləyir və bütün rota bunu bilir, hamısı da hə-səd aparırdı. O, qənirsiz gözəl idi...

Bu an, yağ yeyib yaxada gəzənlərə bənzə-yirdim... Məğrur-məğrur hərbi hissəmizin səmtinə baxdım. Bu gün yenilməz idim...

Parad formamın şalvarı lavsan deyildi, odur ki, lavsan pencək nə qədər yaraşıqlı olsa da, şal-varı qalın olduğundan ümumi görünüşümə xələl gətirirdi. Di gəl, çi fayda...

Müxtəsəri, geyinib gəldilər və birlikdə, arın-arxayın, lap ər-arvad kimi şellənib, şəhərə çıxdıq.

Bu gün, tarixi bir gün idi!

Üstündən 50 il keçsə belə, unudulmayacaq günlərdən biri yaşanacaqdı...

Döngəni dönəndə yaxşı ki, mayor-zad bizi görmədi. Yitka özü, mülki paltar geyinməyimə ra-zı olmadı və başa saldı ki, belə daha yaraşıqlıdır!

Elə döngəni yenicə burulmuşduq, bir dəstə cavan oğlanla qarşılaşdıq. Onlar rabitə işçilərinə oxşayırdı. Nəsə yer qazır, kabellərlə qurdalanır-dılar. Üst-başları toz-torpaq idi.

İki qənirsiz gözəl qızın, bir qara qafqazlı əs-gərlə gəldiyini görəndə hamısı dayanıb təəccüblə bizə tamaşa elədi. Biz yanlarından ötüb keçəndə biri arxadan qışqırdı:

- Eyy... Soldat... Məni də özünlə götür!

Dostları gülüşdü.

Yitka cəld geri çevrilib, çex dilində bərkdən nəsə dedi və ağzını əydi... Onun dediyi sözləri qıra-qıra təkrar eləyib sonra da gözlərini bərəltdi.

Bəli, mən xoşbəxt idim.

O məni Odessada heç kəsə dəyişmədi!

Yitkayla şəhərə gəzməyə çıxmışdım və heç kəsdən də gizlənmir, qorxmurdum.

Sənədlərim də cabəca, düz idi!

Və birdən ağlıma düşdü ki, bu ilk və son görüşümüzdür. O, bu axşam gedəcək. Bəlkə də bir-birimizi əbədiyyətə kimi, bir daha görmədik.

Bu gün qara gün idi.

Birlikdə olsaq da, həm də, bədbəxt idim bu vaxt. Son görüş... Son gün...

Bu gün onu Praqaya yola salmalıyam.

Sabahdan Yitka adlı, 16 yaşlı qız nağıla, əf-sanəyə dönəcək, ilğım olub göylərə çəkiləcək...

Ey gidi dünya!

İndi, bu dəqiqə... parlaq gözlərinə baxıb, ət-rinə bələndiyim bu qız, sabahdan həyatımda ol-mayacaq. Ona necə isinişmişdim! Sanki sevgilim idi! Axşam onu yola salacam...

Vaqonun açıq pəncərəsindən əl eləyib, qa-tar tərpənəndən sonra da,yağışdan qalanını yağ-mur aparacaq deyəcəm.

Eh... Amma bu qədər pessimist də olmaq olmaz. Bu həyatdır. Hərbi xidməti başa vurmağa nə qalıb? Mülki adam olandan sonra da, axı gö-rüşə bilərik. O sosialist Çexoslovakiyasında ya-şayır. Düşmən kapitalist ölkəsində deyil ki?

Sevincimlə kədərim, bu an qoşa addımla-yırdı... Xuramanla, orta məktəbin son günündə olduğu kimi... İlahi, Şərq döngəmiz Xuramansız mənə necə dar gələrdi!

Yenə gecəyarı, elegiya qoxulu qatar səslə-ri, vağzal ab-havası, diktor qadının yorğun, yuxu-suz səsi... nostalji hisslər...

Bütün bunlarla yanaşı, nə vaxtsa bu heka-yətləri yazdığım gündəliklərdən oxuyub bilən ol-sa, bircə nəzərə alsın ki: Yitka çox gözəl idi!

O, Odessada məni hamıdan üstün tutdu.

Sevirdi!

Amma bu sevginin əmması çoxuydu: Xarici vətəndaş olması, ikimizdən birimizin tərki-vətən olacağı... Onun özünün Praqada oğlanların necə öpüşməsini mənə əyani öyrətməsi, evdə başını çalmayla çalıb əlini ağdan qaraya vurmaması, iş-ləməyimə ləzzətlə baxıb gülməsi...

Ərə getmək asandır, ər donu tikmək isə ol-duqca çətin...

Hələ Komsomol məsələsi!

O bu gün bizim, az qala dünyanın yarısını tutan ССРИ-dən gedəcəkdi.

Kədərim o qədər böyük idi, bütün sevincimi əzirdi... Heyf ki, son günümüzü keçirirdik.

Yolda Yitka qıpqırmızı, təzə, şaxlı hərbi bi-letimi alıb baxmağa başladı. Arasında iki qırmı-zı, Yitka üçün valyuta adlanan on rublluq vardı. Biri özümün, biri isə qırsaqqız Arifin idi. Ona ça-madan almalıydım.

Pulları səliqəylə götürüb mənə verdi. Sonra hərbi bileti vərəqləyib elə hey ora-burasına bax-dı... Çox ciddi idi. Qaşlarını düyünləyib, alnını qı-rışdırmışdı.

Heyf ki, hərbi biletdə fotoşəklim yaxşı de-yildi: Qara pencək, ağ neylon köynəkdə, qalstuk-suz... Səviyyəsiz görünür, kəndçiyə oxşayırdım.

O bir qədər də vərəqləyib, hərbi bileti Dano-ya verdi. Dano da bir xeyli baxıb çex dilində ba-cısıyla nəsə danışdı...

Necə oldusa, hərbi bileti döş cibimə qo-yanda, Komsomol biletimi də gördülər. Kiçik öl-çülü qırmızı komsomol biletini də alıb baxdılar. Oradakı şəklim əla idi... Uşaq vaxtı olduğundan uzun qara saçlarım totuq sifətimə yaraşıq verir-di... Nəyisə, oynaya-oynaya, zarafatlaşıb, deyib-gülə qayğısız uşaqlar kimi şənlənib gedirdik.

Yolda onları başa saldım ki, patrullar məni saxlasa, deyin ki qohumuq, bu soldata görə Pra-qadan gəlmişik.

Onlarla fəxr edir, öyünürdüm!

Bircə şeydən qorxur, ehtiyyat edirdim: Başı-mın, üzümün tükləri, saçım normadan artıq ol-duğundan, komendaturaya apara bilərdilər...

Qəflətən Yitka dayanıb: “Taksi saxlat, yorul-muşam...”- dedi.

O trolleybusla getmək istəmədi.

Dəcəl qızın şıltaqlığı tutmuşdu... Trolleybus dayanacağında dayanıb, taksi axtarırdıq... Hətta Yitka özü lap şose yola çıxmışdı. Taksi oldu-ol-madı, gələn bütün maşınlara əl eləyirdi.

Saxlamayana, bərk sürənə isə, öz dillərində söyür, dilini çıxarır, gözlərini bərəldir, hədələyir-di... Dano sakitcə kənardan bizə tamaşa eləyirdi.

Mən isə gah gülür, gah da Yitkaya qışqırır-dım ki: Az axmaqlıq eləsin!

Axırda onlardan azca aralanıb, taksi saxlat-maq istədim. Boş maşın gözə dəymirdi...

Qəflətən "yağlı," ГАЗ-21 markalı, bir ВОЛГА maşını, əyləci basıb qıjıltıyla yanımda saxladı.

Aman Allah!

Hərbi hissələrə məxsus ВОЛГА maşınıydı və sürücüsü hansısa bir kiçik serjant idi. Ötən bütün maşınlara əl elədiyimi görüb saxlamışdı.

Hər ikimiz... mən Podqornunun lavsan ser-jant formasını geyinsəm də, sovet ordusunun əs-gəri və kiçik serjantı idik. "İt itin ayağını basdala-maz,"- deyiblər. Qapını açıb ürəklə incələdim:

- Mərkəzə, Deribasovskaya getmək istəyir-ik. Çaxır pulu da olacaq...

Kiçik serjant-əsgər sürücü, məğrurcasına:

- Otur, heç nə lazım deyil...- dedi.

Dərhal Danoyla Yitkanı harayladım.

Kiçik serjant-sürücü elə bilmişdi təkəm. Axı hansısa hərbi hissənin maşınına mülki adam otu-ra bilməzdi. Amma, Yitkanı görəndə... və gözəlli-yinə heyran olub, hayıl-mayıl qalandan sonra... ya, bəlkə mənim də əsgər-serjant olduğuma gö-rə... hərbi təlimatı pozmağı gözləri önünə alıb, bizi maşına oturtdu.

ВАИ maşını görüb saxlatsa, vay zavallı sü-rücünün halına! Amma neyləyək? Gözəllik qarşı-sında bütün cümlə-cahan acizdir...

Şeytan şapalağı Yitka, bacısı, gözəşirin Da-noyla arxada, mən isə sürücünün yanında əyləş-dim. Maşının zavod iyi verən təzə salonunu, qız-ların bahalı ətri bürüdü...

Sürücü Tallində doğulub boya-başa çatan, yerli, soyuqqanlı eston idi.

Maşın sanki ədayla tərpəndi.

Düşəndə eston əclaf pul götürməsə də, oğ-run-oğrun, hərisliklə qızlara baxdı.

Səcdə elədiyim Şərq döngəmizdə, Manya xalanın sözü olmasın: “Elədiyi yaxşılığın da po-xunu belə çıxartdı...”

Yitka maşından şahanə düşdü və üzündə təbəssüm, baxışlarını gizlətmədən gözlərini sürü-cüyə dikib, nəvazişlə:

- МНОГО СПОСИБО, СОЛДАТ СЕРЖАНТ И ШОФЁР! - dedi.

Eston necə əridisə... sanki, mənim qorxum-dan onunla sekslə məşğul olmamaq üçün, özünü güclə saxladı və bir az da yerində dikəlib, başını arxaya çevirərək, sürücülük peşəsində təcrübəlı və hər an qulluğumuzda hazır olduğunu yalan-dan anladaraq, yumşaq səslə:

- И ВАМ СПОСИБО! - dedi.

Artıq hədd aşılırdı... Qapını bərkdən çırp-dım! Hamısı diksinib, sanki röyadan ayıldı.

Eston cəld maşını işə salıb, yerindən qazla götürərək, təkərləri civildətdi...

Yitkanın çənəsindən ehmalca tutub, məh-rəmcəsinə azca yuxarı qaldırdım... Və atəş dolu məhəbbətlə pıçıldadım:

- Я ТЕБЯ ЛЮБЛЮ, ЗНАЕШЬ?

Qəflətən köksümə sığınıb və pəncəsi üstə qalxaraq, sevincək:

- ЗНАЮ, ЗНАЮ, Я ТВОЯ ЖЕНА! - dedi.

Hər üçümüz qəhqəhəylə gülüşdük.

Deribasovkayada cənnət həzziylə hərlənir-dik... Hərdən Yitkanın yumşaq, açıq şabalıdı qısa saçlarını oxşayırdım...

Onlara iki ədəd avtoqələm hədiyyə aldım və FOTOATELЬE-də, üçümüz birlikdə şəkil çəkdir-dik. Cəmisi beş manat xərcim çıxdı.

Altı ədəd fotoşəkil çıxaracaqdılar, bu əla ol-du! İki bacının ortasında oturmuşdum, özü də serjant rütbəsində. Ümidvaram ki, çox yaxşı alı-nacaq. Hər halda, peşəkar çəkilişi fərqli olar...

Qafqazlı qara azərbaycanlılar, baryerli as-falt yolun kənarındaca, düz bir yük maşını qarpız töküb, çevik hərəkətlərlə və şirin sözlərlə alıcıları şirnikdirir, əl tərəzisiylə tələsik çəkib satırdılar.

Çox diqqətlə baxıb tərəddüt edənlərə, qar-pızın min bir dərdə, o cümlədən böyrəklərə dər-man olduğunu xatırladır, bıçaqla kvadratşəkilli kəsib, dişləmələrini az qala zorla tələb edirdilər.

Yitka qarpızları görüb təəccüblə baxdı və bir neçəsini növbəylə əlinə alıb, heyrətlə o üz-bu üzünə çevirdi. Bəyəndiyi bir qarpızı onun əlindən alıb, peşəkar kimi yoxlamaq istəyəndə... yumru qarpız əlimdən sürüşüb yerə dəydi və bir anda-ca, bir neçə yerdən, içi parçalandı.

Saçlarım qabardı!

Qarpız həqiqətən qıp-qırmızıydı və içərisin-də iri qara tumları vardı. Tumlar sulu olduğun-dan, günəş şüaları altında parıldayırdı...

Toza batan partlamış qarpıza, hamımız bir-dən çönüb baxdıq.

Pinti satıcı, sürtük, sırtıq oğlan olan, həm-yerlim, azərbaycanlı olsa da, hərbi formada, və-tən vicdanı olmağıma, yanımdakı xarici qızlara əhəmiyyət vermədən, kobud hərəkətlə pul tələb edəndə, qollarını çarpazlamış Yitka məni kənara itələyib, qabağa durdu. Ciddi, rəsmi görkəm alıb qışqırdı və əl-qolla, yarı çex, yarı rus dilində başa saldı: ОН СМОТРЕЛ! ТВОЙ АРБУЗ КРУТИЛЬСЯ! НЕ ВИДЕШ, ОН СОЛДАТ!

Kəkilli, üzütüklü sabirabadlı həmyerlim isə, utanmaz-utanmaz, ironiyayla:

- Özbaşına yumbalandı?- soruşdu.

Yitka qırmızı kabluklu ayaqqabısının ucuyla başqa bir qarpızı yerdə dığırlatdı...

Dano isə üzündə xəfif bir təbəssüm, oğlanı bir az yumşaltmağa çalışdı... Kirpiksiz gözləriylə onun tüklü sifətinə diqqətlə baxdı.

Bu gözlər qaraqaş oğlandan iltifat və anla-yış tələb edirdi...

Əvəzində alverçinin nifrət dolu baxışlarıyla qarşılaşdı. Yitka bunu sezib necə qəti, inadkar və qorxmazlıqla, ürəkdən məni müdafiə elədisə, al-verçi, “qurd Cəbrayıl” onun acıqlı baxışlarından çəkindi, öz-

özünə deyindi və deyinməyin də əbəs olduğunu anlayıb yedi...

Günəş şüaları Danonun gümüşü saçlarında bərq vururdu. O yumşaq səslə, incik halda:

- Sizə məgər alıcılarla necə rəftar eləməyi öyrətməyiblər? - rusca, qıra-qıra başa saldı.

Oğlan başqa birisnə qarpız çəkməyə baş-layıb, Danoya cavab vermədi.

Məndəki qorxu hissi hiddətlə əvəzləndi və öz dilimizdə oğlana dedim:

- Qızlar əcnəbidir, mən də əsgərəm, mədə-niyyətin olsun, artıq pul hardadı bizdə? Sən bi-zimlə elə rəftar edirsən, elə bil meşədəki talada, ya da kənddəki uzun çəpərinizin doqqazındasan. Bizim millətin adını batırma, şərəfin olsun...

Oğlan diksindi, qamətini düzəldib, xarici və-təndaşla alver elədiyinin fərqində vardı...

Onlardan haqq-hesab sormağın əbəs oldu-ğunu anlayıb yumşalan kimi, aradan çıxıb dərhal uzaqlaşdıq.

Həmyerlim şərəfsiz aqibət yaşasa da, fərqi-nə varmadı.

Amma gərək həmyerlisinə olan hüsn-rəğ-bətinə bir işarə kimi deyəydi:

“Götürün xoşladığınızı, qurbandı hamısı si-zə, ələlxüsus da əsgər həmyerlimə.”

Yaxşı qurtardıq!

Onlara iki ədəd, daşlarıyla birlikdə şahmat taxtası komplekti də hədiyyə aldım.

Kitab mağazasında gəzəndə isə, təsadüfən Bakı, Azərbaycan haqqında rəngli, fotoşəkilli ki-tab gördüm. Baha olsa da, hədiyyə kimi əla idi: Xəzər dənizi, Qız qalası, İçərişəhər, Dənizkənarı bulvardakı Göyərçin kafesi... Neft daşları, esta-kadalar, dənizin ortasında mişar daşlarından hö-rülüb tikilmiş yüksək mərtəbəli yataqxana...

...Bağdakı taxta oturacaqda yanaşı oturub, СТОЛИЧНАЯ siqareti çəkə-çəkə şəkilli kitabı və-rəqləyirdik. Kitabın içinə son vərəqdə xəttimlə, öz ana dilimizdə:

“Odessadan əbədi xatirə...” və “Səni sevir-əm Yitka!”- sözləri yazdım.

Onun isti nəfəsi məni vurduqca, bədən öz tələbini irəli sürür, yavaş-yavaş ehtiraslanırdım. Onun uzun ayaqlarına, zərif baldırlarına, incə be-li və əncir dodaqlarına həsrət və şəhvətlə, amma oğrun-oğrun baxırdım. Həyəcanla bir neçə dəfə udqunanda və boğulan səslə pıçıltıyla danışanda o bunu sezdi...

Odlanıb yanan gözlərimlə... ilahi gözəlliyin-dən vəhşicəsinə çəkə-çəkə, hələ də utandığım-dan, həya və

ismətdən... əmmədiyim yupyumru, qəhvəyi giləli döşlərindən dəli kimi, öpmək ehti-rasıyla alışıb yananda, nəzərlərimi hiss edib, hö-vlnak ayağa qalxdı...

...Фото Консультантный Пункт-a gəldik.

Dörd manat verib, ЧАЙКА-3-ə yeni lent ka-seti saldırdım və ФотоателЬЕ-dən köhnə şəkil-ləri aldım.

Qayıdıb Lenin parkına gəldik.

Lenin parkında müxtəlif yerlərdə 50-yə qə-dər şəkil çəkdik. Mən onları, onlar da növbəylə bizi çəkirdi. Sonuncu bəxtiyar anları yaşayırdıq.

Yitka yenə şıltaqlıq eləyir, çox gülməli po-zalarda dayanırdı: Soldat papağım başında, lav-san pencəyim əynində, qolunu boynuma saldığı və hətta qucaqlaşdığımız yerdə...

Yorulub evə qayıdırdıq.

Yolüstü Rəsm Qalareyasına girib baxdıq.

ЭДУАРД МАНЕ-nin "ЖЕНЩИНА С ПОДВЯЗКОЙ," "ФЛЕЙТИСТ," "ЕМИЛ ЗОЛЯ" və "ОЛИМПИЯ" portret-ləri çox maraqlı və heyratamiz idi.

Öyrəndik ki, bu portretlərin orijinalı Fransa-nın Luvr muzeyindədir.

Qalareyadan çıxıb, Yitkagilin həyətinə gəl-dik. Onların bağında... şax-şəvəllə gizlətdiyim üs-tüörtülü, iki iri

dəstə rəngbərəng gülləri əzik, köh-nə vedrədəki sudan çıxarıb, onlara təqdim elə-yəndə, ilahi, Yitka necə heyrətlə gülləri qoxlayır, necə minnətdarlıqla, gözüdolusu mənə baxırdı!

Ey vəfasız, qırdıqaşdı... colmacocuqlu gidi dünya! Sən başa düşüləndə, bizi öldürürsən...

Bir neçə saatdan sonra Yitkayla Dano adlı qız bir də həyatımda olmayacaq! Belə də iş olar? Bu nə cür dünyadır? Hətta gözlərimdə kainatın darmadağın olması təəssüratı yarandı... Yitkanı, uzun, açıq şabalıdı saçlı təsəvvür elədim... Və hətta saçları geniş fəzada, bayraq kimi dalğa-lanmağa başladı... Gülümsər, şıltaq qız!

Yitka gül dəstələriylə evə girəndə, üfürülüb çıxdım ki, Tomagildə əynimi dəyişib mülki paltar geyinəm, tez də geri dönəm...

Parad forma məni sıxırdı.

Yolboyu düşündükcə, sanki nəsə qırılıb qəl-bimdə qalmışdı... Və birdən tapdım!

İlahi!

ЭДУАРД МАНЕ-nin “ЖЕНЩИНА С ПОДВЯЗКОЙ” portretindəki qız, elə bil bənövşəgözlü Katerina idi! Özü kimi var!

Sanki üstümdən ağır bir yük götürüldü.

Ovçu ovunu ləpirindən tanıyar! Necə oldu Yitkayla o portretə baxanda, bunu dərk eləyə bil-məmişdim?

Axı o portret, sanki Katerinanın əksiydi!

Portretdə də başını aşağı dikmişdi, o uşaq doğacaqdı! Fakt - inadkar bir şeydir.

Yazıq Katya!

Yitkanı tapan gündən, onu tamam unutmu-şam. Hərçənd ki, qadına hərarətli sevgi lazımdır. Görəsən zavallının, çıxardığım bu həngamələr-dən xəbəri var?

Yitka bu gün gedir, gərək onun od tutub yanan qəlbini söndürəm... Ürəyini ovudam...

O, hərdəm çox şey bilsə də, söz yox ki, məndən gizlədir. Hərçi bada bad bilir ki, elə mən özüm də iki-üç aya pərvazlanıb uçacağam və bir də güzarım buralara düşməyəcək. Qəlbi kədərlə süslənəcək... Taleylə barışmaqdan başqa çarəsi yoxuydu. Ərinə də hərbə-zorba gələ bilməzdi, zi-ra o çox məğrur idi...

Toma evdəydi.

Qapını açıb məni görəndə... çöhrəsinə ilıq, nəsə bir həlimlik yayıldı.Tərəddüd eləsə də, incik olsa da, dözə bilməyib elə qapının kandarındaca boynuma sarıldı...

Evdə tək idi.

İçəri keçən kimi qapını bağladı. Və yenə də cıqqırımı belə çıxarmağa macal tapa bilmədim.

Küt baxışla:

- Darıxırdım sənsiz...- deyib, özü soyundur-mağa başladı və tabaxıl belə eləmədən, yatağa yıxıb üstümə çıxdı...

Köksündən çıxan iniltili səslə:

- Malını dişin var ikən ye! Heyva kimi sa-raltmağın nə adı var?- deyib, quru yançaqlarıma şarpatdamağa başlayıb, o ki var şelləndi.

Yazıq lap yanırmış...

O üstümdə olanda sanki özünü unudurdu. Bu an, elə bil dünyanın ən bəxtəvəriydi! Dizdən bükülü vəziyyətdə, ayaqlarını aralayaraq, göbə-yimdən aşağı üstümdə oturub, cilovsuz köhlən at kimi çapırdı...

Donuz əmcəyindən də çox, uzunsov limona oxşar iyrənc döşləri hey atılıb düşürdü.

Səmada uçan quşa da dostluq, sədaqət, ki-şilik, etibar borcu olan Bahar arvadın oğlu,- sər-payı Vaqif Hüseynov,- yerin məlum...

Hardasan a kopolu!

Ağacı özündən qabaqda gedən korlar kimi Ələsgər Qanboyoviçdən nə xəbər var? Ona de ki, korlar şəhərində ayna satmazlar!

Püstəqarın, limondöş Toma tükənib üstüm-dən süni utancaqlıqla düşdü...

Reallığa qayıdan kimi, cəld mülki paltarımı geyinib, Yitkagilə tərpəndim.

...Dano mənə iki qutu ağ saqqız, iki qutu da üstü rəngli diş pastası bağışladı. Hamısının da üstündə ağappaq muncuq dişləri ağaran, gülüm-sər, gözəl bir qız şəkli vardı.

...Hamımız evdə oturub, məmnunluqla bir masa arxasında, yüngül qəlyanaltı elədik.

Yitka gözümə qüssəli göründü...

Yaman pis oldum! Ürəyim qəm yatağına döndü. Boğazıma yığılan qəhər, ağzımı belə aç-mağa imkan vermədi.

Yeməyi qurtaran kimi, onlar qalxıb yır-yığış elədi. Qəmalud gətirən, hüznlü köç havası dərhal otağı bürüdü. Evdə dərbədərlik başladı...

Qəm, yükünü yığıb, başımızın üstünü aldı. Kədər artıq toy eləyir, hicran çamadanlara yığılıb bizimlə dəmiryol vağzalına gedirdi...

Son dəfə, lap son dəfə... otağa göz gəzdi-rib, yaddan çıxan heç bir şeyin qalmadığına əmin olandan sonra evi tərk elədik.

Elə bu vaxt uzunqulaq Mürşüd də özünü təngnəfəs yetirdi...

Yazıq çamadanların ən ağırını özü götürdü.

Evdəki cavan qızla qoca arvad da bizimlə gedəsi oldu.Taksiyə güclə sığışdıq.

Ağlamaq istəyirdim...

İlahi, Yitkanın çöhrəsi necə tutulmuşdu!

Одесса-Львов qatarı. 8-ci vaqon, МЯГКОЕ КУПЕ, 18 və 19-cu yerlər...

Mürşüd yazıq çamadanları taksinin yük ye-rinə yerləşdirib, özü trolleybusla gəlmişdi.

Tramvayla iki dayanacaq yol gedib, iri bir ГАСТРОНОМ-dan üçulduzlu СТОЛИЧНЫЙ коньяк-ı və Сказка tortu aldım.

Platformada, qatarın yanında dayanıb, foto-aparatın lenti dolunca, çoxlu şəkil çəkdik. Anya xala da, iş yerindən gəlib çıxdı.

Allah kəssin ayrılığı!

Praqa əzəmətli və bu an... Yitka nə qədər mehriban olsa da, mənim həyatımda bəlkə də, o əbədiyyətə gedirdi!

Ya öldün yoxa çıxdın, ya da başqa dövlətə keçdin, nə fərqi vardı?

Vağzalda 8 manatlıq da yemək aldım və ЧАЙКА-3-ə yeni lent saldırdım.

Yitka, onlara bağışladığım oğurluq park gül-lərini kupedə kiçik, açılan masanın üstünə qoy-muşdu. Ətri hiss edilirdi.

Vağzaldan ətrafa müdhiş köç qoxusu yayılır və sanki, bu qoxu qatarın dəmir relslələrindən tutmuş, vaqonlarının divarlarına kimi hopmuşdu. Hər şey burada uzun, müdhiş ayrılıq vəd edirdi. Bütün sərnişinlərin və yola salanların çöhrəsində ayrılıq, həsrət, vida at oynadır... kədərli, qayğılı, nigaran gözlər hər kəsdə sezilirdi:

Nə pis dünyadır!

Sonuncu platformanın qarşı tərəfindəki sey-rək ağacların üstünə qonmuş bir neçə "odessalı" sərçə gördüm.

Xəyalımda... yenə Qarasuyun kənarındakı kövşənnikdə raqatkayla "bərdəli" sərçələrin canı-na düşdüm...

Sonra da Yitka, Adilə, Xuraman və Komso-molumla roza-proza oynadıq. Danoyla Xuraman uzun ipin uclarından

tutub fırladır, biz də ipin or-tasına girib, atılıb düşür və çalışırdıq ki, fırlanan ipə ilişməyək...

Hündür xan çinardan asılan küfləndə yana-şı oturub, yelləndik də.

Sonra da ki, təbaşirlə asfaltın üstünə qoşa, yan-yana kvadratlar çəkib, yastı hamar daşla, tək ayaq üstə hoppana-hoppana klass-klass oyna-dıq... Şıltaq Yitka hey cığallıq eləyir, bacısı Dano da onu tənbeh edirdi...

Lap sonra da iriqarınlı Katerinanı gördüm...

Və birdən...Anya xala kədərli, tutulmuş çöh-rəmə baxıb:

- Gəl bizə... utanma... tez-tez gəl... televizo-ra-zada bax... bir-iki günə hər şeyi unudacaqsan!

Elə bil, elə bu sözə bənd idim.

Hönkürməyi qürurumа sığışdırmırdım, am-ma gözlərimdən leysan axdı. Anya xala Yitkanı çağırdı. Yitka məni necə qucaqladı, ya rəbbim!

Bu son haray idi!

Onu sevirdim!

Yitka mənim həzin musiqi əsərim idi...

Qatar bir neçə dəfə uzun fit verdi.

O yarıya qədər vaqonun açıq dar pəncərə-sindən çölə çıxmışdı.

Qatar tərpəndi. Biz əl elədik...

Düşüklər kimi platforma boyu vaqonun böy-rüylə qaçmadım. Anya xalaya, qoca arvada və cavan qıza qoşulub təpərsiz də, arsız-arsız bir xeyli qaçdı...

Getdikcə qatar kiçilirdi...

Əbədiyyətə gedən yolun, dar vaxtsız baş-lancığı və məşəqqətli hissəsiydi...

Beynəlmiləl sevgilim hey əl eləyir və hava öpüşü göndərirdi...

Qatarı çəkən parovozun düdüyü artıq uzaq-larda səslənirdi...

Necə dolmuşdumsa, uzunqunc çəkməli, təs iyi verən Mürşüd qorxusundan məni danışdıra bilmirdi...

Vağzallar təbii elegiyadır...

Yitka məndən saf məhəbbətdən başqa, lü-zumundan artıq heç nə ummurdu...

Restoranda onun bircə baxışı əyləşənlərin uzunçuluğunu kəsirdi.

İrlandlı Villiam Butlerin sözü olmasın: “Çox adam sevdi sənin şərafətini, ancaq bir nəfər sev-di sənin ruh halının dəyişkənliyini...”

İndi könlümün zənciri əskik idi.

Platformada səs-küy qopmuşdu...

Başqa vaxt olsaydı, özümü birinci yetirər-dim. İndi isə könülsüz getdim.

Yerdə haldan düşüb kağız kimi ağarmış, bir eybəcər, ağsaçlı erməni qadını uzanmışdı. Daq-qaqarın bir oğlan stəkanda su gətirib, içərisinə valerian damızdıra-damızdıra ermənicə danışıb arvadı sakitləşdirirdi. Qadın valerianlı suyu içən-də, beqafil, bərkdən gəyirdi və suyu sıçradıb, yardım edənlərin üst-başını buladı...

Mülki paltarlarımı dəyişəndə, vəhşi ehtiraslı Toma əllərini dinc saxlamır, məni əlləyə-əlləyə dil boğaza qoymur, təşəxxüslə danışırdı:

- Toliklə Tolya artıq köçüb gediblər, tək qa-lıram... Gecələr gəl...Xarici qızların da getdi...

Elə bil muncuq oyunu oynayırdı. Ürəyimdə həqarətlə düşünürdüm:

Sözü məqamında deyərlər də, bir də ki, to-yuq yumurtasına görə qaqqıldar axı... Sən artıq yumurtadan kəsilmiş qart toyuqsan, get özünə bab, döyüşlərdə

məğlubiyyətlər yaşamış xoruzlar axtar... Mənim 21 yaşım var...

Belə görürəm, vallah sənin işin müşkül mə-sələdir. Get öyrən, mandalina, qusli çal, dünya belə haqsızdır, mən neyləyim? İnsan ürəkdə çox cavan olur, amma əlahəzrət fakt ayrı şeydi axı...

İnanmırsan?

Get qəhbəliklə ömür sürən rəfiqən Valyanın gor qonşusu Dmitri dayıdan soruş...

Mən indi başqa haydayam!

Düzü nəzakət xatirinə onun çərənləməsinə dözürdüm.

Toliklə Tolyanın ünvanını söyləyirdi, heç nə eşitmirdim. Topal ilə gəzən də axsamaq öyrənər, neynirəm səni? Bir də ki, qadınla intim əlaqə ya-şamaq üçün hökmən arada istək, sevgi olmalıdır.

O da bizim aramızda ola bilməzdi!

Düzdü, praqalı qızlar getdi, axı ortada hələ bənövşəgözlü Katerina da var. Odessada mənə ondan başqa daha qadın, ya sevgi lazım deyil... Həm də ki, Katya məni sevir, bətnində məndən uşaq gözləyir axı.

Qapı açıldı...

İçəriyə ərklə cavan bir qız girdi. Hər an kə-ləyə gəlməyə hazır Tomayla öpüşüb görüşdülər. Gözüm heç nə görmür, qulağım heç nə eşitmirdi.

Şəfqət duyğusuyla, işvə-naz bilməyən, bur-nuyelli, istəkləri ərklə dolu, yeniyetmə, beynəlmi-ləl sevgilimi düşünürdüm...

Özümü kazarmaya güclə yetirib, çul kimi çarpayıma sərildim...

Boyko yeni komandir rotanın mənə uvolni-telni verməsini eşidib, hirslənibmiş...

Qudurasan qurbağa!

Elmanın gözündə part-layan mürəkkəbqabı

və Həştərxan həngaməsi

Odessa, 24 və 25 avqust 1972-ci il,

ıv və v günlər…

Yitkasız ilk səhəri açdım...

Son günlərdə ilk gecəydi ki, xeyli yatmışdım.

Oyanıb, yerimdə qurcalana-qurcalana hey düşünür, aranı dağa, dağı da arana köçürürdüm.

Gündəliyi çoxdandı yazmıram. Bir qoşa ağ vərəq götürüb ötən günləri kiçik xronikalarla qeyd elədim. Komsomolu yadıma salıb, xeyli də onun fotoşəkliylə danışdım və giley elədim ki: Məktub yazmırsan və dönə-dönə də söz verdim ki, bura-dakı qızlar ötəri hisslərdir, çətini hərbi xidməti ba-şa vurmaqdır. Bütün qızların üstündən qalın bir xətt çəkəcək, sənə evlilik təklifi edəcəyəm...

Biz ailə quracağıq!

Çoxdandı mütaliə eləmir və gündəlik qəzet-ləri də olduqca az oxuyurdum...

Yitkanı tapan gündən,- bətnində məndən uşaq gözləyən bənövşəgözlü Katerinanı da ta-mam unutmuşdum. Belə də iş olar?

Yəni bu qədər etibarsız olmuşam?

Yitka bütün iç dünyamı alt-üst eləmişdi!

Artıq o yox idi...

Qatardakı donetskli qız kimi, Sarıkirpikli ki-mi o da artıq əbədiyyətə qovuşmuşdu.

Amma bir fərqləri vardı: Yitka xarici dövlət-də yaşasa da ünvanı bəlli, onların isə, bir ölkənin vətəndaşı olsaq da, yerini-yurdunu bilmirdim.

Qatardakı qızın heç adını da soruşmamış-dım. Onun adını, ünvanını yalnız Odessa - Voro-şilovqrad qatarıyla xatırlayırdım...

Eh... dünyanın işləri uzunmuş...

Yüngül əsgəri qəlyanaltı eləyib, briqadamın əsgərlərinin işlərini bölüb qurtarandan sonra, dəf-tər-qələm götürüb çardağa çıxdım.

Əvvəl, azərbaycan dilində Yitkaya ilk mək-tubumu yazmağa başladım.

Yazdıqca yaman kövrəlirdim...

Sonra Neçepurenkonu da çağırıb, yazdıqla-rımı rus dilinə tərcümə elədim. Amma sözləri ya-şıl üzlü, çex-rus tərcümə kitabı vasitəsiylə öyrə-nib çex əlifbasıyla yazdım...

Səhər-səhər Yitkagilin həyətində yuyunan-da Anya xalayla qarşılaşdıq.

Salamlaşdıq...

Onun mənə yazığı gəlirdi... Yaman məhrəm görüşdü, əlini barmağıyla ovcalaya-ovcalaya:

- Nə vaxt ürəyin istəsə, vaxtın olsa bizə gəl, məzhəbim sevənlərə kömək etməkdi,- dedi.

Lap kövrəltdi məni.

Odessa da, Qara dəniz də, elə mən özüm də Yitkasız qaldıq. Bu gün, günəş də elə bil hə-vəssiz çıxmışdı. Xatirələrə nigarançılığın verdiyi yükün təzahürü idi bu...

Əsgərlərə baxanda elə bilirdim üzlərindən yetimlik yağır. Yitkanın yoxluğu da,- Adilə, Xura-man, Komsomolum kimi,- həyatıma doldurulması mümkün olmayan boşluq gətirmişdi...

Poçt gələndə teleqram aldım.

Tələsik oxudum: Evimizdən idi, 27 avqust tarixinə, telefon danışığına çağırılırdım.

Bir andaca sevindim, sanki tərki-dünyalıq-dan sərsəm adamlar kimi diksinib ayıldım,- Kom-somoldan xəbər tutacağam,- yaxşı oldu.

Qardaşım Vaqif görəsən ali məktəbə daxil ola bildimi? Bərdədə görəsən təzə nə xəbər var?

Yitka elə bil məni tərki-vətən eləmişdi.

Poçta getdim.

Katerinanın anası növbədəydi. Çox mehri-ban görüşdük.

Конверт alıb, üstündəki ünvan yerini Yitka-nın öyrətdiyi kimi, çex hərfləriylə doldurdum.

Sifarişlə göndərməyə isə pulum çatmadı.

Katyanın anası başa düşməsin deyə, özüm yalandan dedim:

- Xarici dövlətlərə sifarişlə əsgər məktubu göndərməkdənsə, adi qaydada daha yaxşıdır...

Zərfin üzərində, öz ünvanımın yerində isə yekə-yekə: CCCP, гор. Одесса sözləri yazdım.

Nazını hauptvaxtdan, Mürşüdün sözü olma-sın gejdənnən gətirdilər.

Qucaqlaşıb görüşdük.

Saç-saqqalı tamam uzanmışdı. Sir-sifəti so-luxmuş, sanki onu toza vermişdilər.

- Düşmənim də oyaya düşməsin, acından da ölüyəm,- dedi.

- Get dəlləyə, sonra da qaç Dusyanın ha-mamxanasına!- dedim, sonra yeyərsən.

Çex qızları soruşdu...

- Dərdimi təzələmə,- dedim.

Axşam ПЛАНЁРКАДАН mayor Deqtyar məni qovdu: “İkinci niyə hazır deyil!?”

Nazim yalvardı ki, hamama birlikdə gedək.

Dul Dusya məni görən kimi otağa olan bor-cumu istədi.

-Axşam, ya da sabah düzəldib gətirəcəyəm Dusyuşa,- dedim, narahat olma.

Artıq,Arifin çamadan pulunu xərcləməyi qə-rara aldım, onsuz da iki-üç günə evimizlə danı-şacağam, pul göndərəcəklər.

Çamadan qaçmır ki?

Axşamtərəfi bir butulka çaxır alıb, Tamilla-gilə gəldim. Difdiringi Dusya da onlarda idi.

Beş manat otaq borcumu qaytardım.

Çaxırı birlikdə içdik və Toma dedi ki, çirkli paltarlarını bizə gətir, özüm yuyaram, hamamxa-nadakı qızlar çox pis qızlardı.

Onun bu isti sözlərindən Dusyuşa bəxtəvər- liklə qəhqəhələrə daldı. Zavallı dulcuğazın, sanki dərd-səri yox idi...

Dusya da Tomaya qoşulub məni əzizləyirdi. Limondöş dünən tarçığını alsa da, çaxırı içən ki-mi gözləri yenə dişi canavar gözləri kimi alışıb yandı... Vəhşi şəhvət ölüsü!

Bacarığımın müqabilində, dərhal aradan çı-xa bildim. Yoxsa, aqibətim məlum idi...

Ariflə istitütün yeməkxanasında 2 manatlıq sosiska-çörək yedik. Çox dadlı idi.

Çamadanın taleyini razılaşdıq:

- Əşşi nolar, bir həftə də gec olsun,- dedi.

Hesabı özüm ödədim.

Gecə yaman darıxır...Yitka yəqin sərhəddi keçmiş olar,- düşünürdüm. Məktubu da, yəqin bir həftəyə, on günə alar.

Necə sevinəcək!

Səhər-səhər işləri bölüb qaydaya salandan sonra, Nazimlə üçüncü mərtəbədəki boş otaqda, altımıza taxtadan oturacaq düzəldib, üstündə ra-hatca uzandıq.

O hauptvaxt həyatından, mən də çex qızla-rından, gah yanıqlı-yanıqlı, gah ehtirasla, gah da nostalgiya hisslərilə danışırdıq.

Yitka mənə hamını, hər şeyi unutdurmuşdu. Onu xatırlayan kimi ürəyim açılır... Hərdən düşü-nəndə ki, heç vaxt görüşməyəcəyik, ürəyim sıxı-lırdı. Deyəsən özümü artıq ələ vermişdim...

Yox! Nə çətin məsələdir, madam ki, iki-üç aya hərbi xidməti başa vurub mülki adam olacam, biz

məktublaşacağıq və sonra da bir yol tapıb görüşə bilərik, ya Bakıda, ya da Praqada...

Bütün günü fikrim-zikrim Yitkanın yanın-daydı. Düşüncələrim min rəng mahnı çalır, mənə elə gəlirdi, dünya əhli,- səqirən-kəbirən,- hamı da ona həsəd aparır, onu sevir...

Təfəkkürümdə Yitka adlı mif yaranmışdı.

Gecə qəribə bir yuxu gördüm:

"Komsomolun saçları fikirdən dümağ olub, üzündən kədər, qəm-qüssə yağır. Üzümə də heç baxmır. Ona təsəlli vermək, könlünü almaq, ha-mının bizə qibtə elədiyini başa salmaq istəyirəm.

Birdən də qapının arxasından Yitkanın səsi gəlir, o məni axtarır, kimlərdənsə soruşur: Tofa, Tofa,- qışqırır.

Və elə bu vaxt Komsomol, üzünə səpələn-miş dümağ pırtlaşıq saçlarının arasından kədərlə üzümə baxır və qaranlıqda kimsə kənardan: Tor-paqda balıq olmaz,- deyir.

Birdən hardansa, Xuraman,- hörükləri səli-qəylə arxada yumrulanmış halda,- peyda olur, ironiyayla gülümsəyərək: Səni çöldə Yitka gözlə-yir,- deyir və həqarətlə də Komsomola baxır.

Qara saqqalı uzanmış Mürşüd, dərvişlərə bənzər görkəmdə,- başında qırmızı panama, bir əlində palçıxlı mala, digərində çəlik göründü:Qıv-leyi-aləm haqqı bədayi-

sərsər kimi gedif xarişdə kəhriz göyərçinləri üçün yuva qayıtdırıf gətirmi-şəm. Məxlux diräşdi əlimdən ala, süyürüf-sivirif, böyürə-böyürə, arzuman kimi aralarından çıxmı-şam... Sonra da, möhkəm hönkürüb, ağladı.

Çöldə kimsə,- dayım qara Sabirin səsinə oxşadı,- Yitkanın üstünə çəmkirdi: Kəs səsini çə-pəl! Dişlərini kökündən çıxararam...

Yitka öz dillərində nəsə danışıb-deyinərək qəflətən qışqırdı: Balbes! Sonra da harayladı:

FRANTİŞEK ŞALAT! ПОМАГИ МНЕ FRANTİŞEK!

Sonra necə oldusa, Yitka Frantişek Şalatla öpüşməyə başladı...

Əməlli-başlı bir-birlərinə sarıldılar... Və ara-da Yitka çönüb, yanan ehtiraslı gözləriylə mənə baxaraq, gülümsədi: Bax, öyrən,- dedi.

Sanki havasızlıqdaydım, heç səsim-ünüm də çıxmırdı. Fəzada quş kimi yüngül olmuşdum...

Yitkanı praqalı oğlanın cəngindən qopar-maq, arxadan oğlanın saçından yapışıb, bıçaqla-maq istəyir, ancaq onlara çata bilmirdim...

Qəflətən, öz danışığıyla nağıl eləsək,- əlin-də güllü dəsmal, kənddə yaşayıb cütə gedən, təpərsiz Mürşüdün öyə qardaşı, əlindəki dəsmalı atıb altından qılaf çıxartdı...

Və arxasıyla... başında gülləri zərli kasinka, əlində mejmahı, yaşlı bir arvad göründü.

Mürşüd sevincəh: Aneyi-mehriban,- deyib, üst-üstə çoxlu tuman geyinmiş arvadın arxadan dalına atılaraq duz kimi yaladı və hönkürüb də-dəsini soruşdu. Kimsə, gözə görünmədən ona bir teleqram uzatdı. Ahıllar evindən yazılmışdı: Ata-nız ölüb, dəfn sabahdır... Mürşüd başa düşmədi. Deyəsən teleqram çex dilində yazılmışdı.

Bir də gördüm, arvad əlindəki mejmahının üstündən yeri yamyaşıl yaylığı götürdü.

Hamımız qorxudan vahiməyə düşüb, qışqı-rışdıq. Təpəgözün kəsilmiş başındakı tək gözün-dən qan damcılayırdı...

Kimsə əndərabadi birisi əlində şallaq içəri girdi və: Tavaxıl elə, tavaxıl elə,- deyə-deyə, ar-vadın quşqunluğunu şallaqlaya-şallaqlaya: Göz-ləriyin zındığını, tökmə qancıq! Öyə get dedim axı saqa, öyə get!

Yerin altından qara saqqallı, bədəni uzun qılla dolu heyvərənin birisi çıxıb:

Xudavəndi-aləm bizi arvad şərindən sav! Əstəfuğurullah, əstəfuğurullah! - deyərək, özünü yenidən yerin təkinə pərçimlədi.

Və bu vaxt hardansa yüngül, dümağ duman sürünüb bizi bürüdü, hamını itirdim.

Onları axtardığım vaxt mayıf Mamedlə qar-şılaşdıq. Məni görən kimi o şivən qoparıb ba-ğırdı: Sövdəgərlər əlli yaşında, sudurğalı xəstə, bığlı dul arvad almaq istəyir maqa...

Qəflətən, sıx dumandan günəş kimi Yitka göründü, məftun baxışlarla mənə baxırdı.

Gözlərim qamaşa-qamaşa onu haraylayıb, ardınca qaçdım. Elə hey ona çatır, o da elə hey kainatın ənginliklərində əlçatmaz olurdu...”

...Oyananda, yuxu olduğunu anlayıb, Yitka-nı görmək ümidiylə tez gözlərimi yumdum.

O gedəndən sonra, mənə hərdən elə gəlirdi, bu dünyada lap çoxdan yaşayıram... Hətta qüs-səli gəzəndə, birdən də fikirimə gəlirdi ki, elə düz deyirlər: “Dərdsiz könüldə heç vaxt məhəbbət yu-va qura bilmaz.”

Yitka yadıma düşür, yaman kövrəldirdi mə-ni. Sanki mənə Komsomolu unutdurub...

...Alladan məktub aldım.

Əlimlə sürtüb zərfi yoxlayanda, hiss elədim ki qalındır. Açanda içərisindən fotoşəkli çıxdı.

Uzun saçları sinəsinə tökülmüş Alla, şəkil-də zərif ayaqlarını bir-birinin üstünə aşırıb, dü-şüncəli görkəmdə gitara çalırdı.

Çox romantik idi.

Yazırdı: “Yolunu gözləyirəm. Hərbi xidməti qurtaran kimi ОДЕССА-ОМСК reysi ilə uç...”

Nina və Veradan, bu gün də cavab gəlmədi.

Düz iyirmi gündür, gündəlik də yaza bilmir-əm. Dəhşətdir...

Yeni komandir-kapitan Pervomayskiyə get-di və Boyko komandir əvəzi qaldı.

O, bu gün bizim əsgərlərə danışırmış ki, Pervomayskidə salyanlı Adil düz qırx gün haupt-vaxtda yatıb...

Bu gün də, планёрка-da polkovnik Arnaut məni xeyli danladı. Vaskı Əsədovu isə, kubrik-hücrədən iti qovan kimi qovdu...

Yeməkxanada Faiq, Maarif, mən bir olub, Mürşüd, Hüseyin və Heydərovla “küçə siyasətin-dən” xeyli söhbət aparıb, məsləhətlə də ardını sonraya saxladıq.

Elektrik-boksçu, azğın rus molodoy əsgəri döymək istəyirdik. Tutduruq vermirdi, məqamını gözləyirik. Çox baş aparır, özünü tamam açıb...

Qardaşım Vidadiyə, Allaya məktub yazdım. Hər ikisinə də fotoşəkil göndərdim. Omsklu Alla-ya qələbə görkəmiylə, ürəyimdə: “Sən məndən evlilik təklifi gözləmə ay biçarə, özünə ayrı adaxlı axtar, gələcəyinə bir gün ağla. Mənə yeni bir qal-maqal da heç lazım deyil...”

Qüruba gedən günəşin şüaları altında da-yanıb, Yitkanı düşünürdüm...

Axşam adbaad yoxlaması qurtaran kimi so-yunub yerimə girdim.

Qəzet-jurnalları götürüb qoxlayır, sonra da bir-bir vərəqləyib maraqlı yazıları oxuyurdum.

ОГОНЁК jurnalında heyvanlarla bağlı, çox maraqlı yazı tapdım:

"Yumurtadan çıxmış timsah balası çıxdığı yumurtasından üç dəfə böyük olur. Orta yaş döv-rü onlarda, insan ömrü qədər, - 70 il olur.

İsti qumda səksənə qədər yumurta qoyan ana timsahlar üç aydan sonra yumurtaları qırıb civildəşən balalarını qabıqdan çıxmağa kömək eləyir. Yumurtadan çıxan balalar dərhal sürünüb suya can atır, dənizə, ya gölə cumur...

Heyvanlar aləminin ən nəhəngi göy bali-naymış. Uzunluğu 33 metr, ağırlığı 190 tona ça-tan göy balinanın təkcə dili 10 ton, ürəyi yarım tondan çox,- 600-700 kiloqramdır.

Bağırsaqlarının uzunluğu 4 kilometrə çatır. Saatda 30-40 km. sürətlə üzə bilir. Bir göy ba-linadan 50 ton yağ alınır. Parovoz gücündədir, -1700 at gücü.

Hər gün 2-4 ton arası qida yeyir.

Körpə balina sutkada 100 kq. artır. Yeni do-ğulan göy balina fildən ağır olur,- 5 ton...

Bütün heyvanların piyi sarı rəngdə, Mərkəzi Afrika Respublikasının Ubanqi çayında yaşayan, uzunluğu 4,5 m, çəkisi yarım tona yaxın olan tim-sahların piyi isə, yaşıl rəngdə olur.

Köpək balığının uzunluğu 20 metr, çəkisisə 20 tona çatır.

Ən kiçik balıq isə Sakit okeanda yaşayır. Mistixsis adlanan bu balığın uzunluğu 12-14 mm-dən çox olmur.

Qızıl balıq ömründə bir dəfə kürü tökür və sonra da ölür...

Avropanın və Şimali Afrikanın müxtəlif su hövzələrində yaşayan çay ilanbalığı,- Ankvillər, kürü tökmək naminə dənizdən çaylara keçmək üçün 8000 kilometrə qədər yol gedirlər...

Qvineya və Braziliyanın çay və dəniz sahil-lərində dörd gözlü balıqlar yaşayır. Bu balıqlar dənizin üstündə uçan quşları belə ovlaya bilir.

Qərbi Avropanın çaylarında, göllərində bəzi balıqlar quyruğunu suya bərkdən vurmaqla 6-8 metr yüksəkliyə tullanıb, quş kimi 200-800 metr uzununa uçur, havadakı həşaratları yeyirlər...

Allah sən saxla!

Dünyada nələr varmış...

Qılınc balıq saatda 130 kilometrə qədər hə-rəkət edə bilir.

Qılınc balıqlar balinaya, qayıqlara, gəmilərə də hücum çəkir. Atlantik okeanında yaşayan bu balıqların uzunluğu 3-5 metrə, çəkisi yarım tona çatır. Bu balığın üst çənəsi uzanaraq 1,5 metr uzunu olan qılınca bənzəyir. Hücum edəndə gə-milərin taxta və dəmir gövdəsini 8 sm. qalınlığına qədər dəlib zədələyə bilir. Maraqlıdır ki, müasir zirehli gəmilərə də bu balıqlar hücum edir. Bəzən bu hücum vaxtı özləri də zədə alıb tələf olurlar.

Mişardiş balıqlar sahilə... su içməyə gələn pələngə də hücum edir. Çayda çimən adamları belə yeyirlər...

Kirpi balığı üzə bilmir!

Onu bir yerdən başqa yerə külək aparır. Bu balıqlar Hind okeanında və Aralıq dənizində ya-şayır. Allahın möcüzəsinə bir bax!

Püskürən balıqlar isə... ağzına doldurduğu suyla ovunu vurub öldürür və yeyir. 20 sm. boyu olan bu balıqlar Hind və Sakit okeanların tropik hissəsində yaşayır.

Kürü qoymaqla artan balıqlardan başqa do-ğan balıqlar da var. Çəkic balığı, Buynuzlu skat, Qambuziya, Belyuqa, Yarpaq balığının bəzi növ-ləri bala doğur...

Zəhərli balıqlar da var: Cərrah balığı, Ziyilli balıq, Buynuzbel, Əjdaha balıq, Dəniz pişiyi ba-lığı bunlara aiddir.

Amazonka çayında Ankvil adlı balığın ca-nında 650 volt gərginlikli elektrik vardır.

Skat, Naqqa, Siyənək balıqları da ovunu, elektirik buraxmaqla key edib yeyirlər...

Köpək balığı qığırdaqlardan ibarət olur. Bu balıqların sümüyü olmur.

Durna balığı, Karp və Ağ balıq 300 ilə qə-dər yaşayır... Görəsən bezmirlər?

Merina balığı ildə 9 milyon kürü tökür.

Alyaska və Çukotkanın dibinə qədər donan su hövzələrində yaşayan Dabanbalığı, Xanı ba-lığı suyla bərabər donur, buzlaşır və yayda donu açılır... Sənə inanmayana lənət, ey yaradan!

Balıqların "pasportu" xolesterin sayılır.

1940-cı ildə, Amazonka çayı ətrafında, 48 metr uzunluğunda, 20 ton ağırlığında Anakonda ilanına rast gəlinib. Bu ilana 24 saat avtomatla atəş açandan sonra onu öldürə biliblər. Bu ilanlar adamı diri-diri udurmuş. Anakondanın cəsədini 2 traktor güclə dartıb apara bilib...

Paris zooparkında Gürzə ilanı 2 il 8 ay ac qalıb... Üç ilə yaxın..."

Bu da dünyanın yeni həngamələri!

Qəzetləri iyləyib yuxuya keçmişəm...

Yeri gəlmişkən, yenicə çapdan çıxan qəzet, jurnal və kitabları qoxlayanda sonsuz ləzzət alı-ram... Oxumasam, ya nəsə yazmasam ömründə yuxuya keçə bilmərəm. Bu da mənim xobbimdir.

... Bu səhər dünya ağaranda durduq.

Komandirlik eləyən zampolit Boyko is günü olsa da, УБОРКА elan elədi.

Briqadamıza ayrılan yerləri uşaqların ara-sında böldüm. Yitkanı tapandan kazarmaya, ro-taya, hətta komandirlik elədiyim briqadamın əs-gərlərinə belə uyuşa bilmirəm.

Kəlbəcərli Sahib Əkbərov üç ədəd məktub gətirdi: Atamdan, Tariyel Muradovdan və biri də, dəllək Nüsrətin oğlu Ələvsətdən idi.

Dərhal atamın məktubunu açdım.

Zərfin içərisində qoşa listə bükülmüş qırmı-zı onluğu görəndə gözlərimə işıq gəldi. Arifin ça-madan pulunu artıq qaytara bilərdim.

İkinci sevindirici xəbəri isə, məktubu oxu-yanda bildim: “Qardaşım Vaqif Azərbaycan Poli-texnik İnstitutunun Kirovabad filialına qəbul olu-nub...” Ailəmiz üçün bu çox önəmli məsələ idi...

Tariyel yenə də havaların УЖЕ tutulmasın-dan, hər şeyin darıxdırıcı olduğundan yazmışdı.

Ələvsət yazırdı: "Komsomolgil Şuşadan bir həftəyə kimi gəlməlidir..."

Başqa elə bir yenilik yazmamışdı.

Nazıyla yeməkxanada oturub, bir xeyli gə-ləcək planlarımız, arzularımız haqqında gopladıq.

Söhbət edə-edə, buratino Tariyelə, özü qı-zıl kimi oğlan olsa da, qəbahətli ailədən olan dəl-lək Nüsrətin oğlu Ələvsətə, qasırğa Tahir Ağaye-və, dostum,- bir "sürü" bacının tək qardaşı,- mes-xeti türkü Süleyman Zahidova və dərələyəzli atama məktublar yazdım...

Yitkanın şəklini də Komsomolun şəkli kimi udostvoreniyanın içərisinə yerləşdirib, səliqəylə yapışdırdım. Ona da, ikinci məktubun qaralama variantını öz dilimizdə yazdım. Ürəyim lap dolu-dur. Yaman onun xiffətini çəkirəm...

Yazdığım məktubların hamısına ДМБ-1972 möhürü də vururdum.

Kuybışevli Hüseyin və Məhəmmədlə oturub xeyli dərdləşdik. Və sonda qərara aldıq ki, hər il may ayının 2-də və ad günümüz olan günləri,- hər dəfə də birimizin evində,- bir yerə toplaşıb yeyib-içək və bu günləri xatırlayaq...

Yaman çox СТОЛИЧНЫЙ siqareti çəkirəm.

Hamama getdik.

Rotanın cərgədə vurduğu ayaq tappıltıları yenə könlümü duyğulandırdı...

Yitka heç yadımdan çıxmır. O mənə ipatdı oynayan şıltaq qız uşağını xatırladır...

Kəlbəcərli vaynösə Sahib Əkbərovla bir-bi-rimizin belini kisələdik və şampunla da yaxşıca maçalkalanıb sabunlandıq.

Hamamdan çıxanda güzgüdə özümə bax-dım. Alnım və burnumun üstü təmizlikdən par-par parıldayırdı. Yaman yüngülləşdim. Doğrudan da su yüngüllükdür...

Hamamdan sonra təpərsiz Mürşüd ЧАЙКА-3-ün lentini alıb gətirdi. Hospitalda və Qara dəniz sahillərində çəkdiyimiz şəkillər əla alınmışdı.

Axşamtərəfi, şam yeməyindən sonra kazar-mada yığışıb, yenə əski günlərin xatirələrindən, şirin-şirin nağıl edirdik.

Mən də yadıma düşən iki olayı: Həştərxan həngaməsiylə Elmanın gözündə partlayan şüşə mürəkkəbqabı məsələsini söylədim.

“Hardasa, 1960-cı il olardı, 5-ci “S” sinfində, ikinci növbədə oxuyurdum. Axırıncı dərs keçilən-də artıq hava qaralırdı...

Qış idi.

O gün, rus dili müəlliməmiz Zinaida Frolov-na dərsə gecikmişdi...

Yeri gəlmişkən...

Danışırdılar ki, Xarici dillər institutunu yeni-cə bitirib təyinatla Bərdəyə gələn bu,- roman-lardakı, filmlərdəki kimi,- aristokrat müəlliməyə raykom katibi bərk bənd olub. Eşqin cövlan elə-diyi yerdə zərif çiçəklər açar deyib, sarmaşıb ya-xasından... Canıyanmış cavan müəlliməmizə də, deyəsən elə beləsi lazımmış...

Raykom katibi ailəli olsa da, göydə axtar-dığını yerdə tapan Zinaida Frolovnayla əhd-pey-man bağlayırlar.

Və kişinin oğlu onun hər bir arzusunu can- başla yerinə yetirməyə başlayır: Qulluğunda dur-mağa qulluqçular ayırtdırır, özünü də pula, daş-qaşlara, bahalı xəzlərə və ən ümdəsi, ailəli olsa belə, məcnunsayağı məhəbbətə tutur...

Cavanlıqda qazandığı savadı və aidığı biliyi də, raykom katibi beləcə, sağa-sola xərcləyir...

Babalı danışanların boynuna, öz halal arva-dını da, əri Zinaida Frolovna ilə gecələyəndə, sü-rücüsü ilə yataqda, təsadüfən evinin qulluqçuları görübmüş...

Söz-sözü çəkər, arşın bezi. Necə deyərlər, qəbahətli iş yüyrək yayılar...

Məktəbimizdə tez-tez işıqlar sönürdü.

Adiləylə bir partada otururdum...

Bu gün də işıqlar sönüb-yanır, uşaqlar də-cəllik eləyir, çığırışıb hay-küy salırdılar.

Adilə o vaxt çox mehriban, həyalı, ağappaq sifəti xınalı və saysız xırda xallı çillərlə dolu qız idi. Gizli-gizli ürəyimi yandırır, oğrun-oğrun ona tamaşa eləməkdən doymurdum.

Necə oldusa, bizdən irəlidəki partada otu-ran Elmanı, arxadan kimsə papaqla vurdu.

Özü də pis vurdu.

Papağın çənənin altından bağlanması üçün tikilmiş uzun ipləri onun gözünə dəydi.

Elman diksindi, bərkdən içini çəkərək, ağrı-dan inlədi və hövlnak sıçrayıb ayağa qalxdı.

Elə bildi ki mən vurmuşam. Görünür arxada oturan hansı bəzzadsa, barmağıyla məni isnad veribmiş...

Düz üstümə gəldi.

Heç nədən xəbərim yox, və heç nə soruş-madan açıq başıma güclü bir yumruq ilişdirdi.

Necə vurdusa, gözlərimdən qığılcım qopdu.

Yazıq Adilə!

Bənizi lalə kimi qızardı və qorxudan, hiii... eləyib, içini çəkdi.

Əclaf, dolu biləkli sıravi bir milis işçisinin oğ-luydu. Atasına güvənib baş aparırdı.

Dərs oxumazdı.

Mən onun üçün küçəyə atılmış yetim uşaq- zad deyildim ki? Alçaqlığa bir bax!

Özümə gələn kimi, gözümə ilk sataşan, qa-ra partanın üstündəki xüsusi, yumru mürəkkəb qabı çuxurundan, yumurta boyda olan şüşə mü-rəkkəbqabını cəld qapıb, var gücümlə onun ba-şına çırpdım. Nəsə xırçıldadı...

Heç nişan alsan belə dəqiqliklə vura bilmər-sən! Lap farsın qəzəli, türkün məsəli kimi tutdu.

İçi mürəkkəblə dolu şüşə qab, düz onun gö-zünün altında param-parça oldu.

Elman silkələndi, mişarlanmış ağac kimi kö-kündən qopub, taxta döşəməyə sərildi.

Necə bağırırdısa sinifdəki qızlar qorxudan qışqırışmağa başladı.

Elmanın gözü bənövşəyi mürəkkəb, şüşə qırıntıları və qanla dolmuşdu!

O heybətli bir səslə yerdə çabalayır, uşaq-lar çölə çıxıb içəri girir, səs-küy ikinci mərtəbənin dəhlizi boyu yayılırdı.

Sinifkomumuz Mehriban direktorun kabine-tinə sarı xəbərə qaçdı.

Uşaqları çaş-baş vəziyyətə salmağı xoşla-yan və bundan xüsusi zovq alan,- beş il sinifdə qalıb, indi də bizimlə bir sinifdə oxuyan, dükançı Həvvanın oğlu, difdiringi Mübariz qələbə görkə-miylə, amma yalandan canıyananlıqla: Ay Allah Elman öldü deyib çığırırdı.

Bu riyakarlığın zirvəsiydi.

Durduğum yerdə işə düşmüşdüm.

Uşaqlar elə bilirdi, filmlərdəki kimi Elman in-di öləcək. Yardım eləməyi heç kim bacarmırdı...

Kimsə, Elmanın atasına xəbərə getmək, ki-misi də, bunu təcili xəstəxanaya aparmaq lazım olduğunu qışqırırdı.

Qızların heyrəti çaşqınlıqla əvəzlənmişdi.

Elə bu vaxt rus dili müəlliməmiz gəlib çıxdı.

Zinaida Frolovna!

Çaşmışdım... Partaya dirsəklənib, qaranlıq pəncərədən uzaqlara baxırdım.

Bir göz qırpımında, qışqırtı səslərini eşidib, rus dili müəlliməmiz də huyuxmuş, sanki ayaqları yerə mıxlanıb qalmışdı...

Birdən necə oldusa, Adilə qaşlarını çatıb, sirli mavi gözlərini üzümə dikərək, məni özünə sarı dartdı. Həyəcandan bənizi tamam ağarmış, göz yaşlarında boğula-boğula, kəsik-kəsik nəfəs ala-ala, qulağıma qeyri-adi zərifliklə pıçıldadı:

"Allah eşqinə, qaç get!"

Sanki yuxuda idim. Donub qalmışdım...

Səbr kasam dolduğundan və həyəcandan cəld çantamı da qoltuğuma vurub, götürüldüm.

Qorxudan zülmət qaranlıqda,- dirəksiz, fə-nərsiz, palçıqlı küçəmizdə batareya da yandır-mırdım ki, Elmanın milsioner atası Heydər kişi in- dicə özünü yetirib məni tutar. Onun cəngindən və xoşagəlməz zərurətdən yaxa qurtarmalıydım.

Qonşumuz Sərxanın qızbibi oğlu Vaqif də, məktəbdən gecə tək qayıtmağın qorxusundan, küsülü olsaq da, təşvişlə arxamca düşmüşdü.

Mehmanxananın qabağından burulub yeni-cə ötmüşdüm ki, Vaqif məni haqladı və tövşüyə-tövşüyə, ağıl dərsi keçməyə başladı: "Ölsə səni tutacaqlar? Qaçaq Həştərxana!"

O məşum gecə qorxumu saxta təbəssümlə pərdələyərək, evdə yemək də yeməmiş, oğrunca sivişib yerimə girdim.

...Qonşumuz Sərxan dayı o gecə bizə gəlib, atama hər şeyi olduğu kimi danışıbmış... Hətta atam gecəynən Elmanın yanına xəstəxanaya da gedib və atası Heydər kişinin cibinə bir paçka qırmızı onluq pul da qoyubmuş.

Bunu da lap sonralar bildim...

Milis işçisi olduğundan direktor da soyuq tə-kəbbür və itaətlə məsələnin sülh yoluyla yoluna qoyulmağın tərəfdarı olub.

Elmanın gözünün altına tikiş qoymuşdular. Düz bir həftə dərsə gəlmədi.

Onunla bir partada oturan Sürəyya, gözlə-rini üzümə zilləyib, mənə yaman nifrətlə baxırdı.

Deyəsən Elmanı sevirdi...

Qızlara danışırmış ki, mürəkkəbqabı onun gözündə partlayanda, elə bildim şüşə qırıqları ox olub ürəyimə doldu.

Sonra valideyinlərimiz bizi direktor Rüstəm Hacıyevin kabinetində barışdırdı.

Amma Sürəyya biz məktəbi bitirənə kimi nə məni, nə də Adiləni danışdırmadı...

Elmanın özündən böyük, Arzuman adında zırpı bir qardaşı da varmış. Uşaqlar məni qorxu-durdu ki, Arzuman bu qanı yerdə qoymayacaq. Amma nə onda, nə də sonralar Arzumandan bir xəbər-ətər çıxmadı. Bərayi-ehtiyyat, qorxumdan cibimdə düz qırx gün bıçaq da hərlədim.

Görünür pul onlar üçün hər şey idi...

İkinci əhvalatı danışdım:

"Hardasa altıncı, ya da ki, yeddinci sinifdə oxuyurduq. Yaz yenicə girmişdi. Torpaq oyanmış, rütubət buxarlanıb xoş qoxusuyla aləmi başına almışdı. Üçüncü rübün istirahət günləriydi...

Öz işiylə əlaqədar atam məni Həştərxana göndərməyi qərara alıbmış.

Küçədə ehtirasla futbol oynadığımız vaxt bildik bunu. Sərxanın qızbibi oğlu Vaqif dirəndi ki, mən də səninlə gedəcəm. Çox yalvar-yaxar elədi, pişikləndi...Axırı zəhləmi çox tökəndən sonra ba-şa saldım ki, iynə deyilsən ki, yaxama sancıb sə-ni də özümlə aparam. Birlikdə getmək mənə çox xoşdur, amma sənin valideyinlərin və mənimkilər buna razılıq verməlidir...

Və o vaxt...

Bir yaz axşamı bizi qatarla Həştərxana yola saldılar...

Atam mənə kitab həcmində bir qovluq sə-nəd vermiş, bərk-bərk də qorumağı tapşırmışdı.

Çox məsuliyyətli idim. Lap çox. Sənədləri o gecə vaqonda paltarın altından, qarnımda giz-lətdim...

Həştərxanda bizi orta yaşlı, ağappaq bir qa-dın qarşıladı. Rus idi.

İlahi, bizim məsum, sadəlövh uşaq olduğu-muzu görüb, o necə sevinirdi!

Sənədləri o arıq qadına verdim. Adını Люба dedi,-Arkadyevna. Hər ikimizi bağrına basdı.

Arıq olsa da, yupyumşaq sinəsi vardı. Pud-ra iyi verirdi. Bizim analarımızdan fərqliydi.

Birlikdə işlədikləri kontora getdik.

Hamı rus dilində danışırdı. Buralar dopdoğ-maca vətənimiz olsa da, bizə xarici dövlət kimi görünürdü. İncəbel Zinaida Frolovnanın öyrətdiyi sözlər, hələ yaxşı ki, dadımıza çatırdı.

Şəhər, əsasən standart beşmərtəbəli bina-lardan ibarət idi. Geniş küçə və prospektlərinin hər iki tərəfi hündür şam ağaclarıyla sıralanmış, şəhərin ətrafı meşəylə əhatə olunmuşdu.

Şəhərin ortasından geniş ВОЛГА çayı axır, bulanıq çayın içərisi lal axan ağaclarla doluydu.

Öyrəndik ki, ağacları çayla yola salırlar ki, nəqliyyat xərci ucuz başa gəlsin. Dərzinin maya-sı iynə-sap olduğu kimi...

Bizi qarşılayan qadın kontorda baş mü-hasib işləyirmiş. O məni kənara çəkib, bərk-bərk tapşırdı: “Sənə sənədlər verəcəm. Bağlamışam, açmarsan və atana de ki, heç kim bu barədə, heç nə bilməməlidir.”

Mən o vaxt uşaq idim, onsuz da nə olursa olsun, neyləyirdim biləm ki, içinə nə qoyulub ya nə yazılıb!? Vaqif də eləcə...

Ondan bir söz soruşmuşdum o vaxt: “Niyə bu minlərlə ağacları suya tökürlər?

Yükqaldırıcı kranlar ştabelə vurulmuş ko-ma-koma ağacları bir ucdan suya boşaldırdı...

Heç Sərxanın qızbibi oğlu Vaqif bilmədi, nəyə gəlmişdik, nə iş gördük və niyə belə tez də qayıdırıq. Yazıq maraqlanmırdı da... Uşaq idik... təki gəzmək olsun və bir də azmayaq...

Həştərxanda cəmi bir gecə o qadının evin-də qaldıq. Naz-nemətlə dolu süfrəsindəki yemək-lərdən də düz-əməlli dadmadıq...

Və xeyli sonralar xatırladım ki, axı o gecə evdə, sifətinə tökülmüş bir neçə buruğu olan qı- sa saçlı, o pudralı qadından və bizdən başqa heç kəs yox idi...

Bəs onun ailəsi-uşağı hardaydı?

Bəlkə güman edirmiş ki, qafqzlı ərən bir oğ-lan gələcək? Ehtiyat evdən yararlanmaq istəmiş-di yoxsa?

Hətta bir neçə dəfə Yevlaxda, atamın iş ye-rinə ezam edildiyini də, nədənsə qadın bizə de-mişdi o gecə...

Nə yaxşı atam bu incə, kübar qadını evi-mizə, Bərdəyə dəvət eləməmişdi? Axı atamdan heç dil-ağıza qoymurdu və bu an, gözlərində bir ehtiraslı işartı hiss edilirdi...

O gecə yaddaşımda bir də o qalmışdı ki, sakit bir gecəydi. Yata bilmirdik. Divarları oboylu otaqdan yemək iyi gəlirdi.

Vaqiflə üçüncü mərtəbənin geniş eyvanına çıxmışdıq. Gecəyarı idi...

Geniş həyətin qollu-budaqlı uca şam ağac-ları arasında hansı quşlar idisə, yaman civildəşir, qırıldaşır, deyəsən nə üstəsə tutaşmışdılar. Hər-dən qaranlıqda qanad səsləri də eşidilirdi. Bəlkə də quş yuvasına pişik qalxmaq istəmlşdi?

Hərdən ağacı sanki mişarlayırdılar.

Göy üzündə ay görünməsə də səma işıq-lıydı. Sakit dayanmış ağ topa buludların arasında seyrək halda bir neçə ulduz aydınca görünürdü...

Elə sərinlik idi!

Bərdədə belə oksigenli, sərin hava olmazdı.

Bir qədər keçmiş quşların da səsi kəsildi...

Vaqiflə uşaqlıqdan qonşu evlərdə yaşasaq da, Şərq döngəsində biryerdə oynayıb, biryerdə böyüsək də, birinci sinfə gedəndə bir partadaca oturub, hönkür-hönkür birlikdə ağlaşsaq da, ilk dəfə onun çöhrəsinə diqqətlə o gecə baxdım.

Heç fikir verməmuşdim ona...

Arıq sifəti çəpişə bənzəyirdi. Qulaqları, irəli çıxmış arıq çənəsinə nisbətdə çox iri görünürdü. Siçan dişləri kimi xırda dişləri vardı. Qaşları ensiz, narın tüklü idi. Dərs başına girməz, kitab görən-də bası bərk ağrıyardı. Çox əfəl uşaq olsa da, difdiringi və çölləmə də deyildi...

... Günəşli bir gün idi.

Hava həlim və oksigenlə boluydu.

Ucsuz-bucaqsız Волга çayı, bulanıq suyu və enli yatağıyla nəhəng görünürdü.

Şalban dəstələri çayla sakitcə üzürdü...

Vaqiflə dəmiryol kassasından Bakıya bilet aldıq. İlahi, cavan kassir qadın bizə necə həs-rətlə baxırdı! Heyrətdən iri gözləri bir az da bö-yümüşdü. Sanki, hansısa gözəgörünməz iplər bi-zi ona bağlayırdı...

Necə məmnun görünürdü!

Hərdən açıq sözlər işlədir, qımışır, bizi ding ding dingildədirdi...

Sanki, nəyə qabil olduğumuzu yoxlamaq is-təyirdi. Görünür o da, qafqazlılar haqda misilsiz məziyyətli mif yarandığının fərqindəydi...

Elə biz özümüz də onun narın tüklü qaş-larına, iri kirpiklərinin əhatəsindəki od çıxan iri ala gözlərinə, qırmızı pomadalı limon diliminə bənzər nazik dodaqlarına, parfümünə, ecazkar qadın si-nəsinə tamarzı-tamarzı, necə həsədlə baxırdıq!

Kozara filmi vaxtından əvvəl bizi oyatmışdı. Bir də oxuduğum ДЕКАМЕРОН kitabıyla öz dili-mizdə nəşr olunan 1001 gecə nağılları...

Və bir də Şuşada, üçhovuza gedəndə...

Boz eşşəyin üstündə gedən, başı gül çə-ləngli erməni qızı Haykanuş təcrübəsi...

Qancıq bizim müdafiə xəttimizi yaman çaş-baş salmışdı. Görünür bizim sifətimizdə kişisal cazibə hiss eləmişdi.

Di gəl gedirdik...

Bütün səylər əbəs idi! Ehtirasla arzulasa da, o bizimlə mazaqlaşa bilməzdi.

Qatarla getməyimizə üç-dörd saat qalmış dəmiryol vağzalına yollanmaq üçün soruşub, 74 nömrəli trolleybusa mindik.

Vaqif kontordan verilən qaytanlanmış bağ-lamanı kəmərinə keçirib möhkəm saxlayır və tez-tez də əliylə yoxlayırdı.

Trolleybusda oturub enli magistral yola və kənarları hündür ağaclı küçələrlə gedən sakinlə-rə baxa-baxa mürgü vururdum.

Sən demə 74 yox, 3 nömrəli trolleybusa minməliymişik. Bizi hansısa yerli bəzzad aldadıb, əməlindən sonsuz ləzzət alıbmış...

Trolleybusda iki-üç yerli sərnişin qalmışdı. Təsadüfən onların da hamısı birdən düşdü.

Cavan, dodaqları qıpqırmızı pomadalı, sap-sarı uzun saçlı bir göyçək kassir qadın, bizdən pul tələb edəndə, əlimi şalvarımın yan cibinə saldım ki, xırda pul çıxarıb verəm.

O əlimin ləngidiyini və qurdalandığımı gö-rüb kəmhövsələlik elədi, işvəli təbəssümlə naz sataraq deyindi. Birdən də əlimin üstündən ərklə vurub, qolumu dartıb çıxartdı və öz əlini cibimə soxdu. İmtina eləməyə macalım olmadı.

Vaqif təəssüf qarışıq qorxu hissiylə bizə baxırdı. Sonra da tənəli baxışla kassir qadına üzünü tutub, öz dilimizdə dedi: “Utanmır eyy...”

Nədənsə, kassir qadının bu hərəkətindən çox xoşhal oldum.

Onun açıq sinəsindən, içi xırda qəpik və ka-ğız pullarla dolu dəri çanta asılmışdı. Başqa bir dəri qayışdan diskli, ЧАЙКА-3-ün lenti kimi, ensiz kağız formasında nömrəli biletlər asılmışdı.

O cibimdən xırda pulları götürəndə, ehti-rasla paçamın arasından yağlı bir çimdik də bu-rub qopartdı.

Mat qaldım.

Və onun bu hərəkətiylə qırmızı pomadalı ağzından üzümə vuran isti nəfəsi məni oyatdı!

Heyrətlə ona baxanda, işvəylə dilini çıxart-dı və qayıdıb sürücünün arxası tərəfdən də, lap küncdən əyləşdi.

Nəhlət şeytana!

Bir zaman ayıldım ki, Vaqiflə məndən baş-qa içəridə heç kəs yoxdu! Necə deyərlər, ara xəl-vət tülkü bəy...

Sürücü kabinəsi də sərnişin salonundan iri şüşələrlə təcrid olunmuş vəziyyətdə idi. Gümüşü dərili oturacağın üstündən də, altına sapsarı gül-lü məxmər üzlü döşəkcə salmışdı. Uzun saçları-nı barmaqlarıyla sığallaya-sığallaya, dikəlib arxa-nı görmək üçün qoyulmuş kiçik güzgüdə özünə tamaşa eləyir, ağız-gözünü oynadırdı.

Radioda həzin musiqi səslənirdi.

O mənə necə işvə-nazla, ehtirasla baxır-dısa, özümdən asılı olmadan, lap arxa cərgədən ayağa qalxıb,

tələsik düz onun oturduğu ilk cər-gəyə gəldim və cəsarətlə yanında oturdum.

O iri və xırda kağız pulları dəstələyirdi.

Ətri məni vuranda uşaq dünyam titrədi, içim silkələndi və qəlbimdə zəlzələ qopdu!

Necə oldusa... sinəsindəki qəpik və kağız pullar qarışıq, vəhşicəsinə onu qucaqlayıb, son-suz ehtirasla öpməyə başladım.

Nə baş verdiyini hələ heç birimiz anlamırdıq.

Vaqif arxada, sürücü isə kabinada oturmuş-du. Sanki, amneziya olub yaddaşımı itirdim...

Bizi bircə Vaqif görürdü...

Üz-gözündən necə hərarətlə öpürdümsə, bir andaca, özü çaşqınlıqdan ayılıb pomadalı do-daqlarını ağzıma soxdu...

Sən demə sonuncu dayanacaq imiş və sər-nişin götürmək növbəsi bizim trolleybusa çatıb-mış. Qovuşan dodaqlarımızı zorla araladıq...

Utandığımdan, onun üzünə baxa bilmədən düşəsi oldum.

Vaqif də yalvardı, öpsün... qadın çəmkirdi!

Olan olmuşdu...

Biz trolleybusu dəyişib dəmiryol vağzalına gedəndə artıq bu olay da tarixə çevrilmiş, Alagöz müəllimənin qohumu, Sərxanın oğlu Vaqif yana-yana qalmışdı.

Qatarda yadıma düşəndə anladım ki, bilet satan qadın da, alışıb yanan gözləriylə beləcə "oynamaq," mazaqlaşmaq istəyirmiş...

Bank Rza və

Küftə Vaqifin

samanlıqda

yaba derbisi...

Odessa, 26 avqust 1972-ci il, sənbə.

şş

Bozarantı vaxtı oyanmışdım...

Son günlər kündəsi tərs düşən adamlar ki-mi, heç rahatlana bilmirdim. Yitkagil gedəndən ilk dəfə ağlıma gəldi ki, mayor Deqtyar təpərsizi sa-movolkada tutub, heç bir cəza verməməsi də elə belə məsələ deyil. Görünür mənim briqadam ba-rəsində daha qəliz tədbirlər görüləcək.

Yəqin ki, tutu və çiyələyi birdən dəyən tale-li adamlar kimi bəxtəvərlik bizi basmayıb.

Pervomayskidəki hərbi hissəmizin koman-diri podpolkovnik Dyakivi məlumatlandırmış olar-lar. Yəqin son söz də onunkudur. O da suvaq işi yekunlaşan kimi, topuğundan çomaqlasan yıxıl-mayan kəl kimi güclü di gəl 1 rubl üçün diz çöküb qarşında keçi kimi mələyən praporşik Bandısiki göndərib, nə tədbir görüləcəyini elan elətdirəcək.

Bəlkə paltar-palazımızı qoltuğumuza vurdu-rub özüylə geri qaytaracaq. Nə bilmək olar?

Bircə ümid yeri var: Ordu sıralarından tərxis olunmağımıza vur-tut iki-üç ay vaxt qalıb. Toxum at toxum götür dövrüdür. Xosrovun anası Manya xalanın sözü olmasın: "Uzan gözünə dərman tö-küm!" Daha nədənsə qorxub çəkinməkdən adla-yıb. Bircə bənövşəgözlüdən nigaranam. O mən-dən uşaq doğacaq. Günü-gündən qarnı böyüyür. Heç olmasa gedəcəyim günə kimi, ona arxa dur-maliyam. Bu mənim müqəddəs borcumdur.

Hərçənd özü razılaşıb, nə vaxt Pervomay-skiyə, ya Bakıya getsən problem yaranmayacaq. Bir ay tez, ya gec, nə fərqi var? O uşaq səni gör-məsə, ömrü boyu tanımasa daha rahat olaram, ulduz hesabı ilə də gəmiçi yol aparar...

Sabah naharda həmişəki kimi görüşməliyik. O çox etibarlı, qisməti ilə barışan qadındır. Hər bir ehtirama layiq, ismətli və ən əsası da bizim öz qadınlarımız kimi çox etibarlıdır...

Rotaya verilən: Qalxınn!! - əmri, düşüncələ-rimdən məni ayırdı. Hava hələ də tam işıqlanma-mışdı. Könülsüz olsam da, qalxıb idman formamı tənbəl-tənbəl geyindim və tələm-tələsik də Qara dənizə doğru qaçmağa başladım.

Hantel və rezinlərin yerini dəyişmişdim.

Çimərlikdəki qumda axtarıb onları tapana kimi, düz 7 dəqiqə vaxt itirdim. Yay mövsümünün başa çatmasına bir neçə gün qalsa da, hava hə-lə də mülayim idi. Artıq iki illik hərbi qulluq döv-rümüzün sonuncu payızı başlayacaq. Allah qoy-sa bu payız yurd-yuvamıza qayıdacağıq.

Bütün təmrinləri yerinə yetirib, yarım saat da dənizdə üzdüm...

Yitkagilin şarhaşarla axan su krantında yu-yunub, əsgər qəlyanaltısını yeməkxanada yeyib, uşaqların işini bölməndən sonra, kazarmadakı do-labçamdan gündəliyimi, qəzet-jurnalları yığışdırıb doqquzuncu mərtəbəyə qalxdım.

Necə deyərlər, nə işim var bayırda, çaqqal məni çığırda... Həm də bu gün özümü çox yaxşı aparmalıyam ki, sabah Katyagilə gedəndə şüb-hələnib məni axtaran olmasın. Zampolit Boykoya da söz vermişəm ki, xarici qızlar gedəndən sonra, daha samovolkaya getməyəcəm. Ulamağını bil-məyən köpək, sürüyə qurd gətirər...

Boş otaqların birində özümə yer hazırlayıb bu günün qəzetlərini oxumaqdan başladım...

Poçt gələnə qədər tağım komandirləri, gənc Podqornuyla Kaşşeyevin və ikinci rotanın siyasi işlər üzrə komandir müavini Boykonun gözünə bir neçə dəfə göründüm...

Poçtalyon əsgər dörd məktub gətirdi.

Zərflərin üstünü tələsik oxumağa başladım: Qasırğa Tahir Ağayevdən, fırtına Xosrov Mame-dovdan, axıska türkü Süleyman Zahidovdan və Bahar arvadın oğlu sərpayı Vaqif Hüseynovdan idi. Çox maraqlıydı. Sərpayı yenə nə yazıb?

Elə birinci də onun zərfini açdım. Əclaf dil-dən çox pərgardı. Şirin yazmışdı: "Mən ömrümü sənə borcluyam, yoxsa Kazım çoxdan məni o bi- ri dünyalıq eləmişdi...Tanrısını tanımayandan axı nə umursan? Məmmədhüseyin kişinin oğlu Yunis də, qardaşı Aydın İbrahimov da, Şərifov Vaqif də, Yama Vəli də məni döymək istəyəndə, arxamda sən durmusan, yalan deyil ki? Bir də qeyd edi-rəm: Həyatımı sənə borcluyam qardaş!

Naqan markalı tapançadan üç-dörd saniyə gec atəş açsaydın dinsiz-imansız Kazım məni ül-güc və xəncərlə doğrayacaqdı..."

Ürəyimdə fikirləşdim: Yaman qədir bilənsən elə, iki ildi hərbi xidmət çəkirəm, qayıtmağıma az qalmış yada düşmüşəm...

Qurumsaq!

Xasiyyətimə bələd olduğundan nostalji his-slərlə Şərq döngəmizdən söhbət açıb, Xuramanlı günləri mənə xatırladırdı: "O sənin müqəddəs, ül-vi məhəbbətini dəyərləndirmədi, böyük səhvə yol verdi. Bir mən allah şahidiyəm, sən onu necə se-virdin! Siz o sevginin qanadları altında xoşbəxt yaşaya bilərdiniz... Heyf!

Taxt yaratmaq olar, bəxt yaratmaq olmaz..."

Qanboyun oğlu Ələsgərin naqisliyindən dil boğaza qoymur, yazırdı: "Yolux yadındadır də... Kazım və barama Cəfərin oğlu Telman Qarayev-lə namus davasına gedəndə,

qorxusundan sənin dayın qara Sabiri də götürüb, dava qurtarandan sonra gəlib çıxmışdı...

Qızıl-brilyantlarınızı və evdə olan pullarını-zı dar ayaqda onlara qaçıranda, qəbul eləməmiş-di. Halbuki, sizdə DTK yoxlama aparmaq istəyirdi. Hələ yaxşı ki, sonra o məsələ sizin xeyrinizə so-vuşdu. Dar ayaqda adamı baqaja qoyub qaçan-lardandı. Dədəsi Qanboy özündən də betərdir...”

Xosunun cəsarətindən, seyid Əlinin cəddin-dən, gülməli epizodları xatırladır, davam edərək yazırdı: “Yadındadı də, taksi sürən demokrat Yu-sifin oğlu Xosrov?

Məktəbə getməyə yazığın iki yolu vardı.

Birini qəssab Süleymanın oğlu İboş kəsdir-mişdi, gözü yeyənləri döyürdü. Çatana çatır, çat-madığına da bir daş atırdı.

İkinci yolu da dəhrəburun İsmayıl kəsmişdi. Dəhrəburun, xalası oğlu Fəxrəddinlə birləşib baş aparırdılar. Fəxrəddin dal qonşumuz, kisəçəkən, qıllı İbrahimin qardaşıydı. Məktəbi atıb bazarda, molla Xeyrullanın yanında Tərtər çayından dədə-sinin tutduğu balıqları satırdı. Dəhrəburunu da ki, tanıyırsan də? Qonşu Güllübəyim arvadın nəvəsi, Həşimov Əlinin oğlu İsmayıl.

Biri Xosuya badalaq verib yıxır, sonra da tökülüşürdülər canına... Zavallı, bəzzadların əlin-dən məktəbə də gedə bilmir, qeyrətinə sığışdırıb ata-anasına da demirdi.

Xosya yazıq... Axırda başqa yol olmadığını görüb, son həmləyə keçdi.

Yeddi, ya səkkizinci sinifdə oxuyurduq. Lə-tifəsi bizdən uzaq, it də sümüyü ölçüb udar.

Arxası köməyi olmayan Xosrov, baş verən olayları saf-çürük edib, yaddaşında olanları silkə-ləyərək, düşdüyü vəziyyəti düzgün qiymətləndirdi.

Sakit imicə malik Xosya, kəşfiyyat potensi-alını işə salaraq, bir gün ciblərini daşla doldurdu və filmlərdə gördüklərindən bəhrələnərək, gizlin-cə "hərbi" mövqe seçdi...

Marığa yatıb, səbrlə də xeyli marıtlayandan sonra, dəhrəburunu küçədə, damağında siqaret, tək-tənha gəldiyini görər və qəflətən də gizləndiyi yerdən sıçrayıb basar onu daş yağışına.

Tərs kimi, iri bir raqatka daşı da vıyıltıyla süzüb tutar Həşimov İsmayılın düz kəlləsindən.

Qan fontan verib tökülən kimi, Xosya qaçıb özünü çatdırar bazara. Bir cib dolu qəmbəri yağ-dırar ağzıyava Fəxrəddinin baş-gözünə...

Daşın biri də Xosyanın bəxt-taleyindən tu-tar Fəxrəddinin pələ qulağının dibindən. Di hı!

Qaçıb aradan çıxmağı da bacarar.

Qonşu həyətinin alçaq, ovulmuş torpaq ha-sarından pişik kimi adlayıb, qaranəfəs öz həyət-lərinə keçən kimi də, tutduğu əmələ rəğmən hə-yət qapılarının arxasından sürgüsünü keçirib, alt-dan-üstdən bağlayar. Ürəyi soyumaz, iri bir daş da yumalayıb arxasına dirəyər.

Bərk-bərk də silkələyib taxta qapının müqa-vimət gücünü yoxlayar...

Sakitçiliklə qurtardığından fərəhlənən Xos-ya, bu dəfə də ciblərini daşla doldurub, ikinci ma-nevri eləməyi planlaşdırar.

Bu dəfə isə, vəziyyətin acınacaqlı olduğu İboş Süleymanoğlunun ərazisini basar.

Birmənalı, qəti hücüm planı burada da özü-nü doğruldur.

Qəssab Süleymanın, ağlı topuğunda olan pinəçi qaynı, uzundraz, biçiz Mustafa özünü ye-tirənə kimi, sarışın İvrahım dolu kimi qəfil yağan daşlardan,- boynunun kökündən, belindən və di-zindən "qəlpə" yarası alar.

Əlqərəz: "Qış sarayına" hücum da, Xosya-nın qəti qələbəsiylə nəticələnər...

İranlı demokrat taksisürən, tərs Yusif kişiylə Manya xala bir ay minnətçilik eləyib, gedib gə-ləndən sonra, İboş Süleymanoğluyla işləri sah-mana sala bildilər.

Xosrovun bəxtindən...

120 kq. çəkisi olan Güllübəyim xalayla əri, əhəng rəngsazı 52 kiloqramlıq Məşti kişinin gecə hücumunu, Sehran xalayla Manya xala demokrat ərləri,- Əyyub dayıyla Yusif kişinin birgə səyi nə-ticəsində dəf edə bilirlər. Və qonum-qonşunun da müdaxiləsindən sonra, burada da vəziyyəti sabit-ləşdirmək mümkün olub...

Xosrovun belə qoçaqlıqları çox olub.

Danılmazdı ki, o cəsarətliydi!"

...Beləcə, məlumatfüruş Vaqif Xosunun sər-güzəştlərindən sonra da yadına saldığı hadisələri yazıb xatırladır, davam edirdi:

"Yadındadı də, bizim alça ağacının altında beş-daş oynamağımız... Gizlən-qaç, çiling-ağac, qidiyol, moza-moza... Ötən qayğısız günlər üçün burnumun ucu necə göynəyir, biləsən kaş...

Seyid Əli yadındadır dəə? Səməd Vurğun kolxozundan olan, Qəhrəmanlı kəndi... ПЕЙК fut-bol komandamızın müdafiəçisi... Ondan sənə ya-zım. Tez-tez Tariyel Muradovla Xosyaya deyərdi:

"İmam, şəftəli ağacı deyil ey əə..."

Əclaf cəddini necə çağırardısa, qapıçını al-dadan da, boş qapıya qol vura bilməzdi...

Kəndin ayağındakı Canavarlı meşəsinin lap qurtaracağında, seyid Yusif ağanın qəbristanlıq-dakı

ziyarətgahında camaatın çoxlu,- gündə 13-15 qurbanlıq qoyun-quzu kəsdiklərindən vəcdə gəlib bir gün deyirmiş: "Qara azzar tutmuş qar-daşlarım dağ qoydu mənə, yaxşı qardaş olsay-dılar, bu obyekt də çoxdan bizim olardı.

Maya qoymağa canları çıxdı... Yoxsa indi hamımız milyonçu olardıq!

Odeeyy, seyid Yusif ağanın uşaqları,- seyid Hüseyin, seyid Saqi, seyid Məhəmməd və seyid Sabir, qəssablara cəmdək daşımaqdan yorulub-lar... Hərəsinin də kənddə, rayon mərkəzində ne-çə çayxanası, yeməkxanası, imarəti, vəzifəsi..."

Sərpayı Vaqifin məktubu, bir incə məsələni mənə xatırlatdı: DTK agenti olan Bərdənin axun-du, sapsarı BA3-06 markalı жигули-də lotuluq elə-yən, camaatın gözünə kül üfürüb, gizlində əyyaş-lıqla məşğul olan axund Ramazan!

O da, seyid Əli kimi, əlini qulağının dibinə qoyub, hüznlü avazla muğam üstə yas mərasim-lərində qurandan yasin və digər surələr oxuyurdu.

Mollaların, seyidlərin ipini yığıb əlində yaxşı cəmləmişdi. Rüşvət almasa, heç birini məclislərə buraxmaz, varlıların məclisini isə şəxsən özü ida- rə edərdi...

Neçə dəfə kirvəsi Şərifov Vaqifin, İlham Ba-bayevin,Tariyel Muradovun və digərlərinin də ya-nında, ona sarı жигули-də gəzməyi nöqsan tut-muşdum. Elə bil daşa-divara deyirdin.

Pis-pis hırıldayırdı.

Zalımın oğlu zalım, yas yerinə sarı, alaqır-mızı rəngdə olan maşınlarda getməkdən sanki, xüsusi ləzzət, zövq alırdı. Kiminsə ölüsü öləndə, gizlində toy-bayram edərdi.

Harda üç-beş nəfərin toplaşdığını görsə, o dərhal sarı жигули-sini bir bəhanəylə saxlayıb, söhbətin nədən getdiyini dolasıyla öyrənərdi...

Kasıb məclislərinin də dolyası onluq idi.

Seyid Əli kimi o da, hökumət əleyhinə da-nışanlara, hətta söz, eyham işlədənlərə deyərdi:

“Cəddimi çağıraram, sən öl, yarımca saata səni götürərlər.”

Kim inanmayıb mübahisə eləsə, ya söhbəti-ni davam eləsə, gizlincə ayaqyolu, ya başqa adla bayıra çıxaraq milis, ya da DTK-nın yerli şöbəsi-nə zəng vurub, o adamı dərhal aradan götüzdü-rər, sonra da: ”Cəddim tutdu!”- deyərdi.

Amma oxumuşdu, maraqlı adam idi.

Özünə geniş bir həyətyanı sahə götürüb, ikimərtəbəli imarət tikdirmişdi.

Bəxtindən də, millət qarışqa kimi birucdan qırılırdı. Taleyi, bəxti gətirən bəxtəvərlərdən idi.

Qorxduğu yeganə bir adam vardısa, o da Şeyxülislam idi. Onun adı çəkiləndə tük salırdı...

Nitqpərdaz Vaqifin məktubundan sonra Ta-hir Ağayevin məktubunu açdım. Qasırğa, Tbilisi-nin görməli yerlərinin əksi olan bir neçə nakley-ka göndərmişdi. Yeni heç bir məlumat yoxuydu.

Quru xəbərlər...

Süleyman Zahidovun məktubu çox qalın idi. Mesxeti türkünün zərfini də Xosrov Mamedovun məktubundan əvvəl açdım.

Havaların isti keçməsindən, bu yayı Bərdə-də göydən od ələndiyindən yazandan sonra, qu-ru sözlər... Davam edərək yazırdı: ”Söz sözü çə-kər, arşın bezi. Bərdənin mərkəzi bankında, mü-dir Əliyev Kərimin sürücüsü işləyirəm. Hər gün səhər saat 05-00-da yuxudan dururuq. Bankın bütün işçilərini, bir çox idarə, müəssisələr kimi, kolxozlarda saman yığımına köməyə aparırlar.

Saat 07:40-a kimi saman yığır, səkkiz ta-mamda da işdə oluruq.

Dünən başımıza çox maraqlı bir oyun gəlib.

Yazım, oxu gül...

Küftə Vaqifi tanıyırsan də, bacısı Xalidə 1 nömrəli orta məktəbdə bizim sinifdə az müddət oxuyub, sonra

harasa getdi. Özü bizdən bir sinif yuxarı, dükançı Xanımın oğlu Seymurgillə bir si-nifdə oxuyurdu. Yaxşı tanıyırsan.

Göt Rüstəmin qızının əri, Yusif Allahverdi- yevin, tar çalan Mamedin, Eldarın kiçik qardaşı...

Bir-iki günüydü, Telman kolxozunda saman yığıb tayalara vururduq.

Mirzəalıbəyli kəndində yaşayan Əliyev Rza Surxay oğlu da bizim bankda inspektor işləyirdi. Atalar yaxşıca deyib: "Əvvəl söz söylədiyin ada-mı yaxşı tanı, sonra ona söz söylə."

Mirzəalıbəyli bank Rza yenə nə pox yemiş-disə, bir də gördük Küftə Vaqif əlinə yabanı alıb, Rzanı qabağına qataraq, küçə söyüşləri yağdıra-yağdıra təzərəyini götürdü.

Rzada ana-bacı, nəsil-kök qoymadı qala.

İndi Küftə Vaqif çığıra-çığıra qovur, söyür, mirzəalıbəyli bank Rza da qorxusundan bir az da sürəti artırıb, yalvara-yalvara saman tayasının başına, coz kimi fırlanır, imdad diləyirdi...

Can şirin şeydi axı.

Bir-iki dəfə müdirimiz çığırıb Küftəni saxla-maq istədi. Amma Küftə nətəhər qızmışdısa, heç kəsə əhəmiyyət vermir, getdikcə də daha qəliz söyüşlər söyür, Statistika idarəsində işləyən Yu-sif adında cavan oğlan kimdisə, onun adını çəkir, namus məsələsini ona xatırladıb,- qulaqlara qur-

ğuşun, Yusiflə pambıq tarlasında nə baş veribsə, onu hallandırır, getdikcə də sürəti artırıb qovurdu.

Sözü ağzında bişir, sonra de də, ay Rza!

Zəhmli, ucumiz, uzun saplı yabanın qorxu-sundan irəli duran da yox idi.

Rza necə bağırırdı, xudaya!

Hardasan ay Zəlimxan Yaqub, elə bu anda-ca tamaşaya bir bayatı qoşasan!

Sözünü bilməyən ağız, başa toxmaq vur-durar. O uzunluqda Rzanın ağlı kəsmədi, ya qey-rəti çatmadı ki, ətrafdakı yabalardan birini də o qapıb, kişi kimi özünü müdafiə eləyə...

Amma bu dəfə də, əclafın bəxti gətirdi.

İspolkom Sabir Quliyev özünü xidməti villi-sində samanlığa yetirdi.

Rza elə bağıra-bağıra da, yüyürüb özünü maşının üstünə atanda, ailəvi yaxın münasibət-ləri olduğundan Küftə Vaqif silahı yerə qoyası ol-du. Nədənsə bu an, bankın müdiri Kərim Əliyev yüyürüb Küftəni qucaqladı və öpüşlərə qərq elə-yib: "Qeyrətinə qurban olum!"- dedi.

Bu xatadan salamat qurtarandan sonra, xi-laskarının ayaqlarına döşənib, o bazburutda olan Rza Əliyev hönkür-hönkür ağlamağa başladı.

Göz şahidiyəm!

Bu artıq, mirzəalıbəyli bank Rza Surxay oğ-lu Əliyevin özəl həyatında bomba kimi partlayan bir məsələ idi... İki ayaq bir başmağa yerləşməz!

Amma işçilər o gündən üzübəri danışırlar ki, gərək Küftə Vaqif yabanı, ayıb olmasın elə arxa-dan onun ayıb yerinə soxaydı!

Və bir də... bu, statistikada işləyən Yusif və pambıq tarlasında baş verən müəmma nə mə-sələydisə, bütün Bərdə camaatı arasında gizli bir xosunlaşma gedirdi. Küftə Vaqif özü də, nədənsə çox dərinə getmir, tam açıb-ağartmırdı...

Oğurluqla qəhbəlik qırx gün çəkər deyiblər. Yəqin bu məsələ də sirr olaraq qalmaz.

Bir neçə gün sonra açıq məlum olan o oldu ki: Yusif bizimlə qonşu İbrahim İbrahimovun oğ-luydu. Nadir, Ədil adlı əmiləri vardı. Öz maşınıyla xaltura eləyir, taksidə işləmirdi...

Amma Rzanı görənlər dərhal xosunlaşır...”

Vay sənin məzən olsun Süleyman!

Bu Süleyman özü də əfəl uşaq idi. Bir sürü bacının tək qardaşıydı. Bir sinifdə oxumuşduq.

Lal-dinməz gəlib, lal-dinməz oturar, lal-din-məzcə də çıxıb gedərdi. Bir dəfə olsun dərs oxu-mazdı. Kitablardan sanki qorxurdu.

Axıska türküydü. Zat-köklərini də Gürcüs-tandan Stalin deportasiya eləmişdi.

Özbəkistanda yaşamışdışlar.

Biz səkkizinci sinifdə oxuyanda da, Bərdə-yə köçmüşdülər. Bir sinifdə oxuyur, həm də qon-şu idik...

Məktəbdə oxuyanda heç bir qızı sevmirdi!

O qədər sürgün həyatı sürmüşdülər ki, gö-rünür bu duyğusal hiss, onlarda dəyişib, qorxu hissinə çevrilmişdi...

Atası Nəriman kişi çox düz, halal, etibarlı, qətiyyətli adam idi. Ailədə söz sahibi, intizamlı, qənaətcil və son dərəcə tamahsızın biriydi.

Motalla alınan Lenin ordenli Hüseyin Ağa-yevin sədri olduğu Moskva kolxozunda mühasi-batlıqda işləyirdi.

Sonsuz əziyyəti hesabına dolanırdı.

Bir namuslu da həyat yoldaşı vardı...

Süleyman danışardı ki, bir gün, atası Nəri-man kişiylə motalla alınan Lenin ordenli Hüseyin Ağayev Quba rayonuna yas yerinə gedir.

Hüseyin Ağayev həmişə lüjümsüz geyinərdi.

O gün də ütüsüz, nimdaş kostyum geyinər, üzütüklü olar və qalstuk taxmaz.

Yas yerində hüzn sahibləri Nəriman kişinin səliqəli geyiminə, qara qalstukuna, uzun boyuna baxıb, onları səhf salarlar...

Geri qayıdanda Hüseyin kişi etiraf edib de-yər: "Zahidovun qalstukuyla kostyumu məni göt elədi! Elə bildilər mən sürücü, Nəriman kişi də kolxoz sədridir..."

Yolboyu da, Nəriman kişiyə danışırmış ki: "Zahidov, vəzifəli böyük adamla görüşəndə, gə-rək sərçə görüşü eləyəsən. Əllər sərçə qanadları kimi arxaya, beldən əyilib, ikiqat olursan və alnın dəyməlidi qarşındakı vəzifə sahibinin düz dizlə-rinə... Bunu bacarmadınsa yerində sayacaqsan."

Həqiqətən bütün bərdəlilər bilir ki, Hüseyin Ağayev raykom katibləri, ispolkomlar, prokuror, rəis və digər vəzifəli şəxslərlə məhz beləcə, sər-çəgörüşü görüşərdi...

Zahidov davam edərək yazırdı: "Babayev, yadındadı də orta məktəb illəri. Bir gün, sinif rəh-bərimiz İsa Hacılarov ədəbiyyat fənnindən növ-bəti dərsi başa salırdı.

Arxada oturan oğlanlardan hansısa, uşaq-lara gizlincə iris paylayanda İsa Hacılarov şagird-lərin dərsdə saqqız kimi, iris çeynədiyini görüb, qəfildən soruşdu: "Kimdədi gövşədiyinizin kökü?"

Çoxbilmiş Tariyel Muradov da cəld yerin-dən yekəbaşlıq elədi: "Kök deyil, müəllim..."

İsa müəllim fikirləşmədən, hazırcavablıqla, dərhal: ”Hə, gördüm... Bir tulapayı da sənə verdi-lər. İynə hara sap da ora, di dur gəl, dərsini bir danış görüm hələ...

Buratino qorxusundan irisi diri-diri udsa da, o günün sonuncu yağlı ikisini də alıb, valideyin-lərinə ərmağan apardı.

Evlərinə gedəndə, Tariyel ikilərlə dolu gün-dəliyini adətən həyətlərində gizlədərdi...”

Süleyman Zahidov bunu düz yazmışdı.

Tariyel Muradov kimi, zəncisaçlı Ərəstunun, armudburun İsa Şükürovun, ikiylə oxusa da, özü-nü naz-qəmzəli aparan, ədəbaz Esmiranı sevən İsbəndiyarın, tar çalan Saqinin və İsgəndər Tağı-yevin də çantaları ikiylə dolu olardı. Hərçənd, elə Süleyman özü də o gündəydi...

Hələ Elya!

Dərsdə gözlərini zilləyib açıq-aşkar İmmini marıtlayar, sübhü də İmmigilin hasarı başındaca açardı. Daha “2” yazmaqdan müəllimlər də təngə gəlib, bezmişdi. Axırda, sinif rəhbərimiz İsa Hacı-larov onu məktəbdən qovdurası oldu...

Zavalli İsbəndiyar da, gecəni Esmiragilin iri əncir ağacında yatardı... Heyhat, hər ikisinin də, məcnun məhəbbəti uğursuz sonluqla qurtardı...

Nəsə...

Xosrov Mamedovun məktubunu açdım.

O da, sərpayı Vaqif Bahar kimi, iki ildə iki-üç məktub yazanlardan idi. Məlumatfüruş Xosya xırdalaya-xırdalaya çox gennən gətirib, axırı ki, mətləbə keçdi:

“Babayev, Azərbaycan Kənd Təsərrüfatı in-stitutunda oxuyuram, hərbi kafedrada hərbçilər ta bizim kələyimizi kəsib. Sanki həqiqi hərbi xidmət-dəyəm, əsgər getmişəm. Tank quru qoşunları di-viziyasında qulluq eləyirəm.

Bir gün, Şamxorun Leninkənd qəsəbəsində полигон-da учебка keçirik. Müharibə gedir...

Döyüş tankı sürürəm.

Tankın üstündəki lyuku açıq qoymuşam.

Bir də gördüm mayor rütbəli komandirləri-mizdən biri çıxıb, mənim sürdüyüm tankın üstünə. Mayoru dərhal tanıdım.

Bizimkilərdən idi.

Tankı karıxıb söndürdüm.

Əclaf, lyukun açıq qalan yerindəncə: “Йоп твой мать!” - deyib, başıma möhkəm, dalınca da bir karlı yumruq ilişdirdi.

Tez tankı xodlayıb, yenidən sürdüm.

Düz tuşla, bərk sür, yavaşıt, sağa-sola düz döndər... ta lap zəhləmi tökdü. Hər deyəndə də, başıma ağır yumruğuyla vurur, hey də qapazdan ilişdirir. "Йоп твой мать!"-ın da kı, biri bir qəpik olub. Üstünə bir-iki dəfə çəmkirdim ki, bəlkə ağlı başına gəlsin, qardaş əməl yemədi. Yaxşı deyib-lər, dünya tükənər, düşmən tükənməz.

Водительский люк-dan girib, qabaq tərəf-dən tankın sol küncündə, sükanda oturmuşam. Başımda da qulaqcıqlı əsgər каска-sı var. Tofiq, özün məni tanıyırsan də. Sözün acısı zəhərdən də betərdi. Sən ki, söz xiridarısan, ona görə sənə yazıram. Tamada Vaqif Bahara niyə yazmıram?

Nəsə...

Nətəhər nervilənmişəmsə, ta sənin canına and içmirəm, Validənin goruna, öz canım üçün... qəflətən tankı qazdadım!

Ha çığırdı fikir vermədim.

Qoymuşam belinə. Tank uçur...

Reski tormuzu necə basıb, mıx kimi tankı saxladımsa, onda gördüm, mayor göydə uçub, düz düşdü tankımın tırtılları altına.

Çıxdım da люк-dan.

Saldım bunu ağır əsgər sapoqlarımın altına.

Nə yemisən, turşulu...

Baş-göz oldu nağara. Teyxa al-qana boya-nıb. 32 dişindən ikisi-üçü qala-qalmaya.

Generallar, polkovniklər, institutun rektoru, prorektoru, dekan-zad da durbindlə uzaqdan mü-haribəni izləyirlər.

Beynim necə qızıbsa, öldürürəm də əclafı. Polk tökülüb gəldi, əlimdən güclə aldılar. Beyin ki, çöndü, belədi də...

Əstəfüğurullah qardaş, əstəfüğurullah, indi də mənə peyğəmbərlik verilib.

Mən ölüm aramızda qalsın...

Qaqa canı, oturmuşdum evdə, dilxorçuluq idi. Qardaşım Xanlar da bərk xəstələnib.

Kirovabadda ali təhsil aldığım vaxt kirayədə qaldığım evin qonşuluğunda yaşayan akstafalı Sədaqətlə nişanı Arxangelski məsələsinə görə, özün bilirsən də, təzə qaytarmışam. Pulsuzluqdu.

Ümidlərimin puça çıxan vaxtıydı.

Bərbad gündəyəm. Evdə azuqə də yox...

Sənin əsgər getməzdən əvvəl, 23 fevralda mənə bağışladığın, rus dilində nəşr edilən jurnal-dan Nobel mükafatı almış Tomas Eliotun atası, Hidravlik-sıxma şirkətinin prezidenti Henri Eliot-un uğurlu işi haqqında

yenicə oxuyub qurtarmış-dım. Qüssədən ürəyim sıxılır, içim kükrəyirdi. İs-tədim şeir yazam.

Amma şair təbiətli olsam da, sözləri özümə tabe edə bilmədim.

Ruhumu duyursan də...

Bərk də kövrəlmişəm, birdən kədərimin föv-qündə dayanan çılğınlıqla yenə beynim çöndü.

Toran çalan vaxtıydı.

Qəflətən əllərimi göyə qaldırıb, qışqırdım:

“Ay Allah, əgər varsansa, dur gəl bura!”

Tofiq, Validə bacımın goruna and içirəm, inan, bir də gördüm pəncərələr, qapılar taybatay açıldı və bərk külək qopdu. Heç üstündən bir də-qiqə keçməmişdi ki, dəhşətə gəldim.

Ağğappaq uzun ipəkdə, Allah özü, qapının kandarında göründü.

Uzun paltarı yerlə sürünürdü.

Lal-dinməzcə dayanıb, məlul-məlul üzümə baxırdı...

Necə karıxdımsa, evə də dəvət eləyə bil-mədim. Və özüm də bilmədən, anidən qışqırdım:

“Ay Allah! Qurban olum, dərgahına qayıt, qələt eləmişəm!”

Elə bu vaxt, qapı-pəncərələr kip bağlandı, külək yatdı və qurban olduğum qeybə çəkildi...

Tüklərim necə qabardı!

Söz, - sahibinin dustağıdır, sahibi də sözün.

Dizlərimə, sinəmə və baş-gözümə nə qədər çırpdımsa, yara bağladı.

Ə ta gəlif dənə... barı bir arzunu de dəə!

Nəsə qardaş, yazdıqlarım aramızda qalsın... Qurban olduğum gedən günün səhərisi, aynada özümə baxırdım...

Nə görsəm yaxşıdır?

Heyrətə gəldim: Qardaş qurana and olsun, baxam ki, elm, savad qıjqırıf qulaqlarımdan, göz-lərimin didəsindən, burnumun deşiklərindən, ağ-zımdan süd kimi süzülüb tökülür...

İnanırsan?

Görmüsən də, həyətimizdəki balaca, kvad-ratşəkilli, içi mamırlı hovuzumuzu. Yüyürmüşəm hovuzun başına: "İynə-iynə, ucu düymə, hoppan-huppan, yarıl-yırtıl su iç, qurtul!" - deyib, canımı birtəhər qurtarmışam..."

Xosrovun məktubda yazdıqlarını oxuduqca, qahqahla gülməkdən uğunmuşam...

Məzən olsun! Polk bununla bacarmadı.

Halbuki, iki adam bir adama qoşundur.

Day denən Polad Ələmdarın qardaşı, güllə-keçirməz, zirehdələn Xosrov Ələmdaram də!

Əşşi, oxucum bilər, Xosya bilər...

Babalı öz boyunlarına.

Ancaq ürəyimdə dedim: "Xosya, keç özünə, məndə 21-dir!"

Nişanlısı haqda yazdıqlarında da bir balaca yanlışlığa yol vermişdi.

Nişanlısı, akstafalı Sədaqət qardaşım Vaqif kimi Azərbaycan Politexnik institutunun Kirova-bad filialında oxuyurdu. Yay semestrindən sonra, qızı institutdan tələbə-inşaat dəstəsiylə Arxan-gelskiyə aparanda Xosya iki ayağını bir başmağa dirəyir ki, getməyəcəksən!

Bakirəliyini toydan öncə nişanlısına təslim eləsə də, Sədaqət getməyə qərar verir.

Qızın soyuq təbəssümü ox kimi Xosyanın qəlbinə sancılır...

Və yolları haçalanır.

Dəyanətləri çatmadı ki... Şərq döngəsində qurulacaq çadır toyunda, qız ağ duvaxda, oğlan da toy kostyumunda kişi-kişi əyləşə...

Ərə getmək üçün vaxtından əvvəl boylu ol-duğundan toy paltarında utana bilərdi, odur ki, yolumuzu ayırmalı olduq.

Xosrov mənə belə danışmışdı...

On birinci kitabın sonu...

Mündəricat

1. Luna park əhvalatı. Hospital.....003
2. Əlvida Yitka Zahalkova.....049
3. Mürşüd ələ keçdi, özü yıxılan ağlamaz!
Briqadanın iflası.....069
4. Yitkaya hədiyyə.....110
5. Tarixi gün: Turbaza, 2-ci korpus,
8-ci otaq.....40
6. Elmanın gözündə partlayan mürəkkəb qabı və Həştərxan həngaməsi.....2
7. Bank Rza və Küftə Vaqifin samanlıqda yaba derbisi....

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana - 2018

Tofiq Xəzər

“Bərdədən gürğnən dünya...”

(Azərbaycan dilində)

On altı cilddə. İkinci hissə. XI cild

Redaktor: Ülkər ANS

Korrektor: Zahir Əzəmət

Dizayner: Mülayim Vəliyeva

Texniki redaktor: Məsləhət Vəliyev

Kompyüter yığımı: Xəyalə Cəfərli

Yığılmağa verilib: 14.06.2011

Çapa imzalanıb: 22.09.2011

Kağız formatı: 84x108 1/32

Həcmi: 311 səh. 19,5 ç.v.

Tiraj: 300, Sifariş 76

Qiyməti 10 manat